ARAZ YAQUBOĞLU

# SAZIN-SÖZÜN SORAĞINDA

"Elm və təhsil"
BAKI – 2023

*Redaktor:*
**Arif Məmmədli**
*şair, jurnalist*

*Ön sözün müəllifi:*
**Musa Nəbioğlu**
*Əməkdar mədəniyyət işçisi,*
*Azərbaycan Aşıqlar Birliyinin katibi*

**Araz Yaquboğlu. Sazın-sözün sorağında.**
**Bakı, "Elm və təhsil", 2023. 200 səh.**

Kitabda müəllifin ayrı-ayrı illərdə yazdığı elmi, publisistik və xatirə yazıları toplanmışdır. Müəllifin elmi məqalələri demək olar ki, heç vaxt araşdırılmayan aşıq və şairlər haqqındadır. Bu baxımdan həmin əsərlərin geniş oxucu auditoriyasına təqdim olunması vacibdir.

**ISBN 978-9952-568-35-6**

**© A.Yaquboğlu, 2023**
**© "Elm və təhsil", 2023**

## SAZIN-SÖZÜN SORAĞINDA YAŞANAN ÖMRÜN 50 İLİNİN HESABATI
### *(ön söz)*

Təxminən 15 il bundan əvvəl aşıqlarla bağlı bir kitab üzərində işləyirdim. Göyçə aşıqlarıyla bağlı fotoşəkillər lazım idi. AMEA Folklor İnstitutunun şöbə müdiri, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli məsləhət gördü ki, tədqiqatçı Araz Yaquboğlu ilə əlaqə saxlayım. Elxan müəllimdən telefon nömrəsini götürüb, zəng etdim. Beləcə, Araz Yaquboğlu ilə ilk tanışlığımız başlandı.

İlk söhbətimizdən aşıq sənətinə, xüsusilə Göyçə aşıq mühitinə dərindən bələdliyi və zəngin məlumatlılığı, səmimiyyəti, yüksək ziyalı mədəniyyəti, təvazökarlığı diqqətimi çəkdi. Aramızdakı münasibət getdikcə dərinləşdi və əməkdaşlığa çevrildi. Onun elmi və elmi-publisistik yazılarını "Ozan dünyası" jurnalında böyük məmnuniyyətlə dərc etməyə başladım. Araz Yaquboğlu jurnalımızın daimi müəlliflərindən birinə çevrildi, imzalar içində imzası seçildi.

Burada onu da qeyd etmək lazımdır ki, onun aşıq sənətinə, ustad aşıqlara, əsasən də Göyçə aşıq mühitinin ünlü simaları olan ustadlara və el şairlərinə aid dərin məzmunlu məqalələri respublikamızda nəşr olunan digər elmi jurnallarda da dərc olunur, o, bir neçə kitabın müəllifidir.

Bunları sadalamaqla demək istəyirəm ki, Araz Yaquboğlunu yaxşı tanıyıram və yaradıcılığına da yaxından bələdəm. Buna görədir ki, onun "Sazın-sözün sorağında" adlı yeni kitabına ön söz yazmağı böyük məmnuniyyətlə öhdəmə götürdüm.

Araz Yaquboğlunun aşıq sənəti və ümumiyyətlə, folklorşünaslığa dair araşdırmalarından danışarkən hər şeydən

əvvəl onu qeyd etmək lazımdır ki, o, bilavasitə elmi işçi deyil, yəni hansısa elmi-tədqiqat və yaxud ali təhsil ocağında çalışmır. Necə deyərlər, çörəyi başqa sahədən çıxır. Amma tam məsuliyyətlə deyə bilərəm ki, indiyədək ortaya qoyduğu elmi araşdırmaları, nəşr etdirdiyi kitabları ilə müvafiq elm sahəsinin bir çox nümayəndələrindən – fəlsəfə doktorlarından müqayisəolunmaz dərəcədə çox iş görüb. Yəni heç bir elmi dərəcəyə, yaxud hansısa titula iddialı olmadan, heç kəsdən quruca "sağ ol" da gözləmədən başını aşağı salaraq öz işini görüb. Əsas işindən sonra vaxtının çoxunu istirahətə və şəxsi problemlərinin həllinə yox, Göyçə aşıq mühitinin yetirmələri olan ustad aşıqların, el şairlərinin həyat və yaradıcılıqlarının tədqiqinə həsr edib, üstəlik bu yolda şəxsi vəsaitini də əsirgəməyib – ərsəyə gətirdiyi kitabların nəşr xərclərini özü ödəyib.

Araz Yaquboğlu olduqca zəhmətkeş, məsuliyyətli və eyni zamanda prinsipial bir araşdırıcıdır. Bəzən bir ustad aşığın və ya el şairinin həyat və yaradıcılığından bəhs edən bir yazını ərsəyə gətirmək üçün günlərlə vaxt sərf edərək kitabxanlara baş vurub, yaşlı insanları dinləyib, ondan əvvəl mövzuya müraciət etmiş tədqiqatçıların əsərlərini incələyib, müqayisələr aparıb və sonda tutarlı faktlara söykənərək öz mövqeyini ortaya qoymağı bacarıb. Yəni Araz Yaquboğlunun yazılaları sadəcə aşıq sənətini sevən bir həvəskar araşdırmaçı təxəyyülünün məhsulu deyil, bütün akademik tələblərə cavab verən elmi-tədqiqat nümunələri, əsl araşdırmaçı qələminin məhsuludur.

Təsadüfi deyil ki, aşıq sənətinin tədqiqi ilə məşğul olanlar bu gün Araz Yaquboğlunu ciddi araşdırmaçı kimi qəbul edir, onun kitablarına, elmi məqalələrinə etibarlı mənbə kimi istinad edirlər. Çünki o, sadəcə yazmaq xətrinə

yazmır, ciddi araşdırmalar apardıqdan sonra gəldiyi elmi qənatətini çap etdirir. Göyçə aşıqları və el şairlərinin doğum və ölüm tarixlərinə, onların poetik yaradıcılıqları ilə bağlı bəzi nəşrlərdəki yanlışlara aydınlıq gətirib. Bəzən ciddi elmi polemikalara girməkdən də çəkinməyib, opponentinə tutarlı elmi sübutlarla cavab verib.

Oxucuların ixtiyarına verilən və şərti olaraq üç bölümdən ibarət olan bu kitabın birinci hissəsində müəllifin Göyçənin ustad aşıqları və eləcə də günümüzdə bu aşıq mühitinin sənət ənənələrini layiqincə yaşadan aşıqlarla, ikinci bölümdə el şairləri ilə bağlı araşdırma yazıları, üçüncü bölümdə isə müxtəlif publisistik yazıları yer alıb. Burada diqqəti çəkən bir məqam da odur ki, Araz Yaquboğlu Göyçənin II Dünya müharibəsində iştirak etmiş aşıqları və el şairləri haqqında da ciddi araşdırmalar aparıb. Məhz onun sayəsində bu gün biz istər həmin müharibədən qayıtmayan (Şair Aqil, İsoy Qurbanov, Aşıq İdris, Şair Əbülfət, Aşıq İslam Yarpızlı, Aşıq Ziyad, Qul Yunus, Aşıq Əli Şairov, Muxayıl Göyçəli, Aşıq Süleyman və Aşıq Səfiyar), istərsə də sağ qayıdıb sonradan yardıcılıq fəaliyyətlərini davam etdirən aşıq və el şairləri (Aşıq Müseyib, Aşıq Əli Rəsulov, Aşıq Niftalı, Aşıq Məhərrəm Hacıyev, Aşıq Rəcəb, Aşıq Qəmbər, Aşıq Abbasəli Xəlilov, Aşıq Abbasəli Nəzərov, Aşıq Cahad, Aşıq Musa Həsənov, Həsən Xəyallı, Xəstə Bayraməli, Şair Həşim, Qəmgin Fəzi, Əli Coşqun, Qəşəm Kərimov, İsmayıl Hüseynov, Coşqun Ağababa, Firudin Məmmədov və başqaları) haqqında daha ətraflı məlumat ala bilir, onların şeirləri ilə tanış olmaq imkanı qazanırıq.

Kitabdakı yazıların əksəriyyəti mənə daha əvvəldən də tanışdır – ya “Ozan dünyası” jurnalında nəşr olunub, ya da digər toplu və kitablarda oxumuşam. Yazıların çoxu konk-

ret bir ustada, bir tanınmış şəxsə həsr olunsa da, sadəcə olaraq avtobioqrafik oçerk deyil, hər yazıdan bir insan taleyi boylanır, hər yazı Göyçə salnaməsinin bir səhifəsinə çevrilir. Yazıların məzmun və elmi əhəmiyyətni, tədqiqatçılar üçün etibarlı mənbə olduğunu xüsusi qeyd etməklə, bir şeyi də vurğulamağı vacib sayıram: hansı mövzuya həsr olunmasından asılı olmayaraq, yazıların hər birindən Göyçənin ətri gəlir, Göyçə nisgili duyulur, eyni zamanda 44 günlük müharibədə xalqımızın qazandığı Qələbədən sonra göyçəlilərin mütləq öz dədə-baba yurdlarına qayıdacağına inam ifadə olunur.

Həsən bəy Zərdabi kitabı qiymətli xəzinə hesab edirdi. Bu mənada, "Sazın-sözün sorağında" adlı bu kitab təkcə Araz Yaquboğlunun xəzinəsinə yox, bütövlükdə folklorşünaslıq xəzinəmizə çox qiymətli bir hədiyyədir.

Bu kitab həm də sazın-sözün sorağında şərəflə yaşanan bir yaradıcı ömrünün 50 ilinin hesabatıdır – 2023-cü il Araz Yaquboğlunun 50 illik yubiley ilidir. Yorulmaz, ardıcıl, prinsiplərinə həmişə sadiq qalan, təmənnasız araşdırmaçı və ləyaqətli dost olan Araz Yaquboğlunu 50 illik yubileyi münasibəti ilə təbrik edir, ona saz ömrü və saz ömür, yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Musa Nəbioğlu**
***Əməkdar mədəniyyət işçisi,***
***Azərbaycan Aşıqlar Birliyinin katibi,***
***"Ozan dünyası" Aşıq Yaradıcılığının***
***Təbliği İB-nin sədri,***
***"Ozan dünyası" jurnalının baş redaktoru***

# SAZI YAŞADANLAR

# AŞIQ ƏLİ ŞAİROV

Türkdilli xalqlara məxsus ozan, varsaq, yanşaq, aşıq ifaçılığı və yaradıcılığı ən qədim dövrlərdən bu günə qədər zənginləşə-zənginləşə gəlib çatmışdır. Azərbaycan şifahi xalq ədəbiyyatının mühüm bir hissəsini təşkil edən aşıq yaradıcılığı xalqımızın milli adət-ənənələrini, mədəniyyətini, tarixini qoruyub yaşatmış, mühafizə etmişdir.

Görkəmli alimimiz, filologiya elmləri doktoru, professor Qara Namazov "Aşıqlar" kitabının müqəddiməsində yazır: "Özünə qədər çeşid-çeşid adlar daşımış, neçə-neçə tarixi keçidlərdən keçmiş aşıq sənəti xalqımızın qədim və zəngin tarixində, bu tarixin çarpaşıq yollarında onun mənəvi dünyasına, bədii təfəkkür və milli mədəniyyətinə layiq dayaq olmuşdur" [1, s.3].

Aşıq sənətini yaşadan aşıqlarımız el-oba içində həmişə hörmət-izzət sahibləri olmuşlar. XX əsrin birinci yarısında yaşamış Aşıq Əli Şairov da bu qəbildən olan aşıqlarımızdandır.

Şairov Əli Şamil oğlu 1913-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. O, XIX əsrin məşhur el şairi Məmmədhüseynin nəticəsidir. Məmmədhüseynə el-oba arasında sadəcə "Şair" deyə müraciət edildiyindən onun nəslinə "Şairlilər" deyilmişdir. Elə bu səbəbdən də onun şair təxəllüsünü nəvə-nəticələri soyad kimi qəbul etmişlər. Əli Şairovun qısa nəsil şəcərəsi belədir:

Əli → Həsən → Məmmədhüseyn → Xəlil → Şamil → Əli.

Əli Şairov haqq vergili şair və aşıq olmuşdur. Bunu həmkəndliləri dəfələrlə söhbətlərində təsdiqləmişlər. Onun saz və əlyazmalarının son vaxtlara qədər qohumları tərəfin-

dən saxlanıldığı söylənilsə də, hələlik bu sadalananlardan heç birini əldə edə bilməmişik. Hətta şair Məmmədhüseynin də şeirlərinin böyük bir qisminin onun əlyazmalarından əldə olunduğu söylənilir.

Aşığın həyat və yaradıcılığı haqqında xeyli araşdırma aparmışıq.

Filologiya elmələri namizədi İslam Ələsgərin tərtib etdiyi Göyçə mahalının ayrı-ayrı kəndlərində yaşamış aşıqların siyahısında Aşıq Əlinin də adına rast gəlinir [2, s.14].

Xasay Zeynalovun 2001-ci ildə yazdığı "Göyçə mahalının tarixindən yarpaqlar" adlı əlyazmasından: "Bu gəlimli-gedimli dünyada şair Məmmədhüseynin və nəticəsi Əli Şairovun yadımda qalan, yaşlıların yaddaşlarında qalan saralmış dəftər vərəqlərində olan şeirlərini az da olsa, itib batmasın deyə oxucularımıza çatdırmağı özümə bir şərəfli iş və borc hesab edərək, toplayıb qələmə aldım" [3, s.63]. Folklorçuluq ənənələrini davam etdirən Xasay Zeynalov əlyazmasında Aşıq Əli Şairovun "Keyti dağı", "Bu dada", "Dəs-dəs", "Ay fələk", "Gedirəm", "Gəlha gəli var" ("Var" – A.Y.), "Görmüyəm", "Getdi", "Anamı" ("Qanamı" – A.Y.), "İndi", "Eylər" rədifli qoşmaları, "Ay qız" rədifli gəraylı, "Qabaq" rədifli divani, "Aşıq Abbasəli və Əli Şairovun deyişməsi" adlı 14 şeirini qələmə almışdır [3, s.104–114].

Tədqiqatçı Qara Namazov "Aşıqlar" kitabında yazır: "Əli də babası (Şair Məmmədhüseyn nəzərdə tutulur – A.Y.) kimi saz havaları üstə qoşma və gəraylılar söyləmiş, daha çox el şairi kimi tanınmışdır. O, 1941-ci ildə ikinci dünya savaşına getmiş, 1943-cü ildə cəbhədə həlak olmuşdur. Bu şeirlər gənc aşığın məhəbbət duyğularının bədii ifa-

dəsi kimi aşıqların sazında, sözündə yaşamışdır” [1, s.136]. Qara müəllim həmçinin aşığın “Var” rədifli qoşmasını da həmin kitabda çap etdirmişdir [1, s.136–137].

Aşıq Əli Şairov haqqında “Durna qatarı – II” ədəbi toplusunda oxuyuruq: “Şair Məmmədhüseynin nəvəsi (nəticəsi – A.Y.) olan Əli gözəl təbə malik olub, müxtəlif janrlarda çoxlu şeirlər yazıb. Ancaq əfsuslar olsun ki, bu günə qədər istedadlı söz ustadının kitabı çap olunmayıb” [4, s.122]. Kitabda həmçinin aşığın “Xətəngi” (“Dönübdü” – A.Y.), “Gərəkdi”, “Gördüm”, “Keyti dağı” və “Getdi” rədifli qoşmaları olmaqla cəmi 5 şeiri çap olunmuşdur [4, s.122–125].

Bu sətirlərin müəllifinin 2008-ci ildə Göyçə mahalının Daşkənd kəndinin aşıqları və şairlərinin həyat və yaradıcılıqları haqqında apardığı araşdırma və onun nəticəsi olaraq AMEA Folklor İnstitutunun elmi şurasının qərarı ilə çap olunan kitabında Aşıq Əli Şairovun tərcümeyi-halı ilə bərabər “Ay qız” rədifli gəraylısı “Gördüm”, “Keyti dağı”, “Qanamı”, “Getdi”, “İndi”, “Var”, “Bu dada”, “Ay fələk”, “Gedirəm”, “Görmüyəm” rədifli qoşmaları və “Qabaq” rədifli divanisi olmaqla cəmi 12 şeiri də işıq üzü görmüşdür [5, s.60–66].

Yazılı mənbələrdəki araşdırmalarımızdan belə nəticəyə gəlinir ki, Aşıq Əli Şairovun 14 qoşması, 1 gəraylısı, 1 divanisi və 1 deyişməsi olmaqla hələlik bizə məlum olan cəmi 17 şeiri vardır.

Aşıq Əli Şairov 1941-ci ildə Böyük Vətən müharibəsinə səfərbər olunanda subay olmuşdur. Onun sonuncu məktubu 1943-cü ildə Port-Artur şəhərindən gəlmişdir. Məktubda həmçinin üç bəndlik bir şeir də varmış.

Qan ağlar əlimdə kağızla qələm,
Qoymur fələk gözdən yaşımı siləm.
Qorxuram ki, qürbət ellərdə öləm,
Mən görməmiş Vətənimi, Anamı.

Şeirdən aydın olur ki, Aşıq Əlinin müharibədən qayıdacağına ümidi olmayıb. Bəlkə də bu inamsızlıq ona Haqdan agah imiş.

Aşıq Əli Şairovun müxtəlif janrlarda və dini mövzuda olan şeirlərindən məlum olur ki, o, dini dərindən mənimsəmişdir:

Rəbbim de, nə xəlq eylədi, əvvəl dünyadan qabaq?
Neçə bəşər gəldi, keçdi Adəm Həvvadan qabaq?
Ərşi zəmin yox ikən, neçə mələk yarandı?
Neçə min il gərdiş vurdu, turi sənadan qabaq? [5, s.66].

Nümunə göstərilən "Qabaq" rədifli bu divani qıfılbənd xarakterlidir.

Aşıq Əli Şairovun yaradıcılığında deyişmələrə də rast gəlinir. Bunlardan öz əmisi oğlu Aşıq Abbasəli Xəlilov (1913–2007) ilə deyişməsini misal göstərmək olar:

*Aşıq Abbasəli:*
Gəl sənə söyləyim, ay cavan aşıq,
O, hansı şəhərdir, birdi dükanı?
Bir bənna əyləşib o şəhər üstə,
Yoxdu o bənnanın cəsəddə qanı?

*Əli Şairov:*
Salamını aldım, ay cavan aşıq,
Cəsəd bir şəhərdir, ürək dükanı.
Könül bir bənnadı o şəhər üstə,
Unutmaz heç zaman ilqar, imanı [5, s.70].

Bağlama üstündə olan bu deyişmə sual-cavab şəklində yaradılmışdır. Adətən, el şənlikləri keçirən sənətkarlar məclisi cüt idarə edirlər. Elə Aşıq Abbasəli ilə Əli Şairov da Göyçə mahalında çox məclisləri bərabər keçirmişlər.

Yaradıcılığını nəzərdən keçirdiyimiz aşığın şeirlərində özündən əvvəl yaşamış aşıq və şairlərin şeirlərinə bənzərlik də az deyil. Aşıq Əli Şairovun sələfi Şair Məmmədhüseynin "Ağrı dağı" qoşmasına aşığın "Keyti dağı" adlı qoşmasını misal göstərmək olar:

*Şair Məmmədhüseyn:*
Bir ərzim var, sənin xakı payına,
Eşit bu ərzimi sən, Ağrı dağı.
Sənə çıxan görər cümlə-cahanı,
Görünər gözünə Van, Ağrı dağı [3, s.73].

*Aşıq Əli Şairov:*
Göyçə mahalından səfər eylədim,
Göründü gözümə mil, Keyti dağı!
Dastanı dilimdə əzbər söylədim,
Açılıb köksündə gül, Keyti dağı! [5, s.62].

Bizə məlum olan şeirlərin bədii dəyərindən, növündən və mövzulardan aydın olur ki, onun zəngin ədəbi yaradıcı-

lığı olmuşdur. Zənnimizcə, Aşıq Əli Şairovun bizə məlum olmayan qeyri şeirlərini də əldə edə biləcək və onların çapına nail olacağıq. Çünki Aşıq Əli Şairovun şeirlərini yadında-yaddaşında saxlayan sinədəftər göyçəlilər yenə də yeri gələndə bu aşığı yada salır, onun şeirlərini söyləyirlər.

**Ədəbiyyat:**


1. Namazov, Qara. Aşıqlar (I kitab). Bakı: Səda, 2004
2. Sazlı-sözlü Göyçə. (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999
3. Zeynalov, Xasay. Göyçə mahalının tarixindən yarpaqlar. (əlyazma). Bakı: 2001
4. Durna qatarı – II. (toplayıb tərtib edəni: Məhəmməd Ələkbərli). Bakı: Nurlan, 2006
5. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008

# AŞIQ İSLAM YARPIZLININ HƏYAT VƏ YARADICILIĞI HAQQINDA

Azərbaycan aşıq yaradıcılığı o qədər zəngindir ki, bu yaradıcılığı öz ədəbi irsi ilə zənginləşdirən el sənətkarları nə qədər öyrənilsə də, nə qədər araşdırılsa da, yenə də ayrı-ayrı aşığın, el şairinin tədqiqata ciddi ehtiyacı olduğu bəlli olur. Azərbaycanda aşıq yaradıcılığı demək olar ki, ayrı-ayrı regional aşıq mühitləri kontekstində öyrənilib tədqiq olunmuşdur. Aşıq mühitləri içərisində Göyçə aşıq mühiti xüsusilə fərqlənir. Bu mühit daim tədqiq olunmuş və araşdırılmışdır. Mühitin ayrı-ayrı sənətkarları haqqında elmi məqalələr, monoqrafiyalar, kitablar yazılmış və yazılmaqdadır.

Göyçə aşıq mühitinin araşdırıcılarından tədqiqatçı alim Ziyəddin Məhərrəmov bu haqda fikrini belə bildirmişdir: "Göyçə aşıq poeziyasının toplanması, nəşri və öyrənilməsi istiqamətində görkəmli folklorçu alimlərimizin gördüyü işlər xüsusilə təqdirəlayiqdir. Lakin bu problemin dərindən öyrənilməsi daha ciddi axtarışlara, tədqiqata zərurət yaradır" [1, s.9].

Həyat və yaradıcılığı haqqında araşdırma apardığımız Aşıq İslam Göyçə aşıq mühitinin tanınmış nümayəndələrindəndir. O, Göyçə mahalında yaradıcı və ifaçı aşıq kimi tanınmışdır.

Əmirzadayev İslam Məhəmmədəli oğlu (Aşıq İslam) 1910-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Yarpızlı kəndində anadan olub. Anası Qaratel mahalın Daşkənd kəndində yaşamış "Dərzilər" nəslindən Məsimin qızı olmuşdur. 1943-cü ildə Aşıq İslam Böyük Vətən mühari-

bəsinə səfərbər olunmuş, İrana göndərilən hərbi hissənin tərkibində İrana getmiş və bir daha geri qayıtmamışdır.

Daşkəndli el şairi Muxayıl Göyçəli (1918–1944) Aşıq İslamın dayısı Budağın oğludur. Qeyd olunan qohumluq əlaqələrinə görə Aşıq İslam Daşkəndlə sıx təmasda olmuş, həftələrlə kənddə qalmış və toy məclisləri, el şənlikləri keçirmişdir. Elə bu səbəbdən də ustad aşıqlardan biri olan Aşıq İslam Yarpızlı Daşkənddən Aşıq Abbasəli Xəlilovun (1913–2007) və Aşıq Abbasəli Nəzərovun (1919–1992) ustadı olmuş, onların aşıq kimi yetişməsində əvəzsiz rol oynamışdır. Aşıq İslam Muxayıl Göyçəliyə də saz havalarını və ifaçılığı öyrətsə də, o aşıq kimi yox, el şairi kimi tanınmışdır.

Yazılı mənbələrdə Aşıq İslam haqqında demək olar ki, heç bir məlumata rast gəlmədik. Sadəcə onun bir neçə yazılarda adı çəkilir.

Tədqiqatçı alim İslam Ələsgərin topladığı Göyçə aşıqlarının el-oba arasında tanınmış məlum nümayəndələrinin siyahısında Yarpızlı kəndindən olan aşıqlardan Aşıq İslamın da adı çəkilir [2, s.14]. Göyçə mahalının Basarkeçər rayonunun kəndləri haqqında ümumiləşmiş məlumat kitabında da "Yarpızlı kəndinin aşıq və balabançıları" siyahısında Aşıq İslamın adına rast gəlinir [3, s.428]. Lakin hər iki mənbədə aşığın haqqında əlavə heç bir məlumat verilməmişdir. Tədqiqatçı alim Ziyəddin Məhərrəmov Göyçə mahalının ayrı-ayrı kəndlərində yazıb-yaradan aşıqlar və el şairləri barədə yazarkən Yarpızlı kəndindən olan məlumatda göstərir ki, "Aşıq İslam – BVM-də həlak olub" [1, s.133]. Buradan da göründüyü kimi, Aşıq İslam Yarpızlı haqqında məlumatlar çox az və bəsitdir.

Sənətşünaslıq namizədi Azad Ozan Kərimli "Göyçə aşıq məktəbi" adlı məqalələr silsiləsində yazır: "Şair Məmmədhüseyn, Aşıq Nəcəf və Aşıq İslamdan sonra Göyçə mahalında Daşkənd kəndinin yetirdiyi ən sayımlı sənətkar 1931-ci ildə dünyaya göz açmış Aşıq Hacıdır. ...Aşıq Abbasəlinin (Nəzərov 1905–1910-cu illər arası dünyaya gəlib), söylədiyinə görə, şagirdlik etdiyi yarpızlı Aşıq İslam çox yaxşı söz deyərmiş, – sinədəftər imiş. İslamın isə ustadı Aşıq Əsədin şagirdi və yeznəsi, II Dünya savaşından qayıtmayan Aşıq Ziyad (o da Daşkəndlidi! – A.O.K.) imiş" [4]. Müəllif ifadələrində yanlışlığa yol vermişdir. Belə ki, əvvəla Aşıq İslam Daşkənddən yox, Yarpızlı kəndindəndir, sadəcə İslamın anası Daşkənddəndir. İkincisi, Aşıq Abbasəli Nəzərov müəllifin yazdığı kimi 1905–1910-cu illər arasında yox, 1919-cu ildə anadan olub. Üçüncüsü isə Aşıq İslamın ustadının Aşıq Ziyad olması həqiqətə o qədər də uyğun deyil. Çünki Aşıq Ziyad 1917-ci ildə anadan olub [5, s.85]. Belə çıxır ki, ustad şəyirddən 7–8 yaş kiçikdir. Bu da inandırıcı deyil. Adətən ustad şəyirddən böyük olur. Zənnimizcə bizim gəldiyimiz qənaət daha doğrudur. Yeri gəlmişkən onu da qeyd edək ki, tam dəqiqləşdirilməmiş şəxsi araşdırmalarımıza görə Aşıq İslamın ustadı öz həmkəndlisi Yarpızlı Aşıq İman olmuşdur.

Aşıq İslamın yaradıcılığı haqqında araşdırmalarımız zamanı Şair Məmmədhüseynin "Yatıb oyanmaz, oyanmaz..." adlı kitabına yazılmış ön sözdə bir bənd şeirinə təsadüf etdik. "Göyçə mahalında ad-san qazanmış Yarpızlı Aşıq İslam rəhmətlik şair (Şair Məmmədhüseyn – A.Y.) haqqında fikirlərini belə ifadə etmişdir (Nəticəsi İsrail Mikayıl oğlu Şairovun əlyazmalarından):

Məmmədhüseyn idi yaxşı, yaman seçə,
Fənanın qonağı üqbaya köçə.
Axırıncı İslamdı sakini Göyçə,
Haqq dərgahından ona elm dolufdu" [6, s.12].

İkinci məlumatı isə Aşıq İslamın xalası oğlu, sazın-sözün vurğunu Daşkəndli Murtuz Bayramquliyevin (1926–2007) əlyazmalarından əldə etdim. Əlyazmada aşığın "Bəyənməz" və "Qurqalanmasın" rədifli qoşmaları, "Yox" rədifli divanisi, "Könül ilə İslamın deyişməsi" və Növrəs İmanla Aşıq İslamın "İbtida" (tərs əlifbey divani) rədifli deyişməsi olmaqla cəmi 5 şeir yazılmışdır. Daşkəndli el şairi Muxayıl Göyçəli ilə Aşıq İslamın 20 yanvar 1941-ci il tarixdə yaranan "Əzizim" rədifli deyişməsi isə ilk dəfə 2008-ci ildə bu sətirlərin müəllifinin "Daşkənd aşıqları və şairləri" adlı kitabında çap olunmuşdur [5, s.84].

Aşıq İslam haqqında apardığımız araşdırmalar zamanı bizə yaxından köməklik edib, məlumatlandıran İslamın dayısı oğlu, Muxayılın kiçik qardaşı olan Oruc Məsimov (1926) oldu. Onun indiyə qədər qoruyub saxladığı qardaşı Muxayılın 1942–1943-cü illərə aid əlyazmaları köməyimizə çatdı. Demək olar ki, Aşıq İslamın xeyli şeirləri həmin əlyazmalarda toplanmışdır. Biz bu əlyazmaların surətini çıxarmış və 5 cilddə cildləmişik. Əlyazmalarda bir dastan da olmaqla Aşıq İslamın yaradıcılığına məxsus gəraylı, qoşma, təcnis, dodaqdəyməz, divani, müəxəmməs, qıfılbənd, nəzirə və deyişmələri öz əksini tapmışdır. Şeirlərin demək olar ki, hamısında Aşıq İslam təxəllüsünü Cavan İslam kimi möhürbənd etmişdir. Əlyazma cildlərdə təxminən şeirlər bu saydadır: 5–1-ci cilddə 1 dastan, 5–2-ci cilddə 55 bağlama və dodaqdəyməz, 5–3-cü cilddə 60

müxtəlif şeir, 5–5-ci cilddə 105 müxtəlif şeir, nəzirə və deyişmələr vardır (5–4-cü cilddə 57 şeir var, bu şeirlər Muxayılındır). Aşıq İslamın zəngin ədəbi irsi təəssüf ki, bu günə qədər toplanılıb çap olunmamışdır.

Qeyd etdiyimiz kimi, ədəbi irsi vaxtında toplanılıb yazıya alınmadığından, şeirləri işıq üzünə çıxarılmadığından bu tanınmış el sənətkarı tədqiqatdan kənar qalmış, az qala unudulmuşdur. Əlbəttə, bu məqalə bizim Aşıq İslam Yarpızlı haqqında ilk yazımızdır. Biz bu el sənətkarının yaradıcılığı, həyat və fəaliyyəti, onun Göyçə aşıq mühitində yeri barəsində bir neçə silsilə məqalələr yazmaq fikrindəyik. Bundan ötrü əlimizdə kifayət qədər məlumat və əlyazmalar var.

**Ədəbiyyat:**


1. Məhərrəmov, Ziyəddin. XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər). Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997
2. Sazlı-sözlü Göyçə. (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999
3. Məhərrəmov Qəşəm, Məhərrəmov İntiqam. Başı dumanlı Göyçə. Bakı: E.L., 2007
4. Kərimli, Azad Ozan. Göyçə aşıq məktəbi (məqalələr silsiləsi) // https://archive.is/UJUzs
5. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008
6. Daşkəndli Şair Məmmədhüseyn. Yatıb oyanmaz, oyanmaz... Bakı: Nurlan, 2005

## AŞIQ ORUCUN SAZLI-SÖZLÜ DÜNYASI

Ustad sənətkarın ömrü onun daşıyıcısı olduğu sənətin ömrü qədər olur. Aşıq sənəti "sələfdən-xələfə, ustaddan-şagirdə keçə-keçə bir zəncirin həlqələri kimi uzaq əyyamların sirrini-sorağını telli sazda əkssədaya çevirən sənət məbədi olmuşdur" [1, s.3].

Bu sahənin inkişafında xidməti olan aşıqlardan Aşıq Vəlinin və xüsusən də onun oğlu Aşıq Orucun adını iftixarla çəkmək olar. Oruc Vəli oğlu Əhmədov 1920-ci il martın 20-də Göyçə mahalının Yarpızlı kəndində dünyaya gəlib. Anasının adı Qəndab olub. Atası Vəli (1854–1929) Əhməd oğlu Göyçə mahalında və Azərbaycanın digər bölgələrində tanınmış aşıq olmuşdur. Ustadı Aşıq Alıdan mükəmməl dərs alan Aşıq Vəli uzun zaman Aşıq Qulu (1860–1935) ilə birgə məclislər yola salmışdır. O, Azərbaycanın əksər bölgə və mahallarında keçirdiyi toylarda oxuduğu mahnılar və söylədiyi dastanlarla el-obanın hörmətini qazanmışdır. Aşıq Vəli böyük maarifpərvər yazıçı, dramaturq Nəcəf bəy Vəzirovla dost olmuş, dəfələrlə Qarabağda, Dilican bölgəsində onun apardığı toy və məclislərdə iştirak etmiş, "Hacı Qənbər" komediyasında Aşıq Vəli obrazını yaratmışdır. Aşıq Vəlinin "səsi o dərəcədə zil və güclü imiş ki, yandırılan otuzluq lampaları, çıraqları belə keçirə bilirmiş" [2, s.83].

Atası Vəli vəfat etdikdən sonra Oruc onun sazını susmağa qoymamış, çalıb-oxumağa başlamışdır. O, bir neçə il Aşıq İbrahim Alışan oğlu İsgəndərovun şəyirdi olub və sonra müstəqil olaraq aşıqlığa başlayıb.

Professor Qara Namazov "Aşıqlar" kitabında Aşıq Orucun haqqında yazır: "1939-cu ildən müstəqil aşıqlığa

başlayan Oruc Göyçə aşıq məktəbinin çox çətin imtahanlarından keçib. Həm məlahətli səsi, saz tutma məharəti, həm də şair aşıq kimi tanınmışdır". Qara müəllim kitabda aşığın "Kölgəsiz" rədifli şeirini də nümunə kimi oxuculara təqdim etmişdir [1, s.331–332].

1945-ci ildə Aşıq Oruc Züleyxa Allahverdi qızı ilə ailə həyatı qurub (Aşıq Orucun 1926-cı ildə anadan olmuş ömür-gün yoldaşı Züleyxa xanım aşığın ölümündən sonra 35 il yaşamış, 9 uşaq – 6 oğul, 3 qız övladını böyüdüb boya-başa çatdırmış, 2011-ci il iyul ayının 9-da dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!), gözəl ailə başçısı, övladlarına sevimli ata olmuşdur. 1949-cu ildə ermənilərin mənfur siyasəti nəticəsində doğma kəndlərindən deportasiya olunanda Gədəbəy rayonunun Zəhmətkənd kəndində məskunlaşmışdır.

Azərbaycanda aşıqlar arasında tezliklə tanınan ustad Aşıq Oruc Əhmədov respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə, festivallarda, əmək bayramlarında aktiv iştirak etmişdir. İsfəndiyar Rüstəmov və Aşıq Oruc haqqında "El sənətkarları" məqaləsində oxuyuruq: "Onları şöhrətləndirən öz üzərlərində işləmələri, aşıqlığın bütün incəliklərinə dərindən yiyələnmələri olmuşdur. İndiyədək rayonumuzda (Gədəbəydə – A.Y.) elə bir yığıncaq, şənlik və konsert olmamışdır ki, İsfəndiyarla Orucun məlahətli səsi orada eşidilməsin" [3]. Məqalədən də göründüyü kimi, Aşıq Oruc dövrünün ən aktiv aşıqlarından olmuşdur. "Aşıq Oruc xidmətlərinə görə respublika II aşıqlar qurultayına (III Aşıqlar qurultayına – A.Y.) nümayəndə seçilmiş, xalq yaradıcılıq evinin fəxri nişanı ilə təltif edilmiş və pul mükafatına layiq görülmüşdür" [4].

Professor Məhərrəm Qasımlı Aşıq Orucun həyat və fəaliyyəti haqqında "Ədəbiyyat qəzeti"ndəki "Ustad" başlıqlı məqaləsində yazır: "1953-cü ildə Aşıq Oruc Gədəbəydə aşıqlar ansamblı yaradır və iyirmi ilə yaxın ansambla rəhbərlik edir. Onun ansamblında yetişmiş İsfəndiyar Rüstəmov, Sədaqət Rəsulov, Zahid Aslanoğlu, Fəzayıl İsmayılov, Şahsuvar Fərzəliyev, Yusif Quliyev və onlarca başqaları indi el məclislərinin sevimlisidir. El sənətinin inkişafında xidmətlərinə görə Aşıq Oruc Azərbaycan Mədəniyyət Nazirliyinin Fəxri fərmanına və bir neçə dəfə pul mükafatına layiq görülüb" [5]. Qəzetdə həmçinin ustadın "Neyləsin" adlı gəraylısı, "Yar sinə-sinə" adlı təcnisi və "Qıfılbənd" ("Kölgəsiz" – A.Y.) başlıqlı qoşması olmaqla üç şeiri çap olunmuşdur.

Aşıq Oruc ifaçı aşıq olmaqla yanaşı, həm də yaradıcı aşıq olub. O, aşıq şeirinin demək olar ki, hər janrında – gəraylı, qoşma, təcnis, divani, müxəmməs və başqa janrlarda şeirlər yazmışdır. Onun yaradıcılığı haqqında Əli Əliyev "El aşığı" məqaləsində belə qeyd edir: "O, yalnız ustad aşıqların sözlərini oxumaqla kifayətlənmir. Həm də özünün, xalqın xoş güzəranından, vətənin gündən-günə artan qüdrətindən və onun gələcəkdə daha qüdrətli olmasından ilham alaraq yazdığı şeirində deyir:

Qəhrəman yurdudur mənim bu yurdum,
Poladdan möhkəmdir yenilməz ordum.
Aşıq Oruc deyər: hər kimdən sordum,
Dedi: – Bundan gözəl sabahımız var" [6].

Sənətşünaslıq namizədi Azad Ozan Kərimli "Göyçə aşıq məktəbi" adlı silsilə məqalələrində Aşıq Oruc Əhmədovun "Neyləsin" gəraylısını, "Yar sinə-sinə" təcnisini və "Qıfılbənd" qoşmasını çap etdirmişdir [7, s.140–141].

Aşıq Oruc çətin oxunan "Koroğlu", eləcə də az istifadə olunan "Mixəyi", "Güllü qafiyə", "Göyçə gözəlləməsi" (bu havaya "Nəcəfi" də deyirlər), "Mirzəcanı", "Məmmədhüseyni" havalarını gözəl ifa edərmiş. O, ümumilkdə 70-ə qədər saz havasını çalıb-oxuyur və neçə-neçə dastanları bütünlüklə mükəmməl bilirmiş. Radionun qızıl fondunda onun ifasında 11 mahnı saxlanılır. Qurbani dastanı 1954-cü ildə Aşıq Orucdan yazıya alınmışdır. Professor M.Qasımlı bu dastanın əhəmiyyətini göstərərək yazır: "Bütün başqa variantlara nisbətən daha dolğun və əhatəli bu variantdır" [8, s.136].

Aşıq Oruc Miskin Vəli və Aşıq Məhəmmədəli ilə bərabər neçə-neçə məclislər keçirib. Ondan dərs alan aşıqlar çox olsa da, onun əsas şəyirdləri Aşıq Şahsuvar və Aşıq Nurəddin olmuşdur.

Əməkdar mədəniyyət işçisi Aşıq Oruc 1976-cı il iyulun 19-da Gədəbəy rayonunun Zəhmətkənd kəndində vəfat etmiş və həmin kənddə də dəfn olunmuşdur.

Sonda onu da vurğulamaq istərdik ki, AMEA Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli atası Aşıq Orucun və babası Aşıq Vəlinin həyat və fəaliyyətlərinə dair xeyli materiallar toplamışdır. Həmin materiallar kitab şəklində çapa hazılanır. İsmayıl müəllim dilçilik üzrə alim olsa da, onun "Azərbaycan dilinin etnoqrafik leksikası" adlı monoqrafiyası da çap olunmuşdur. O, sazın-sözün vurğunu kimi folklorçuluq

ənənələrini davam etdirərək, özü də vaxtaşırı Azərbaycanın müxtəlif aşıqları haqqında maraqlı yazılarla mətbuatda çıxış edir.

**Ədəbiyyat:**


1. Namazov, Qara. Aşıqlar (I kitab). Bakı: Səda, 2004
2. Kərimli, Azad Ozan. Göyçə aşıq məktəbi // "Musiqi dünyası" jurnalı, 2000, № 2 (3)
3. El sənətkarları. "Tərəqqi" qəz., Gədəbəy, 1970, 16 iyul, № 83
4. Əliyev, İsfəndiyar. Ürəklərə yol tapır. "Tərəqqi" qəz., Gədəbəy, 1969, 20 may, № 58
5. Qasımlı, Məhərrəm. Ustad. Ədəbiyyat qəzeti, Bakı, 1991, 22 fevral, № 8
6. Əliyev, Əli. El aşığı. "Tərəqqi" qəz., Gədəbəy, 1971, 31 avqust, № 103 (2994)
7. Kərimli, Azad Ozan. Göyçə aşıq məktəbi // "Musiqi dünyası" jurnalı, 2001, № 3–4 (9)
8. Qasımlı, Məhərrəm. Aşıq sənəti. Bakı: Ozan, 1996

## RUHUN ŞAD OLSUN, USTAD

### *AŞIQ ORUC ƏHMƏDOV – 95*

XX əsr Azərbaycan aşıq şeiri tarixində əvəzsiz xidmətləri olan qüdrətli sənətkarlardan biri də sazı, sözü, sənəti ilə minlərlə insanın qəlbini ovsunlayan, aşıq şeirinin inkişafına dəyərli töhfələr bəxş edən, dinləyicilərinin ürəklərinə hakim kəsilən məşhur söz sərrafı Aşıq Orucdur. Atası Aşıq Vəlinin incə barmaqlarında dilə gələn telli sazın sədaları altında böyüyən, bütün varlığı ilə saza bağlanan, onun nurunun işığında gələcəyə yol alan, hər kəlmənin müqəddəsliyini daim əziz tutan Aşıq Oruc gənc yaşlarından məftunu olduğu şifahi xalq ədəbiyyatının və eyni zamanda da azman sənətkarların təsiri altında şeirlər yazmağa başlamışdır. Belə ki, aşığın yaşadığı mahal, atası Aşıq Vəlinin sənətini yaşatmaq istəyi, Göyçə ədəbi mühiti də ona təsirsiz ötüşməmişdir.

Bu il anadan olmasının 95 ili tamam olan Aşıq Oruc Aşıq Əsədin, Aşıq Bəhmənin, Aşıq Talıbın və digərlərinin məharətlə ifa etdikləri aşıq mahnılarını dinləyə-dinləyə, oxuduqları sözləri sinəsinə yığa-yığa, Aşıq İbrahim Alışanoğludan sənətin incəliklərini daha da dərindən öyrənə-öyrənə müstəqil aşıqlıq etməyə başlamışdır. On il sənət məbədi olan Göyçə mahalında aşıqlıq edən Aşıq Oruc deportasiyaya məruz qaldığından məcburən ata-baba yurdunu tərk edərək Gədəbəy rayonunda məskunlaşmışdır. 1949-cu ildən Gədəbəy aşıqları ilə müxtəlif tədbirlərdə iştirak edən sənətkar 1953-cü ildə Gədəbəy Aşıqlar Ansamblını yaratmışdır [1]. Qısa zaman kəsiyində respublikada tanınan bu ansambl dövlət səviyyəli bayram və şənliklərdə iştirak et-

miş, dəfələrlə ayrı-ayrı rayonların zəhmətkeşləri qarşısında konsert proqramları ilə çıxış etmişdir.

Göyçədə olarkən Aşıq Hacı Bayramov, Aşıq Şükür, Aşıq Qədir kimi sənətkarlar onun rəhbərliyi ilə ellərimizi, obalarımızı gəzib dolaşmış, məclislər yola salmışlar. Aşıq Oruc Gədəbəydə aşıqlıq sənətini Aşıq Şahsuvar, Aşıq Nurəddin, Aşıq Fəzail, Aşıq Məhərrəm və başqa yetirmələrinə də öyrətməklə bu xalq sənətinə yeni bir ömür verərək yaşatmışdır.

Az, lakin mənalı və çal-çağırlı ömür yaşayan Aşıq Oruc 56 yaşında – 1976-cı il iyulun 19-da həyatının və yaradıcılığının çiçəkləndiyi bir dövrdə yaşadığı və böyük məhəbbətlə vəsf etdiyi Zəhmətkənd kəndində vəfat etmişdir.

Aşıq Oruc gözəl ifaçı olmaqla yanaşı, həm də yaradıcı aşıq olmuşdur. Bu barədə Əli Əliyev hələ 1971-ci ildə "Tərəqqi" qəzetində "El aşığı" başlıqlı məqaləsində yazırdı: "O (Aşıq Oruc – A.Y.) yalnız ustad aşıqların sözərini oxumaqla kifayətlənmir. Həm də özünün xalqın xoş güzaranından, vətənin gündən-günə artan qüdrətindən və onun gələcəkdə daha qüdrətli olmasından ilham alaraq yazdığı şeirində deyir:

Qəhrəman yurdudur mənim bu yurdum,
Poladdan möhkəmdir yenilməz ordum.
Aşıq Oruc deyər, hər kimdən sordum,
Dedi: – Bundan gözəl sabahımız var" [2].

Onun yaradıcılıq nümunələri 1991-ci ildə "Ədəbiyyat" qəzetində, 2001-ci ildə "Musiqi dünyası" jurnalında, 2004-cü ildə "Aşıqlar" kitabında, 2010-cu ildə "Folklor və Etnoqrafiya" jurnalında, 2011-ci ildə "Ozan dünyası" jurna-

lında və başqa mətbu orqanlarda nəşr olunmuşdur. Ziyəddin Məhərrəmov Aşıq Orucun yaradıcılığı haqqında “XX əsr Göyçə ədəbi mühiti” adlı kitabında haqlı olaraq yazır: “Onun “Neyləsin”, “Var”, “Danışaq”, “Sənin”, “Sevinir”, “Kölgəsiz”, “Çatıbdır”, “Gülə-gülə”, “Oldu”, “Bayram günləri” rədifli qoşmaları, “Morullu Aşıq Teymurla deyişmə”si indi də aşıqların dillər əzbəridir” [3, s.41].

Aşıq sənətinə, folklor xəzinəmizə dərindən bələd olan, həm də xalq şeiri ruhunda şirin, qəlbləri oxşayan, ahəngdar poeziya nümunələrini qələmə alan 86 yaşlı ağsaqqalımız Abbas Vəfadağlı (Mazanov) Aşıq Oruc haqqında dəyərli fikirlər söyləyir: “Açıq etiraf etmək gərəkdir ki, Aşıq Orucun oxumasında aşıq havacatlarına özünəməxsus bir şirinlik gətirdi. İndi də yaxşı yadımdadır. Böyük ustad Aşıq Ələsgərin “Gedirdim, güzarım düşdü bulağa” sətri ilə başlayan qoşmasını “Mixəyi” havasına ifa edən zaman bu gözəl səsli aşıqdan doymaq olmurdu. Həm də “Mixəyi” havası çətin, aşıqdan ustalıq, qabiliyyət və zəhmət tələb edən havadır. Müasirlərindən, bəlkə də, bu havanı onun kimi ifa edən az-az aşıq tapılardı. Elə bil ki, Aşıq Orucun nəfəsi bu hava üstündə köklənmişdi. Eyni zamanda, qeyd etmək yaxşı olardı ki, Aşıq Oruc çətin oxunan “Koroğlu havaları”nı, “Güllü qafiyə”, “Mirzəcanı” havasının Duraxan qolunu, “Dilqəmi”, “Təcnis” havalarını ürəyəyatan şirin bir ləhcə ilə ifa edərdi” [4, s.49].

Aşıq Orucu yaxından tanıyan, onun məclislərində dəfələrlə iştirak edib aşığın aydın, nüfuzedici, anlaşıqlı nitqinə, söhbətinə heyran kəsilən dinləyiciləri, yaşıdları, saz-söz vurğunları həmişə ustad barəsində ürəkaçan, məhəbbətdolu sözlər söyləmişlər. Bu gün də onun sənətkarlığından, peşəkarcasına məclis aparmasından, dastan ifaçılığından ağız-

dolusu danışırlar. Gədəbəy torpağının sevimli oğlu, tanınmış şair və publisist, Azərbaycan Respublikasının Prezident təqaüdçüsü, dövlət mükafatı laureatı İlyas Tapdıq da Aşıq Oruc haqqında çox dəyərli fikirlər, onun böyük sənəti barəsində orijinal mülahizələr söyləmişdir. Səksən yaşlı şair deyir: "Aşıq Oruc Əhmədov sadə və aydın danışan, səsinin zili-bəmi yerində olan, atası Vəlidən aşıqlıq öyrənən, dastanları uşaq yaşlarından sinəsinə köçürən bir aşıq idi. Hay-küydən uzaq, sadəliyi, səmimiyyəti ilə seçilən, "mənəm-mənəmlikdən", yalançı "basıb-bağlamaqdan", özündən uydurmaqdan uzaq orijinal bir sənətkar idi. Örəndiyini yerli-yataqlı danışan, onu dərin səmimiyyətlə dinləyənə çatdıran, əhatəsindəki insanlara – saz-söz vurğunlarına sevgisini, hüsn-rəğbətini əsirgəməyən kamil bir sənətkar idi. Göyçə mahalının zəngin folklorunun harasından desən dürüst cavab alardın" [5, s.86].

Aşıq Orucun aşıqlıq sənətinin təəssübünü çəkməsi, onu göz bəbəyi kimi qoruması, sənətin saflığının hər zaman inadkarlıqla, mühafizakarlıqla keşiyində durması onu yaxından tanıyan başqa xalq adamlarının da diqqətindən yayınmamışdır. Əslən Göyçə mahalının Cil kəndindən olan, bu yazının əvvəlində də fikirlərini bölüşdüyümüz Abbas Vəfadağlı da belə fikirdədir: "Aşıq Oruc saz-söz incilərini tam incəlikləri ilə, həm də klassik meyarlarla dədə-baba yolu ilə təmiz qoruyan sənətkar idi. Bəzi aşıqlar saz havalarını istədikləri şəkildə, istədikləri qədər dəyişdirməyə meyl edərdilər, özlərindən ad qoyub artırardılar. Ustad belələrinə qarşı barışmaz idi" [4, s.49].

Aşıq Oruc aşıq şeirinin bir çox şəkillərində – gəraylı, qoşma, təcnis, divani, müxəmməs və digər janrlarda mükəmməl sənət nümunələri yaratmışdır.

Aşıq yaradıcılığında təcnis mühüm bir hadisədir. Təcnis janrında yazıb-yaratmaq isə aşıqdan böyük sənətkarlıq bacarığı tələb edir. Təcnis dilin poetik möcüzəsidir. Belə ki, şeirdə şəkilcə eyni, mənaca müxtəlif sözlərdən istifadə edilir. Bu sözlərə daha çox cinas sözlər deyirlər. Hər aşıq təcnis yaratmaq imkanına malik deyildir. Lakin Aşıq Oruc təcnis ustası hesab edilən sələfləri – Miskin Abdal, Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Ələsgər kimi sənətkarlardan bəhrələnərək təcnis yazmağa nail olmuşdur:

O hilal qaşını görəndə gözüm,
Müştaq oldum onun yar sinəsinə.
Laçın tərpənişli, tovuz cilvəli,
Qaldım qulluğunda, yar, sinə-sinə.

Gəzib bu dağları lalə üzəsən,
İnsaf eylə, gəl dərdimi üzəsən.
Busə nədir, qıymayırsan üzə sən,
Xəncərlə bağrımı yar sinə-sinə.

Göründüyü kimi, Aşıq Oruc təcnisi kifayət qədər yaxşı yazmış və cinasları yerli-yerində, mənanı itirmədən və söz yığınına yol vermədən yarada bilmişdir. Şeirin aşağıdakı son bəndində aşıq-şair deyəcəyi fikri cinasların köməyi ilə daha da qüvvətləndirə bilmişdir.

Oruc deyir: “Sən gələndə, Yasəmən,
Gah şad olub, gah batıram yasa mən”.
Nitqi, nəfəsindən qopur yasəmən,
O nədir köksündə yar sinə-sinə [6, s.103].

Şeirin birinci misrasında “sinəsinə” sözü sinə, dördüncü misrada “sinmək, əyilmək”, ikinci bəndin birinci misrasında “üzəsən” sözü üzmək, dərmək, ikinci misrada azaltmaq, üçüncü misrada üz, yanaq mənasında, üçüncü bəndin birinci misrasında isə Yasəmən qız adı, ikinci misrada yasa qərq olmaq, üçüncü misrada isə yasəmən iyi mənasında işlənmişdir. Təkcə bu təcnis aşığın söz “boxçası”nın zənginliyindən xəbər verir.

Gəraylı aşıq yaradıcılığında qoşmadan sonra daha çox istifadə olunan janrdır. Haqqında söhbət açdığımız Aşıq Oruc “Neyləsin” adlı gəraylısında eybini bilməyən nakəslərə qohumun, elin-obanın heç nə ilə təsir edə bilmədiyindən təəssüflənərək deyir:

Öz eybini bilməzlərə,
Qohum-qardaş, el neyləsin?!
Zatı xain olan kəsə
Düzgün ürək, dil neyləsin?!

Elmə sinə gərməyənə,
Ustad dərsi görməyənə.
Düzə qiymət verməyənə,
Alim, şair bil, neyləsin?!

Eli sevər ər oğlu, ər,
Qanı təmiz, canda hünər.
Haqsız ölsə – nadan, sərsər,
Ona külüng, bel neyləsin?!

Sarvan ümid bağlar nərə,
Şair olan şah əsərə.

Səyyah yorğun, çətin bərə,
Ovun getsə, sel neyləsin?!

Aşıq Oruc, de sözünü,
Tərifləmə gəl özünü.
Bil, çevirsə el üzünü,
Yüz köməkçi əl neyləsin?! [6, s.102–103].

Gəraylının xüsusiyyətindən və Aşıq Orucun peşəkarlığındandır ki, şeir bir neçə dəfə oxunmaqla yadda qalır, əzbərə çevrilir.

Sonda bir inamımı ifadə etmək istəyirəm: nə qədər ki, qədir bilən ellərimiz var, el sənətkarı Aşıq Oruc da bu ellərin yaddaşında, qəlbində, xatirələrində yaşayacaq.

Ruhun şad olsun, ustad!

**Ədəbiyyat:**

1. Qasımlı, Məhərrəm. Ustad. Ədəbiyyat qəzeti, Bakı, 1991, 22 fevral, № 8
2. Əliyev, Əli. El aşığı. "Tərəqqi" qəz., Gədəbəy, 1971, 31 avqust, № 103 (2994)
3. Məhərrəmov, Ziyəddin. XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər). Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997
4. Vəfadağlı, Abbas. Ustad // "Folklor və Etnoqrafiya" jurnalı, 2010, № 4
5. Tapdıq, İlyas. Söhbət aşığıydı, söz işığıydı... // "Folklor və Etnoqrafiya" jurnalı, 2013, № 2
6. Yaquboğlu, Araz. Aşıq Orucun sazlı-sözlü dünyası // "Ozan dünyası" jurnalı, 2011, № 4 (7)

# GÖYÇƏNİN SAZ-SÖZ USTADLARI İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

Bəzən yerli-yersiz sual olunur: Göyçədən nə qədər danışmaq, nə qədər yazmaq olar? Bir neçə dəfə suala belə cavab vermişəm: nə qədər ki, bədii ədəbiyyatın əbədi mövzusu məhəbbət var, o qədər də Göyçə mövzu olaraq qalacaq. Göyçənin tarixi, folkloru, ədəbiyyatı, şəxsiyyətləri o qədər zəngin və əhatəlidir ki, onlardan cild-cild kitablar yazılsa belə, bitib-tükənən deyil. Göyçədə saza, sözə o qədər sevgi olub ki, saz-söz sənətkarları elin nəzərində ən böyük, ən hörmətli şəxs hesab olunmuşlar. Hətta saz insanlar üçün and yerinə çevirilib. Haqlı olaraq filologiya üzrə fəlsəfə doktoru Ziyəddin Məhərrəmov yazır: "Göyçədə saza-sözə hədsiz bağlılıq və qeyri-adi həssaslıq mövcud olduğundan hər əlinə saz götürən burada özünü sənətkar elan etməyə cəsarət etməmişdir. Saz çalmağı, söz oxumağı bu eldə uşaqdan-böyüyə hamı bacarmışdır. Saza-sözə toydan-toya, məclisdən-məclisə deyil, demək olar ki, hər gün müraciət olunmuş, üz tutulmuşdur. Saz-söz, poeziya göyçəlinin gündəlik həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. O, çöldə-bayırda iş görəndə, əkin-biçinlə, bağ-bağatla, qoyun-quzu bəsləməklə məşğul olanda da, nəfəs dərib dost-tanışla, yar-yoldaşla əhvallaşanda da, evdə oğul-uşağa öyüd-örnək verəndə də dilində-könlündə şeir gəzdirib-dolaşdırmışdır" [1, s.125]. Ona görə də Göyçədən daim yazılmış, yazılır və bundan sonra da yazılacaq.

Göyçə aşıq mühitinin ünlü sənətkarları zaman-zaman tədqiqat obyekti olmuşdur. Bu araşdırmalar 1988-ci il hadisələrindən sonra daha da geniş vüsət almış, aşıq və

şairlər ayrı-ayrılıqda və ya ümumi şəkildə araşdırılmışdır. Tərlan Göyçəli "Göyçə aşıq məktəbi" kitabının girişində yazır: "Göyçə aşıq məktəbinin öyrənilməsi, araşdırılması, elmi şərhi indiki ictimai-siyasi şəraitdə günün ən vacib məsələlərindən biridir" [2, s.7]. Bəli, düşmənlərimizlə hərbi-siyasi müstəvidə mübarizədən əlavə, ədəbi-tarixi yöndə də mübarizə aparmalıyıq. Dediklərimiz tarixi yurdlarımıza qayıtmağın çoxsaylı yollarından biridir. "Keçmişini bilməyən gələcəyini qura bilməz" – deyən filosoflar heç də yanılmayıblar.

"Göyçənin saz-söz ustadları İkinci dünya müharibəsində" mövzusu məni çoxdan ayrıldığım araşdırmalarıma qaytardı. Faşizm üzərində qələbənin yaxınlaşdığını da nəzərə alıb mövzu ilə bağlı tədqiqat aparmağa başladım.

Göyçə kəndlərinin hər birindən neçə-neçə igid oğullar qanlı-qadalı İkinci dünya müharibəsinə yollanmış, onların demək olar ki, yarısı geri qayıtmamışdır. Aralarında heç şübhəsiz ki, xeyli aşıq və şairlər də var idi. Aşıq Müseyib, Ağkilsəli Aşıq Nəcəf, Aşıq Əli Rəsulov, Aşıq Niftalı, Aşıq Məhərrəm Hacıyev, Aşıq Rəcəb, Aşıq Qəmbər, Aşıq Abbasəli Xəlilov, Aşıq Abbasəli Nəzərov, Aşıq Cahad, Aşıq Musa Həsənov, şairlərdən Həsən Xəyallı, Xəstə Bayraməli, Şair Həşim, Qəmgin Fəzi, Əli Coşqun, Qəşəm Kərimov, İsmayıl Hüseynov, Coşqun Ağababa, Firudin Məmmədov və başqaları müharibə veteranı kimi doğma yurda dönə bilmişlər. Araşdırıb məlumat toplaya bildiyim Şair Aqil, İsoy Qurbanov, Aşıq İdris, Şair Əbülfət, Aşıq İslam Yarpızlı, Aşıq Ziyad, Qul Yunus, Aşıq Əli Şairov, Muxayıl Göyçəli, Aşıq Süleyman və Aşıq Səfiyar haqqında oxuculara məlumat verməyə çalışacağam.

İslam Ələsgərin “Sazlı-sözlü Göyçə” kitabında müharibədən doğma yurda dönə bilməyən saz-söz bahadırları haqqında oxuyuruq: ““Böyük Vətən müharibəsi” adlandırılan 1941–1945-ci il müharibəsi zamanı cəbhəyə yollanan Göyçə oğulları, o cümlədən gənc aşıqlar öz canları, qanları bahasına Vətəni düşməndən təmizləməkdə fəal iştirak elədilər. Onların bir çoxu həlak oldu, doğma yurda qayıda bilmədi; öz əllərilə divardan asdıqları saz müharibədən sonra da uzun müddət sahibinin yolunu gözlədi” [3, s.13].

Ümumiyyətlə, İkinci dünya müharibəsində iştirak edən aşıq və şairlərin həyat və yaradıcılığı haqqında tədqiqatçılardan Ziyəddin Məhərrəmov, Tərlan Göyçəli, İslam Ələsgər, professor Qara Namazov və bu sətirlərin müəllifinin araşdırmalarına rast gəlinir. Lakin yazılanlar bəzi yanlışlıqlardan da xali deyil. Belə ki, bizim “obd-memorial.ru” saytından əldə etdiyimiz rəsmi sənədlər aşıq və şairlərin doğum və vəfat tarixlərini dəqiqləşdirməyə imkan verdi.

**Şair Aqil:** Qafarov Niftalı Qafar oğlu 1900-cü ildə doğulmuşdur. 5 yanvar 1941-ci ildə Gədəbəy RHK-dan orduya çağırılmışdır. Niftalı Qafarov haqqında 3 oktyabr 1943-cü il tarixdən heç bir məlumat olmamış və 1944-cü ilin yanvar ayından itkin düşmüş hesab edilmişdir. Sənəddə onun Gədəbəy rayonunun İvanovka kəndində yaşamış olduğu da göstərilir [4, 64989709].

Ziyəddin Məhərrəmov şair Niftalı Qafarovun 1943-cü ildə Ukraynada döyüşdə [5, s.38], Tərlan Göyçəli isə şairin 1943-cü ilin noyabrında Cənubi Ukrayna cəbhəsində qəhrəmancasına həlak olduğunu yazmışdır [2, s.113].

O, ilk təhsilini həmkəndlisi Məşədi Molla Əlinin açdığı mollaxanada almışdır. Sovet hakimiyyəti illərində Le-

ninakan (Gümrü) Pedaqoji Texnikumunu bitirən Niftalı 1923-cü ildə öz kəndlərində müəllimliyə başlamışdır [3, s.195].

Aqil 1937-ci ilin yazında doğma kəndi Ağbulaqdan Azərbaycanın Gədəbəy rayonunun Ağkilsə (indiki İvanovka) kəndinə köçüb. 1939-cu ildə Bakıda keçirilmiş el ədəbiyyatı nümayəndələrinin müşavirəsində uğurla iştirak etmiş və böyük şairimiz Səməd Vurğunun təqdimatı ilə Yazıçılar İttifaqının üzvlüyünə qəbul edilmişdir [2, s.112–113].

O, şeirlərini Aqil təxəllüsü ilə yazmışdır. Şair Kazımın bacısı oğludur. İvanovka kəndində yaşamış, İnəkboğan kəndində müəllim işləmişdir [5, s.38].

Onun müxtəlif şəkilli şeirləri aşıqlarımızın repertuarında özünə yer tutmuşdur. İ.Ələsgər onun şeirlərini şairin yaxın qohumu olan Aşıq Məhərrəm Hacıyevin hafizəsindən qələmə almış, "Yaraşır", "Oynasın", "Üç sözüm var, gərək dosta deyəsən", "Gəlmişdi", "Bu gün bir qız gördüm, hazar eylədim" rədifli qoşmalarını, "Gəlin" rədifli gəraylısını, "Xoruzu", "Gözəl", "Xəngəlin", "Elədi" rədifli müxəmməslərini çap etdirmişdir [3, s.195–203].

T.Göyçəli şairin "Hiyləgər dünya...", "Düşübdü", "Gəlmişdi" qoşmalarını, "Eylədi" müxəmməsini, "Minə, minə" təcnisini [2, s.113–116], professor Q.Namazov isə şairin "Oynasın" rədifli qoşmasını çap etdirmişdir [6, s.381–382].

Mənbələrdə şairin təvəllüdü ilə bağlı qeyri-dəqiqlik mövcuddur. Tərlan Göyçəli şairin 1885-ci ildə [2, s.112], Qara Namazov 1895-ci ildə [6, s.380], Ziyəddin Məhərrəmov 1898-ci ildə [5, s.38], Musa Nəbioğlu 1899-cu ildə [7, s.35], İslam Ələsgər isə 1907-ci ildə [3, s.195] doğulduğunu yazmışlar.

**İsoy Qurbanov:** Qurbanov İsoy Nəcəf oğlu 1902-ci ildə Daşkənd kəndində doğulmuşdur. İsoy Qurbanov 269-cu atıcı dviziyasının qızıl əsgəri olmuşdur. 14 may 1942-ci ildə Orlov vilayəti Novosil rayonunun Odinok kəndindəki döyüşdə həlak olmuş, həmin rayonun İqumnovo kəndində dəfn edilmişdir. Sənəddə İsoy Qurbanovun Ruqiyə Məhəmmədəli qızı ilə ailəli olduğu da qeyd edilib [4, 51631064].

İsoy Qurbanovun həyat və yaradıcılığı haqqında ilk dəfə məlumat "Daşkənd aşıqları və şairləri" kitabında çap olunmuşdur. Rəsmi sənədlərə əsasən verilən yuxarıdakı məlumatlar bu kitabın çapından sonra əldə edildiyindən, doğum və vəfat tarixləri doğmalarının söyləmələrinə əsasən yazıldığına görə yanlışlıq olmuşdur. Kitabda məlumat olduğu kimi belədir:

"Qurbanov İsoy Nəcəf oğlu, 1907-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur.

Deyilənlərə görə, İsoy lap uşaqlıqdan ustadların şeirlərini söyləyər və özü də şeirlər qoşarmış. Bir neçə şeirinin möhürbəndində "Yetim İsoy" təxəllüsü də işlətmişdir.

İsoy Qurbanov 1941/45-ci illər Böyük Vətən müharibəsi zamanı 1943-cü ildə müharibəyə səfərbər olunmuş və 1944-cü ildə Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuşdur.

İsoyun Tutu, Ballı, Mürəbbə və Minayə adlı dörd qızı və Lətif adlı bir oğlu olmuşdur. İsoy müharibədə olarkən yeganə oğlu Lətif vəfat etmişdir.

İsoy Qurbanovun şair olduğunu və müxtəlif səpkili şeirlər yazdığını onu görən bir çox daşkəndlilər təsdiq edir-

lər. Təəssüflər olsun ki, İsoyun tam yaradıcılığını hələ ki əldə etmək mümkün olmamışdır.

İsoyun bir neçə şeirləri onun qızları və nəvələrindən əldə olunmuş cəbhə məktublarından və Xasay Zeynalovdan götürülmüşdür. Əldə olunan "Eylə", "Oldumu" və "Qaldım" rədifli qoşmaları isə həmkəndlisi Muxayıl Budaqoğlunun 1943-cü ilə aid əlyazmasından götürülmüşdür. Əlyazma hal-hazırda Yeni Daşkənd kəndində yaşayan Məsimov Oruc Budaq oğlu tərəfindən qorunub, saxlanılır" [8, s.43].

"Daşkənd aşıqları və şairləri" kitabında İsoy Qurbanovun "Göyçə", "Saxlayın", "Məni" rədifli gəraylıları və "Qızım", "Eylə", "Oldumu", "Bilin", "Məni", "Minayə qızım", "Qaldım", "Amandı", "Lətifim mənim", "Mənim" rədifli qoşmaları çap olunmuşdur [8, s.44–51]. Kitabdakı cəmi 13 şeirdə 49 bənd bu günə qədər əldə olunanlardır. Həmkəndlisi və qohumu Abdulla Hümbətovun söylədiyinə görə, onda olan İsoy Qurbanovun 50 qatar şeirinin yazıldığı dəftər kənd əhalisinin 1953-cü ildəki köçürülməsində itmişdir.

**Aşıq İdris:** Məhərrəmov İdris Şirin oğlu 1905-ci ildə Zərkənd kəndində doğulmuşdur. 28 avqust 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Sıravi əsgər İdris Məhərrəmov 1943-cü ilin avqust ayında itkin düşmüşdür [4, 67794588]. İstinad etdiyimiz saytdakı digər bir sənəddə onun 1943-cü ilin may ayında itkin düşdüyü qeyd edilib [4, 87569214].

İdris aşıqlıq sənətinə erkən yaşlarından maraq göstərib, 12 yaşında ikən atası Aşıq Şirindən dərs almağa başlayıb.

80-dən artıq saz havasını bacarıqla ifa edirmiş. Otuz beş dastanı sinədən bilmiş, ağır yığnaqlar keçirmişdir [9].

1938–1941-ci illərdə Basarkeçər rayonunda aşıqlara rəhbərlik edib. Azərbaycan aşıqlarının I və II qurultaylarının nümayəndəsi olub. 1938-ci ildə İncəsənət xadimi fəxri adına layiq görülüb. Vala köçürülmüş mahnıları vardı [7, s.25].

2003-cü ildə Aşıq İdrisin və atası Aşıq Şirinin həyat və yaradıcılığından bəhs edən "Göyçə aşıqları: Aşıq Şirin, Aşıq İdris" adlı kitab "Nurlan" nəşriyyatında çap olunmuşdur.

Aşıq İdris Zərnişan Xankişi qızı ilə ailə həyatı qurmuş, Maral adlı bir qızı, Şəmdin, Xasay, Surxay, Bahadur, Qəzənfər, Məmməd adlı 6 oğlu olmuşdur. Qızı Maral atasının qara xəbərini eşitdikdə, bu acı xəbərə dözməyib 12 yaşında vəfat edib [10].

Mənbələrdə aşığın təvəllüdü ilə bağlı qeyri-dəqiqlik mövcuddur. Aşıq Şəmşir və Musa Nəbioğlu aşığın 1894-cü ildə [9; 7, s.25], Qara Namazov isə 1903-cü ildə [6, s.199] doğulduğunu yazmışlar.

**Şair Əbülfət:** Rəhimov Əbülfət İsmayıl oğlu 1905-ci ildə Zod kəndində doğulmuşdur. 3 dekabr 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. 269-cu atıcı diviziyasının 1022-ci atıcı alayının əsgəri olmuşdur. 24 iyun 1944-cü ildə Belorusiya SSR-in Qomel vilayətinin Roqaçevski rayonunun Viriçev kəndindəki döyüşdə həlak olmuş, kəndin yüksəkliyi 144,5 metr olan şimal-qərb tərəfindəki yamacda dəfn olunmuşdur [4, 9434559].

İstinad etdiyimiz saytdakı digər sənəddə qeyd olunur ki, Rəhimov Əbülfət İsmayıl oğlu 1905-ci ildə doğul-

muşdur. 24 iyun 1944-cü ildə Belorusiya SSR-in Qomel vilayətinin Roqaçevski rayonunun Viriçev kəndində döyüşdə həlak olmuş, Tixiniçi kəndindəki qardaşlıq qəbiristanlığında dəfn edilmişdir [4, 261793473].

Digər bir sənəddə əlavə olaraq yazılır: Rəhimov Əbülfət İsmayıl oğlu 3-cü Ordunun 269-cu atıcı dvizyasının 1022-ci atıcı alayının əsgəri olmuşdur [4, 9436601].

İrəvan Pedaqoji Texnikumunu bitirən Əbülfət öz kəndlərindəki orta məktəbdə dil-ədəbiyyat müəllimi kimi fəaliyyətə başlamışdır. O, erkən bədii yaradıcılığa meyl göstərmiş, xalq arasında şair kimi tanınmışdır. Ermənistan Yazıçılar İttifaqı Azərbaycan bölməsinin katibi olan Əbülfət, eyni zamanda SSRİ Yazıçıları İttifaqının üzvü idi [3, s.221].

O, Mirzə Bəylərin qız nəvəsi, Usta Abdullanın isə qardaşı oğludur. ...Əbülfətin zamana güzgü tutan uğurlu şeirləri vaxtilə Göyçədə çıxan “Qızıl Basarkeçər”, İrəvanda nəşr olunan “Qızıl şəfəq” qəzetlərinin səhifələrində və bir sıra almanaxlarda dərc edilmişdir [2, s.176–179].

Əbülfət Rəhimovun 1933-cü ildə İrəvandakı “Ermənnəşr” nəşriyyatında köhnə latın qrafikası ilə “Din əleyhinə”, 1985-ci ildə isə Bakıdakı “Yazıçı” nəşriyyatında kiril qrafikası ilə “Axan ulduzun işığı” adlı şeirlər kitabı çap olunub.

Tərlan Göyçəli şairin “Dünya”, “Gəlsin”, “Qəm yemə”, “Aman günüdü”, “Hardasan” rədifli qoşmalarını [2, s.177–181], İslam Ələsgər isə “Ağlama”, “Aman günüdü”, “Durma, gəl”, “Əzizim”, “İnşallah” rədifli qoşmalarını, “Bülbül”, “Ey fələk”, “Külək, məndən xəbər apar”, “Mənim”, “Olaydı” rədifli gəraylılarını, “Güldü, nə güldü”, “Nə saqi-

sən, yar" rədifli təcnislərini, "Üstədi", "Ey əmi" rədifli divanilərini çap etdirmişdir [3, s.221–229].

Şair Əbülfət Fatma xanımla ailə həyatı qurmuş, Həsən adlı övladı olmuşdur.

Mənbələrdə şairin təvəllüdü ilə bağlı qeyri-dəqiqlik mövcuddur. Qara Namazov şairin 1908-ci ildə [6, s.115], Tərlan Göyçəli və İslam Ələsgər isə şairin 1914-cü ildə doğulduğunu yazmışlar [2, s.176; 3, s.221].

**Aşıq İslam Yarpızlı:** Əmirzadayev İslam Məhəmmədəli oğlu Lçavan kəndində doğulmuşdur. Sıravi İslam Əmirzadayev 1943-cü ilin may ayında itkin düşmüşdür [4, 87480424]. İstinad etdiyimiz saytdakı digər bir sənəddə Əmirzadayev İslam Məhəmmədəli oğlunun Yarpızlı kəndində doğulduğu və ən geci 24 may 1943-cü ildə itkin düşdüyü qeyd edilmişdir [4, 87570607]. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, Yarpızlı kəndinin adı Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 25 may 1967-ci il fərmanı ilə dəyişdirilib Lçavan qoyulmuşdur [11, s.347–348].

Bu sətirlərin müəllifinin 2011-ci ildə "Filologiya məsələləri" elmi jurnalında nəşr olunan məqaləsindən (ixtisarla): "Əmirzadayev İslam Məhəmmədəli oğlu (Aşıq İslam) 1910-cu ildə Göyçə mahalının Basarkeçər rayonunun Yarpızlı kəndində anadan olub. Anası Qaratel mahalın Daşkənd kəndində yaşamış "Dərzilər" nəslindən Məsimin qızı olmuşdur. 1943-cü ildə Aşıq İslam Böyük Vətən Müharibəsinə səfərbər olunmuş, İrana göndərilən hərbi hissənin tərkibində İrana getmiş və bir daha geri qayıtmamışdır.

Daşkəndli el şairi Muxayıl Göyçəli (1918–1944) Aşıq İslamın dayısı Budağın oğludur. Qeyd olunan qohumluq

əlaqələrinə görə Aşıq İslam Daşkəndlə sıx təmasda olmuş, həftələrlə kənddə qalmış və toy məclisləri, el şənlikləri keçirmişdir. Elə bu səbəbdən də ustad aşıqlardan olan Aşıq İslam Yarpızlı Daşkənddən Aşıq Abbasəli Xəlilovun (1913–2007) və Aşıq Abbasəli Nəzərovun (1919–1992) ustadı olmuş, onların aşıq kimi yetişməsində əvəzsiz rol oynamışdır. Aşıq İslam Muxayıl Göyçəliyə də saz havalarını və ifaçılığı öyrətsə də, o aşıq kimi yox, daha çox el şairi kimi tanınmışdır.

Tam dəqiqləşdirilməmiş şəxsi araşdırmalarımıza görə Aşıq İslamın ustadı öz həmkəndlisi Yarpızlı Aşıq İman olmuşdur.

...Sazın-sözün vurğunu Daşkəndli Murtuz Bayramquliyevin (1926–2007) əlyazmalarında aşığın “Bəyənməz” və “Qurqalanmasın” rədifli qoşmaları, “Yox” rədifli divanisi, “Könül ilə İslamın deyişməsi” və Növrəs İmanla Aşıq İslamın “İbtida” (tərs əlifbey divani) rədifli deyişməsi olmaqla cəmi 5 şeir yazılmışdır. Daşkəndli el şairi Muxayıl Göyçəli ilə Aşıq İslamın 20 yanvar 1941-ci il tarixdə yaranan “Əzizim” rədifli deyişməsi isə ilk dəfə 2008-ci ildə bu sətirlərin müəllifinin “Daşkənd aşıqları və şairləri” adlı kitabında çap olunmuşdur [8, s.84].

Aşıq İslam haqqında apardığımız araşdırmalar zamanı bizə yaxından köməklik edib, məlumatlandıran İslamın dayısı oğlu, Muxayılın kiçik qardaşı olan Oruc Məsimov (1926) oldu. Onun indiyə qədər qoruyub saxladığı qardaşı Muxayılın 1942–1943-cü illərə aid əlyazmaları köməyimizə çatdı. Demək olar ki, Aşıq İslamın xeyli şeirləri həmin əlyazmalarda toplanmışdır. Biz bu əlyazmaların surətini çıxarmış və 5 cilddə cildləmişik. Əlyazmalarda bir dastan

da olmaqla Aşıq İslamın yaradıcılığına məxsus gəraylı, qoşma, təcnis, dodaqdəyməz, divani, müəxəmməs, qıfılbənd, nəzirə və deyişmələri öz əksini tapmışdır. Şeirlərin demək olar ki, hamısında Aşıq İslam təxəllüsünü Cavan İslam kimi möhürbənd etmişdir. Əlyazma cildlərdə təxminən şeirlər bu saydadır: 5–1-ci cilddə 1 dastan, 5–2-ci cilddə 55 bağlama və dodaqdəyməz, 5–3-cü cilddə 60 müxtəlif şeir, 5–5-ci cilddə 105 müxtəlif şeir, nəzirə və deyişmələr vardır (5–4-cü cilddə 57 şeir var, bu şeirlər Muxayılındır). Aşıq İslamın zəngin ədəbi irsi təəssüf ki, bu günə qədər toplanılıb çap olunmamışdır" [12, s.350–354].

Aşıq İslam Yarpızlının "Yox", "Bağlıdı" rədifli divaniləri və "Əzizim" rədifli deyişməsi "Ozan dünyası" jurnalında çap olunmuşdur [13, s.60–61].

**Aşıq Ziyad:** Məmmədov Ziyad Nadir oğlu 1911-ci ildə Daşkənd kəndində doğulmuşdur. 1937-ci ildən ÜİLKGİ-nin üzvü olmuşdur. 1941-ci ilin sentyabr ayında Basarkeçər RHK-dan orduya çağırılmışdır. Baş çavuş Ziyad Məmmədov bölük komandiri olmuşdur. 30 iyun 1942-ci ildə Ukraynanın Sevastopol rayonu ərazisində əsir düşmüşdür [4, 65722893].

İstinad etdiyimiz saytdakı digər bir sənəddə baş serjant Məmmədov Ziyad Nadir oğlunun 21-ci ehtiyat atıcı divizyanın 102-ci ehtiyat atıcı alayının (1-ci təlim batalyonu, 4-cü rota) bölük komandiri və atıcısı olduğu göstərilir. O, 1942-ci ildən Almaniyadakı İmştrans əsir düşərgəsində işləmişdir. Keçmiş hərbi əsir Ziyad Məmmədov 20 aprel 1945-ci ildə İtaliyanın Taranto şəhərindən Odessa şəhərindəki toplanış-yoxlama məntəqəsinə gətirilib. Qeydiyyat nömrəsi 9155 olmuşdur. "20 iyul 1945-ci ildə Tomsk stan-

siyasındakı Baş Təchizat İdarəsinin Çeromışşensk Kombinatı" (Kursivlə verilən cümlə sənədin "Getdiyi tarix və yer" bölməsinə sonradan əlavə edilib). Kartoçkanı 7 may 1945-ci ildə 4-cü rotanın komandiri, qvardiya baş leytenantı Osipov doldurmuş və imzalamışdır [4, 85431906].

Aşıq Ziyad Göyçə mahalının Böyük Qaraqoyunlu kəndində doğulan, sonralar Tovuz rayonunda yaşayan Aşıq Əsədin (1874–1951) şəyirdi olmuşdur [8, s.85]. Aşıq Ziyad qısa bir müddətdə nəinki Daşkənddə, eləcə də Göyçə mahalında ustad aşıqlardan biri kimi tanınmış, toy məclislərinin, el şənliklərinin mütəmadi aparıcısı olmuşdur. O, ifaçı aşıq olmaqla yanaşı, həm də yaradıcı aşıq olmuşdur. Təəssüf ki, hələ aşığın yaradıcılığını əldə edə bilməmişik. Nərimanlı Bəhmənlə deyişdiyini də deyənlər var. Aşıq Ziyad həmçinin Zərkəndli Aşıq İdris Məhərrəmovun sədri olduğu Basarkeçər aşıqlar təşkilatının üzvü olmuşdur.

Aşıq Ziyad ustadı Aşıq Əsədin qızı Sürayəni (Sura) sevmiş, qızı Daşkəndə qaçıraraq onunla ailə qurmuş, Zəhra və Turac adlı iki qızı olmuşdur. Aşıq Ziyadın nəvə-nəticələri hal-hazırda Tovuz rayonunda yaşayırlar.

Bu sətirlərin müəllifinin "Daşkənd aşıqları və şairləri" kitabında Aşıq Ziyadın 1917-ci ildə doğulduğu göstərilmişdir [8, s.85]. Yuxarıda rəsmi sənədlərə əsasən verilən məlumatlar bu kitabın çapından sonra əldə edildiyindən aşığın təvəllüdü qohumlarının söyləmələrinə əsasən yazıldığından yanlışlıq olmuşdur.

**Qul Yunus:** Abbasov Yunus Canbaxış oğlu 1912-ci ildə Zod kəndində doğulmuşdur. 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Sonuncu məktubu 160 saylı

hərbi hissədən – 883-cü səhra poçtundan gəlmişdir. 1942-ci ilin iyul ayında itkin düşmüşdür [4, 60956678].

İstinad etdiyimiz saytdakı digər iki sənəddə də sıravi Abbasov Yunus Canbaxış oğlunun Zod kəndində doğulduğu və 1942-ci ilin iyul ayında itkin düşdüyü qeyd edilmişdir [4, 87481009, 87569512].

Professor Q.Namazov "Aşıqlar" kitabında yazır (ixtisarla): "Qul Yunus (1912–1943) Göyçə mahalının Zod kəndində doğulub. Dövründə təhsil alıb, müəllim sənətinə yiyələnib. Kənddə tanınmış ziyalılardan biri olub. Göyçə aşıq mühitini mükəmməl öyrənib. Aşıq şeirinin çeşid-çeşid şəkillərində lətif nümunələr yaradıb.

İstedadlı, gözəl saz şairi rus-alman savaşında ölüb. Onun ağızlarda bəzi şeirləri qalıb. Bu şeirlər göstərir ki, Qul Yunus saz şeirinə dərindən bələd olub" [6, s.240].

Qara Namazov həmin kitabda şairin "Hayıf" rədifli qoşmasını və "Üstədir" divanisinin bir bəndini çap etdirmişdir.

Şair Yunus Abbasov Sara xanımla ailə həyatı qurmuş, Telman adlı oğlu olmuşdur. Telman da atasının yolunu davam etdirmiş, müxtəlif səpkili şeirlər yazmışdır. Hal-hazırda nəvə-nəticələri Göygöl rayonunda yaşayırlar.

**Aşıq Əli Şairov:** Bu sətirlərin müəllifinin "Bütöv Azərbaycan" qəzetində nəşr olunan "Aşıq Əli Şairov" adlı məqaləsindən (ixtisarla): "Şairov Əli Şamil oğlu 1913-cü ildə Göyçə mahalının Daşkənd kəndində anadan olmuşdur. O, XIX əsrin məşhur el şairi Məmmədhüseynin nəticəsidir. Aşıq Əli Şairov 1941-ci ildə İkinci dünya müharibəsinə səfərbər olunanda subay olmuşdur. Onun sonuncu məktubu 1943-cü ildə Port-Artur şəhərindən gəlmişdir.

Əli Şairov haqq vergili şair və aşıq olmuşdur. Bunu həmkəndliləri dəfələrlə söhbətlərində təsdiqləmişlər. Onun saz və əlyazmalarının son vaxtlara qədər qohumları tərəfindən saxlanıldığı söylənilsə də, hələlik bu sadalananlardan heç birini əldə edə bilməmişik. Hətta şair Məmmədhüseynin də şeirlərinin böyük bir qisminin onun əlyazmalarından əldə olunduğu söylənilir.

Aşığın həyat və yaradıcılığı haqqında xeyli araşdırma aparmışıq.

Xasay Zeynalov əlyazmasında Aşıq Əli Şairovun 14 şeirini qələmə almışdır [14, s.104–114]. Qara Namazov aşığın tərcümeyi-halını və 1 qoşmasını kitabda çap etdirmişdir [6, s.136–137]. "Durna qatarı – II" ədəbi toplusunda aşığın yaradıcılığı haqqında kiçik şərh verilməklə cəmi 5 şeiri çap olunmuşdur [15, s.122–125].

Bu sətirlərin müəllifinin 2008-ci ildə Göyçə mahalının Daşkənd kəndinin aşıqları və şairlərinin həyat və yaradıcılıqları haqqında apardığı araşdırma və onun nəticəsi olaraq AMEA Folklor İnstitutunun Elmi şurasının qərarı ilə çap olunan kitabında Aşıq Əli Şairovun tərcümeyi-halı ilə bərabər 12 şeiri də işıq üzü görmüşdür [8, s.60–66].

Aşıq Əli Şairovun 14 qoşması, 1 gəraylısı, 1 divanisi və 1 deyişməsi olmaqla hələlik bizə məlum olan cəmi 17 şeiri vardır" [16].

Aşığın doğum tarixini Qara Namazov 1911-ci il göstərmişdir [6, s.136].

**Muxayıl Göyçəli:** Bu sətirlərin müəllifinin 2010-cu ildə "Elmi axtarışlar" jurnalında nəşr olunan "El şairi Muxayıl Göyçəli" məqaləsindən (ixtisarla): "Məsimov Muxayıl Budaq oğlu 1918-ci ildə doğulmuşdur. Dərzilər

nəslindəndir. 1932-ci ildə Daşkənd kənd yeddiillik orta məktəbini bitirmişdir. Muxayıl ədəbiyyatı, rus dilini, cəbri özəlliklə yaxşı bilirmiş.

Böyük Vətən Müharibəsi başlayanda Muxayıl da 1941-ci ildə müharibəyə səfərbər olunmuşdur. O, 26 fevral 1942-ci ildə ağır döyüşlərin birində yaralanaraq ordudan tərxis edilmişdir. Müalicəsi doğma kənddə davam etdirilsə də, 15 dekabr 1944-cü ildə müharibədə aldığı yaralardan subay ikən əbədiyyətə qovuşmuş və Daşkənd kəndində dəfn olunmuşdur.

Muxayıl Göyçəlinin əlyazmaları və bir neçə cəbhə şəkilləri Göyçə mahalından deportasiya olunub 1988-ci ildən hal-hazıra qədər Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşan qardaşı Məsimov Oruc Budaq oğlu tərəfindən qorunub saxlanılmaqdadır.

Onun 1943-cü ilə aid əlyazmasının içərisində Şair Məmmədhüseynin "Xəbər al deyim", "Yaxşıdır" qoşmalarına, "Yatıb oyanmaz, oyanmaz" gəraylısına, İsoy Qurbanovun "Eylə", "Oldumu" və "Qaldım" rədifli qoşmalarına, Aşıq İslam Yarpızlının "Əzizim" qoşmasına da rast gəldik.

Əlyazmalardan bəlli olur ki, Muxayıl Göyçə ədəbi mühitindən, Azərbaycan klassik ədəbiyatından və şifahi xalq ədəbiyyatından lazımınca yararlanmış və şeirin müxtəlif növlərində – gəraylı, qoşma, təcnis, cığalı təcnis, divani kimi şeirlər yazıb-yaratmışdır. Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, o hətta rus dilində də şeir yazmışdır.

Muxayıl həmçinin saz havalarına və saz ifaçılığına da dərindən bələd olmuşdur. Saz havalarının öyrənilməsində bibisi oğlu Aşıq İslam Yarpızlının böyük rolu olmuşdur.

Cəmi 26 il ömür yaşamış Muxayıl Göyçəli el arasında şair kimi tanınmışdır.

Şairin yaradıcılığında qəmli şeirlər üstünlük təşkil edir. Bu da onun uzun müddət (33 ay) xəstə olması ilə əlaqədardır.

Muxayıl Göyçəlinin əlyazmalarında sadə və adi görünsə də belə, diqqətimizi çəkən bir nüansı da qeyd etməliyik. Çağdaş poeziyamızda yazılan şeirlərin sonluğunda qoyulan tarixlərə çox rast gəlinir. Bu isə son on illiklərin dəbidir – desək yanılmarıq. Lakin 1943-cü ilə aid əlyazmada hər bir şerin sonluğunda qoyulan tarixlər şairin mütərəqqi bir şəxs olduğunu deməyə imkan verir.

Təəssüflər olsun ki, belə istedadlı el şairinin şeirləri hələ ki, tam şəkildə toplanıb çap olunmamışdır. Muxayıl Göyçəlinin şeirlərini toplayıb çap etdirməyi özümüzün mənəvi borcu hesab edirik" [17, s.11–14].

"Daşkənd aşıqları və şairləri" kitabında şairin "İndi", "Çətindi", "Dolanmasın", "Məni", "Neyləyim", "Ayrılıqdı" rədifli qoşmalarını, "Var" rədifli bağlama-qıfılbəndini, "Yoxdu" rədifli gəraylısını, "Tərsinə gedər" rədifli cığalı təcnisini və "Əzizim" rədifli deyişməsini (Yarpızlı Aşıq İslamla) çap etdirmişdir [8, s.79–84].

**Aşıq Süleyman:** Hüseynov Süleyman Gülalı oğlu 1919-cu ildə Böyük Qaraqoyunlu kəndində doğulmuşdur. 2 yanvar 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Süleyman Hüseynov 903-cü atıcı alayın əsgəri olmuşdur. Sonuncu məktubu 1943-cü ilin yanvar ayında 1660 saylı səhra poçtundan gəlmişdir. 1943-cü ilin mart ayında itkin düşmüşdür [4, 58133173]. İstinad etdiyimiz saytdakı digər bir sənəddə sıravi Hüseynov Süleyman

Gülalı oğlunun Əzizli kəndində doğulduğu, 1942-ci ilin mart ayında itkin düşdüyü qeyd olunmuşdur [4, 87481236]. Yeri gəlmişkən, onu da qeyd edək ki, Böyük Qaraqoyunlu kəndinin adı Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 3 yanvar 1935-ci il fərmanı ilə dəyişdirilib Əzizli qoyulmuşdur [11, s.148].

Yaxın qohumu Şahvələd İsmayılovun verdiyi məlumata görə, Həsənov Gülalı Hüseyn oğlunun ailəsində doğulan Aşıq Süleymanın itkin düşməsi haqqında rəsmi məlumat verilsə də, cəbhə yoldaşlarının söylədiyinə görə, sovetlər uğrunda vuruşmamaq üçün ordudan yayınmışdır. Bundan sonra Türkiyəyə, oradan isə İrana keçmiş, XX əsrin 60-cı illərinə qədər Urmiya ellərində aşıqlıq etmişdir.

Aşıq Süleyman iki çağırış SSRİ Ali Sovetinin deputatı olmuş İman Hüseynovun böyük qardaşıdır.

**Aşıq Səfiyar:** Hüseynov Səfiyar Paşa oğlu 1920-ci ildə Daşkənd kəndində doğulmuşdur. ÜİLKGİ-nin üzvü olmuşdur. 20 yanvar 1942-ci ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Sıravi əsgər Səfiyar Hüseynov 1943-cü ilin sentyabr ayında itkin düşmüşdür [4, 63914855]. İstinad etdiyimiz "obd-memorial.ru" saytındakı digər bir sənəddə Hüseynov Səfiyarın 1924-cü ildə doğulduğu, 1943-cü ilin martında orduya çağırıldığı, 1944-cü ilin avqust ayında Rumıniyada itkin düşdüyü göstərilir [4, 68389259]. Yenə həmin saytdakı daha bir sənəddə isə Səfiyar Hüseynovun 1920-ci ildə doğulduğu, 1944-cü ilin dekabrında orduya çağırıldığı, 1945-ci ilin yanvar ayında son məktubunun gəldiyi və 1945-ci ilin fevral ayında itkin düşdüyü göstərilir [4, 64052409].

Daşkənd kəndində "Zeynallılar" nəslindən olan Aşıq Səfiyar gənc olmasına baxmayaraq qısa bir müddətdə nəinki Daşkənddə, eləcə də Göyçə mahalında istedadlı aşıqlardan biri kimi tanınmışdır. Aşıq Səfiyarın böyük qardaşı Ağayar (1912–1943/45) kamança və saz ifaçısı olduğundan qardaşının ustadı o, özü olmuşdur. Yeri gəlmişkən, o, bu sənəti əmisi oğlu müəllim və el şairi İsmayıl Hüseynova (1926–1995) da öyrətmişdir [8, s.101].

Aşıq Səfiyar 1938–1941-ci illərdə Zərkəndli Aşıq İdris Məhərrəmovun rəhbərlik etdiyi Basarkeçər aşıqlar ansamblının üzvü olmuş, ifaçı aşıq olaraq bir çox el şənliklərinin, dövlət tədbirlərinin iştirakçısı olmuşdur.

Aşıq Səfiyar 1938-ci ildə İrəvanda keçirilən Aşıqlar Müsabiqəsində fəal iştirak etmiş, festivalda III yeri tutmuş, döş nişanı ilə (əvvəllər anasında olan həmin nişan hazırda qızı tərəfindən qorunub saxlanılır) təltif edilmişdir.

Aşıq Səfiyar Fərək Balış qızı (1924–2006) ilə ailə həyatı qurmuş, Məmləkət adlı qızı olmuşdur.

***

Apardığımız bu araşdırmanı bitmiş hesab etmək olmaz. Belə ki, müharibədə həlak olan Göyçəli aşıq və şairlərimizi tam tədqiq etmək mümkün olmadı. Haqqında məlumat əldə edə bilməsək də adları bizə məlum olanlar var. Aşıqlardan Kazım Əhməd oğlu (İnəkdağ), Vəli Bahan oğlu (İnəkdağ) şairlərdən Əmirəhməd Məmmədov (Qızılvəng), Oruc Hacıyev (Zağalı) və başqaları haqqında gələcəkdə araşdırmalar aparmaq niyyətindəyik.

**Ədəbiyyat:**


1. Məhərrəmov, Ziyəddin. İrəvanda məktəbdarlıq və maarifçilik (1800–1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010
2. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998
3. Sazlı-sözlü Göyçə, (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999
4. ОБД Мемориал // https://obd-memorial.ru/html/
5. Məhərrəmov, Ziyəddin. XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər). Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997
6. Namazov, Qara. Aşıqlar (I kitab). Bakı: Səda, 2004
7. Nəbioğlu, Musa. Ozan-aşıq dünyası. Bakı: Nurlan, 2010
8. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008
9. Aşıq Şəmşir. Qulağımdan getmir səsi. "Azərbaycan gəncləri" qəz., Bakı, 1971, 16 mart
10. Şirinova, Rübabə. Zərnişanım gözlə, gözlə yolumu... // "Yada düşdü" jurnalı, 2017, İyun, № 28 // http://yadadushdu.org/journal/article/369
11. Bayramov, İbrahim. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002
12. Yaquboğlu, Araz. Aşıq İslam Yarpızlının həyat və yaradıcılığı haqqında // "Filologiya məsələləri" elmi toplusu, 2011, № 2
13. Yaquboğlu, Araz. Aşıq İslam Yarpızlının sənət dünyası // "Ozan dünyası" jurnalı, 2011, № 1 (4)
14. Zeynalov, Xasay. Göyçə mahalının tarixindən yarpaqlar. (əlyazma). Bakı: 2001
15. Durna qatarı – II. (toplayıb tərtib edəni: Məhəmməd Ələkbərli). Bakı: Nurlan, 2006
16. Yaquboğlu, Araz. Aşıq Əli Şairov. "Bütöv Azərbaycan" qəz., 2011, 27 iyul, № 25 (113)
17. Yaquboğlu, Araz. El şairi Muxayıl Göyçəli // "Elmi axtarışlar" jurnalı, 2010, № VI

## AŞIQ ABBASƏLİ NƏZƏROV

Azərbaycan aşıq sənətinin aparıcı qolu, sütunu Göyçə aşıq məktəbidir desək, yanılmarıq. Dəfələrlə ədəbiyyatşünaslar müxtəlif yazılarında bu məktəbin rolunu dəyərləndirmiş, yüksək qiymət vermişlər. Aşıq yaradıcılığının tədqiqatçılarından olan Elxan Məmmədli "Göyçə aşıq sənətinin əvəzsiz tədqiqatçısı" adlı məqaləsində yazır: "Azərbaycan aşıq poeziyasını Göyçəsiz təsəvvür etmək mümkünsüzdür. Poetik yaradıcılığın saz ahəngli qüdrətli nümunələrini yaradan Göyçə sənətkarları zəngin aşıq irsimizin əlçatmaz ustadları kimi həmişə diqqət mərkəzində olmuşlar" [1, s.3]. Bu məktəbin təşəkkül tapmasında və inkişafında Ağkilsə, Ağbulaq, Ardanış, Nərimanlı, Böyük Qaraqoyunlu, Kiçik Məzrə, Qızılvəng, Yarpızlı, Zərkənd və başqa kəndlərin ön sıralarında Daşkənd sənətkarlarının da yeri danılmazdır. Belə ki, Daşkəndin adını şöhrətləndirən onlarla aşıq və şair Göyçə aşıq məktəbində sazı və sözü ilə tanınmış, bu məktəbin inkişafında layiqli yer tuta bilmişlər. Təkcə Aşıq Ələsgərin ən sevimli şəyirdlərindən olan, erməni daşnakları tərəfindən belinə odlu samovar bağlanaraq öldürülən Aşıq Nəcəfin və Azərbaycan aşıq sənətində dastançı aşıq kimi məşhurlaşan, "Aşıq Alının Türkiyə səfəri" dastanının ifaçısı Aşıq Hacının adlarını çəkmək kifayətdir ki, Daşkənd sənətçilərinin Göyçə aşıq məktəbində yeri və mövqeyi bəlli olsun. Daşkənd kəndinin aşıq və şairləri haqqında tərəfimizdən zaman-zaman araşdırmalar aparılmış, elmi və publisistik məqalələr yazılmış, mətbuatda nəşr olunmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, bu sətirlərin müəllifinin hələ 2008-ci ildə "Daşkənd aşıqları və şairləri" adlı kitabı "Nurlan" nəşriyyatında çap edilmişdir.

Ənənəmizə sadiq qalaraq bu dəfə də Daşkənd kəndində doğulan aşıqlardan biri – Abbasəli Nəzərov haqqında oxucuları məlumatlandırmaq fikrindəyik.

Öncə onu bildirək ki, Aşıq Abbasəli Nəzərov haqqında yazılı mənbələrdə demək olar ki, məlumat verilməmiş, yazılanlar isə çox səthi və azdır. Belə ki, aşığın adına ilk rast gəldiyimiz mənbə tədqiqatçı alim Ziyəddin Məhərrəmovun "XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər)" mövzusunda yazdığı namizədlik dissertasiyası oldu. Dissertasiyanın "Sənətkarların sənət şəcərəsinə aid siyahı və folklor xəritəsi" adlı əlavələr bölməsi var. Alim bu bölmənin "XX əsrdə Göyçə mahalında yazıb-yaradan aşıqlar və el şairləri barədə geniş məlumat" başlıqlı hissəsinin 10-cu sırasındakı Daşkənd kəndinə aid cədvəlin 6-cı sətrində yazır: "Aşıq Abbasəli Hüseyn oğlu; 1916–1995; Bərdədə vəfat edib" [2, s.132]. Z.Məhərrəmovun verdiyi bu informasiyada yalnız aşığın adı və atasının adı doğrudur. Doğum tarixi, vəfat tarixi və vəfat yeri haqqında aşağıda daha düzgün və dolğun məlumat verəcəyik.

İkinci məlumatı isə hələ biz 2011-ci ildə Yarpızlı Aşıq İslam haqqında araşdırma apararkən müəyyən etmişdik. Belə ki, sənətşünaslıq namizədi Azad Ozan Kərimli "Göyçə aşıq məktəbi" adlı məqalələr silsiləsində Aşıq Hacı haqqında yazırdı: "Şair Məmmədhüseyn, Aşıq Nəcəf və Aşıq İslamdan sonra Göyçə mahalında Daşkənd kəndinin yetirdiyi ən sayımlı sənətkar 1931-ci ildə dünyaya göz açmış Aşıq Hacıdır. ...Onun, öz söylədiyinə görə, üç ustadı varıymış. Birinci ustadı, elə öz kəndçisi Aşıq Abbasəlinin (Nəzərov 1905–1910-cu illər arası dünyaya gəlib) söylədiyinə görə, şagirdlik etdiyi yarpızlı Aşıq İslam çox yaxşı söz deyərmiş, – sinədəftər imiş. İslamın isə ustadı Aşıq Əsədin

şagirdi və yeznəsi, II dünya savaşından qayıtmayan Aşıq Ziyad (o da Daşkəndlidi! – A.O.K.) imiş.

Aşıq Abbasəliyə, (özü də o 1945-ci ildə əsirlikdən qayıdıb gəldikdən sonra) 1 il qulluq etdikdən sonra atası onu Bala Məzrəli Aşıq Hüseynin yanına aparır. Bir il də onun yanında qaldıqdan daha sonra, nəhayət, Qanlılı Aşıq Mehdi onu şagirdliyə götürüb, dörd il yanında gəzdirir" [3]. Biz o zaman "Filologiya məsələləri" elmi toplusunda bu fikirlərə aşağıdakı kimi şərh vermişdik: "Müəllif ifadələrində yanlışlığa yol vermişdir. Belə ki, əvvəla Aşıq İslam Daşkənddən yox, Yarpızlı kəndindəndir, sadəcə İslamın anası Daşkənddəndir. İkincisi, Aşıq Abbasəli Nəzərov müəllifin yazdığı kimi 1905–1910-cu illər arasında yox, 1919-cu ildə anadan olub. Üçüncüsü isə Aşıq İslamın ustadının Aşıq Ziyad olması həqiqətə o qədər də uyğun deyil. Çünki Aşıq Ziyad 1917-ci ildə anadan olub. Belə çıxır ki, ustad şəyirddən 7–8 yaş kiçikdir. Bu da inandırıcı deyil. Adətən, ustad şəyirddən böyük olur. Zənnimizcə bizim gəldiyimiz qənaət daha doğrudur. Yeri gəlmişkən onu da qeyd edək ki, tam dəqiqləşdirilməmiş şəxsi araşdırmalarımıza görə Aşıq İslamın ustadı öz həmkəndlisi Yarpızlı Aşıq İman olmuşdur" [4, s.351]. Qeyd edək ki, 2011-ci ildəki bu açıqlamamızdan bir neçə ay sonra İkinci Dünya müharibəsində həlak olan və itkin düşən Daşkəndlilər ilə bağlı ətraflı araşdırmamız oldu. Məlum oldu ki, Aşıq Ziyad heç də 1917-ci ildə yox, 1911-ci ildə doğulubmuş [5; 6, s.645]. Biz 2008-ci ildə aşığın təvəllüdünü qohumlarının söyləmələrinə əsasən yazdığımızdan yanlışlığa yol vermişik [7, s.85].

Aşıq Abbasəli Nəzərov haqqında yuxarıda yazdıqlarımızdan əlavə olaraq bir neçə digər kitab və məqalələrdə də dastançı aşıq kimi məşhur olan Aşıq Hacı Bayramovun ilk

ustadı kimi xatırlanır, 1945-ci ildə ona bir il ustadlıq etdiyi qeyd olunur [8, s.199; 9, s.143; 7, s.133]. Aşıq Abbasəli Nəzərovun haqqında bəzi məqalələrdə isə yalnız ad, soyadına rast gəlinir, Daşkənd kəndində belə bir aşığın da olduğu yazılır [10, s.119; 11, s.107].

Biz "Daşkənd aşıqları və şairləri" kitabında Aşıq Abbasəli Xəlilovun həyatı haqqında bilgi verərkən onun ustadı Göyçə mahalının Yarpızlı kəndindən olan Aşıq İslamın, həmçinin Daşkəndli Aşıq Abbasəli Nəzərovun da ustadı olduğunu yazmışdıq [7, s.67]. Adı çəkilən kitabı yazarkən Aşıq Abbasəli Nəzərovun doğmaları ilə əlaqə saxlaya bilmədik. Ona görə də onun haqqında kitabdakı digər aşıq və şairlər kimi daha geniş məlumat vermək mümkün olmadı. Hər iki Abbasəlinin ustadından söz düşmüşkən onu da vurğulayaq ki, biz "Filologiya məsələləri" elmi toplusunda belə bir cümlə də yazmışdıq: "Aşıq İslam Yarpızlı Daşkənddən Aşıq Abbasəli Xəlilovun (1913–2007) və Aşıq Abbasəli Nəzərovun (1919–1992) ustadı olmuş, onların aşıq kimi yetişməsində əvəzsiz rol oynamışdır" [4, s.351]. Yuxarıdakı ifadəmizdə ilk dəfə olaraq Aşıq Abbasəli Nəzərovun doğum və vəfat tarixini səhih yazmış olmuşduq.

Yeri gəlmişkən, yuxarıda iki müxtəlif Aşıq Abbasəli adları çəkdik. Oxucularda çaşqınlıq yaranmasın deyə, buna aydınlıq gətirmək yerinə düşərdi. Çünki bəzən onlar dəyişik salına, yaradıcılıqları bir-birinə qarışa bilər. Ona görə də bu sahənin tədqiqatçıları diqqətli olmalıdırlar. Məhz bu üzdən biz bu aşıqların adlarını çəkərkən mütləq soyadlarını da yazırıq. Daşkənd kəndində iki Aşıq Abbasəli olub. Boylarına görə biri uzun, digəri isə gödək idi. El-obada onları fərqləndirmək üçün çox vaxt Abbasəli Xəlilova "Uzun Abbasəli", Abbasəli Nəzərova isə "Gödək Abbasəli" deyər-

dilər. Bu ənənə tarixən Göyçə kəndlərinin bir çoxunda eyni adlı insanları fərqləndirmək üçün bu və ya digər formada çox istifadə olunurdu. Hətta bu bədii ədəbiyyata, poeziyaya da sirayət etmişdir. Məsələn, İsrail Şairov Daşkənd sənətkarları haqqında yazdığı şeirdə də bu ənənəvi adlandırmadan istifadə etmişdir:

Abbasəlim – uzun, gödək,
Aşıq Novruz sinədə tək [7, s.277].

Aşıq Abbasəli Pirnəzərlilər (Pirnazarlılar) nəslində dünyaya gəlib. Pirnəzərlilər nəslinin ulu babalarının əslən Sulduz mahalından olduqları söylənilir. Bizə adı məlum olan Pirnəzərin Həsən (Hasan), Cəlil və Hüseyn adlı üç oğlu olub. Həsənin övladları: Abbas, Alı, Mirsəqulu, Hüseynqulu, Rzaqulu, Çəmən; Cəlilin övladları: Elbəyi, Səmər, Mehbalı, Xıdır; Hüseynin isə övladları Elyaz, Yəmən və Abbasəli (bu yazıda haqqında danışacağımız aşıq) olublar.

Nəzərov Abbasəli Hüseyn oğlu 1919-cu ildə Göyçə mahalının Daşkənd kəndində doğulmuşdur [12; 13; 14]. Aşıq Abbasəli Nəzərov ana tərəfdən Daşkəndli Şair Məmmədhüseynin nəticəsidir. Belə ki, onun anası Zinyət Məmmədhüseynin böyük oğlu Kərbəlayi Məhəmmədin qızıdır [15, s.19].

Aşıq Abbasəli 1939-cu ildə Basarkeçər Rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılmışdır [12]. Xidmətini başa vurub qayıtdıqdan bir müddət sonra Böyük Vətən müharibəsi başlayır və 1941-ci ilin sonlarında Basarkeçər RHK-ğı tərəfindən orduya səfərbər olunur. SSRİ Müdafiə Nazirliyinin arxivlərində saxlanılan və hal-hazırda "obd-memorial.ru" saytında paylaşılan sənədlərdən aydın olur ki, Abbasəli Nəzərovun xidmət etdiyi 30-cu İrkutski

atıcı diviziyanın 35-ci atıcı alayı 1941-ci il dekabr ayının 5-də Alman qoşunları tərəfindən bütünlüklə əsir götürülmüşdür [13; 14]. Bir neçə aylıq əsirlikdən sonra ya azad olunmuş, ya da əsirlikdən qaçaraq azad ola bilmişdir. Bundan sonra 15 mart 1942-ci ildən döyüşlərdə tağım komandiri kimi xidmət etmişdir. O, əsasən Moldaviyada, Rostov-na-Donuda döyüşlərdə iştirak edir. 15 noyabr 1942-ci ildə döyüş zamanı yaralanır. Müalicə olunduqdan sonra – 1942-ci ilin dekabrında ordudan tərxis olunur [16]. Müharibədən qayıtdıqdan sonra Daşkənd kənd orta məktəbində hərbi müəllim işləmişdir. Qeyd edək ki, Azad Ozan Kərimli də Aşıq Hacı Bayramovun söylədiklərinə əsasən Aşıq Abbasəli Nəzərovun əsirlikdə olduğunu, 1945-ci ildə qayıdıb gəldiyini qeyd etmişdi [3]. Bizim gəldiyimiz nəticəyə görə Abbasəli Nəzərov 1942-ci ilin dekabrında ordudan tərxis olunub. Azad Ozan Kərimli isə 1945-ci ildə əsirlikdən qayıtdığını yazır. Bu məsələ hələlik açıq qalır və qəti söz demək çətindir.

Abbasəli Nəzərov müharibədə iştirakına görə “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 20 illiyi” yubiley medalı (09.05.1966), “İgidliyə görə” medalı (08.06.1967) [12], “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 30 illiyi” yubiley medalı (25.03.1976), “SSRİ Silahlı Qüvvələrinin 60 illiyi” yubiley medalı (29.08.1978), II dərəcəli “Vətən Müharibəsi” ordeni (06.04.1985) [17], “1941–1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 40 illiyi” yubiley medalı (05.05.1985), “SSRİ Silahlı Qüvvələrinin 70 illiyi” yubiley medalı (19.05.1988) ilə təltif olunmuşdur [18].

Aşıq Abbasəli 1953-cü ilin may-iyun aylarında həmkəndliləri ilə birlikdə Basarkeçər rayonunun Daşkənd kən-

dindən Bərdə rayonuna deportasiya olunmuşdur. 1979-cu ilədək Bərdə rayonunun Yeni Daşkənd kəndində yaşadıqdan sonra ailəsi ilə birlikdə Naftalan şəhərinə köçməli olmuşdur. 5 iyun 1992-ci ildə Naftalan şəhərində vəfat etmiş və şəhər qəbiristanlığında dəfn olunmuşdur [18].

Aşıq Abbasəli Nəzərov Abutel Paşa qızı ilə ailə həyatı qurmuş, Fərzəli (Əhliman), İman, Səmədvurğun (Səməndər), Mehmandar, Kamandar, Ədalət adlı altı oğlu, Sarıtel, Tahirə və Rahilə adlı üç qızı olmuşdur.

Abbasəli uşaqlıqdan saza, musiqiyə, sözə maraq göstərmişdir. Doğulduğu ailənin hər iki tərəfi el sənətkarları olmuşlar. Əmisi Cəlilin oğlu Mehbalı dövrünün mahir qara zurna ifaçısı kimi məşhur sənətkarlardan olmuşdur. Onun da taleyi həmkəndlisi Aşıq Nəcəfinkinə bənzəmiş, xain erməni xislətinin qurbanı olmuşdur. Bu gün də Daşkəndlilərin dilində el misalına çevrilən "Ölsəm də, dü də demərəm" sözü Mehbalıdan qalıb. Belə ki, təxminən 1939-cu ildə Mehbalı şərə düşmüş, bir oğurluq hadisəsində günahlandırılaraq Kəvər türməsində saxlanılırmış. Türmənin rəisi bir gün Mehbalıya təklif edir ki, İrəvandan türməyə gələcək generalın qarşılanmasında zurna ifa etsin və bunun müqabilində azad olunsun. Mehbalı üzdə razı olsa da, fikrində onu aldadaraq qarşılanma məqamında nə qədər təkid etsələr də zurnanı ifa etməmiş və belə demişdir: "Gavır köpək oğlu, türk oğlu sizi şənləndirməz. Ölsəm də, dü də demərəm". Qeyd edək ki, Mehbalı elə bir mahir ifaçı imiş ki, dağın döşünə yayılıb otlayan qoyun-quzu onun ifasının səsinə yanına toplaşarmış. Sonralar Daşkənddə Məcid Şıxəliyev və Zamaxan Qəhrəmanov da belə bir istedadlı sənətkar olacaq, Mehbalının ifaçılıq məharətini təkrarlaya biləcəkdilər.

Əvvəldə də vurğulamışdıq ki, Aşıq Abbasəli Nəzərovun anası Zinyət XIX əsr Azərbaycan şairi Məmmədhüseynin nəvəsidir. İrsi olaraq istedadın Abbasəliyə ötürülməsi heç də təəccüblü deyil. Aşıq Abbasəli sənətə başladığı ilk illərdə balabançılıq da etmiş, əvvəlcə Aşıq Səfiyarın balabançısı olmuş, sonralar səsinin də yaxşı olduğundan aşıqlığa üstünlük vermişdir. O, sənət yoldaşlığı etdiyi həmkəndliləri Aşıq Ziyad, Aşıq Əli Şairov, Aşıq Abbasəli Xəlilov, Aşıq Səfiyar kimi nəhənglərlə ayaqlaşa bilmiş, bəzən onlardan da üstün olmuşdur. Aşıq Abbasəli Nəzərov Aşıq İslam Yarpızlı kimi ustad aşığa şəyirdlik etmişdir. Özü isə Aşıq Hacı Bayramovun ilk ustadı olmuş, sazın-sözün incəliklərini – belə demək mümkünsə, əlifbasını ona öyrətmişdir.

1953-cü ildəki məlum köçürülmədən sonra Aşıq Abbasəli Nəzərov aşıqlığını Bərdə rayonunun Yeni Daşkənd kəndində davam etdirmişdir. Bərdə rayon mədəniyyət evinin üzvü olmuş, respublika tədbirlərində fəal iştirak etmişdir. O 1961-ci il 27 apreldə keçirilən Azərbaycan Aşıqlarının III qurultayının iştirakçısı olmuşdur. Qurultay sonrası çəkilən və o illərdən xatirə kimi saxlanılan nadir fotoşəkili də Aşıq Abbasəlinin ailə albomundan əldə etmişik. 1970-ci illərdə Aşıq Abbasəlinin bacısı Yəmənin oğlu, balaban və qara zurna ifaçısı Əjdər Qədirov Yeni Daşkənd Mədəniyyət evinin direktoru idi. Bu mədəniyyət evinin üzvlərinin respublika tədbirlərində fəal iştirakına görə hətta Bərdə rayon Yeni Daşkənd Mədəniyyət evinin direktoru Qədirov Əjdər Papır oğluna 24 may 1978-ci ildə Azərbaycan SSR Əməkdar Mədəniyyət işçisi fəxri adı verilmişdir [19].

Sirr deyil ki, şair və aşıqlar dağlara, yaylaqlara daha çox bağlı insan olurlar. Hətta dağlıq ərazilərdə arana nis-

bətən söz sahibləri çoxluğu ilə həmişə seçilir. Aşıq Abbasəli Nəzərov da üç ay yayı Kəlbəcərin və Göyçənin füsunkar gözəllikləri ilə insanı valeh edən, dağların qoynunda yerləşən kəndlərində keçirmişdir. Göyçənin Sarı bulağı, Tərsə dağı, Hacı Qurban yaylağı, Kəlbəcərin Sarı yeri, İstisuyu, Zülfüqarlısı, Taxta yurdu onun saz sinəsində seyrangahı olardı. Belə günlərin birində – 1955-ci ildə Aşıq Abbasəli Nəzərov Kəlbəcərin İstisu kurortunda Səməd Vurğunla görüşür. Görüşdə Şair Məmmədhüseynin nəticəsi olduğunu Xalq şairinə bildirmiş, şirin söhbətlər etmiş, şeirləşmişlər. Həmin görüşdən təsirlənən aşıq "Xoş gəldin" və "Vurğuna" adlı şeirlər də yazmışdır [20, s.4]. Sonralar Aşıq Abbasəli bu görüş haqqında dönə-dönə söhbətlər edər, Səməd Vurğunla görüşündən qürur duyardı. Aşıq Abbasəlinin doqquz övladından dördünün adı tanınmış aşıq və şair adları (İman, Səmədvurğun, Kamandar, Ədalət) olması da onun aşıq sənətinə nə qədər bağlı olduğunun bariz nümunəsidir.

Aşıq Abbasəli Nəzərov mənim xatirimdə həm də bir nüansı ilə daha çox xatırlanır. Onun səliqə-sahmanlı geyimi, üzünün həmişə təraşlı olması, çəkmələrinin bərq vuran parıltısı çox diqqətçəkici idi. O, toylarda, el məclislərində aşıq geyimində olar, özündən əvvəlki aşıqlıq ənənələrini yaşadar, oturuşu-duruşu, ədəb-ərkanı ilə gənc sənətkarlara nümunə olardı.

Aşıq Abbasəli Nəzərov sonralar Naftalan şəhərinə köçərək orada yaşayırdı. Aşıq Göyçə, Kəlbəcər, Bərdə ədəbi mühiti ilə əlaqələri kəsmədən burada da bölgənin aşıq və şairləri ilə sıx təmasda olur, el-oba şənliklərində aktiv iştirak edirdi.

Aşıq Abbasəli Nəzərov ifaçı və yaradıcı aşıq olaraq Göyçədə tanındığı kimi, XX əsrin ikinci yarısında Bərdədə, Naftalanda, Tərtərdə, Goranboyda, Kəlbəcərdə daha çox tanındı. Şair və aşıqlarla sənət yoldaşlığı etdi. O, Şirvan aşıqlarından Şakir Hacıyev, Bəylər Qədirov, Göygöldən Aşıq Məhərrəm Hacıyev, Goranboyun Balakürd kəndindən balabançı Binnət, Səfikürd kəndindən balabançı Kərəm, Qızılhacılı kəndindən balabançı Cəmil, Aşıq Saleh (Göyçəli), Tapqaraqoyunlu kəndindən Bisavad Teymur, Tərtərin Qaradağlı kəndindən balabançı Şavağat, Kəbirli kəndindən Aşıq Qaçay, Kəlbəcərdən Aşıq Şəmşir, Qəmkeş Allahverdi, Aşıq Qardaşxan, Balabançı Salman, öz həmkəndlilərindən balabançılar Əjdər, Əli, aşıqlar Abbasəli Xəlilov, Novruz Şairov, Hacı Bayramov, Nuriddin İsgəndərov ilə tərəf müqabili oldu.

İfaçılığı zamanı repertuarında daha çox Şair Məmmədhüseyn, Aşıq Alı, Aşıq Ələsgər, Həsən Xəyallı, İsmixan, Alqayıt, Sərraf Şiruyə, şair Səfər, Sücaət, Bəhman Vətənoğluna yer verər, onların şeirlərini oxuyar, "Baş sarıtel", "Orta sarıtel", "Ruhani" aşıq havalarını ifa edərdi. O həmçinin "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Abbas və Gülgəz" dastanlarından da ayrı-ayrı parçaları el şənliklərində xüsusi şövqlə ifa edərdi. Aşıq Abbasəli Nəzərov ifaçı olmaqla yanaşı, həm də yaradıcı aşıq idi. Hələlik aşığın 10 şeirini əldə edə bilmişik. İnanırıq ki, onun hələ neçə-neçə şeir nümunələrini də əldə edib çapına nail olacağıq.

***

Aşıq Abbasəli Nəzərovun əmisi Hasan kişi haqqında da bu məqalədə bəzi məqamlara toxunmaq istərdik. Pirnazar oğlu Hasan toylarda, el şənliklərində məclisin şux keçməsi,

maraqlı və baxımlı olması üçün oynamağı, toybəyiliyi və müəyyən şən hərəkətlər etməsi ilə də yaddaşlarda qalıb. Onun iştirakçısı olduğu toylar xüsusi folklor ənənələri (at yarışı, şax oynatmaq və s.) ilə seçilərmiş.

Aşıq Ələsgərin aşağıda verdiyimiz "Qoymadı" rədifli qoşmasının ikinci bəndində adı çəkilən Hasan məhz Aşıq Abbasəli Nəzərovun əmisi Pirnazar oğlu Hasandır:

...Yar çıxdı qarşıma yaman halımda,
Gözüm qaldı o bimürvət zalımda.
Söynalı başını qoydu yolumda,
Hüseyn pəl vurdu, Hasan qoymadı [21, s.19].

Şeir haqqında "Aşıq Ələsgər" kitabının "Qeydlər" bölümünün 6-cısında yazılır: "Şeirdə adı çəkilən Söynalı Aşığın şəyirdi, Hüseyn isə zurnaçı imiş. Hər ikisi Göyçənin Çaxırlı, Hasan isə Daşkənd kəndindən imiş" [21, s.175]. Şeirdən və qeyddən də anlaşılır ki, Hasan kişi Aşıq Ələsgərin də aşığı olduğu toylarda, məclislərdə olub. Pirnazar oğlu Hasanın Aşıq Ələsgərlə aralarında olan bir əhvalata da aydınlıq gətirməyimiz labüd görünür. Belə ki, bu əhvalat bir çox hallarda yanlış söylənilir, dinləyicilər və oxucular arasında anlaşılmazlığa səbəb olur. Öncə Sərraf Şiruyənin "Aşıq Nəcəf və Gülüstan" dastanından mövzu ilə bağlı bir hissəyə də diqqət yetirək:

"Aşıq Ələsgər Daşkənd kəndində Hacı Kərimin oğlu Muxtarın toyuna aşıq çağırılmışdı. Şəyirdi Əsədlə üç gün, üç gecə çaldılar, oxudular. Toyun üçüncü gecəsi Aşıq Ələsgərə dövran yığmışdılar. Çoxları da aşığın dövranına toğlu, keçi, çəpiş yazılmışdı. Səhər aşıq gedəndə qabağına qatacaydılar" [22.s,351]. Dastanın müəllifi Nəcəfin məhz hə-

min toyda şəyirdliyə götürüldüyünü də təfsilatı ilə yazmışdır. Toyun üçüncü gününün səhərisi Aşıq Ələsgərin yola salınması dastan dilində belə nəql olunur:

"Bəli, əzizlərim, səhəriniz xeyirliyə açılsın, elə ki, səhər açıldı, Allahverdi kişi Nəcəfin pal-paltarını qoltuğuna verib, özüynən bərabər Hacı Kərimin qapısına gəldi. Hacı Kərim aşığın dövranına yığılan toğluların yanındaydı. Bir azdan Aşıq Ələsgər də, Əsəd də, qapıya çıxdılar. Allahverdi kişiyə, Nəcəfə sabahın xeyr dedilər. Bu arada, haradansa, Pirnazaroğlu Hasan da gəlib çıxdı.

Baxdı kı, aşığın dövranına çəpiş verən də var. Dedi, – Aşıq Ələsgər, ayıb olar Daşkənddən Ağkilsəyə çəpiş aparasan. Çəpiş mənə qalsın, sənə bir toğlu verim. Aşıq Ələsgər, "sağ ol" deyib, razılığını bildirdi. Hasan kişi getdi, bir azdan atın qucağında toğlunu gətirib aşığın toğlularına qatdı. Aşıq Ələsgər camaatla görüşüb, heyvanları da Əsədlə Nəcəfin qabağına qatıb yola düşdü. Yol boyu on toğlu bir yana oldu, Hasan verən toğlu bir yana, nə heyvanlara yaxınlaşdı, nə yolnan düz getdi, ağzı hara düşürdü qaçırdı. …Səhər Əsədlə Nəcəf oyandılar ki, Ələsgər kişi heyvanı sürüyə qatır, amma Hasan verən toğlu getmir. Ora-bura qaçır. Çox çalışdılar, mümkün olmadı, naəlac qalan Aşıq Ələsgər toğlunu gətirib hörüklədi. Bu minval ilə bir həftə gəldi keçdi, ancaq ki, toğlu hörükdə qaldı Ələsgər kişi istədi toğlunu geri qaytarsın, fikirləşdi ki, düzgün çıxmaz. Nəcəfi çağırdı:

– A Nəcəf, hazırlaş, get bir evinizə baş çək, gəl. Pirnazar oğlu Hasana da bir tapşırığım var, onu da çatdır. Nəcəflə Əsəd işi başa düşdülər. Nəcəf dedi, Ələsgər əmi, hazıram, nahar eləmişəm. …Aşıq Ələsgər Hasana deyəcək

tapşırığı Nəcəfə dedi. Görək necə dedi. Biz deyək, eşidənlər xoşbəxt olsun.

Bizdən salam olsun, ay Hasan qardaş,
Əzəl başdan səhv eylədin bu işi.
Toğlun dəli çıxıb, getmir qoyuna,
Göndər gəlsin bizim ala çəpişi…” [22, s.352–353]

Pirnazar oğlu Hasanla bağlı olan bu əhvalata Abbas Vəfadağlı da “Ulu Göyçəm” adlı kitabında yer vermişdir. Böyük Qaraqoyunlu kənd sakini Rzayev Məşədi Mürsəl Əhməd oğlunun söhbəti əsasında müəllifin qələmə aldığı “Aşıq Nəcəflə Aşıq Əsədin Şəmşəddin səfəri” adlı yazısında oxuyuruq. O yazır:

“Günlərin bir günü kəndə səs yayılır ki, bəs deməzsənmi, Aşıq Nəcəfin oğlunun sünnət toyudur. Bozalqanlı Aşıq Hüseyn başının dəstəsi ilə gəlir kəndə, atları birbaşa sürürlər Aşıq Ələsgərin həyətinə” [23, s.279]. Abbas Vəfadağlı dastan-əhvalat janrlı yazısında Aşıq Ələsgərlə Bozalqanlı Aşıq Hüseynin görüşünü, söhbətlərini, bir-birilərinə şeir demələrini də qeyd etdikdən sonra davam edir:

“Sünnət toyu yaylaqda, Tərsə dağında keçirilir. Bu yaylaqda olan on səkkiz çoban sürülərini vururlar çəpərlərə. İtləri açırlar, özləri də gəlirlər məclisə. Ancaq, qonaq-qara o qədər çox olur ki, çobanlara yer çatmır. Aşıq Nəcəf irəli durur, əyləşənlər arasında olan qohumlarına xahiş eləyir ki, durub çobanlara yer eləsinlər. Çobanlar əyləşirlər və nəmər olaraq, Allah qoysa, oğlaqqıranda on səkkiz toğlu gətirəcəklərini bildirirlər.

Aşıq Nəcəf deyir ki, a kişi, heç nə lazım deyil, keçin əyləşin, ürəyiniz istədiyi kimi yeyin-için. Bu toy dağların

toyudu, dağların da yiyəsi, xeyir-bərəkəti, varı-dövləti siz-siniz.

Deyilənlərə görə, yaylaqda gözəl bir sünnət toyu baş tutur. Kirvə isə aşıq Hüseynin qohumu Bozalqanlı Ələs olur” [23, s.281]. Müəllif dastan-əhvalatda 1919-cu ildə Göyçədə baş verən hadisələri, Səməd ağanın və Aşıq Nəcəfin faciəli ölümlərini də yazdıqdan sonra sonluğu belə bitirir:

“İlqar-iman, çobanlar, həqiqətən də oğlaqqıranda toğluları yığırlar. Daşkəndli Şahnəzər kişi deyir ki, mənim nəmərliyə layiq toğlum yoxdu, mən çəpiş verəcəm. Çobanlar razılaşmırlar ki, söz danışıqdan keçər, biz toğlu söz vermişik. Şahnəzər də gətirib toğlu verir. Amma, iş elə gətirir ki, toğlu dəli çıxır. Aşıq Ələsgər zarafat eləmək üçün götürüb çobanlara belə bir ismarıc göndərir:

Başına döndüyüm, Şahnəzər qardaş,
Əzəldən pis qurdun, vallah, bu işi.
Toğlun dəli olub sürüyə getmir,
Göndər gəlsin bizim ala çəpişi” [23, s.282].

Əvvəla onu bildirim ki, Daşkənddə Pirnazar oğlu Hasan başqa, Şahnazar oğlu Hasan isə başqa bir şəxsdi. Başqa-başqa nəsillərdəndilər. Sadəcə adları eyni, ata adlarında isə oxşarlıq var. Abbas Vəfadağlı Pirnazarla Şahnazarı səhv salır. Müəllif şeiri də Şahnəzərə (!) müraciətlə verir. Halbuki, şeir Pirnazarın oğlu Hasana yazılıb. İkincisi isə Aşıq Ələsgərlə Bozalqanlı Aşıq Hüseynin söylənilən tərzdə görüşü də mübahisə obyektidi. Aşıq Ələsgərlə Bozalqanlı Aşıq Hüseyn məlum sünnət məclisində görüşərkən toyda ağsaqqal kimi iştirak ediblər, aşıq kimi yox. Toyun aşığı da

Aşıq Əsədlə Aşıq Qurban olub. Hətta həmin görüşə Bozalqanlı Aşıq Hüseyn bir neçə nəfərlə, özü də sazsız gəliblərmiş. Bu barədə Aşıq Talıbın xatirələrindən də ətraflı məlumatlanmaq olar [24, s.523]. Üçüncüsü də çəpiş əhvalatı olanda Nəcəf hələ şəyirdliyə götürülürdü, heç evlənməmişdi. Digər bir məsələ də odur ki, Aşıq Nəcəfin oğlunun sünnət toyuna verilən nəmərlik toğluya və ya keçiyə Aşıq Ələsgər niyə şeir yazmalıydı ki? Əhvalatlar yazılarkən təəssüf ki, dəqiqləşdirmə aparılmamışdır. Ona görə də ciddi qüsurların olduğu göz önündədir. Məhz bu səpkili yanlış məlumatlar haqlı olaraq oxucular və tədqiqatçılar arasında çaşqınlığa səbəb olur. Hətta onu da qeyd edim ki, "Şahnazarlılar tayfasından Şahnazar oğlu Hasan kişi 17 il kəndin (Daşkəndin – A.Y.) koxası olmuşdur" [11, s.103]. Elə bu səbəbdən də onun bu əhvalatın iştirakçısı olması inandırıcı görünmür. Daha doğru olanı əvvəldə verdiyimiz Sərraf Şiruyənin "Aşıq Nəcəf və Gülüstan" dastanındakı variantdır.

**Ədəbiyyat:**


1. Məmmədli, Elxan. Göyçə aşıq sənətinin əvəzsiz tədqiqatçısı // Aşıq Talıb. Könlüm Vətən arzular. Bakı: Elm və təhsil, 2013
2. Məhərrəmov, Ziyəddin. XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər). Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya / AREA Ədəbiyyat İnstitutu, Bakı: 1997
3. Kərimli, Azad Ozan. Göyçə aşıq məktəbi (məqalələr silsiləsi) // http://www.musigi-dunya.az/new/added.asp?action=print&txt=144
4. Yaquboğlu, Araz. Aşıq İslam Yarpızlının həyat və yaradıcılığı haqqında // "Filologiya məsələləri" elmi toplusu, 2011, №2
5. Мамедов Зият Мадрович // https://obd-memorial.ru/html/info.htm?id=85431906
6. Azərbaycan Respublikası Xatirə Kitabı. XI cild, M (Mu...-N). RXKR, Bakı: 2011
7. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008

8. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998
9. Bədəlov, Məhərrəm. Aşıq Hacı oxuyanda... // Aşıq Hacı Göyçəli. Mənim sazlı, sözlü dünyam. Bakı: Zərdabi LTD MMC, 2008
10. Zeynalov, Xasay. Göyçəsiz günlərim. Bakı: Nurlan, 2006
11. Məhərrəmov Qəşəm, Məhərrəmov İntiqam. Başı dumanlı Göyçə. Bakı: E.L., 2007
12. Назаров Аббосали Гусейн-оглы // https://pamyat-naroda.ru/heroes/podvig-nagrada_kartoteka1273960005/
13. Назаров Апас-Али Кусинович // https://obd-memorial.ru/html/info.htm?id=50232141
14. Назаров Апас-Али Кусинович // https://obd-memorial.ru/html/info.htm?id=63684932
15. Daşkəndli Şair Məmmədhüseyn. Yatıb oyanmaz, oyanmaz.... Bakı: Nurlan, 2005
16. Goranboy RHK-nın 18.06.1991-ci il tarixli, 4/643 nömrəli arayışı
17. Назаров Аббасали Рустам-оглы (mənbədə ata adı səhv yazılıb) // https://pamyat-naroda.ru/heroes/podvig-chelovek_yubileinaya_kartoteka1512702006/
18. Yaquboğlu, Araz. Daşkənd kəndinin İkinci Dünya Müharibəsi Veteranları. “goyce.az” saytı, 09.05.2021 // http://goyce.az/news.php?id=1739
19. Respublikanın mədəniyyət və maarif idarələri işçilərinə Azərbaycan SSR Əməkdar mədəniyyət işçisi fəxri adı verilməsi haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24.05.1978-ci il tarixli fərmanı // http://www.anl.az/down/he_serencamlar.pdf
20. Səməd Vurğunla Aşıq Abbasəlinin deyişməsi. “Naftalan” qəz., Naftalan, 2014, 19 may
21. Aşıq Ələsgər. Seçilmiş əsərləri. Şeirlər. (tərtib edəni, ön sözün və qeydlərin müəllifi: İslam Ələsgərov). Bakı: Yazıçı, 1988
22. Həsənoğlu, Şiruyə. Ağlama, bülbül, ağlama. Bakı: “Gəncə” nəşriyyatı, 1994
23. Vəfadağlı, Abbas. Ulu Göyçəm. Bakı: Renessans, 2017
24. İslam Ələsgər. “Aşıq Ələsgərlə Bozalqanlı Aşıq Hüseyn haqqında rəvayət” və mənim başıma gələn hekayət // Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətlər, xatirələr. (toplayıb tərtib edəni, ön sözün və qeydlərin müəllifi: İslam Ələsgər). Bakı: Şərq-Qərb, 1999

## SOYLU SƏNƏTİN SOYLU DAVAMÇISI

Ötən əsrlərdə olduğu kimi çağdaş zəmanəmizdə də aşıqlar yetişməkdə və tanınmaqdadırlar. Belə aşıqlardan biri də Göyçə aşıq məktəbinin davamçısı Aşıq Firudindir.

İsgəndərov Firudin Abid oğlu 22 yanvar 1967-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Doğulduğu ailədə onun qulaqları ana laylası ilə bərabər, həm də sazın həzin səsini eşitmiş, o səsi dinləməkdən usanmamışdır. Sonralar onun anası Röyzə xatırlayırmış ki, – "O mənim laylamdan tez sazın səsinə yuxuya gedərdi". Onu da xatırladaq ki, Röyzənin atası Hidayət kişi də sazın-sözün yaxşı anlamda "dəlisi" olub. Hidayət kişinin telli sazının səsi onu dinləyənlərin qulaqlarından hələ də getməyib. Bu ailədə aşıqların çox olmasının əsas səbəbi də ana babalarından gəlmə fitri istedad olmuşdur. Firudinin atası Abid Əmrəli oğlu (1930–1984) da gözəl saz çalıb oxuyarmış. Firudinin ilk ustadı atası olsa da, aşıq sənətini özündən böyük qardaşları Aşıq Nuriddin və Viləddindən öyrənmişdir.

Aşıq Firudinin böyük qardaşı Aşıq Nuriddin Azərbaycanın tanınmış aşıqlarındandır. O uzun müddət Aşıq Hacı Göyçəli (1931–2011) ilə ağır el məclisləri keçirmiş, ona şəyirdlik etmişdir. Onunla bərabər ifa etdikləri "Aşıq Alının Türkiyə səfəri" dastanı hələ 1980-ci illərdən bu yana saz-söz sevənlərin yaddaşlarından silinməyib və bu günə kimi Dövlət Televiziyasının qızıl fondunda ölməz sənət əsəri kimi qorunub saxlanılır.

Aşıq Firudin 1984-cü ildə doğma Daşkənd kənd orta məktəbini bitirdikdən sonra Saxalin və Kuril adalarında

əsgəri xidmətdə (1985–1987) olmuşdur. O, 1987-ci ildə hərbi xidmətdən qayıtdıqdan sonra Sənaye Texnikumuna qəbul olmuş, 1990-cı ildə həmin texnikumu müvəffəqiyyətlə bitirmişdir.

Aşıq Firudin 1988-ci ildə baş verən məlum hadisələrlə əlaqədar doğma yurdu Göyçə mahalına qayıda bilməmiş və Bakı şəhərində məskunlaşmışdır. 1991-ci ildən "Aşıq Ələsgər" adına mədəniyyət evində saz-solo ifaçılıq sənətini gənclərə öyrətməyə başlayıb. 1995-ci ildən isə ustad aşıq kimi fəaliyyət göstərir. Neçə-neçə şəyirdlərinə saz havaları öyrədir, aşıq sənətini gənclərə sevdirməyi bacarır. Qardaşı Viləddinin oğlu Şöhrəddin də solo saz ifaçılığını Aşıq Firudindən öyrənmişdir. Aşıq Firudin elə gün olmaz ki, əlinə saz alıb çalıb oxumasın. O, 60-a qədər saz havası, bir neçə dastan və onlarla dastanların müəyyən hissələrini çalır və oxuyur.

Ustad aşıq öz səmimiliyi və sədaqəti ilə də seçilir. Hələ uşaqlıqdan yoldaşlıq və dostluq etdiyi, 1991-ci ildən isə bir yerdə çalıb-oxuduğu tərəf müqabili Aşıq Arzumanı (1966–2010) itirən Aşıq Firudin bu gün onun ən çox sevdiyi "Nəcəfi", "Məmmədhüseyni" havalarını təkrar-təkrar oxumaqla onu yad edir və heç zaman onu unutmur.

Aşıq Firudin İsgəndərov hal-hazırda Bakı şəhərində yaşayır və aşıqlığını davam etdirir, el şənliklərində müntəzəm çıxışlar edir.

Ailəlidir, iki övladı var.

## AŞIQ HACI DA KÖÇDÜ...

Sazlı-sözlü adamlar el-oba arasında həmişə ucada tutulub, hörmətli başbilən sayılıblar. Belə adlı-sanlı, könülləri fəth eyləyən ustad aşıqlardan biri də Aşıq Hacı Göyçəlidir.

Bayramov Hacı Abbas oğlu 22 iyun 1931-ci ildə Göyçə mahalının Daşkənd kəndinin "Hacı Qurban" yaylağında anadan olub. Hələ uşaq yaşlarından aşıqlığa həvəs göstərən Hacını atası (o, sazın-sözün vurğunu idi) Qərib Abbas 1945-ci ildə həmkəndlisi Aşıq Abbasəli Nəzərova şəyird vermiş və bir ildən sonra Bala Məzrəli Aşıq Hüseynin yanına şəyirdliyə göndərmişdir. Aşıq Hacıda olan fitri istedadı nəzərə alan qüdrətli sənətkar Qanlılı Aşıq Mehdi 1947–1950-ci illərdə ona ustadlıq etmişdir. Aşıq Hacı ustad aşıq kimi bir neçə şəyirdə aşıqlıq sənətinin sirlərini öyrətmişdir. Balakişi (Qanlı kəndi), Aşıq Səlim (Qaraqoyunlu kəndi), Aşıq İslam (Aşağı Şorca kəndi) Aşıq Hacının yanında aşıqlıq sənətinin sirlərinə yiyələnmişlər. Aşıq İslam düz on il (1968-ci ildən 1978-ci silədək) ondan sənətin incəliklərini öyrənmişdir. Bundan sonra Aşıq Hacı 1978-ci ildən başlayaraq öz həmkəndlisi Nuriddin İsgəndərovu özünə şəyird götürmüş və onunla neçə-neçə ağır məclislər yola salmışdır. Həmin vaxtlarda Aşıq Hacı Aşıq Nuriddin cütlüyü nəinki Göyçədə, eləcə də Qarabağda, Borçalıda, Gəncə-Qazax bölgələrində də kifayət qədər məşhurlaşmış və bu yerlərdə də el məclislərinə dəvət olunmuşdular.

1981-ci ildə Aşıq Hacı Aşıq Nuriddinlə birlikdə dövlət televiziyasında "Aşıq Alının Türkiyə səfəri" dastanını, 1985-ci ildə isə "Şəmkirli Aşıq Hüseyn" dastanını söylə-

mişlər və hər iki dastanın lent yazısı televiziyanın "Qızıl fonduna" daxil edilmişdir.

Aşıq Hacı 1984-cü ildə Azərbaycan aşıqlarının IV qurultayına nümayəndə seçilmiş və qurultayda fəal iştirak etmişdir. Ustad aşıq 1991-ci ildə Almaniyaya qastrol səfərinə getmiş və Almaniyanın bir sıra şəhərlərində konsertlər vermiş, Azərbaycan aşıq sənətinin layiqli nümayəndəsi olduğunu göstərmiş, Göyçə aşıq məktəbini layiqincə təmsil etmişdir.

1996-cı ildə Xalq şairi Səməd Vurğunun anadan olmasının 90 illik yubileyi münasibətilə keçirilən tədbirdə fəal iştirakına görə Aşıq Hacı "Şah İsmayıl Xətai" adına fəxri fərmanla təltif olunub.

24–30-u oktyabr 1992-ci ildə Türkiyənin Konya şəhərində keçirilən Ümumtürk aşıqlar müsabiqəsində Aşıq Hacı, Aşıq Mahmud, Gülarə Azaflı və balabançı Əkbər Həsənovdan ibarət Azərbaycan nümayəndə heyəti iştirak etmiş və 27 oktyabrda hər iki ustad (Aşıq Hacı, Aşıq Mahmud) qızıl medala layiq görülmüşlər.

Aşıq Hacı Göyçəli 2002-ci ildə "Koroğlu dastanı" əsasında çəkilən "Koroğlu" filmində aparıcı aşıq rolunda çəkilmişdir.

1988-ci ildə erməni təcavüzünə məruz qalan azərbaycanlılar Qərbi Azərbaycandan, eləcə də Göyçədən vəhşicəsinə sıxışdırılıb çıxarıldığı vaxt Aşıq Hacı da ailəsi ilə birlikdə Şəmkir rayonunun Çənlibel kəndində məskunlaşmışdır. O, burada da sənətini davam etdirmiş, dəfələrlə televiziya və radioda çıxışlar etmişdir. Aşıq Hacı ifaçılıqla bərabər, həm də yaradıcı aşıqdır, bədii yaradıcılıqla məşğul olmuşdur. Onun yaradıcılığını əsasən iki hissəyə ayırmaq

olar. Bunlardan birincisi Göyçədə yazılan gözəlləmələr, təbiət qoşquları və ustadnamələrdirsə, ikincisi isə məlum hadisələrdən sonrakı vətən həsrətli, yurd nisgilli şeirlərdir.

Özünəməxsus danışığı, zənguləli səsi ilə klassik aşıq dastanlarımızı dinləyicilərinə daha çox sevdirə bilmiş, dastançı aşıq kimi ürəkləri fəth etmişdir. "Azərbaycan folklor antologiyası" seriyasından olan Göyçə folkloru kitabı çapa hazırlanarkən (III kitab) "Miskin Abdal və Sənubər", "Aşıq Alının Türkiyə səfəri" dastanları və "Keyti" əfsanəsi Aşıq Hacıdan toplanıb yazıya alınmışdır.

Aşıq Hacı Göyçəlinin həyatı və yaradıcılığı haqqında yazarlarımız mütəmadi olaraq publisitik məqalələrlə, şeirlərlə dövrü mətbuatda çıxışlar etmişlər. Ustad aşığın 2008-ci ildə "Mənim sazlı, sözlü dünyam" adlı ilk kitabı işıq üzü görmüşdür. Kitabda 37 qoşma, 17 gəraylı, 4 divani, 4 müxəmməs olmaqla 62 şeir, 10 bayatı, 4 qaravəlli və 1 dastan çap olunmuşdur. Kitabda Aşıq Hacıya həsr olunmuş məqalələr və şeirlər də diqqəti cəlb edir.

Azərbayan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Hacı 80 yaşının tamamına bir ay qalmış, 22 may 2011-ci ildə vəfat etdi. Böyük sənətkar Şəmkir rayonunun Çənlibel kəndində dəfn olundu.

Bəli, Aşıq Hacı da köçdü. Onun sazlı-sözlü dünyası ürəklərdə əbədi yaçayacaq.

## ÖZÜ ÖLSƏ, SÖZÜ ÖLMƏZ USTADIN

Əslən Qazağın Dəmirçilər kəndindən olan "Nəsibli" nəslindən üç qardaş (Nəsibin nəvələri) – Nəsib, İsgəndər və Mustafa Göyçə mahalının Daşkənd kəndində yaşayıblar. Nəsibin Əfruz adlı bir qızı, Mustafanın Abdulhüseyn (Molla Abdulhüseyn), Reyhan və Sehran adlı üç övladı; İsgəndərin isə Qəmbərəli, Fatma və Əmrəli adlı üç övladı olub.

Bu yazıda söhbət açacağımız aşığımız Nuriddin adı çəkilən Əmrəli kişinin nəvəsidir. Əmrəli kişi Molla Şabanın qızı Kəklik ilə evlənmiş, iki oğlu, iki qızı – Abid, Zabid, Xanımzər və Məhtəvan dünyaya gəlmişdir. Bütün Göyçəlilər, eləcə də Daşkəndlilər kimi sazın-sözün vurğunu olan Əmrəli kişi oğlu Abidi mahir saz ifaçısı, telli sazının sədaları hələ də uzaq keçmişimizdən bu günə qədər qulaqlardan getməyən Hidayət kişinin yanına şəyirdliyə verir. Abid sazın sirli-sehirli aləminə baş vurduğu vaxtlarda könlündə ustadının qızı Röyzə xanıma aşiq olur. Şəyird saza, sözə bələd olduqdan sonra bir gün çoxdandı qəlbən sevdiyi Hidayət kişinin qızını götürüb qaçır. Bu yerdə müharibədən əvvəl olmuş, ağsaqqallardan eşitdiyim, bu hadisəyə oxşar bir başqa əhvalatı burada qeyd etmək yerinə düşər: – Daşkəndli Aşıq Ziyad Məmmədov Aşıq Ələsgərin məşhur şəyirdlərindən olan Aşıq Əsədin yanında aşıq sənətini öyrənirmiş. Aşıqlığı demək olar ki, tam mənimsəyəndən sonra ustadı Aşıq Əsədin qızı Sürayəni götürüb Daşkəndə qaçıraraq onunla evlənir. Onu da deyim ki, Aşıq Ziyad İkinci dünya müharibəsində həlak olmuşdur. Zəhra və Turac adlı iki qızı olan Aşıq Ziyadın nəvə-nəticələri hal-hazırda Tovuz rayonunda yaşayırlar.

Abid ilə Röyzə xanımın evliliyindən beş oğlan, dörd qız övladı dünyaya gəlir. Bu uşaqlardan biri – Əsədulla 7 yaşında vəfat edib. O da atasından və babasından saz çalmağı öyrənmişdir. Xatırlayanların söyləmələrinə görə, uşaq olmasına baxmayaraq, sazda özünəməxsus güllər vururmuş. Haqqında məlumat vermək istədiyim Aşıq Nuriddin də bu doqquz uşaqdan biridir.

İsgəndərov Nuriddin Abid oğlu 20 noyabr 1956-cı ildə Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Orta təhsilini Daşkənd kənd məktəbində almışdır. Tibbə böyük marağı olduğundan sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna verir. Lakin sonuncu imtahandan məqbul qiymət ala bilmir. Tibbi təhsilə olan həvəsini sonralar oğlu Afiyəddin davam etdirəcəkdi... Nuriddin İsgəndərov 1975–1977-ci illərdə Çexoslovakiyada hərbi xidmətdə olduqdan sonra, təhsilini Moskva Kooperasiya İnstitutunun Bakı filialında davam etdirmişdir.

Hələ erkən yaşlarından aşıqlıq sənətinə meyl göstərmiş, ustad aşıqların məclislərində olmuş və bu sənətin sirlərinə dərindən yiyələnməyə çalışmışdır. Buna səbəb kimi ana babası Hidayət kişinin və atası Abid Əmrəli oğlunun da təsiri az olmamışdır. Nuriddin həm də vallarda, audio kasetlərdə, eləcə də radioda aşıq havalarına qulaq asmış, özü üçün sənəti mənimsəmişdir. Özünün də dəfələrlə dediyi kimi, o, daha çox Aşıq Kamandar Əfəndiyevin və Aşıq Əmrah Gülməmmədovun ifalarına qulaq asırmış. Beləcə aşıq sənətini lazımınca mənimsəyən Nuriddin artıq Daşkəndlə bərabər Göyçənin başqa kəndlərinə də toylara dəvət almağa başlayır. Onu qonşu kəndlərdəki toylara daha çox həmkəndliləri Əli və Məsim Xəlilov qardaşları aparar,

Göyçəlilərə belə bir püxtə, cavan aşığın da olmasını söyləyər, onu tanıdardılar. 1978-ci ilin bir günü Aşıq Hacı Bayramov həmkəndlisi Abid kişidən oğlu Nuriddinin onunla aşıqlıq etməsinə icazə istəyir. Beləliklə, Aşıq Hacı ilə Aşıq Nuriddin cütlüyü aşıqlığa başlayır. Cütlük həm Göyçə mahalının, həm də Azərbaycanın digər bölgələrinin el məclislərində iştirak edir və tez bir zamanda elin-obanın rəğbətini qazanırlar.

1981-ci ildə Aşıq Hacı Bayramovla Aşıq Nuriddin birlikdə televiziyada "Aşıq Alının Türkiyə səfəri" dastanını söyləmiş və dastanın lent yazısı televiziyanın "Qızıl fond"una daxil edilmişdir. Bundan sonra Aşıq Hacı ilə Aşıq Nuriddinin ifasında "Əmrah" dastanı da dinləyicilərin yaddaşında xoş bir iz buraxmışdır. Bu gün də Youtube kanalında 100 minlərlə baxış sayı olan hər iki dastan populyarlığını saxlamaqdadır.

Aşıq Nuriddin el şairlərindən Sərraf Şiruyə, Əli Qurban Dastançı, Alqayıt, İsmixan, Aqil İman ilə; aşıqlardan Hacı, Fətulla, Murad Niyazlı, İdris, İslam, İsrayıl, İsgəndər Ağbabalı ilə, balabançılardan Əli, Salman, Əmir ilə, zurnaçılardan Dünyamalı, Zamaxan, Əjdər, Xasay və b. ilə toylarda, el şənliklərində, dövlət tədbirlərində çıxışlar etməklə daha da məhşurlaşdı. Məhz belə də olmalı idi. Axı, Aşıq Ələsgərin sevimli şəyirdi Aşıq Nəcəfin kəndində doğulub aşıq olmamaq, XIX əsrin tanınmış şairi Məmmədhüseynin su içdiyi bulaqlardan su içib şair kimi yetişməmək mümkün deyildi. Məhz Nuriddin bu mühitin yetişdirməsi kimi ulu aşıq sənətinin davamçısı olmalı idi. Dediklərimizə Aşıq Hacı Bayramovun da ona ustadlığını və sənət yoldaşlığını

əlavə etsək, Nuriddinin sözün həqiqi mənasında əvəzsiz bir aşıq olduğunun şahidi oluruq.

Keçirdiyi toyların arealı çox böyük idi. Gah səsi Göyçədən, gah Kəlbəcərdən, gah Gəncəbasardan, gah da Bərdədən – Qarabağdan gələrdi. Onun keçirdiyi ən izdihamlı toylar Kəlbəcərin "Sarı yer" yaylağında və Bərdədə olardı. Elat camaatı həmişə toylarını "Sarı yer" yaylağında edərdi. Yay aylarında Aşıq Nuriddin, Aşıq Hacı və Balabançı Əli həftələrlə kəndə qayıtmaz, elə "Sarı yer" yaylağında toyu-toya calayardılar. Bir dəfə doğulduğum Bərdə rayonunun Yeni Daşkənd kəndində şahidi olduğum bir toyda baş verən nüansı deməsəm olmaz: Aşıq Nuriddin qohumu Əyyub kişinin qızının toyunu idarə edirdi. Kənd camaatının xahişi ilə o sazı kənara qoymaqla "Qarabağ şikəstəsi"ni oxudu. O qədər gözəl ifa, o qədər gözəl boğazlar etdi ki, sanki bu sənətkar elə xanəndə imiş. Onun ifasında "Kəsmə şikəstə"nin də öz yeri vardı. Onu da deyim ki, şikəstə janrı məhz əvvəl aşıq musiqisi yaradıcılığında əmələ gəlmişdir. Aşıq Nuriddinin həmkəndlisi, nakam taleli Aşıq Nəcəf də muğamları aşıq havaları qədər gözəl ifa edirmiş.

Aşıq Nuriddinin ifa etdiyi 60-dan çox saz havasının – "Dilqəmi", "Qaytarma", "Cəlili", "Göyçə qaragözü", "Yanıq Kərəmi", "Kərəm gözəlləməsi", "Göyçə gülü", "İrəvançuxuru", "Dübeyti", "Nəcəfi", "Məmmədhüseyni", "Ağır şərili", "Şahsevəni", "Qəhrəmanı", "Duraxanı", "Sarıtorpaq" və başqaları onun repertuarında ən gözəl ifalar kimi yaddaşlarda qalıb. Bu ifalar həm də aşıq musiqisi xəzinəmizə əvəzsiz töhvələrdir. Onun özündən ən çox hansı havaları sevdiyini soruşduqda belə cavab verərdi: "Aşıq havalarının hamsı gözəldi. Bir-birindən ayırmaq doğru

deyil. Lakin “Ağır şərili”, “Nəcəfi”, “Dilqəmi”, “Göyçə qaragözü”, “Göyçə gülü” daha çox sevilən havalardandır”.

Aşıq Nuriddin saz-söz sənətinin, soy kökümüzə söykənən milli dəyərlərin qorunub yaşadılmasında da danılmaz rola malik olmuşdur. Onun cavanlar arasında apardığı maarifçi təbliğatı gənclərin bu sənətə olan marağını daha da artırmış, bu sənəti ucuzlaşdıranlara qarşı mübarizədə öz misilsiz töhfələrini vermişdir.

1990-cı illərdən aşıq sənəti tənəzzül dövrünü yaşayanda Aşıq Nuriddin bu hallara dözmür, daxilən sarsılırdı. Bunu həmin illərdə özü də dəfələrlə söyləyər, aşıq sənətinin tarixi və milli mədəniyyətimiz olduğunu vurğulayardı. Ustad dərsi almayan, 2–3 hava çalmağı bacarmaqla özlərini “aşıq” elan edənlər, harda gəldi (xüsusən çayxanalarda) aşıqlıq edənlər onun mənəviyyatını büsbütün alt-üst edirdi. Məhz, bu hallar getdikcə daha da geniş vüsət aldı və o, daha bu sənəti davam etdirməyin mənasızlığını anladı. Demək olar ki, Aşıq Nuriddin 1998–1999-cu illərdən aşıqlığa son verdi.

2 dekabr 2018-ci ildə İctimai Televiziyanın “Ozan məclisi” verilişi aşığın həyat və fəaliyyətinə həsr olunmuşdur. Verilişin aparıcısı, aşıq sənətinin bilicisi, jurnalist Qorxmaz Tofiqoğlu, bu sətirlərin müəllifi Araz Yaquboğlu, Aşıq Firudin, və Aşıq Mehdi ustadla bağlı xatirələrini televiziya tamaşaçıları ilə bölüşmüşdür. Aşıq Nuriddin ifaçı aşıq olmaqla yanaşı, həm də yaradıcı aşıq idi. Onun yaradıcılığı haqda 2008-ci ildə çap olunan “Daşkənd aşıqları və şairləri” kitabında daha geniş məlumat verilmişdir. Belə ki, kitabda onun tərcümeyi-halı, şəkili və beş şeiri – “Küsər”, “Gül yarım”, “Eyləmə”, “Düşərsən”, “Var” çap edilmişdir.

Aşıq Nuriddin 25 may 1980-ci ildə həmkəndlisi Sənubər Aslan qızı ilə ailə qurmuşdur. Afiyəddin və Nərminə adlı iki övladı, dörd nəvəsi var. Evləndikdən bir neçə ay sonra, – 1981-ci ildən Şəmkir şəhərində yaşamışdır. O, bir neçə il davam edən müalicələrdən sonra, 22 dekabr 2017-ci ildə 61 yaşında Şəmkir şəhərində vəfat etmiş, şəhər qəbiristanlığında dəfn olunmuşdur.

Aşıq Nuriddinin özü cismən ölsə də, sözü heç vaxt ölməyəcək, sazı heç zaman susmayacaq. Çünki, ustadın qardaşları Aşıq Firudin, Viləddin, qardaşı oğlu Şöhrəddin onun sənətinin davamçılarıdır. Bu soylu sənətin soylu davamçıları ocaqda hər zaman olub və olacaq. Biz buna inanırıq.

# SÖZÜ UCA TUTANLAR

# EL ŞAİRİ MUXAYIL GÖYÇƏLİ

Göyçə adı eşidiləndə istər-istəməz hər kəsin xəyalına tanınmış şəxsiyyətləri, aşıqları, şairləri, sinədəftər insanları ilə ünlü olan gözəl bir diyar yada düşür. Professor Hüseyn İsmayılov bu haqda yazır: "Göyçə mahalı əsrlər boyu Azərbaycan xalqının saz və söz məbədgahlarından biri olmuş, onun yetişdirdiyi istedadlı sənətkarlar poeziyamızın iftixarına çevrilmişlər" [1, s.10]

Göyçə mahalının yetişdirdiyi istedadlı sənətkarlar içərisində mahalın Daşkənd kəndində də təvəllüd tapan aşıq və el şairləri kifayət qədər olmuşdur. "Hamımıza yaxşı məlumdur ki, hər bir ölkə, hər bir bölgə, hər bir kənd öz görkəmli, məşhur övladları ilə tanınır. Belə qədim yaşayış məskənlərindən biri də Göyçə mahalının Daşkənd kəndidir. Zənnimcə, Daşkəndi sayılan, seçilən insanların, aşıqların və şairlərin müqəddəs beşiyi saymaq olar" [2, s.18].

"Göyçə mahalında Ağkilsəli ustad Aşıq Ələsgər ocağı qədər Daşkənd kəndində də saz, söz, dastan və aşıq yaradıcılığına çox böyük həvəs olmuşdur. Buna görə də bu kənd Dədə Ələsgərin sənət ocağından, nəslindən sonra mahalın kəndləri arasında birinci yerdə olaraq şairlər və aşıqlar məskəni kimi şöhrətlənmişdir" [3, s.119].

Göyçə mahalının Daşkənd kəndində anadan olan el şairlərindən biri də Muxayıl Göyçəlidir.

Muxayıl Budaq oğlu Məsimov (Muxayıl Göyçəli) 1918-ci ildə doğulmuşdur. Dərzilər nəslindəndir. 1932-ci ildə Daşkənd kənd yeddi illik orta məktəbini bitirmişdir. Muxayıl ədəbiyyat, rus dili, cəbri özəlliklə yaxşı bilirmiş.

Muxayıl Göyçəlinin ana babası Kərbəlayi Rüstəm dövrünün çox imkanlı, varlı və səxavətli adamlarından olmuşdur. Anası Fatmanisənin əmiləri Nağı bəy, Tağı bəy və qardaşı Qara İdris (Qaçaq İdris) 1918-ci ildə ermənilərə qarşı döyüşlərdə fədakarlıq göstərmiş igid el qəhrəmanları kimi tanınmışlar.

Böyük Vətən müharibəsi başlayanda Muxayıl da müharibəyə 1941-ci ildə səfərbər olunmuş və ağır döyüşlərin iştirakçısı olmuşdur. O, 26 fevral 1942-ci ildə ağır döyüşlərin birində yaralanaraq ordudan tərxis olunmuşdur. Müalicəsi doğma kənddə davam etdirilsə də, 15 dekabr 1944-cü ildə müharibədə aldığı yaralardan subay ikən əbədiyyətə qovuşmuş və Daşkənd kəndində dəfn olunmuşdur.

Muxayıl Göyçəlinin əlyazmaları və bir neçə cəbhə şəkilləri Göyçə mahalından deportasiya olunub 1988-ci ildən hal-hazıra qədər Bərdə rayonunun Yeni Daşkənd kəndində məskunlaşan qardaşı Məsimov Oruc Budaq oğlu tərəfindən qorunub saxlanılmaqdadır. Onun 1943-cü ilə aid əlyazmasının içərisində Şair Məmmədhüseynin "Xəbər al deyim", "Yaxşıdır" qoşmalarına, "Yatıb oyanmaz, oyanmaz" gəraylısına, İsoy Qurbanovun "Eylə", "Oldumu" və "Qaldım" rədifli qoşmalarına, Aşıq İslam Yarpızlının "Əzizim" qoşmasına da rast gəldik.

Əlyazmalardan bəlli olur ki, Muxayıl Göyçə ədəbi mühitindən, Azərbaycan klassik ədəbiyatından və şifahi xalq ədəbiyyatından lazımınca yararlanmış və şeirin müxtəlif növlərində – gəraylı, qoşma, təcnis, cığalı təcnis, divani kimi şeirlər yazıb-yaratmışdır. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, o hətta rus dilində də şeir yazmışdır.

Muxayıl həmçinin saz havalarına və saz ifaçılığına da dərindən bələd olmuşdur. Saz havalarının öyrənilməsində bibisi oğlu Aşıq İslam Yarpızlının rolu böyük olmuşdur. Cəmi 26 il ömür yaşamış Muxayıl Göyçəli el içində el şairi kimi tanınmışdır.

Şairin yaradıcılığında qəmli şeirlər üstünlük təşkil edir. Bu da onun uzun müddət (33 ay) xəstə olması ilə əlaqədardır. İllərlə sevdiyi istəkli yarına qovuşa bilməyən Muxayıl cəbhəyə yola düşərkən yazır:

Başına döndüyüm, vəfalı yarım,
Dola sən boynuma qol, ayrılıqdı.
Fələk sitəm etdi, pozuldu qurğu,
Aç siyah zülfünü yol, ayrılıqdı.

...Yaralı bülbüləm, qaldım budaqda,
Muxayılam, sözüm gəzir dodaqda.
Bir ağır səfərim durub qabaqda,
Yar, ürək sözümü al, ayrılıqdı [4, s.82].

Muxayıl Göyçəlinin şeirləri bədii cəhətdən çox güclüdür. Bu da onun klassik və şifahi xalq ədəbiyyatına, poeziyaya dərindən bələd olmasının əyani təzahürüdür.

Şairin yaradıcılığında sələflərindən olan həmkəndlisi Şair Məmmədhüseynin "Tərsinə gedər" rədifli cığalı təcnisinə yazdığı nəzirəyə də təsadüf edilmişdir:

*Şair Məmmədhüseyn:*
Günahkar qul oldum fani dünyada,
Pozulub şövkətim tərsinə gedər.

Mən aşıq, tər sinəyə,
Tər damar, tər sinəyə.
Xəstənin gözü düşmüş,
Yetkin nar, tər sinəyə.
Heyf cavan ömrüm yetişdi bada,
Dönüb ruzigarım tərsinə gedər [1, s.278].

*Muxayıl Göyçəli:*
Bəd gəlib taleyim, iqbalım mənim,
İftida səfərim tərsinə gedər.
Aşıq, tərsinə gedər,
Dönər tərsinə gedər.
Nütvədən kamil olan,
Haçan tərsinə gedər?
Sinəmdə cəm olub, çarəsiz yara,
Artıbdı azarım tər sinə gedər [4, s.83].

Muxayıl Göyçəli kimi istedadlı sənətkarlar təcnis yaratmaqda heç zaman çətinlik çəkməmişlər. Şair adi qoşmalarda belə bəzən cinas qafiyələrdən istifadə etmişdir ki, bu da şeirdə xüsusi şirinlik, axıcılıq və bədiilik yaratmışdır. Misal üçün onun "Məni" qoşmasının üçüncü bəndinə və "Əzizim" qoşmasının ikinci bəndinə nəzər yetirək:

Gəl tərlana tay etməynən ay sarı,
Ərş üzündə xoş görünür Ay sarı,
Muxayılın viran könlün ay sarı,
Məcnun kimi salma çöllərə məni [4, s.80].

Kamil bağban, narı bağdan üz barı,
Qəvvas təki dəryalarda üz barı.
İgid olan sözün söylər üzbarı,
Müxənnətlər salar tora, əzizim [4, s.84].

Muxayıl Göyçəlinin əlyazmalarında sadə və adi görünsə də belə, diqqətimizi çəkən bir nüansı da qeyd etməliyik. Çağdaş poeziyamızda yazılan şeirlərin sonluğunda qoyulan tarixlərə çox rast gəlinir. Bu isə son on illiklərin dəbidir desək, yanılmarıq. Lakin 1943-cü ilə aid əlyazmada hər bir şerin sonluğunda qoyulan tarixlər şairin mütərəqqi bir şəxs olduğunu deməyə imkan verir.

Təssüflər olsun ki, belə bir istedadlı el şairinin şeirləri hələ ki, tam şəkildə toplanıb çap olunmamışdır. Muxayıl Göyçəlinin şeirlərini toplayıb çap etdirməyi özümüzün mənəvi borcu hesab edirik.

**Ədəbiyyat:**


1. İsmayılov, Hüseyn. Göyçə aşıqları və el şairləri. I cild. Bakı: Səda, 2006
2. Vəkil, Əli. Aşıqların, şairlərin beşiyi. “Ekspress” qəz., Bakı, 2009, 11 aprel
3. Zeynalov, Xasay. Göyçəsiz günlərim. Bakı: Nurlan, 2006
4. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008

# HƏR SÖZÜ DİLLƏRDƏ BAL OLAN ŞAİR

Göyçə ədəbi mühitdən söz düşəndə beş-on aşıq-şair var ki, onların adı hər yazıda, hər çıxışda mütləq qeyd olunur. Onlardan biri də dövrünün görkəmli söz sənətkarı Həsən Xəyallıdır ki, Miskin Abdaldan, Ağ Aşıqdan, Şair Məmmədhüseyndən, Aşıq Alıdan, Dədə Ələsgərdən gələn poeziya ənənəsini uğurla davam etdirmişdir. Onun haqqında bir çox sənət adamlarından, ağsaqqallardan, qohumlardan maraqlı xatirələr eşitmişəm. O xatirələr məndə Həsən Xəyallı haqqında geniş təəssürat yaradıb. Onun dini biliyi, hazırcavablığı, klassik ədəbiyyatı dərindən mənimsəməsi, folklor nümunələrini toplaması, xalq dastanlarının mükəmməl variantlarını yazıya alması imkan verir deyək ki, Həsən Xəyallı təkcə şair olmayıb, həm də dini ayinləri şəriət qanunları ilə yerinə yetirən gözəl din xadimi, xalqın mənəvi dəyərlərini toplayıb təbliğ edən sinədəfdər, sözü məqamında deyən bilən ilhamlı bir şair, söz xiridarı olub.

Həsən Xəyallının adını ilk dəfə kiçik yaşlarımda qağamdan eşitmişdim: "Həsən əmim harasa, kiminsə evinə gedəndə əli boş getməzdi. Kasıbçılıq illəri olmasına baxmayaraq, ən azı 1–2 kq konfet, ya da qənd alıb aparardı". Sonralar, Şiruyə əmimlə, Əmirxan əmimlə, İman əmimlə qağam Həsən əmisindən çox söhbətlər edər, onun haqqında olan maraqlı əhvalatları çözələyib, ibrətamiz söz-söhbətlərini xatırlayar, eldə-obada necə hörmət-izzət sahibi olmasından danışardılar. Mən də bu söhbətlərə qulaq kəsilərdim. Bir dəfə qağamın dayısı oğlu Hacı Frunze dedi: "Həsən kişiyə məclislərdə çox sual verərdilər. Bir dəfə də görmədim

deyə ki, o sualın cavabı haqda məlumatım yoxdu. Həsən kişi qeyri-adi adamıydı. Daşkəndə nə qədər aşıq, şair, alim gəlsə camaat birinci Həsən kişini çağırardı". Belə bir əhvalat da danışdı: "Təxminən 1959–1960-cı illər olardı. Aşıq İmranla Aşıq Mahmud Daşkəndə gəlmişdi. Dükanın qabağında camaatla söhbət edirdilər. Ağsaqqallar xəbər göndərdi ki, Həsən kişiyə deyin gəlsin, kəndə aşıq gəlib. Ara çox çəkmədi ki, gördük Həsən kişi göy atın belində budu gəldi. Atdan düşüb daşın üstündə oturub adəti üzrə siqaretə dəm verdi. Aşıq İmranın da cavan vaxtlarıydı. Yerə-göyə meydan oxuyurdu. Hiss olunurdu ki, Aşıq İmranın çılğınlığı Həsən kişinin xoşuna gəlməyib. Kənd camaatının da diqqəti Həsən kişiyə yönəlmişdi ki, görək Həsən kişi bu aşığın çılğınlığına nə deyəcək. Aşıq İmran da hiss etmişdi ki, hamının diqqəti bu susqun ağsaqqaldadı. Aşıq İmran üzünü Həsən kişiyə tutub, dedi: A kişi, bir səndə danış, görək nəyin var, nəyin yox. Həsən kişi bir bənd şeir deyib, aşıqlardan davam etməyi tələb etdi. Cavab almadıqda bir şeir də deyib, məclisi tərk etdi. Aşıqlar çətin vəziyyətə düşüb, susdular".

Göyçədə beş ay sərt qış keçərdi və belə vaxtlarda insanların əsas əyləncəsi aşıqları dinləmək, uzun qış gecələrində dastanlara qulaq asmaq olardı. Uzun qış gecələrində Həsən Xəyallı "Abbas və Gülgəz", "Qurbani" və başqa dastanların Göyçə variantını gözəl bir təhkiyə ilə üç günə danışıb, bitirərmiş.

***

Həsən Xəyallı (Hacıyev Həsən Məhərrəm oğlu) 1902-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd

kəndində doğulmuşdur [1, s.31, 239, 349]. Burada doğum tarixi ilə bağlı bir neçə məqama toxunmaq və aydınlıq gətirmək istərdim. Belə ki, bəzi mənbələrdə Həsən Xəyallının doğum tarixi 1885-ci il [2, s.189; 3, s.37; 4, s.117; 5, s.147; 6, s.171; 7, s.222], 1900-cü il [8, s.11] və 1903-cü il [9, s.3; 10, s.16; 11, s.35; 12, s.168] göstərilib. Bu tarixlərdən doğru olanı son bir neçə il öncə Böyük Vətən müharibəsinə aid sənədlərin toplandığı obd-memorial.ru saytından əldə etdiyimiz 1902-ci il tarixi daha dəqiqdir. Bu bir rəsmi sənəd, həm də məntiqə uyğun olduğundan doğru tarixdir. Belə ki, şairin anası, "Azərbaycanın aşıq və şair qadınları" kitabında bir neçə şeiri çap olunmuş Başxanım Şəfi qızı təxminən 1880-ci ildə doğulub. Əvvala, övladın anadan 5 yaş fərqi olması heç bir məntiqə sığmır. Əgər Başxanımın 18–20 yaşında ailə qurmasını və böyük övladının da Həsən Xəyallı olduğunu nəzərə alsaq, XX əsrin ilk illəri daha doğru tarix olur. Deməli, 1902-ci il daha doğru tarixdir. 1900-cü və 1903-cü il tarixləri isə şairin oğlu Sərraf Şiruyənin təxmin etdiyi və nisbətən həqiqi doğum tarixinə yaxın olan rəqəmlərdir. Təəssüfləndirici hal odur ki, son illərdə nəşr olunan bəzi toplularda da Həsən Xəyallının doğum tarixi 1885-ci il getmişdir [7, s.222].

Həsən Xəyallı 1930-cu illərdə Daşkənd kənd sovetliyinin katibi seçilmişdir. 1942-ci ilin iyun ayında Böyük Vətən müharibəsinə getmiş, Krım cəbhəsində döyüşmüşdür. Müharibədən 1945-ci ilin oktyabr ayında qayıtmışdır.

1953-cü ildə azərbaycanlıların Ermənistandan deportasiyası zamanı doğulduğu ata-baba yurdu olan Göyçə mahalından Bərdə rayonuna deportasiya olunmuş, 1954-cü ildə

vətən həsrətinə dözməyərək geriyə, Daşkənd kəndinə qayıtmışdır.

Qüdrətli söz sənətkarı, ustad şair 10 aprel 1966-cı ildə, ömrünün 64-cü baharında əbədiyyətə qovuşmuş, doğulduğu Daşkənd kəndində dəfn edilmişdir.

***

Həsən Xəyallı kiçik yaşlarından dayısı Hacı Rəhimdən, anası Başxanım Şəfi qızından dini təhsil almış, eyni zamanda saza-sözə çox böyük maraq göstərmişdir. Hacı Rəhim tanınmış el qəhrəmanı olmuş, 1918-ci ildə Zod kəndində erməni generalı Selikovun öldürülməsində iştirak etmiş, xəncərlə onun başını kəsmişdir.

Həsən Xəyallı öz zəngin yaradıcılığı ilə Göyçə ədəbi mühitinə yeni nəfəs, yeni çalar gətirən sənətkarlardan olmuş, müxtəlif sənət adamları – Bəhmən Göyçəli, Növrəs İman, Aşıq Nəcəf, Aşıq Musa və başqaları ilə dostluq etmiş, deyişib dərdləşmişdir.

Əsrin əvvəllərində Nərimanlı kəndindəki mədrəsədə görkəmli söz ustadları Novrəs İmanla, Bəhmən Qarayevlə birlikdə Göyçənin o zamankı böyük din xadimlərindən (o cümlədən Hacı Rəhimdən) dərs almışdılar.

Ədəbiyyatşünas alim Əkbər İrəvanlının təşəbbüsü ilə Həsən Xəyallının şeirləri ötən əsrin 50-ci illərindən mərkəzi qəzet və jurnallarda çap olunmuş, haqqında radio və televiziyada verilişlər hazırlanmışdır. Yaşadığı Ermənistanda dərc olunan qəzet nümunələri əlimizdə olmadığından, ilk şeirlərinin nəşri kimi "Azərbaycan" jurnalının 1980-ci il, 3-cü nömrəsində çap olunan 5 qoşmasını göstərmək olar [13, s.190–191]. Bundan sonra Zəlimxan Yaqubun tərtib

etdiyi topluda 3 qoşma [14, s.243–244], "Bu ocağın odu sönməz" kitabında 5 gəraylı, 13 qoşma, 6 təcnis [8, s.11–31], "Sazlı-sözlü Göyçə" kitabında 3 gəraylı, 5 qoşma, 3 təcnis [5, s.147–153], "Bir kökün budaqları" kitabında 1 gəraylı, 6 qoşma, 4 təcnis, 1 divani, 1 deyişmə [10, s.17–28], "Daşkənd aşıqları və şairləri" kitabında 2 gəraylı, 8 qoşma, 2 təcnis [11, s.36–42], "Ədəbi İrəvan – 2009" almanaxında 1 qoşma, 2 təcnis [15, s.96–97], Azərbaycan Aşıqlar Birliyinin "Ustad nəfəsli saz-söz ərməğanı" kitabında 3 qoşma [7, s.222–224] və s. olmaqla əsərləri müxtəlif illərdə nəşr olunmuşdur.

Həsən Xəyallının 2006-cı ildə şair Sərraf Şiruyənin tərtibçiliyi ilə "Axtar məni" adlı şeirlər kitabı "Nurlan" nəşriyyatında çap olunmuşdur. Kitabda şairin müxtəlif janrlarda olmaqla 166 şeiri nəşr edilmişdir.

Şair Həsən Xəyallının yaradıcılığı haqqında zaman-zaman müxtəlif elm adamları, şair və yazıçılar, tədqiqatçılar fikir bildirmişlər. Tanınmış şair Dilsuz H.Xəyallı haqqında yazır: "Çağının söz sərrafı, oxumuş adamı kimi tanınan Həsən Xəyallı Dədə Ələsgərdən üzümüzə çarpan bir havadır" [2, s.189]. Göyçə aşıq məktəbinin tədqiqatçılarından olan Tərlan Göyçəli şairin yaradıcılığı haqqında haqlı olaraq yazır: "Xəyallı yaradıcılığı təcnislərdən, dini şeirlərdən ibarət olsa da şeirlərinin ana xəttini ustadnamələr, nəsihətnamələr təşkil edir. ...H.Xəyallı nədən yazırsa-yazsın, nə mövzuya toxunursa toxunsun, misraların kökündə bir oynaqlıq, axıcılıq, dərin məna var" [4, s.118]. Şairin şeirləri məna-məzmun baxımından zəngin, ibrətamiz olduğundan dillərdə əzbər olmuş, şeir həvəskarları və aşıqlar həmin poeziya nümunələrini ifa etmişlər.

Həsən Xəyallının özünəməxsus müşahidə qabiliyyəti, qaynar ilhamı, dilimizin folklor qatını poeziyada ustalıqla əks etdirməsi, şeirlərindəki bədii siqləti daha da zənginləşdirmişdir.

Sözüm təsir etməz ağıldan kütə,
Varlısan, lağ etmə kasıba, lütə!
Mərifət ot deyil hər yerdə bitə,
Yetən taya vura, kol arasında [16, s.57].

Təkcə bənzərsiz bu ustadnaməsinə görə Həsən Xəyallı şair kimi həmişə öyülməyə layiq qüdrətli söz sənətkarıdır. Onun çoxşaxəli yaradıcılığındakı gəraylılarda da bitkin fikir, obrazlı deyim, hikmətli söz üstünlük təşkil edir.

Satanı var, alanı var,
Bu dünya bazardı, bala.
Varlılara cənnət, behişt,
Yoxsula azardı, bala [16, s.16].

Şairin gəraylılarından danışarkən tənqidçi-ədəbiyyatşünas, professor Qara Namazov onun "Axtar məni" adlı kitabına yazdığı ön sözdə deyir: "Qeyd edim ki, oynaq vəznli yumşaq ahəngli gəraylıda dərin siqlətli, ağır yüklü fikir dərinliyinə enmək hər məqamda mümkün deyil. Ancaq Xəyallının gəraylılarının hər beyti siqləti, düşündürücüdür:

Dərd yaxamdan əl götürmür,
Nə zülümlü bəndəyəm mən.
Müşgülümə çarə yoxdur,
Sehirli düyündəyəm mən" [9, s.4–5].

Həsən Xəyallının həyat həqiqətlərini əks etdirən məhşur “Gedər” rədifli qoşmasına baxaq:

Qəvvas olan dərinləri axtarar,
Naşılar həmişə dayaza gedər.
Bayquşun məskəni xarabalıqdı,
Bülbül gül eşqiylə avaza gedər.

Nadanlar sözündən inciməmişəm.
Namərd süfrəsindən nan yeməmişəm.
Atalar sözüdü, mən deməmişəm:
“Təkə təklənəndə güdaza gedər”.

Ay Həsən Xəyallı, ömür nəzilər,
Əcəl çatar, əlin eldən üzülər.
Aşiqin görəndə gözlər süzülər,
Gah işvəyə gedər, gah naza gedər [16, s.60].

Maşallah Xudubəyli şairin yuxarıdakı şeiri haqqında dəyərli fikir söyləmişdir: “Bülbülün gülün eşqiylə şövqlənməsini qafiyələrdə oxşayan el şairlərimiz çox olub. Amma Həsən Xəyallı “Bülbül gül eşqiylə avaza gedər” deyəndə bircə özünə bənzəyibmiş. Və ya ulu babalarımızın bitib-tükənməyən söz xəzinəsini arayıb-axtaranda, onun dərin mənasına varanda üstündən yan keçməyib, bütün mənalılığı və gözəlliyiynən, həm də səmimi etirafıynan şirin dilli qoşmasının gözünə qatıb, “Atalar sözüdü, mən deməmişəm, Təkə təklənəndə güdaza gedər” – deyə onu daha da şirinləşdirib” [17, s.135].

“H.Xəyallı aqil sənətkardı. Güclü zəkanın, dərin təfəkkürün, poetik misraların gücü ilə bir hikmət dünyası yaradır.

Könül, bu dünyada beş gün ömrün var,
Qovğadan başını salamat eylə.
İstəsən ki, başın ola salamat,
Həmişə dilini farağat eylə” [4, s.119].

Həsən Xəyallı yaradıcılığındakı deyişmə-dərdləşmələrində də sözün poetik yükü, hazırcavablığı şairin güclü bir zəka və ilham sahibi olması haqqında oxucuda geniş təəssürat yaradır. Zodlu Abdulla ilə olan deyişməsindən bir nümunədə oxuyuruq:

*Zodlu Abdulla*
Arif məclisində, qanan yanında,
Hər sözü dillərə yayılan mənəm.
Eşqin atəşidi yanan canımda,
Qəza qamçısıyla döyülən mənəm.

*Həsən Xəyallı*
Ənbiyalər, övlüyalər şənində,
Zülaldan söhbəti sayılan mənəm.
Arif məclisində, alim yanında,
Bal kimi kəlməsi yeyilən mənəm [16, s.142].

Həsən Xəyallı özündən sonra zəngin ədəbi irs qoymaqla bərabər, yaradıcılığı ilə ədəbiyyatımızda, xüsusən Göyçə ədəbi mühitində yeni bir şairlər ordusunun təşəkkül tapma-

sına vəsilə olmuşdur. Türk dünyasında şeirləri dillər əzbəri olan Sərraf Şiruyənin, ilhamı qüdrətdən bəs deyincə verilmiş, nakam taleli Aqil İmanın, tanınmış el şairi, ağsaqqalı Molla Əmirxanın, şair-publisist Eldar Həsənlinin, saz-söz xiridarları, el-oba arasında böyük nüfuz sahibləri olmuş, şair fitrətli Qəmgin Fəzinin, Xasay Hacıyevin imzasının formalaşmasında Həsən Xəyallı yaradıcılığının izini görməmək mümkün deyil.

Bu yazını rəhmətlik folklorşünas Maşallah Xudubəylinin sözləri ilə bitirmək istərdim: “Sağlığında sözü üzə söyləməyi sevən sənətkar, özündən sonra da, qiymətli kəlamlarıynan beləcə gərək olur gələcək nəsillərinə. El-obasında mərdlik mücəssiməsi olduğu kimi, şeirlərində də, səmimiyyətlə bu amala qulluq edir” [17, s.142].

**Ədəbiyyat:**


1. Yaquboğlu, Araz. Daşkənddən Yeni Daşkəndə. Bakı: Elm və təhsil, 2023
2. Dilsuz. Göyçə deyincə... // “Azərbaycan” jurnalı, 1980, №3
3. Məhərrəmov, Ziyəddin. XX əsr Göyçə aşıq mühiti (1920–1950-ci illər). Bakı: Azərbaycan Ensiklopediyası NPB, 1997
4. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998
5. Sazlı-sözlü Göyçə. (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999
6. Namazov, Qara. Aşıqlar (I kitab). Bakı: Səda, 2004
7. Ustad nəfəsli saz-söz ərməğanı. Azərbaycan Aşıqlar Birliyi. Bakı: Zərdabi Nəşr MMC, 2020
8. Bu ocağın odu sönməz. (toplayanı, tərtib edəni və redaktoru: Şiruyə Həsənoğlu). Gəncə: “Gəncə” nəşriyyatı, 1998
9. Namazov, Qara. Qüdrətli söz ustadı // Xəyallı, Həsən. Axtar məni. Bakı: Nurlan, 2006
10. Yaquboğlu, Araz. Bir kökün budaqları. Bakı: Nurlan, 2006

11. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008
12. Məhərrəmov, Ziyəddin. İrəvanda məktəbdarlıq və maarifçilik (1800–1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010
13. "Azərbaycan" jurnalı, 1980, №3
14. Aşıq Pəri məclisi. Aşıqlar. El şairləri. (tərtib edəni: Zəlimxan Yaqub). Bakı: Yazıçı, 1991
15. Ədəbi İrəvan – 2009. (Almanax). (toplayanı, tərtib edəni və redaktoru: Əli Vəkil). Bakı: Nurlan, 2009
16. Xəyallı, Həsən. Axtar məni. Bakı: Nurlan, 2006
17. Xudubəyli, Maşallah. Mənim sazlı-sözlü dünyam. 3 kitabda, II kitab. Bakı: Nurlan, 2010

# EL ŞAİRİ QƏMGİN FƏZİ

Göyçə mahalında, eləcə də digər bölgələrdə aşıq yaradıcılığının inkişafında el şairlərinin də xidməti az deyil. Belə üslubda şeir yazan şairlərə bəzən haqlı olaraq “saz şairləri” də deyirlər. Bu barədə tədqiqatçı İslam Ələsgərin mülahizəsi maraqlıdır. O yazır: “Göyçədə aşıq sənətinin, aşıq şeirinin inkişafı bu bölgədə yaşamış bir sıra el şairlərinin yaradıcılıqlarına da qüvvətli təsir göstərmişdir. Aşıqlar onların qiymətli şeirlərini məclislərdə oxumaqla, müəllifini şöhrətləndirmiş, yeni-yeni əsərlər yaratmağa olan həvəslərini daha da artırmışlar” [1, s.13].

Elin, obanın sevimli ağsaqqalı, şairi Kərimov Fəzi Məşədi Qasım oğlu 1912-ci ildə Göyçə mahalınının Daşkənd kəndində anadan olub. Atası Məşədi Qasım (1863–1921) Göyçə mahalında çox hörmətli, adlı-sanlı şəxsiyyətlərdən biri olmuş, eyni zamanda 1918-ci ildə erməni daşnaklarının hücumlarına qarşı xalqı səfərbər edən, başbilən kişilərdən olmuşdur.

Məşədi Qasım Göyçə mahalındakı döyüşlərdən sonra ailəsi ilə birlikdə Qarabağa gəlmiş, Laçınlı Sultan bəyin silahdaşı olmuş və erməni millətçilərinə qarşı qəhrəmanlıqla vuruşmuşdur. O, sərrast atıcı kimi 1919-cu ildə Qarabağda baş verən mart hadisələrində xüsusən fəallıq göstərmişdir. Bir il Sultan bəy tərəfindən onun adına verilmiş Ağdamın Qasımlı kəndində yaşadıqdan sonra 1921-ci ildə orada vəfat etmiş və orada da dəfn olunmuşdur. Fəzi atasını itirdikdən sonra Məşədi Qasımın uşaqlarını qardaşı Kərbəlayi Əmrah doğma ata-baba yurdu Göyçəyə aparmışdır.

Qəmgin Fəzi Aşıq Ələsgər ocağı ilə, xüsusən də Aşıq Nəcəf, Aşıq Talıb, Aşıq Musa və Bilal Məmmədovla dostluq etmişdir. Hətta onun bu adı çəkilən adamlarla qohumluğu da var. Belə ki, Fəzinin qardaşı Sayadın (1905–1955) həyat yoldaşı "Almməmmədlilər" nəslinin qızıdır. Bu ailəvi dostluq və doğmalıq hələ Aşıq Ələsgərin özü ilə Məşədi Qasımın çox yaxın dostluğundan qaynaqlanırdı.

Fəzi 1941-ci ildə Böyük Vətən Müharibəsinə getmiş, müharibədə topçu komandiri olmuş, orden və medallarla təltif olunmuşdur. O, 1944-cü ildə müharibədən yaralı qayıtmışdır. 1953-cü ildə bir çox göyçəlilər kimi o da Bərdədə məskunlaşmalı olub. Üç oğlunun vaxtsız vəfatı, oğlu Yasifin Qarabağda (22.08.1992) şəhid olması ilə əlaqədar "Qəmgin" təxəllüsü ilə şeirlər yazıb.

Fəzi Məşədi Qasım oğlu uzun müddət kolxoz sədri, sovet sədri, ferma müdiri və başqa rəhbər vəzifələrdə işləmiş, el arasında böyük hörmət sahibi olan ağsaqqallardan olmuşdur. El şairi 25 sentyabr 2000-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir. Müdrik el ağsaqqalı, məclislərin yaraşığı Fəzi kişi Yeni Daşkənd kənd qəbiristanlığında dəfn olunmuşdur.

1996-cı ildə Azərbaycan Tərcümə Mərkəzi "Qızıl Şərq" mətbəəsində Qəmgin Fəzinin "Ağrı dağı" adlı 168 səhifəlik şeirlər kitabını çap etdirmişdir. Kitabda müəllifin bütünlüklə yaradıcılığını əhatə edən 125 qoşması, 12 gəraylısı, 9 divanisi, 6 müxəmməsi, 2 təcnisi, 2 cığalı təcnisi, 4 deyişməsi, 1 məsnəvisi və 1 dastanı çap olunmuşdur. Kitab tərtibat baxımından qüsurlu hazırlanıb çap edilmişdir. Adətən şeir kitablarında şeirlər ya mövzuya, ya da janrlarına görə qruplaşdırılır. Kitabda şeirlərin gəraylı, qoşma, təcnis,

divani, müxəmməs, deyişmə kimi bölmələrə ayrılması daha məqsədəuyğun olardı. Belə olsaydı oxucular və tədqiqatçılar üçün də kitab sadə, oxunaqlı və dəyərli olardı. Sözü gedən kitabda isə müəllifin cəmi 4 təcnisinin olmasına baxmayaraq onlar başqa-başqa səhifələrdə (29, 32, 56, 94) verilmişdir. Belə çatışmazlıqlar kitabda öz əksini tapmışdır.

"Göyçə aşıq məktəbi" kitabının müəllifi Tərlan Göyçəli Qəmgin Fəzinin həyatı və yaradıcılığı haqqında yazır: "Qəmgin təxəllüsü ilə yazıb-yaradan Fəzi Qasım oğlu haqq, dilək adamı, din, təriqət yolçusudur. Qəlbindən Allah eşqi, dilindən haqq duası əskilmir. Hər an ulu yaradana sitayiş, dərin etiqad, haqqa inam, insanlığa mərhəmət, halallıq, xeyirxahlıq şeirlərinin ana xəttini təşkil edir. Yaradıcılığının çoxunu dərin, hikmətli ustadnamələr, dini səpgili şeirlər, bağlamalar, təcnislər, təxmislər təşkil edən Qəmgin Fəzinin şeirləri məna və məzmununa görə insanlığı kamilliyə səsləyən, hikmət dərslərini andıran həyat həqiqətləridir" [2, s.182–184]. Tərlan xanım həmçinin el şairinin "Getdi" rədifli qoşmasını və "Gəl" rədifli divanisini də kitabda çap etdirmişdir.

Bu sətirlərin müəllifinin "Bir kökün budaqları" və "Daşkənd aşıqları və şairləri" adlı kitablarında el şairi Qəmgin Fəzinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilmişdir. Belə ki, göstərilən birinci kitabda "Daşkənd" gəraylısı, "Məndədi", "Dünyada", "Görərsən", "Bilmədim", "Yadıma düşdü", "Gərək", "Qəbrim üstə", "Oğul" rədifli qoşmaları, "Gördüm" müxəmməsi və "Necədir-Olur" deyişməsi olmaqla 11 şeiri [3, s.29–42], ikinci kitabda isə "Deyirlər", "Göyçə", "Getdi" qoşmaları, "Minə dağında" təcnisi, "Danışaq" divanisi, "Gərəkdi" müxəm-

məsi və “Olarmı-Oldu”, “Gəlibdi” deyişmələri olmaqla 8 şeiri çap olunmuşdur [4, s.52–59].

“Qızıl qələm” mükafatı laureatı Qədir Aslan Qəmgin Fəzinin “Ağrı dağı” adlı kitabına yazdığı “Şair ağsaqqal” sərlövhəli müqqədiməsində yazır: “Fəzi Qəmginin gəraylı, qoşma, müxəmməs və s. şeirlərində dərin hikmət, həyat həqiqətləri, sabaha inam vardır. Elə buna görə də onu söz sərrafı sanırıq. Qəmgin Fəzi el ağsaqqalı, şeir, sənət fədaisidir. Onun şeirlərinin çoxunda Göyçə mövzusu geniş yer tutur. Basarkeçərin görkəmli yerləri adbaad göstərilir. Elə bil bir anlığa özünü Keytidə, Sarı yerdə, Göyçə gölünün sahillərində hiss edirsən” [5, s.4].

Göyçənin tərifini,
Deməyə ustad gərəkdi.
“Keyti”dən, “Sarınər”ə,
Deyə adbaad gərəkdi.
Göyçə yox göyçək deməyə,
Təzədən bir ad gərəkdi.
Keçmişini yada salsaq,
Çəkəsən imdad gərəkdi.
Qurtarmağa yad zəncirdən,
Hünərli övlad gərəkdi.

El şairi Qəmgin Fəzinin həyatı və yaradıcılığı haqqında Sərraf Şiruyənin “Hər görüş bir xatirədir” kitabında da ətraflı məlumat verilmişdir. Sərraf Şiruyə Qəmgin Fəzinin şeirlərində dini mövzularının çoxluğundan bəhs edərkən yazır: “Fəzi Məşədi Qasım oğlu Kərimov (Qəmgin Fəzi) atamla əmizadədirlər. Babaları qardaşdır. Atamla çox yaxın dost olub, çox şeirləşiblər. Atamdan doqquz yaş kiçikdir.

Böyük Vətən müharibəsində topçu komandiri olan Fəzi sonradan müxtəlif vəzifələrdə işləmiş, ömrünün orta çağlarında şəriət kitablarına, Qurani-Kərimi oxumağa meyl etmiş və bu da öz təsirini onun şeir yaradıcılığında çox tezliklə büruzə vermişdir" [6, s.17].

Əvvəlki mənbələrdə də göstərildiyi kimi, hələ uşaqkən Fəzi dini məlumatları çox dərin mənimsəmiş və şeirlərində də bunları çox aydın şəkildə ifadə etmişdir.

"Ədəbi İrəvan" almanaxında Qəmgin Fəzinin "Göyçə" qoşmasını və "Gərəkdi" müxəmməsini [7, s.33] çap etdirən Əli Vəkil "Aşıqların, şairlərin beşiyi" məqaləsində Qəmgin Fəzinin poeziyası haqqında deyir: "Qəmgin Fəzinin şeirləri də çox diqqət cəlb edicidir. Şair xeyirxahlığı, şair alicənablığı bu şeirdə öz əksini çox gözəl tapmışdır:

Çox qaçaq, çox quldur səylik eylədi,
Çoxu yoxsullara bəylik eylədi.
Çoxu Fəzi kimi eylik eylədi,
El içində şöhrət, ad aldı getdi" [8].

Şeirləri dillər əzbəri, öyüd-nəsihətləri qulaqlardan getməyən Qəmgin Fəzinin həyat və yaradıcılığı hələ çox araşdırılacaq, haqqında çox yazılacaq və onunla bağlı xatirələr heç vaxt unudulmayacaqdır.

**Ədəbiyyat:**


1. Sazlı-sözlü Göyçə. (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999
2. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998
3. Yaquboğlu, Araz. Bir kökün budaqları. Bakı: Nurlan, 2006
4. Yaquboğlu, Araz. Daşkənd aşıqları və şairləri. Bakı: Nurlan, 2008
5. Qəmgin Fəzi. Ağrı dağı. Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 1996
6. Sərraf Şiruyə. Hər görüş bir xatirədir. Bakı: Nurlan, 2007
7. Ədəbi İrəvan – 2009. (Almanax). (toplayıb tərtib edəni: Əli Vəkil). Bakı: Nurlan, 2009
8. Vəkil, Əli. Aşıqların, şairlərin beşiyi. "Ekspress" qəz., Bakı, 2009, 11 aprel

# ŞAİR HÜSEYN MAYIL,
# YOXSA AŞIQ HÜSEYN MAYIL

Hüseyn Paşa oğlu Hüseynov 1900-cü ildə Qazax qəzasının Göyərçin kəndində tanınmış "Paşalar" nəslində anadan olmuşdur. Deyilənlərə görə, bir vaxtlar bu nəslin ulu babaları Təbrizin qədim "Dəvəçilər" məhəlləsində yaşamışlar. Qazağa gələn nəslin bir qolu da Tovuzda və Gədəbəydə yaşayır.

Hüseyn ilk təhsilini mədrəsədə aldıqdan sonra Dilicanda Pedaqoji Seminariyanı qurtarmışdır. Uzun zaman Qazax, Tovuz və Gədəbəyin müxtəlif kəndlərində müəllimlik etmiş, müəllimliklə bərabər, qəzet redaksiyalarında da çalışmışdır. O, eyni zamanda 1930-cu illərdə əlifbanın dəyişməsi ilə əlaqədar yeni lüğətin hazırlanmasında da yaxından iştirak etmişdir.

Araşdırmalarımız zamanı məlum oldu ki, Hüseynin şeirləri Sanı və Mayıl təxəllüsü ilə 1925-ci ildən qəzetlərdə və kitablarda nəşr olunmağa başlamışdır.

1930-cu ildə nəşr olunmuş "Azərbaycan aşıqları" kitabında şairin 11 qoşması və 3 gəraylısı çap edilmişdir [1, s.225–234]. Kitabda çap olunan şeirlərdən "Yatıb, oyanmaz-oyanmaz" rədifli gəraylı və "Gözəlim", "Görünür", "Görəydim", "Gözəl" rədifli qoşmalar sonrakı digər çaplarda yoxdur. 1938-ci ildə çap olunan "Aşıqlar" kitabında isə şairin 40 qoşması, 14 gəraylısı və 2 müxəmməsi olmaqla 56 şeiri çap olunmuşdur [2, s.240–288].

1984-cü ildə nəşr edilən "Azərbaycan aşıqları və el şairləri" kitabının II cildində el şairinin şeirləri çap olunmuşdur. Belə ki, onun kitabda 23 qoşması, 8 gəraylısı və 2

müxəmməsi olmaqla 33 şeiri oxuculara təqdim edilmişdir [3, s.273–294].

2005-ci ildə “Azərbaycan aşıq şeirindən seçmələr” kitabında müəllifin 23 qoşması, 8 gəraylısı və 2 müxəmməsi olmaqla 33 şeiri çap olunmuşdur [4, s.235–257]. Bu çapda 1984-cü ildə çap olunan şeirlər eynilə təkrar, 1938-ci ildəki çap olunan 56 şeirdən 23 şeir az olmaqla yenə də eyni şeirlər nəşr olunmuşdur.

Şairin həyat və yaradıcılığının daha dolğun çap olunan – 2008-ci ildə nəşr edilmiş “Qoşa qəlbin duyğuları” kitabında isə müəllifə məxsus 39 qoşma, 11 gəraylı və 3 müxəmməs olmaqla 53 şeir çap olunmuşdur [5, s.3–75]. Bu kitabda isə əvvəlki çaplardakı şeirlərdən 16 şeir çap olunmamışdır. Lakin bu kitabda heç vaxt çap olunmayan 11 qoşma və 2 müxəmməs çap olunmuşdur.

Şairin şeirləri türk tədqiqatçılarının da marağına səbəb olmuşdur. Belə ki, onun 1984-cü il çapındakı şeirləri bütünlüklə Türkiyə türkcəsinə uyğunlaşdırılaraq internetdə yerləşdirilmişdir [6]. Yeri gəlmişkən onu qeyd etmək lazımdır ki, Hüseyn Mayılın həyat və yaradıcılığı ilə maraqlananlar açıq ensiklopediya olan www.az.wikipedia.org internet saytında da tanış ola bilərlər (məlumatlar bu sətirlərin müəllifi tərəfindən yerləşdirilib) [7].

Araşdırmalarımızdan belə nəticəyə gəlirik ki, şair Hüseyn Mayılın 55 qoşması, 15 gəraylısı və 4 müxəmməsi olmaqla bizə məlum olan cəmi 74 şeiri vardır.

Şairin adı Hüseyn, soyadı Hüseynov, təxəllüsü isə əvvəldə də qeyd etdiyimiz kimi, Sanı və Mayıl olmuşdur. Araşdırmalarımız zamanı o da məlum oldu ki, bəzi kitablarda səhvən Aşıq Hüseyn Mayıl və Aşıq Mayıl kimi təqdim olunmuşdur. Aşağıdakı nəşrlərdəki adlara diqqət yetirək:

1930-cu ildə “Azərbaycan aşıqları” kitabında “Hüseyn Sanı”, 1938-ci ildə çap olunan “Aşıqlar” kitabında “Hüseyn”, 1984-cü ildə nəşr edilən “Azərbaycan aşıqları və el şairləri” kitabının II cildində “Aşıq Hüseyn Mayıl”, 2005-ci ildə “Azərbaycan aşıq şeirindən seçmələr” kitabında “Aşıq Hüseyn Mayıl”, 2008-ci ildə nəşr edilmiş “Qoşa qəlbin duyğuları” kitabında “Hüseyn Hüseynov”, 2011-ci ildə “Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən” kitabında “Aşıq Mayıl”. Göründüyü kimi 1984-cü ildəki səhvi 2005-ci ildəki çapda da təkrar etməklə, 2011-ci ildə isə daha böyük yanlışlıq ediblər.

Lakin araşdırmalarımız nəticəsində məlum oldu ki, o heç vaxt əlinə saz alıb el məclisləri keçirməmişdir. Sadəcə olaraq şeirlərini aşıq şeiri üslubunda yazmış və sazın vurğunu olmuşdur.

Bir məsələdən də yan keçmək mümkün deyildir. Bu şairin tərcümeyi-halı ilə bağlıdır. 1930-cu ildə “Azərbaycan aşıqları” kitabında Hümmət Əlizadə yazır: “Hüseyn Sanı, Dilican dairəsi Göyərçinli kəndində 1909-cu ildə doğulmuşdur. İbtidai təhsilini mədrəsədə almışdır. Onun yaşadığı güllü-çiçəkli və saf havalı dağ həyatı olmuş və bu həyat onda şairliyə həvəs oyatmış, gənc yaşında el arasında tanınmış, hər kəs tərəfindən gözəl qoşmaları mənimsənmişdir.

Hüseyn Sanı hələ də kənd müəllimi olmaqla bərabər, yeniliyə aid bir çox şeir parçaları söyləmiş və hələ də söyləməkdədir” [1, s.225]. Bu kitabdan 54 il sonra çap olunan “Azərbaycan aşıqları və el şairləri” kitabının II cildində isə tərtibçi Əhliman Axundovun qeydini oxuyaq: “Şeirlərindən Qazax və Tovuz tərəfdə yaşadığı təxmin edilən Aşıq Hüseyn Mayılın həyatı barədə əlimizdə dəqiq məlumat yoxdur. Əsərlərindən bəlli olur ki, o, həqiqi sənətkar, ustad

aşıq imiş. Rəvan təbi, yaxşı saz çalmağı ilə tanınmışdı" [3, s.272]. Məhəmməd Allahmanlı isə "Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən" adlı kitabında öncə adı çəkilən mənbədəki məlumata – ""Tənbəl" adlı şeirindən aydın olur ki, o, sovet hakimiyyətinin ilk illərində həyatda olmuşdur" [8, s.28] cümləsini əlavə etməklə kifayətlənmişdir.

Bizə elə gəlir ki, Əhliman Axundova və Məhəmməd Allahmanlıya 1930-cu ildə çap olunan kitab məlum olmamış deyildi. Onda görəsən bəs nəyə görə şair haqqında belə bəsit məlumatla yanaşı, hətta şairi də aşıq kimi oxuculara təqdim etmişlər.

Eldar İsmayılın oçerklərinin birində Hüseyn Mayıl haqqında oxuyuruq: "Dahi şairimiz Səməd Vurğun və tanınmış folklorşünas alim Hümmət Əlizadə ilə birlikdə Çəmbərəyi və Göyçəni kəndbəkənd gəzmiş, ağsaqqallardan bayatı və nağıl bilicilərindən bildiklərini öyrənərək onları xalqın ümumi istifadəsinə vermişlər" [9, s.285].

Bu sətirlərin müəllifi şəxsən el şairi Hüseyn Mayılın oğlu Tofiq Hüseynovla görüşmüşdür. Görüşdə məlum olmuşdur ki, bəli, həqiqətən də Səməd Vurğun, Hümmət Əlizadə, Şeyda Əziz, Aşıq Əsəd, Miskin Əli və başqaları ilə el şairi çox yaxın dostluq etmişdir. Bu dostların təxəllüslərində də bir doğmalıq, bir eynilik vardır. Belə ki, Vurğun, Şeyda və Mayıl sözlərinin mənası vurulmaq, valeh olmaq anlamına gəlir. Hətta Şeyda Əziz 1957-ci ildə vəfat edərkən şair onun ölümünə "Heyif oldu" adlı şeir də yazmışdır.

Nümunəvi ailə başçısı kimi 5 oğul, 3 qız böyüdən Qaraqoyunlu mahalında və ümumən Qazax qəzasında "Əməkdar müəllim" kimi tanınan "Şərəf nişanı" ordenli, şair Hüseyn Mayıl 1970-ci il fevralın 20-də Qərbi Azərbay-

canın Dilican rayonunun Salah kəndində vəfat etmiş və həmin kəndin qəbiristanlığında dəfn olunmuşdur.

El şairi Hüseyn Mayılın şeirlərini oxuyarkən bir növü oxucuya elə gəlir ki, Aşıq Alını, Aşıq Ələsgəri, Səməd Vurğunu oxuyur. O da özündən əvvəlki adı çəkilən sələfləri kimi xalq dilində o qədər şirin və oxunaqlı, yaddaqalan yazıb ki, şeirlər hətta bir dəfə mütailədən belə yadda qalır, dildə əzbərə çevirilir. Şairin şeirlərində özündən əvvəlki şair və aşıqların şeirləri ilə mövzu baxımından uyğunluq təşkil edənləri də var. Onun "Zinyət" adlı qoşması ilə Aşıq Ələsgərin "Gülpəri!" adlı qoşmasına nəzər yetirsək dediklərimiz aydın olacaqdır:

*Aşıq Ələsgər:*
Tanrı səni qüdrətindən yaradıb,
Gözəlliyinə yox bəhana, Gülpəri!
Dodaqların batıb bala, qaymağa,
Qənd əzilib dil-dəhana, Gülpəri! [10, s.91]

*Hüseyn Mayıl:*
Qafqaz gözəlisən, ölkə maralı,
Sədan düşüb bütün cahana, Zinyət.
Şəkərsən, təhdisən, qiymətli cansan
Şirinlik verirsən dahana, Zinyət [5, s.18].

Hüseyn Mayılın yaradıcılığında gözəlləmələr daha çox üstünlük təşkil edir. Burada öncədən də dediyimiz kimi, Aşıq Ələsgər məktəbinin rolu danılmaz faktdır. El şairinin "Xırdaca qız", "Həcər", "Nərgizim", "Zinyət", "Sarı qız", "Səlmi", "Sənəmim", "Telli", "Mehri", "Zəhrə", "Güllünün" və başqa şeirləri dediklərimizə əyani misaldır. "Xırdaca qız" adlı müxəmməsə bildiyimiz kimi Aşıq Ələsgər və

Aşıq Əsəd yaradıcılığında da rast gəlinir. Şairin "Yatıb, oyanmaz-oyanmaz" rədifli gəraylısı XIX əsrdə yaşamış Daşkəndli Şair Məmmədhüseynin məşhur eyni adlı gəraylısına nəzirədir.

Şairin ayrı-ayrı şeirləri kifayət qədər müxtəlif kitablarda çap olunub, haqqında bir neçə məqalələr yazılsa da, onun şeirlərinin tam toplu şəklində çap olunması məqsədəuyğun və vacibdir. Onun aşıq şeiri üslubunda yazdığı şeirlərinin Azərbaycan ədəbiyyatının zənginləşməsində rolu böyük və danılmazdır həqiqətdir.

**Ədəbiyyat:**


1. "Azərbaycan aşıqları", II cild. (toplayanı: Hümmət Əlizadə). Bakı, "Azərnəşr", 1930.
2. "Aşıqlar", (toplayanı: Hümmət Əlizadə). Bakı, "Azərnəşr", 1938.
3. "Azərbaycan aşıqları və el şairləri". II cilddə, II cild. (tərtib edəni: Əhliman Axundov), Bakı, "Elm", 1984.
4. "Azərbaycan aşıq şeirindən seçmələr". II cilddə, II cild. (tərtib edənlər: Əhliman Axundov, İsrafil Abbaslı, Hüseyn İsmayılov), Bakı, "Şərq-Qərb", 2005.
5. Hüseyn Hüseynov, Tofiq Hüseynov. "Qoşa qəlbin duyğuları", Bakı, "Təbib", 2008.
6. http://azerbaycan.diledebiyat.net/azerbaycan-asik-edebiyati/asiq-hueseyin-mayil
7. https://az.wikipedia.org/wiki/Hüseyn_Mayıl
8. Məhəmməd Allahmanlı. "Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən", Bakı, "Nurlan", 2011.
9. Eldar İsmayıl. "Oğuz yurdun övladları", Bakı, "Təbib", 1999.
10. Aşıq Ələsgər (Əsərləri, dastan-rəvayətlər, xatirələr...). Bakı, "Şərq-Qərb", 1999.
11. "Ədəbi İrəvan – 2008" (Almanax), (toplayıb tərtib edəni: Əli Vəkil), Bakı, "Nurlan", 2009.
12. "Ədəbi İrəvan – 2009" (Almanax), (toplayıb tərtib edəni: Əli Vəkil), Bakı, "Nurlan", 2009.

# DƏRDLİ CAVADA CAVAB

2015-ci ilin aprel ayı idi. Ədəbiyyatla bağlı saytları nəzərdən keçirir, bəzi məqalələri oxuyurdum. "Dirili Qurbani Məclisi"nin saytında "Şair Qaranı necə mənimsəmək olar" başlıqlı yazı diqqətimi çəkdi. Sərlövhənin özü məntiqi cəhətdən yanlış olsa da, mövzu mənim üçün maraqlı göründüyündən, hərf səhvləri ilə bol olan yazını oxumağa başladım. Məqaləni oxuduqca hirsimi cilovlaya bilmir, özümü güclə ələ alırdım. Çünki haqsız ittihamlara məruz qalan vardı. Özü də bu haqsız ittihamlara məruz qalan Şair Məmmədhüseyn (1800–1880) kimi haqq aşiqi idi.

Sözügedən məqalə ilə bağlı saytın rəhbəri Yusif Dirili ilə əlaqə saxladım. O, Dərdli Cavadın "Doğma yurd çağırır məni" adlı kitabından götürdüyü məqaləni olduğu kimi sayta yerləşdirdiyini, həmin kitabdan mənə verəcəyini də qeyd etdi. Yusif müəllimlə telefon söhbətimiz əsnasında ona, şifahi də olsa, bir neçə faktı sadaladıqdan sonra həmin məqaləni saytdan çıxartdı. Amma yenə də rahatlıq tapa bilmədim. Fikirləşdim ki, Dərdli Cavada bir cavab yazmalıyam ki, həm qəlbim sakitlik tapsın, həm də saza-sözə hörmət qoyan oxucu həqiqəti bilsin.

Dərdli Cavad yazır: "Qara Hacı Yusif oğlunun çox şeirləri olub, əksəriyyəti yadda qalmayıb. 1897-ci ildə Qaranın 45 yaşı olanda o, 12 İmama 12 bənd söz deyib ("Xəbər al, deyim" şeiri nəzərdə tutulur – A.Y.). Atam Bəyalı bəy savadsız olsa da, çox yaxşı hafizəsi olub. Qaranın şeirlərindən çoxunu əzbər bilirdi" [1, s.107–108]. Dərdli Cavad sözünə davam edərək daha sonra yazır: "Atamın çox gözəl səsi vardı... 1958-ci ildə yazın gözəl

çağıydı, atam balınca dirsəklənib Qaranın 12 İmama dediyi şeiri oxuyurdu. Mən axıra qədər qulaq asdım. Atam oxuyub qurtarandan sonra, yalvardım ki, qoy bu şeiri də dəftərə yazım. Atam dedi: – Neynirsən, sənə lazım deyil. Mən əl çəkmədim. Gözlərim yaşla dolmuşdu. Atam gözlərimdə yaşı görüb yumşaldı: – Dur dəftər gətir. Mən sevincək yerimdən qalxıb dəftər gətirdim. Atam dedi, mən yazdım" [1, s.108].

Dərdli Cavadın özünün də dediyi kimi, atası savadsız olduğundan "Xəbər al, deyim" şeirinin Şirvan ədəbi mühitinə yox, Göyçə ədəbi mühitinə xas olduğunu duya bilməyib. Amma atan elə düz deyibmiş: "O şeiri neynirsən, sənə lazım deyil". Necə də uzaqgörənliklə deyibmiş, heyif ki, siz əl çəkməmiş və haqqı nahaqqa vermisiniz.

Nəinki babası Aşıq Ələsgərin, eləcə də, demək olar ki, bütün göyçəli aşıq və el şairlərinin tədqiqatçısı, folklor toplayıcısı İslam Ələsgərin "Sazlı-sözlü Göyçə" kitabına da Dərdli Cavad belə bir qarayaxma yazır: "Şairlik həvəsinə düşən bəziləri Qaranın şeirlərini mənimsəyib, özünküləşdirməyə çalışıb. Məsələn, hələ 1991-ci ildə "Sazlı-sözlü Göyçə" kitabında Qaranın "Xəbər al, deyim" şeirini tərtibçi Ələsgər B. *(əslində buradakı "B."-nin İslam Ələsgərə aidiyyəti yoxdur, kitabın Bakıda çap olunmasını göstərir – A.Y.)* müəyyən dəyişikliklə, Şair Məmmədhüseynin adından vermişdir...

Qoç igidlər mindi ərəb atını,
Axırı nə oldu, xəbər al, deyim.
Birinci imamım Şahi-Mərdandı,
İkinci imamım xəbər al, deyim.

...Məmmədhüseyn deyər, tamamdı, tamam,
Möminlər könlünə salıbdı güman.
Onikinci imam Sahib əz-Zaman,
Onlardan vacibin xəbər al, deyim" [1, s.108–111].

*(şeir məqalədə tam verilmişdir. – A.Y.)*

Bəli, İslam Ələsgərin kitaba daxil etdiyi məhz bu şeir Şair Məmmədhüseynindir. Rəhmətlik İslam müəllimi şəxsən tanıyan, daim təmasda olan biri kimi deyə bilərəm ki, belə məsələlərdə o heç zaman səhvə yol verməzdi. Dediklərimi onunla uzun müddət AMEA-nın Folklor İnstitutunda çalışan böyük bir kollektivin hər bir üzvü təsdiq edər. İslam Ələsgər o tədqiqatçılardandır ki, öz babasının olsa belə, şeirləri həmişə etibarlı mənbələrdən əldə edər, araşdırar, sonra çap etdirərdi. Yoxsa sizin kimi heç vaxt şeir üzərində əl gəzdirməz, sonra isə kiminsə adına çapa verməzdi.

"Xəbər al, deyim" şeirinin necə və hansı şəraitdə yaranmasını tarixçi-müəllim Xasay Zeynalov 1936-cı ildə yazdığı "Şair Məmmədsöyün və Axund Əli" başlıqlı əlyazmasında yerli-yataqlı ortaya qoymuşdur. Mübahisəli şeir əvvəlcə Ərdəbildə, sonra İsfahanda 11 il qalaraq dini təhsil alan Məmmədhüseynin böyük qardaşı Əlinin "Axund" kimi Daşkəndə qayıdanda qurulan məclis zamanı yaranmışdır [2].

Deyəcəyim fikirlərin daha da dəqiq olması üçün bir neçə alim və tədqiqatçının fikirlərinə nəzər salsaq, daha yaxşı olar. Filologiya elmləri doktoru Hüseyn İsmayılov "Göyçə aşıqları və el şairləri" kitabında yazır: "El şairi Məmmədhüseynin yaradıcılığının əsas istiqamətini təşkil edən ələvi şeiri təkcə Göyçədə deyil, Azərbaycanın bütün şiə,

tərəkəmə elat mühitlərində geniş yayılmışdır" [3, s.175]. Professor Hüseyn İsmayılov başqa bir kitabında yazır: "Yas mərasimlərində və İmam Hüseyn təziyələrində şairin sözləri molla və mərsiyəxanların repertuarının aktiv hissəsini təşkil edir. Məsələn, "Xəbər al, deyim" şeiri bu qəbildəndir:

Qoç iyidlər mindi ərəb atını,
Axırı nə oldu, xəbər al, deyim.
Birinci imamım Şahi-Mərdandı,
İkinci imamım xəbər al, deyim" [4, s.253].

İfadələrdən də göründüyü kimi, bu şeir kifayət qədər geniş yayıldığından bir çox şeir həvəskarları, din xadimləri onu əzbərdən biliblər. Elə Dərdli Cavadın yazısında da "Bəyalı bəy çox aşıqların, şairlərin şeirlərini əzbər bilirdi" kimi ifadə var. Amma bu əsas vermir ki, kiminsə əzbərdən bildiyi şeiri dəftərə köçürüb, möhürbəndini dəyişib çapa verəsən. Tərlan Göyçəlinin də qeyd etdiyi kimi: "Şair Məmmədhüseynin mərsiyələri mərsiyəxanların dilinin əzbəri olsa da, çox yerlərdə, xüsusilə Muğan torpağında adsız-ünvansız oxunur. Möhürbəndi qəsdənmi, bilərəkdənmi təhrif olunur" [5, s.31]. Buradan hətta belə qənaətə gəlmək olar ki, Şair Məmmədhüseynin bu və digər şeirlərinin nəinki Qobustanlı Qaranın, hətta digər aşıq və şairlərin də adına çap olunması "təəccüblü" deyil.

"Xəbər al, deyim" şeirinin səhvən Qobustanlı Qaranın adına çap olunmasında Dərdli Cavadın səhvindən də böyük yanlışlığa yol verən Seyfəddin Qəniyevdir. Çünki Seyfəddin müəllim adi bir şair və ya tədqiqatçı deyil, o, professordur. Seyfəddin Qəniyevin "El şairi Qobustanlı Qara"

kitabında şeir haqqında yazdığı xüsusi qeydinə nəzər salaq. O yazır: "Sazlı-sözlü Göyçə" kitabında (top. tərt. ed. və ön sözün müəl. İ.Ələsgər, B., 1991) bu şeir müəyyən dəyişikliklə Şair Məmmədhüseynin adına verilib" [6, s.55]. Bu ifadələr Dərdli Cavadın məqaləsində də təkrar olunub. Bu halda yazının əvvəlində bu ifadələrə münasibət bildirdiyimizdən bir daha təkrar etmədən başqa bir əlavə şərhə ehtiyac vardır.

Ona görə ki, Seyfəddin Qəniyevin "El şairi Qobustanlı Qara" kitabı AMEA Folklor İnstitunun Elmi Şurasının qərarı ilə (01.VI. 2005. pr. № 06) çap olunub. Kitabın elmi redaktoru isə filologiya elmləri doktoru Hüseyn İsmayılovdur. Gərək Seyfəddin müəllim kitabın "elmi redaktoru" kimi Hüseyn İsmayılovun ad-soyadını yazanda heç olmasa kitabı ona göstərəydi. Çünki Hüseyn müəllim o şeiri görsə, onu başqasının adından verilməsinə imkan verə bilməzdi. Həm də yuxarıda yazıldığı kimi, xüsusi qeyd olan bir şeirin üstündən heç bir vaxt ötəri keçə bilməzdi. Biz elə bu məqalədəcə onun elmi məqalələrindən kifayət qədər fikirlərlə tanış olduq. Belə ki, "Xəbər al, deyim" şeirinin həqiqi müəllifi Şair Məmmədhüseynin yaradıcılığı AMEA-nın Folklor İnstitutunda geniş tədqiq olunmuş, 2008-ci ildə Arzu Fikrətqızı "Şair Məmmədhüseyn: həyatı, mühiti və yaradıcılığı" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. Altını cızaraq onu da qeyd edim ki, dissertantın elmi rəhbəri Hüseyn İsmayılov olub. Zənnimcə, bunlarla nə demək istədiyimiz aydın oldu.

Dərdli Cavad məqaləsində oxuculara müraciət edərək belə yazır: "Əziz oxucular, bir şeir ki, kitabda, qəzetdə, jurnalda nəşr oluna, onu mənimsəyib necə öz adına təzədən

çap etmək olar?" [1, s.111]. Bəli, düz deyirsiz, Dərdli Cavad, çap olunan şeiri necə mənimsəmək olar?! Buyurun tanış olun, sizə və professor Seyfəddin Qəniyevə aşağıdakılar kifayətdirmi?

***"Xəbər al, deyim" şeirinin biblioqrafiyası:***


1. Zeynalov, Xasay. Şair Məmmədsöyün və Axund Əli. (Əlyazma). Göyçə mahalı: 1936
2. Muxayıl Göyçəli. Əlyazma – V cilddə. (V cild). Göyçə mahalı: 1943
3. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998, səh. 36–37
4. Sazlı-sözlü Göyçə. (toplayıb tərtib edəni və ön sözün müəllifi: İslam Ələsgər). Bakı: Azərnəşr, 1999, səh. 28–37
5. İsmayılov, Hüseyn. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2004, səh. 253
6. Namazov, Qara. "El çələngi" (xalq şeirindən seçmələr). Bakı: 2004, səh. 255–256 // http://elibrary.bsu.az/kis/1603.pdf
7. Daşkəndli şair Məmmədhüseyn. Yatıb oyanmaz, oyanmaz. Bakı: Nurlan, 2005, səh. 31–32
8. Daşkəndli Şair Məmmədhüseyn. Xəbər al, deyim. Bakı: Nurlan, 2006, səh. 36–37
9. İsmayılov, Hüseyn. Göyçə aşıqları və el şairləri. I cild. Bakı: Səda, 2006, səh. 202–203
10. Şairov, Səyyad. Saz, söz, sənət incilərimizdən Şair Məmmədhüseyn. "Açıq səma" qəz., Bakı, 2009, 27 yanvar, № 01 (57)
11. Şairov, Səyyad. Şair Məmmədhüseyn yaradıcılığı və Göyçə aşıq məktəbinin inkişafında onun rolu. "Azərbaycan XXI əsrdə" qəz., Bakı, 2010, 26 fevral, № 02 (53)

Ümumiyyətlə, bu tipli problemlərdə məsələnin həlli yolu əlyazmanın olub-olmamasından keçir. 2010-cu ildə yazdığım "El şairi Muxayıl Göyçəli" başlıqlı elmi məqaləmdən bir cümləni burada təkrar etmək istərdim: "Onun *(Muxayıl Göyçəli – A.Y.)* 1943-cü ilə aid əlyazmasının içərisində Şair Məmmədhüseynin "Xəbər al, deyim", "Yaxşıdır" qoşmalarına, "Yatıb oyanmaz, oyanmaz" gəraylısına da rast gəldik" [7, s.11–12; 8, s.220; 9]. Sözügedən əlyazmanın surəti hazırda məndədir və əlyazmanın həmin şeir olan hissəsini də bu məqaləyə şəkil formatında əlavə edirəm.

Hörmətli Dərdli Cavad və professor Seyfəddin Qəniyev, xahiş edirəm ki, sizə təqdim etdiyim 1936 və 1943-cü ilə aid əlyazmaya qarşı siz də əlyazma təqdim edəsiniz. Təqdim etdiyim mənbələr qarşısında acizsinizsə, sözünüz yoxdursa, o zaman heç olmasa səhvinizi etiraf edib haqq şairinin haqqını özünə qaytarmaq üçün yazılı şəkildə mətbuat vasitəsi ilə oxuculara məlumat verərdiniz.

Sonda Hüseyn İsmayılovun: "Onun (Şair Məmmədhüseyn – A.Y.) çoxlu dini şeirləri, mərsiyələri Şirvanda və Muğanda mərsiyəxanlar tərəfindən oxunur. Qoşmaları, təcnisləri, divaniləri, aşıqların repertuarında əhəmiyyətli yer tutur, ondan ustadnamələr söylənir... Məmmədhüseyn elə böyük sənətkardır ki, onun sözləri birbaşa mərasim folkloruna qarışıb; həm toy, həm də yas mərasimlərində oxunur" [3, s.183] – fikirlərini xatırladır və demək istəyirəm ki, Şair Məmmədhüseyn kimi bir sənətkarın haqqını tapdalamaq olmaz.

**Ədəbiyyat:**


1. Dərdli Cavad. Doğma yurd çağırır məni. Bakı: 2014
2. Zeynalov, Xasay. Şair Məmmədsöyün və Axund Əli. (Əlyazma). Göyçə mahalı: 1936
3. İsmayılov, Hüseyn. Göyçə aşıqları və el şairləri. I cild. Bakı: Səda, 2006
4. İsmayılov, Hüseyn. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları. Bakı: Elm, 2004
5. Göyçəli, Tərlan. Göyçə aşıq məktəbi. Bakı: Göytürk, 1998
6. Qəniyev, Seyfəddin. El şairi Qobustanlı Qara. Bakı: ADPU, 2005
7. Yaquboğlu, Araz. El şairi Muxayıl Göyçəli // "Elmi axtarışlar" jurnalı, AMEA Folklor İnstitutu, 2010, № VI
8. Yaquboğlu, Araz. El şairi Muxayıl Göyçəli // "Filologiya məsələləri" elmi toplusu, AMEA Əlyazmalar İnstitutu, 2010, № 11
9. Göyçəli, Muxayıl. "Əlyazma – V cilddə" (V cild). Göyçə mahalı: 1943

# ELDƏN GEDƏN EL ŞAİRİ

İnsanın dünyaya gəlişi ilə gedişi arasında böyük bir zirvə var. Gərəkdir ki, o zirvəni şərəflə yaşayasan. Xalqına, elinə, obasına gərəkli insanlar daim o zirvəni layiqincə aşa biliblər. Elinə, obasına, xalqına gərəkli şəxsiyyətlərdən biri də şair Aqil İman idi. Təəssüf ki, az ömür yaşadı. Ancaq Aqil İman sözün həqiqi mənasında mənalı bir ömür yaşadı. Dünyanın bütün pisliklərindən uzaqda dayanıb ömrünü sözə bağışladı. Atlıları atından, şahları taxtından salan sözə! Həmişə sözünün ağası oldu, söz onun ağası olduğu üçün. Neçə-neçə şeirləri özündən xəbərsiz Göyçə və Qarabağ mahallarında dillər əzbəri oldu. Hansı şairlərin şeirləri dillərdə nəğmələşib, şeirsevərlərin könlünü oxşayırsa, o şairlər heç vaxt ölmürlər. Bu qəbildən olan şairləri yazdıqları şeirlər əbədiyaşar edir. Bəli, Aqil İman da belə şairlərdən idi.

Aqil İman çox şirin ləhcəylə – qədim Göyçə şivəsində bulaq axarı ilə danışardı, zəngin nitq mədəniyyətinə malik gözəl natiq idi. Söhbətlərinə qulaq asdıqca, onu dinləməkdən doymaq olmurdu. Ovqatının xoş vaxtında yazıçılar, şairlər haqqında maraqlı söhbətlər edər, rəngarəng, yeni şeirlər söyləyərdi. O, həm də Qarabağ toylarında məşhur masabəyi idi. Ən ağır məclislərə Aqil İman dəvət olunardı. Elə şəxsən mənim toy şənliyimdə də Aqil İman masabəyi idi.

Aqil İman Aşıq Ələsgərdən, Səməd Vurğundan, Bəxtiyar Vahabzadədən, Hüseyn Arifdən, Məmməd Arazdan, Məmməd İsmayıldan, Zəlimxan Yaqubdan, el şairləri Rasim Kərimlidən, İsmixandan, Sərraf Şiruyədən, Sücaətdən, Bəhmən Vətənoğlundan, Azaflı Mikayıldan gəraylı, təcnis,

qoşma, divani söyləyəndə şeir pərəstişkarlarına xüsusi zövq verirdi. Onun özünəməxsus deyim üslubu, qulağa yatan məhrəm səsi vardı. Hətta Sərraf Şiruyə dəfələrlə etiraf edərək deyir ki, İman məclisi məndən daha rövnəqli, daha şövqlə aparırdı.

Aqil İman rəhmətlik atam Yaqub Hacıyevlə doğma əmioğlu olduğundan, həm də hər ikisi Bərdə rayonunda Dəmir Beton Məmulatları Zavodunda mühəndis işlədiyindən daim işə səhər birlikdə gedər, axşam da birlikdə qayıdardılar. İman əmim bizə tez-tez gələrdi. Axşamlar atamla söhbət edər, televizora birlikdə baxar və çox vaxt da keçmişdə Göyçədə olmuş tarixi hadisələrdən, dünyada gedən ictimai-siyasi proseslərdən danışardılar.

Bir axşam İman əmim bizə gələndə mənə cibindən bir vərəq çıxarıb dedi ki, Araz, dünən axşam yazdığım şeirdi, al, oxu gör necədi? Və onu da əlavə etdi ki, şairlərin ilk oxucusu həmişə öz yaxınları olublar. Mən özüm də poeziyasevər olduğumdan şeiri böyük həvəslə oxudum və çox da xoşuma gəldi:

*Umman olan könlüm, çay olan könlüm,*
*Niyə sısqa oldu gözündə sənin?*
*Aqillər yanında bal olan sözüm,*
*Niyə zəhər oldu sözündə sənin?*

*Yaralı kamanam, həzin bir neyəm,*
*Qopan fırtınayam, əsən küləyəm.*
*Coşan şəlaləyəm, ötən tütəyəm,*
*Çəmənində sənin, düzündə sənin.*

*Söylə görüm, niyə məndən küsmüsən?*
*Bircə kəlmə danışmırsan, dinmirsən.*
*Biçarə İmana cavab vermirsən,*
*Gözlərim qalıbdı üzündə sənin.*

Bu şeir elə o vaxtdan məndə qaldı. Yeri gəlmişkən onu da qeyd edim ki, Aqil İman çox vaxt yazdığı şeirləri saxlamaz və əlyazmalarını da yaxın dostlarına, şeir pərəstişkarlarına verər, harada yazardısa, orada da qalardı.

Bu yaxınlarda İman əmimin böyük oğlu Qılman mənimlə söhbətində bildirdi ki, atam Aqil İmanın şeirlərini toplayıb çap etdirmək istəyirəm. Mən ona bildirdim ki, məndə də Aqil İmanın bir neçə qoşması var, verərəm onları da kitaba daxil edərsən. Və söhbət əsnasında Qılman İmanı alqışladım. Eşq olsun belə gəncə! Şükürlər olsun ki, Aqil İman vaxtsız vəfat etsə də, Qılman İman kimi dəyərli və istedadlı şair oğlu var.

İnanıram ki, Qılman İman babası Həsən Xəyallının, əmisi Sərraf Şiruyənin, atası Aqil İmanın layiqli davamçısı olacaq. Axı, bu nəsildə sözün qiyməti daim dəyərləndirilib, uca tutulub. Ustad şairləri, el qəhrəmanları ilə məşhur olan bu nəslin davamçıları belə də olmalıdır.

Aqil İmanın vaxtsız ölümü onu tanıyanların hamısını sarsıtdı. Onun haqqında olan fikirlərim ürəyimdə qalaqlanıb şeirə çevrildi:

*Gövhər sözlü, şirin dilli,*
*Aqil İmanım, hardasan?*
*El-obanın sevimlisi,*
*Dinim, imanım, hardasan?*

*Ölüm səni bizdən aldı,*
*Könlümüzü oda saldı.*
*Neçə ürək xəstə qaldı,*
*Təbib, loğmanım, hardasan?*

*Dərdin çəkdin yığın-yığın,*
*Həm Göyçə, həm Qarabağın.*
*Soldu vaxtsız ömür bağın,*
*Mahir bağbanım, hardasan?*

*Sənsiz ürəklər üzgündü,*
*Neçə baxışlar süzgündü.*
*Qəlblər fələkdən küskündü,*
*İncə qananım, hardasan?*

*Araz səndən saldı bəhsi,*
*Dostların titrədi səsi.*
*Söz dağının şah zirvəsi,*
*Şahi-xaqanım, hardasan?*

Aqil İman özünü sağlığında geniş şəkildə şair kimi tanıtmadı. Bu onun təvazökarlığından, poeziyaya ciddi münasibətindən və özünə qarşı tələbkarlığından doğurdu. Ancaq onun kiçik bir qaralaması onu sevənlər üçün böyük bir sənət nümunəsi idi. Heyif ki, az yaşadı, özü ilə yazılacaq çox mövzuları apardı...

Ruhun şad olsun, Aqil İman!...

## UZAQDAN GÖRÜNƏN DAĞLAR

*Ölüm köhnə bir şeydir, amma hər insana yeni görünür.*
*İ.S.Turgenev*

Hər hikməti qərinələrə yoldaş olan müdrik babalarımız böyük insanları həmişə dağa bənzədiblər. Dağın əzəmətini simvolik olaraq ölçü vahidinə çevirərək, bir bənzətmə də deyiblər: "Dağlar uzaqdan əzəmətli görünür". Doğurdanmı dağlar uzaqdan əzəmətli görünür? Sözsüz ki, babaların bu aydın, dürüst müşahidə təsəvvürünə "bəli" deməkdən başqa qeyri söz yoxdur. Çünki dağa yaxınlaşdıqca əzəmətini itirdiyi kimi, möhtəşəmliyi də azalır sanki!.. Bunu hər gün həyatımızın bir parçasına çevrilən böyüklüyünü sadəliyində "gizlədən" görkəmli elm xadimlərinə, şair və yazıçılara, incəsənət xadimlərinə, xalqa arxa-dayaq olan Qorqud misallı el ağsaqqallarına da şamil etmək olar.

Həmişə elimizə, obamıza şərəf və şöhrət gətirən insanların itkisini böyük ağrı ilə qarşılamışıq. Çox keçməyib ki, onların yeri görünüb həmişə. Hikmətli söhbətlərini, amiranə səslərini eşitmək üçün burnumuzun ucu göynəyib. Sonda amansız əcəlin qərarı ilə barışmaqdan özgə heç bir çarəmiz qalmayıb. Kim gedənləri qaytara bilib axı?! Adı gələndə həmişə ehtiramla xatırlanan, köhnə kişilərin sonuncu varislərindən olan, elimizin, obamızın dəyərli ağsaqqalı, xeyriyyəçisi, şairi, din xadimi Molla Əmirxanı da itirdik.

Əmirxan Həsən oğlu Məhərrəmov 15 dekabr 1936-cı ildə qartallı qayalara boy verən, əzəmətli dağlarla əhatələnmiş qədim Oğuz yurdu, axarlı-baxarlı Göyçə mahalının saz-söz məbədgahlarından olan şair Məmmədhüseynə,

Aşıq Nəcəfə, Həsən Xəyallıya, Qəmgin Fəziyə, Xasay Hacıyevə, Aşıq Hacıya, Alqayıt Xəlilova, Sərraf Şiruyəyə, Aqil İmana ilham verən Daşkənd kəndində tanınmış söz ustadı Həsən Xəyallı ocağında dünyaya gəlmişdi. Molla Əmirxanın sazın, sözün, dini dəyərlərin uca tutulduğu bir ocaqda dünyaya gəlməsi çox erkən onun könül dünyasını işıqlandırmışdır.

İlkin təhsilini böyük qardaşı Nəbi ilə birlikdə atasından almışdır. Ərəb, fars əlifbasını yazıb-oxumaqla bərabər, həm də şifahi xalq ədəbiyyatını, klassik aşıqların sənət örnəklərini bircə-bircə yaddaşına köçürmüşdür. Böyük bir epoxanın yaradıcısına çevrilən Göyçə ədəbi məktəbinin görkəmli nümayəndələrinin və atası Həsən Xəyallının verdiyi dərs balaca Əmirxanın gələcək taleyində dərin izlər buraxmışdır. Şəriət elmlərini dərindən mənimsədikdən sonra islam dininin təbliğatçısı kimi məclislər başına çəkilmiş, elin yas məclislərinin aparıcısına çevrilmişdir.

Molla Əmirxan Göyçədə, Qarabağda yaşadığı müddətdə təkcə dinin təbliğatçısı kimi yox, həm də şair kimi geniş şöhrət qazanmışdır. Molla Əmirxana şairlik böyüdüyü mühitin həyat tərzi ilə bərabər həm də gendən gəlirdi. Birinci növbədə bir söz adamı kimi Molla Əmirxan bütün varlığı ilə folklorumuza bağlı insan idi. Nənəsi (özü ancaq nənəsinə “Qojam” deyərdi) Başxanım Şəfiqızının bayatıları, ağıları, Xəstə Qasımın, Tufarqanlı Abbasın, Misgin Abdalın, Aşıq Alının, Ələsgərin, Məmmədhüseynin, Zodlu Abdullanın, Növrəs İmanın, Xəstə Bayraməlinin, Nərimanlı Bəhmanın, Həsən Xəyallının sənət dünyası dilinin əzbərinə çevrilib, ilham quşunu pərvazlandırmışdır. İlk mətbu şeiri 1958-ci ildə “Bolluq uğrunda” rayon qəzetində çap

olunsa da, kitab halında çap olunmaq üçün sovet senzurasının dəmir məngənəsindən keçə bilməmişdir. Ancaq şifahi olaraq şeirləri eldən-elə, dildən-dilə gəzərək poeziya sevənlərin rəğbətini qazanmışdır. Hələ ötən əsrin 70-ci illərində dildə əzbər şairlərimiz Alqayıt və Sərraf Şiruyə ilə olan deyişmələri auidi kasetlərdə, aşıqların ifasında oxuna-oxuna şeirsevərlərə mənəvi zövq bəxş etmişdir. Molla Əmirxan müasir Göyçə ədəbi məktəbinin tanınmış nümayəndələri İsmixan, Şiruyə, Alqayıt, Zəki İslam kimi şairlərlə bərabər, el ədəbiyyatımızın qüdrətli qələm sahiblərindən sayılır. Buna əyani sübut kimi çoxdan çapa hazırlanan lakin bu günlərdə nəşr olunan "Göyçə dərdi" adlı kitabında gedən şeirlərini misal göstərmək olar. Şeirlərin hər biri, müdrik insan ömrünün zərif şəkildə qələmə alınmış poetik qeydləridir. Hansı misrasını çözələsək oradan telli sazın qüdrəti, Göyçənin mənzərəsi, adət-ənənəsi, başına gətirilən müsibətlər görünəcək.

Molla Əmirxan yuxarıda qeyd etdiyim kimi, şairliyi ilə bərabər həm də bir folklor mənbəyi idi. "Novruz və Qəndab", "Məsim və Diləfruz", "Abbas və Gülgəz" dastanlarının ən geniş versiyasını bilən nadir insanlardan idi. Dəfələrlə görmüşəm ki, məqamı düşən kimi adını çəkdiyim və çəkmədiyim dastanlardan, klassik aşıqlardan sitat gətirib, misallar çəkərdi.

Zamanın çarxı tərsinə işləyib, dünyanın üzü dönən də, Molla Əmirxanın da taleyinin üzü döndü: Qərbi Azərbaycanda – Göyçədə yaşayan həmvətənliləri kimi o da 52 il qoynunda şad-xürrəm yaşadığı, ağır-ağır ellərini gəzib, yaylaqlarında köhlən minib, at oynatdığı doğma Göyçəsindən ayrıldı. 27 noyabr 1988-ci ildə doğma ocağından

köçünü, bərxanasını yükləyib 1953-cü ildə Stalinin məkirli siyasətinin qurbanı olan həmkəndlilərinin yanına – Bərdə rayonunun Yeni Daşkənd kəndinə pənah gətirdi. El-oba onu əziz adamı kimi qarşılayıb, acısını bölüşdü. 5 fevral 1993-cü ildə Ağdərə döyüşlərində rabitəçi kimi xidmət göstərən oğlu Mehdi itkin düşdü. Bütün bu acınacaqlı tale sınaqlarından Molla Əmirxan üzü ağ çıxdı. Nə qədər çətinlik olsa da belə, öz kişi qürurunu sındırıb əyilmədi. Ömrünün ixtiyar çağında da olsa ikinci dəfə Bərdədə yuva qurub, yurd saldı. Göyçədə olduğu kimi burda da süfrəsindən qonaq, təhnəsindən çörək əksilmədi. İmkansızlara, arxasızlara əl tutub, dayaq oldu. Elin yas mərasimlərində təmənnasız xidmət göstərib, subartezian quyularının vurulmasının təşəbbüskarı və xeyriyyəçisi oldu.

Molla Əmirxan ilkin tanışlıqdan xoşbəxt insan kimi görünməyinə baxmayaraq, böyük acılar çəkmişdi. Göyçə boyda vətənini, 20 yaşlı oğlunu, qardaşlarını, bacılarını, doğmalarını itirmişdi. Hər dəfə söhbət düşəndə Göyçəli günlərini xatırlayar, dostlarını, doğmalarını ehtiramla yad edərdi. Hərdən qəlbi kövrəlib, könlü coşanda siqaretinə dəm verib dərdlərini aşağıdakı misraları ilə pıçıldayardı:

Ey fələk, insafın hanı?!
Müşgülümün yox gümanı!
Belə getsə Əmirxanı,
Öldürəcək bala dərdi.

Sonra dünyanın vəfasızlığından acı-acı gileylənib, xəyallara dala-dala belə deyərdi:

Quruyub, çağlamır daşqın Əmirxan,
Qalıb gözü yolda çaşqın Əmirxan.
Olmuşam qürbətdə qaçqın Əmirxan,
O vətənli adım-sanım hardadı?

Molla Əmirxan ümid və arzularla yaşadığı fani dünyadan nurlu bir bahar günündə – 2012-ci il aprelin 18-də haqq dünyasına köç eyləyib, sonuncu dəfə el-obanı, onu sevənləri bir araya gətirərək, Yasinini oxuyub, namazını qıldığı ellilərinin, doğmalarının uyuduğu Yeni Daşkənd kəndində torpağa tapşırıldı.

Göz yaşları ilə yazdığım bu yazıya Molla Əmirxanın parlaq ruhuna həsr etdiyim bir şeirlə nöqtə qoyub, "yerin cənnətməkan olsun" deyirəm.

Söznən bəzədilmiş, imannan dolu,
Qurulu saraydı Molla Əmirxan.
Zərli şəfəqini dan üzü yayan,
Nuruydu, ziyaydı Molla Əmirxan.

Min kəlam bilirdi, milyon da hikmət,
Vardı xəzinəsi, doluydu sərvət.
Hər dəfə Göyçədən düşəndə söhbət,
Açılmış lalaydı Molla Əmirxan.

Əkdiyi zəmisi bar gətirib, bar,
Nəvə-nəticəsi edəcək nübar.
Qoynu gül qoxulu, köksü laləzar,
Çiçəkli talaydı Molla Əmirxan.

Can dedik ucadan gələn adına,
Neçə köməksizin yetdi dadına.
Vətən torpağının hər övladına,
Ataydı, anaydı Molla Əmirxan.

Hazır bir kitabdı, aç varaq-varaq,
Neçə qərinədən verəcək soraq.
Uzaqdan vüqarlı görünən bir dağ-
Alınmaz qalaydı Molla Əmirxan.

Heç vaxt əyilmədi əyilməz dizi,
Gərək yol eyləyək saldığı izi.
Tanrı dərgahına qaldıran bizi,
Bir ərşi-əlaydı Molla Əmirxan.

El yola salanda yükləyib köçün,
Gördüm məhəbbətin, eyliyin gücün.
Arazam, şeirimi oxumaq üçün,
Kaş indi olaydı Molla Əmirxan.

# XATİRƏLƏR İŞIĞINDA

## ÜRƏKDƏ KÖÇƏN ARZULAR

Ulu azəri-türk torpağı Göyçə mahalı. Mahalın Alçalı kəndi. Bu kənd Göyçə mahalının beş rayonundan biri – Aşağı Qaranlıq (Martuni) rayonuna aid idi. Kənd Göyçə gölünün cənub sahilində yerləşmişdir. Kəndlə eyni ad daşıyan Alçalı çayı və Arpa-Göyçə kanalı kəndin yaxınlığında gölə tökülür. Gözəl təbiəti olan kəndin azərbaycanlı əhalisi 1948–1951-ci illərdə tamamilə köçürülmüşdür.

Alçalı kəndində yaşayan Abdulla adlı el ağsaqqalı Göyçənin məşhur kəndlərindən olan, Basarkeçər rayonunun Daşkənd kəndində yaşayan Hacı Zeynallı nəslindən olan Hacı Kazımın qızı Ceyran xanımı oğlu Məhərrəmə alır. Hələ evlənməmişdən əvvəl Məhərrəm artıq Daşkənd kəndində yaşayırmış. Elə o vaxtlardan başlayaraq Daşkənddə Məhərrəmə "Alçalı Məhərrəm", sonralar isə ondan olanlara sadəcə olaraq "Alçalılar" deyirmişlər. Əslən Alçalı kəndindən olan Məhərrəmin Dəstəgül, Mirzə və Nəsib adında üç övladı olur. Məhərrəmin 1900-cü ildə anadan olan qızı Dəstəgül Daşkənd kəndində yaşayan "Rəsullular" nəslindən olan Hüseyn Kərimovla ailə həyatı qurmuş, 6 oğlu, 1 qızı olmuşdur. O, 1989-cu ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etmişdir.

Məhərrəmin hər iki oğlu Böyük Vətən Müharibəsinə Basarkeçər RHK-ğı tərəfindən səfərbər edilmişlər. Onun 1913-cü ilin sentyabrında anadan olan kiçik oğlu Nəsib Abdullayev 13 sentyabr 1941-ci ildə müharibəyə getmiş və 1942-ci ilin yanvar ayında müharibədə itkin düşmüşdür. 1905-ci ildə anadan olan Mirzə Abdullayev isə 1941-ci ildə müharibəyə getmiş, müharibə qurtardıqdan sonra Krasnoyarsk şəhərində xidmət etmişdir. Mirzə Abdullayev müha-

ribədə olarkən həyat yoldaşı, həm də xalası nəvəsi olan Şamoyev Qumru Novruz qızı 21 yaşındaykən (1942-ci ildə) xəstələnib vəfat etmiş, iki övladı – Yaqub və Əhəd anadan yetim qalmışlar. Ordudan tərxis olunduqdan sonra 1952-ci ildə Daşkənd kəndinə qayıdan Mirzə kişi Aşağı Şorca kəndindən olan Tanrıverdinin qızı Sərəngiz ilə ailə həyatı qurmuşdur. Bu evlilikdən onların Vaqif, Südabə, Sahib, Naib, Rahib və Rafiq adlı 5 oğlu, 1 qızı olmuşdur.

Ermənilərin mənfur siyasətinin qurbanı olan bir çox azərbaycanlılar kimi Mirzə Abdullayev də ailəsi ilə birlikdə 1953-cü ilin may-iyun aylarında doğma Göyçə mahalından, Daşkənd kəndindən Bərdə rayonuna deportasiya olunmuşdur. Bu yazımızda Mirzə kişinin övladlarından biri – oğlu Vaqif müəllimdən, onun həyat və fəaliyyətindən söhbət açacağıq.

Abdullayev Vaqif Mirzə oğlu 15 may 1954-cü ildə Bərdə rayonunun Yeni Daşkənd kəndində anadan olmuşdur. Orta məktəbdə oxuduğu illərdə riyaziyyat, həndəsə, fizika və başqa dəqiq elmlərə üstünlük vermiş, yaxın qonşuları olan Tanrıverdi Hacıyev, Əli Kərimov, Xasay Hacıyev kimi riyaziyyatçılardan bu elmləri daha dəqiq, mükəmməl mənimsəmişdir. Onu da qeyd etmək yerinə düşər ki, Yeni Daşkənd kəndi Bərdə rayonunda riyaziyyatçılar kəndi kimi də tanınır. Çünki bu kənddəki orta məktəbi bitirənlərdən texniki və dəqiq elmlərə yiyələnlər sayca daha çoxdur. Əvvəldə adı çəkilən riyaziyyatçı müəllimlərdən sonra Vaqif Abdullayev, İlyas və Əli Hacıyevlər, Vidadi Süleymanov, İsrail Şairov, Qaçay Bayramquliyev və başqa müəllimlərin adlarını iftixarla çəkmək olar. Şübhəsiz ki, bu haqlı olaraq da belədir.

Vaqif Abdullayevdə olan fitri istedad, güclü hafizə, məntiqi düşünmə qabiliyyəti onun köməyinə çatmışdır. Belə ki, 1971-ci ildə əla qiymətlərlə Yeni Daşkənd kənd orta məktəbini bitirən gənc Vaqif sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) "Mexanika-Riyaziyyat" fakültəsinə verir və müvəffəqiyyətlə universitetə qəbul olur.

Vaqif Abdullayev 1974-cü ildə hərbi xidmətə çağırılır. O, 1976-cı ildə Çitada həqiqi hərbi xidməti başa vurduqdan sonra Bakı şəhərinə qayıtmış və ali təhsilini davam etdirmişdir.

Vaqif müəllim 1977-ci ildə Bərdə rayon 2 saylı qiyabi orta məktəbində riyaziyyat müəllimi kimi əmək fəaliyyətinə başlamış və 1979-cu ilə kimi bu məktəbdə işləmişdir. Hərbi xidmətdən sonra təhsilini davam etdirərək 1980-ci ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) bitirmişdir.

1979-cu ildən 1982-ci ilə kimi yaşadığı kəndə qonşu olan Kürdborakı kənd orta məktəbində riyaziyyat müəllimi işləmişdir.

Artıq intellektual bir riyaziyyatçı kimi tanınmağa başlayan Vaqif müəllim 1982-ci ildən birdəfəlik şəhər məktəbində dərs deməyə başlayır. Bərdə şəhər 2 saylı orta məktəbində riyaziyyat, həndəsə, fizika müəllimi işləmiş və vəfat edənə qədər bu məktəbdə çalışmışdır. Onun 35 illik müəllimlik fəaliyyətinin 30 ili bu məktəblə bağlı olmuş, eyni zamanda başqa məktəblərdə də riyaziyyat və həndəsə fənlərini tədris etmişdir.

1982-ci ildən daimi yaşamaq üçün Yeni Daşkənd kəndindən Bərdə şəhərinə köçən Vaqif Abdullayev müəllim işlədiyi müddətdə dəfələrlə Təhsil Nazirliyinin fəxri

fərmanı ilə təltif olunmuşdur. O, abituriyentlərin qəbul imtahanlarına hazırlaşdırılması sahəsində də ən yaxşı müəllim kimi tanınmışdır. Belə ki, onun hazırlaşdırdığı abituriyentlər müxtəlif respublika və xarici universitetlərdə ali təhsil almışlar və bu gün də oxuyanlar var. Vaqif müəllim rus və ingilis dilini də kifayət qədər bilirdi. Şagirdləri də demək olar ki, rus bölməsinin abituriyentləri idi.

Tez-tez xatırladığım, özünün vaxtilə mənim sorğularıma cavab olaraq danışdığı bir hadisəni də oxucularla bölüşmək istəyirəm. 1986-cı ildə Bərdə rayonuna göndərilən yeganə kompüteri rayon üzrə heç bir müəllim işlədə bilməmişdir. Vaqif müəllim tanınmış riyaziyyatçı olduğu üçün ona da müraciət olunmuşdur. O, kompüterin proqramını yazmış, həmin proqramla onu idarə edə bilmişdir. Bundan sonra o, Bərdə rayonu üzrə ilk informatika müəllimi təyin olunmuş, 1987-ci ildə isə nazirliyin göndərişi ilə Bərdə rayonundan yeganə müəllim olaraq Lomonosov adına Moskva Dövlət Universitetində informatika üzrə ali kurs keçmişdir.

25 iyul 1985-ci ildə Maarif Nazirliyinin əmri ilə "Baş müəllim", 1990-cı ildə "Metodist müəllim", 1994-cü ildə "Ali kateqoriyalı müəllim" adlarına layiq görülən Vaqif müəllimin riyaziyyat və həndəsə fənlərinin şagirdlərə daha da yaxşı mənimsədilməsi üçün özünə məxsus üsulları vardı. O, 1990-cı ildə Bakı şəhərində keçirilən "Azərbaycanda təhsilin informatlaşdırılması istiqamətləri" mövzusunda elmi-praktiki konfransda iştirak etmiş, 2001-ci ildə isə "Təhsilin humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün təzahürüdür" mövzusuna həsr edilmiş pedaqoji mühazirənin respublika mərhələsinin iştirakçısı kimi qalib gələrək II yeri tutmuş və təhsil nazirliyinin diplomu ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Təhsil Naziri Misir Mərdanovun 12 dekabr 2003-cü il tarixli qərarı ilə “Gənc nəslin təlim-tərbiyəsində səmərəli pedaqoji fəaliyyətinə görə” fəxri fərmanı ilə təltif edilmişdir.

1984-cü ildən şəkər xəstəliyi ilə mübarizə aparan Vaqif Mirzə oğlu Abdullayev 17 noyabr 2011-ci ildə 57 yaşında Bərdə şəhərində vəfat etmiş və doğulduğu Yeni Daşkənd kəndində dəfn olunmuşdur.

Vaqif müəllim həmçinin gözəl və qayğıkeş ailə başçısı idi. İngilis dili müəllimi Gülüm Yolçu qızı ilə 1982-ci ilin dekabr ayında ailə həyatı qurmuşdur. Təməli saf məhəbbətə, halallığa söykənən bu ailədə Ülkər, Ülviyyə və Ülvi adlı iki qız, bir oğul böyütmüşlər. Övladları da özləri kimi elmə, təhsilə böyük dəyər vermişlər. Qızları Ülkər və Ülviyyə ali təhsilli müəllimdirlər, oğlu Ülvi isə Türkiyə Respublikasında ali təhsil almaqdadır.

Milli dəyərlərə, milli mentalitetə daha çox önəm verən, sadə və təvazökar insan olan Vaqif müəllim hər iki qızını el-oba adəti ilə ərə vermiş, toylarını etmişdir. Lakin amansız ölüm oğlunun toy şənliyini görməyi ona qismət etmədi. Dünyalar qədər sevdiyi nəvələri Əsməri, Məhəmmədi, Yaqubu doyunca əzizləyə bilmədi. Bəli, Vaqif müəllim beləcə neçə-neçə arzuları qəlbində bu dünyanı tərk edib haqq dünyasına qovuşdu. O da dünyadan vaxtsız köçmüş qardaşları Yaqub, Əhəd, Naib, bacısı Həlimə xanımın uyuduğu torpağa köçdü. Bu qardaş-bacıların beşi də cavan rəhmətə gediblər. Bu dərdi çəkməyin 90 yaşlı Sərəngiz ana üçün nə qədər ağır olduğunu anlamaq heç də çətin deyil.

Çox hörmətli, görkəmli riyaziyyatçımız, fəxrimiz olan Vaqif müəllimə Allahdan rəhmət diləyir, ruhu şad olsun, deyirəm.

# BABAMIN ÖMÜR YOLU

1 sentyabr 1939-cu ildə başlayan II Dünya müharibəsinə Sovet İttifaqında yaşayan xalqlardan səfərbər edilən çağırışçılar içərisində azərbaycanlılar da az olmamışdır. Xüsusən, Ermənistanda və Gürcüstanda yaşayan əhalinin azərbaycanlılardan ibarət hissəsi müharibəyə düşünülmüş şəkildə daha çox göndərilmişdir. Göyçə mahalının Daşkənd kəndindən II Dünya Müharibəsinə 250 nəfər səfərbər olunmuş və bu çağırışçılardan təxminən yarısı, yəni 126 nəfəri itkin düşmüş, həlak olmuşdur. Qalanlardan 122 nəfər müharibə veteranı kimi doğma kəndlərinə qayıtmış, biri Amerikada, biri isə Türkiyədə qalıb yaşamışdır.

Haqqında söhbət açacağımız müharibə veteranlarından biri də 30 iyun 1926-cı ildə Göyçə mahalının Daşkənd kəndində Qara Hüseynlilər nəslində anadan olan babam Hümbətov Abdulla İsmayıl oğludur.

Daşkənddə Qara Hüseynlilər kimi tanınan nəsil, deyilənlərə görə, əslən İranın Sulduz mahalından olublar. Bizə məlum olan ilk babanın adı Məhərrəmdir. Məhərəmin isə dörd oğlu olub: Kərbəlayı Hümbət, İvathüseyn, Əhməd və Məmməd. Kərbəlayı Hümbət Hürü xanımla ailə qurub. Bu cütlükdən isə üç oğul, dörd qız doğulub: İsmayıl, Vəli, Ağakişi, Səlmi, Gövhər, Çeşmə və Güləbatın. İsmayıl (1872–1952) kişinin iki evliliyi olub. Əvvəlki arvadı Güləndamdan Əliş, Tağı və Nağı doğulub. İkinci dəfə isə Orucun qızı Reyvəni alıb. Reyvədən isə bir oğlu dünyaya gəlib. Adını Abdulla qoyublar. Abdullanın 13 yaşı olanda (1939-cu il) anası vəfat edib. Burada qeyd edim ki, Reyvə nənənin əvvəlki əri Axund Şəfi oğlu Molla Mehdi (1870–

1925) olub. Molla Mehdi vəfat edəndə Pürüzə və Zümrüd (Abdullanın ana bir, ata ayrı bacıları) adında iki qızı olub. Bu qızlar Göyçənin Qaraiman kəndində ərdə olublar. Pürüzə 1948-ci ilin deportasiyasından son illərə qədər Tərtərin Seyidimli kəndində yaşayırdı.

Abdulla babam ailənin sonbeşiyi olmuşdur. Onun 1905-ci ildə anadan olan böyük qardaşı Əliş 20 yaşında xəstəlikdən vəfat etmişdir. Özündən böyük qardaşları Tağı (1908–1941/45), Nağı (1916–1977) və əmisi Vəlinin oğlu Umud (1912–1941/45) elə müharibə başlayan kimi Vətənin müdafiəsinə yollanmışlar. Tağı və Umud müharibədə itkin düşmüş, Nağı isə 1946-cı ildə ordudan tərxis olunmuş və doğulduğu Daşkənd kəndinə qayıtmışdır.

Babam Hümbətov Abdulla 10 oktyabr 1944-cü ildə Basarkeçər RHK-dan orduya çağırılmışdır. Onunla bərabər Daşkənddən 18 nəfər 1926-cı il təvəllüdlü gənclər səfərbər edilmişdir. Xatırladım ki, bu, Daşkənddən müharibəyə son çağırış olmuşdur. Bu çağırışçılardan 2-si həlak olmuş, 16 nəfəri isə doğma kəndlərinə qayıtmışlar. Abdulla Hümbətov Gürcüstanın Qori şəhərində üç ay hərbi təlim keçdikdən sonra 1945-ci ilin əvvəlində Rumıniyaya döyüşə göndərilib. Orduda avtomatçı olmuş Abdulla Hümbətov 22 aprel 1945-ci ildə Avstriyada yaralanmış və Macarıstanda müalicə olunduqdan sonra Yaponiyaya – oradakı müharibəyə səfərbər edilmişdir. Yaponiyada bir neçə ay xidmət etdikdən sonra onların hərbi hissəsi Cənubi Saxalinə göndərilmişdir. Altı il hərbi xidmət keçdikdən sonra 8 avqust 1950-ci ildə ordudan tərxis olunmuşdur.

25 yaşlı Abdulla kəndə qayıtdıqdan sonra elə 1950-ci ildə Dumanlı nəslindən olan Fərruxun qızı Rəqiyə ilə ailə

həyatı qurmuşdur. Mənfur və nankor qonşularımız olan ermənilərin və havadarlarının siyasəti nəticəsində bu gənc ailə də 1953-cü ildə Basarkeçər rayonunun Daşkənd kəndindən ailəlikcə və ellikcə Bərdə rayonuna deportasiya olunmuşdur. Bərdəyə köçəndə ailədə 2 yaşında Əsmətel adlı sevimli bir qız böyüyürdü. Gələcəkdə mən bu qızın övladı olacaqdım. Sonralar Abdulla Hümbətovun Fatma, Zaman və Nərgiz adında övladları da anadan olublar.

Babamın ömür-gün yoldaşı Rəqiyə nənəm 22 sentyabr 2006-cı ildə 73 yaşında vəfat etdi. Nənəm kənddə hamının sevimlisi olan ağbirçəklərdən idi. Onun ölümü hamıya təsir etmişdi. O günlərdə qəlbimdən keçənləri xırda bir şeirlə belə ifadə etmişdim:

Soruşanda keçmişi,
Danışardı hər işi.
Ötürmüşdü yetmişi,
Mənim Rəqiyə nənəm.

Nəvələri sevərdi,
“Qara dana” deyərdi.
Öpüb, əzizləyərdi,
Mənim Rəqiyə nənəm.

Qəlbimin aynasıydı,
Anamın anasıydı.
Babamın parasıydı
Mənim Rəqiyə nənəm.

Arazam, mənimlədi,
Ruhu ürəyimdədi.
Hamının qəlbindədi
Mənim Rəqiyə nənəm.

Əmək veteranı olan Abdulla babam dəfələrlə müharibə iştirakçısı kimi orden və medallara layiq görülmüşdür. 2009-cu ildə Belarus Respublikasının Azərbaycandakı səfiri "1944–2009" Belarusun alman-faşist döyüşçülərindən azad edilməsinin 65 illiyi ilə əlaqədar Bərdə rayonuna gəlmiş, Abdulla Hümbətovla bərabər bir neçə veteranla görüşmüş, onları mükafatlandırmışdır.

Abdulla babam 30 iyun 2011-ci ildə 85 yaşında Bakı şəhərində bu dünyayla birdəfəlik vidalaşdı. Həm də doğulduğu və atam Yaqub Hacıyevin də vəfat etdiyi gündə gözlərini yumdu. O, Bərdə rayonunun Yeni Daşkənd kəndində dəfn olundu. Abdulla kişi övladlarının, nəvə-nəticələrinin və onu sevənlərin qəlbində daim yaşayacaq, daim anılacaqdır.

# ADI DASTANLAŞAN EL QƏHRƏMANI

Göyçə mahalının ayrı-ayrı kəndlərindən olan igid el qəhrəmanları 1905–1907 və 1918–1919-cu illərdə erməni işğalçılarına qarşı mərdliklə döyüşmüşlər. Ardanışdan Məşədi Hümbət, Ağbulaqdan Dəli İsmayıl, Qaraimandan Məşədi İsə, Ağkilsədən Bəşir, Toğlucadan Cığal Həsən, Şişqayadan Kor Tanrıverdi, Zoddan Səməd ağa və neçə-neçə belə ərənlər... Daşkənd kəndindən də həmin illərdə igidlik göstərənlər az olmamışdır – Hacı Rəhim, Məşədi Qasım, Qaçaq İdris, Mədət Qocamanoğlu, Kərbəlayı Zeynal, Əliş Süleymanov, Vəli, Koroğlu Məhəmməd, Ziyad Babayev, Nağı bəy, Tağı oğlu Məhərrəm, Hacı Dünyamalı oğlu Abbasəli və başqaları.

Tarixi mənbələrə, sənədlərə və real söyləmələrə əsaslanan bu araşdırmamız dövrünün cəsur igidlərindən olan Rəsulov Məşədi Qasım Hacı Kərim oğlu haqqındadır. Məşədi Qasım 1863-cü ildə Göyçə mahalının Daşkənd kəndində "Rəsullular" nəslində anadan olub. O, Göyçə mahalında çox hörmətli, adlı-sanlı şəxsiyyətlərdən biri, eyni zamanda erməni daşnaklarının hücumlarına qarşı xalqı səfərbər edən başbilən kişilərdən olmuşdur. Məşədi Qasım Ceyran xanımla ailə həyatı qurmuş, onların Hüsən, Zeynəb, Məleykə, Sayad, Narın, Dağbəyi və Fəzi adında 4 oğlu, 3 qızı olmuşdur.

Məşədi Qasım Zodlu Səməd ağa, Şişqayalı Kor Tanrıverdi, Məşədi Allahverdi, Çaxırlı Böyük ağa, Qaraimanlı Məşədi İsə, Qanlılı Hacı Nağı və dahi aşığımız Ağkilsəli Aşıq Ələsgər ilə yaxın dostluq etmişdir. Aşıq Ələsgərlə dostluğu barədə aşığın nəvəsi İslam Ələsgər "Haqq aşığı

Ələsgər" kitabında da məlumat vermişdir [1, s.42]. Sonralar Məşədi Qasımın oğlu Sayad (1905–1955) "Alməmmədlilər" nəslindən evlənmişdir. Məşədi Qasımın digər oğlu, el şairi Qəmgin Fəzi (1912–2000) Aşıq Ələsgər ocağı ilə, xüsusən də Aşıq Nəcəf, Aşıq Talıb, Aşıq Musa və Bilal Məmmədovla ömrünün sonunacan dostluq etmiş, səmimi münasibətdə olmuşdur.

Belə söyləyirlər ki, sovetləşmədən qabaq Məşədi Qasım adam vurubmuş. O dövrün qanunlarına görə bir il həbs cəzası çəkməliymiş. Qaydalara uyğun istənilən adam başqasının əvəzinə cəza çəkə bilərmiş (Bəlkə də Kərbəlayı Əmrah cinayəti öz üzərinə götürüb – A.Y.). Kərbəlayı Əmrah özündən kiçik qardaşı Məşədi Qasımın əvəzinə bir il "katorqa" çəkib. Deyib ki, sən igidsən, qoçaqsan, arxa-dayaqsan, mən sənin əvəzinə tutularam, amma səni qoymaram tutalar [2].

Türkün qanına susayan ermənilər Göyçə mahalında daha da azğınlaşmışdılar. "1919-cu il yanvarın 24-də Göyçənin Çamırlı kəndinə basqın edən daşnak terrorçuları dörd kişinin başını, altı qadının döşlərini kəsərək on nəfər dinc sakini vəhşicəsinə qətlə yetirmişlər" [3]. Məşədi Qasım bu hadisəni eşidir və düşünür ki, onlar kəndləri yandıra-yandıra, əhalini vəhşicəsinə öldürə-öldürə bir gün də gəlib Daşkəndə çıxacaqlar. Ona görə də özünün təşəbbüsü və başçılığı ilə kənddən Qaçaq İdrislə, Hacı Rəhimlə, Qocamanoğlu Mədətlə, Kərbəlayı Zeynalla, Əliş Süleymanovla və Ziyad Babayevlə birlikdə Göyçə gölünün cənubundakı Çamırlı və ətraf kəndlərin köməyinə getmişdir. Hətta Çamırlı kəndində gedən döyüşdə Süleymanov Əliş Sevdalı Hüseyn oğlu şəhid olur. Babası Kərbəlayı Zeynaldan eşi-

dib-öyrəndiyi bu hadisələri tarixçi-müəllim Xasay Zeynalov şəxsən bu sətirlərin müəllifinə danışmışdır. Əziz Ələkbərli də bu barədə doğru olaraq yazır: “1918–1919-cu illərdə bu ərazidə (Göyçə mahalı nəzərdə tutulur – A.Y.) erməni daşnaklarının hücumlarına qarşı xalqı səfərbər edən igid oğullardan biri də Daşkənd kəndindən Məşədi Qasım Hacı Kərim oğlu olmuşdur” [4, s.174].

Tam olmasa da, araşdırma və tədqiqatlarımız zamanı bəzi mənbələrdə bir neçə məlumatlara rast gəldik. Əli Qurban Dastançı “Məşədisə dastanı” kitabında Zərzibilli Əmrah kişinin söylədiklərinə əsasən yazır: “1906-cı ildə Bayaziddə Qlava Məşədi İsəyə həmən illərdə qarışıxlıq salanlara qarşı yaxşı mübarizə apardığına görə “Qızıl medal” veriləndə gülüb, deyib ki, hünəri Daşkəndli Məşədi Qasım göstərib, medalı, özü də qızıl medalı Qaraimanlı Qlava Məşədi İsə alır... Yəni ki, hünər səninkidi, ad mənimkidi...” [5, s.216]. Həmin yazıda müəllif bir daha qeyd edir ki, “Məşədi İsənin Məşədi Qasım haqqında dediyini bir neçə il əvvəl Bərdənin Yeni Daşkənd kəndində müdrik ağsaqqal olan Abbasəli kişidən ətraflı eşitmişdim”.

Görkəmli alimimiz, akademik Ziya Bünyadovun baş redaktoru olduğu “Azərbaycan SSR EA Xəbərləri” jurnalında ermənilərin Azərbaycan xalqına qarşı 1918–1919-cu illərdəki etdiyi zorakılıqlardan bəhs edən “Ermənilər və Ermənistan Respublikası qoşunlarının Qarabağın və Gəncə quberniyası, İrəvan quberniyası ilə həmsərhəd qəzaların müsəlman əhalisinə qarşı törətdikləri zorakılıqlar barədə Daxili İşlər Naziliyi dəftərxanasının işlərindən çıxarış (80 saylı işdən – 1918-ci il, IV şöbə)” ümumi başlıqlı 53 bənd-

dən ibarət raport, ərizə, teleqram və xahişnamələrdən 19, 51, 52-ci hissələrdən oxuyuruq: [6, s.87]

"19. İrəvan Quberniyası Yenibəyazit qəzası Daşkənd kənd sakinləri Məşədi Qasım Hacı Kərim oğlu və Böyük Əli Hacı Mirzə Ələkbər oğlunun Daxili İşlər Nazirinin adına 23 yanvar 1919-cu il tarixli xahişnaməsi.

Erməni hökuməti qoşunlarla məmur qismində müsəlman kəndlərinin sakinlərini tamamilə talan etdi: – 1) Zağalı, 2) Daşkənd, 3) Zod, 4) Hüseynquluağalı, 5) Sarıyaqub, 6) Böyük Qaraqoyunlu, 7) Kiçik Qaraqoyunlu, 8) Aşağı Narçamor, 9) Yeni Keti, 10) Qayabaşı, 11) Qoşabulaq, 12) As-Kdisa, 13) Zərzibil, 14) İnəkdağı, 15) Sultanəliqışlağı, 16) Oğruca, 17) Böyük Məzrə, 18) Bala Məzrə, 19) Kəsəmən, 20) Şişqaya, 21) Sətənəxaç, 22) Qızıl-Payka. Qoşunlar hər kənddə 5–6 gün qalırlar. Talan etdikdən sonra çıxıb başqa kəndə gedirlər.

Aşağıdakı kəndləri tamamilə yandırmışlar: 1) Örkülü, 2) Alçalı, 3) Kəminli, 4) Yarpızlı, 5) Qanlı, 6) Kərkibaş, 7) Çaxırlı, 8) Kefli-Kürdü və 9) Böyük Məzrə. (18 saylı iş, 1919-cu il, IV şöbə)

51. Gəncə Qubernatorunun 11 mart 1919-cu il tarixli 352 saylı teleqramı:

Yenibəyazit qəzasının Daşkənd, Şorca, Nevksiti, Sarıyaqub, Qaraqoyunlu, Oğruca, Qayabaşı və Qoşabulaq kəndlərinin nümayəndələri Məşədi Qasım, Abbasəli (Hacı Dünyamalı oğlu – A.Y.), Məhərrəm Tağı oğlu bildirirlər ki, erməni qoşunları onları mütamadi olaraq talan edir, bütün taxılı, yemi, mal-qaranı, silahı götürmüşlər; özləri ilə çoxlu insanlar aparmışlar, onların taleyi məlum deyil.

52. İrəvan Quberniyası Yenibəyazit qəzası Göyçə mahalının 26 kənd sakininin həmin il 2 mart tarixli ərizəsi Gəncə Qubernatoru tərəfindən 6 mart 1919-cu ildə 3162 sayla təqdim edilmişdir.

1919-cu il fevralın 28-də romistr Silikov, kornet Xaçaturov və adyutantın dəstəsi müsəlman kəndlərinə gəldi və hər kənddən 750 pud taxıl və 100 pud quru ot tələb etdi; həmin şeylər bu miqdarda olmadığından xalq mükəlləfiyyətdən azad edilməyi xahiş etdi; bu zaman Silikov qamçı ilə vurmağa və söyməyə başladı və hətta Zod kəndinin sakini Məci Süleyman oğlunu öldürdü, qalan zabitlər isə daha dörd müsəlmanı yaraladılar. Təlaşlanmış xalq hücum edib dörd zabiti və on beş əsgəri öldürdü, bu Zod kəndində olmuşdu.

Martın 2-də ermənilər Qoşabulaq, Daşkənd və Böyük Məzrə kəndlərini ələ keçirməyə çalışdılar, lakin hələlik dəf edildilər".

Sənədlərdən də görünür ki, Məşədi Qasım, Böyük Əli Hacı Mirzə Ələkbər oğlu, Hacı Dünyamalı oğlu Abbasəli, Tağı oğlu Məhərrəm və digərləri böyük fədakarlıq göstərmiş, ermənilərə qarşı döyüşməklə yanaşı, Azərbaycan hökumətini də bu zorakılıqlardan hali etmişlər. 1919-cu il aprelin 20-də artıq Göyçə mahalının Kəlbəcərlə qonşu olan kəndləri, eləcə də Daşkənd kəndi işğal edilmişdir.

Məşədi Qasım Göyçə mahalındakı döyüşlərdən sonra ailəsi ilə birlikdə Qarabağa gəlmiş, Laçınlı Sultan bəyin silahdaşı olmuş və erməni millətçilərinə qarşı qəhrəmanlıqla vuruşmuşdur. Laçınlı Sultan bəylə Məşədi Qasımın tanışlığı Göyçənin ağır günlərində Sultan bəy Göyçəyə – Basarkeçərə, Zoda köməyə gələrkən olmuşdur. Məşədi

Qasımda ermənilərə qarşı qisasçılıq istəyi və Sultan bəyin də ermənilərə qarşı apardığı mübarizə Məşədi Qasımın Qarabağa gəlməsinə səbəb olmuşdur. O, sərrast atıcı kimi 1919-cu ildə Qarabağda baş verən hadisələrdə xüsusən fəallıq göstərmişdir. Bir il Sultan bəy və qardaşı Xosrov bəyin məsləhəti ilə kəndin vergisi də ona verilməklə Xocalı ətrafında bir kənddə (deyilənlərə görə Ağdamın Qasımlı kəndi) yaşamışdır. 1921-ci ildə Məşədi Qasım orada qızdırmadan vəfat etmişdir və dostu Məmmədquluya etdiyi vəsiyyətinə əməl olunaraq Şuşa şəhərində dəfn olunmuşdur. Məşədi Qasımın vəfatından sonra qardaşı Kərbəlayı Əmrah Qarabağa gələrək onun uşaqlarını doğma ata-baba yurdları Göyçəyə aparmışdır.

Məşədi Qasımın həyat-fəaliyyəti haqqında dövri mətbuatda və kitablarda çox yazılmışdır. Onun haqqında hesab edirik ki, ən müfəssəl, doğru məlumatları nəvəsi Xasay Zeynalov "Göyçə mahalında 1917–1920-ci illərin hadisələri" məqaləsində yazmışdır [7]. Daha iri həcmli məqalə isə Eldar Həsənlinin "Göyçəli sərkərdə Məşədi Qasımın Əsgəran döyüşü" adlı məqaləsidir [8]. Lakin müəllif məqalədəki məlumatlarda bəzi təhriflərə yol vermişdir.

Məşədi Qasımın XX əsrin əvvələrində ermənilərə qarşı apardığı mübarizəni həmin əsrin sonlarında onlarla nəvənəticələri də davam etdirdilər. Onlardan nəvəsi Yasif, nəticələri Abbas və Nəbi Qarabağ döyüşlərində şəhidlik zirvəsinə ucaldılar.

**Ədəbiyyat:**


1. Ələsgər, İslam. Haqq aşığı Ələsgər. Bakı: Maarif, 1999
2. Söyləyəni: Əmrahov Haris Məhəmməd oğlu (76 yaş)
3. Əroğul, Əlisahib. Erməni-daşnaq faşizmi və Azərbaycan. Bakı: Təhsil, 2007
4. Ələkbərli, Əziz. Qədim türk-oğuz yurdu "Ermənistan". Bakı: Sabah, 1994
5. Dastançı, Əli Qurban. Məşədisə dastanı. Bakı: Əbilov, Zeynalov və oğulları, 2000
6. Azərbaycan SSR Elmlər Akademiyasının xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). Bakı: 1989, № 4 (baş redaktor: Ziya Bünyadov)
7. Zeynalov, Xasay. Göyçəsiz günlərim. Bakı: Nurlan, 2006
8. Həsənli, Eldar. Göyçəli sərkərdə Məşədi Qasımın Əsgəran döyüşü. "Ədalət" qəz., Bakı, 2004, 25 may

# ELDƏN GEDƏN OĞUL

*Unutmaz tarixin böyük günləri,*
*Dünyaya mərd gəlib, mərd gedənləri.*
*Səməd Vurğun*

Göyçə mahalının Daşkənd kəndində son dövr – yəni XVIII əsrin sonu XIX əsrin əvvəllərindən bu yana insanların məskunlaşması haqqında apardığımız araşdırmalarımız zamanı müəyyən etmişik ki, nəsil və soyların 80%-dən çoxu əslən Qazax qəzasından olublar. Bu da səbəbsiz olmamışdır. Belə ki, Göyçə mahalının geniş otlaqları mal-heyvan saxlamaq üçün daha əlverişli olmuşdur. Ona görə də demək olar ki, mahalın ərazisi, eləcə də Daşkənd kəndi Qazaxdan olan insanların yaylaq yerləri olubdur. Dediyimiz kimi kənddə son məskunlaşmanın ilk sakini Qazaxın Daş Salahlı kəndində doğulan Hacı Hüseyn olmuşdur. Belə söyləyirlər ki, Hacı Hüseynin mal-qarası çox, Qazaxda da sıxlıq olduğundan o, çobanı ilə bərabər yurd yeri seçmək üçün Göyçəni gəzib dolanırmış. Onlar Daşkənd kəndinə çatanda burada mal-heyvan saxlamaq üçün bir-neçə iri zağaların (qayaaltı mağara) olduğunu görürlər. Evlərin ancaq xarabalıqları qalıbmış. Bu vaxt çoban Hacı Hüseynə deyir ki, burda yanı quzulu bir qoyun da var. Belə qərara gəlirlər ki, bura ruzili, bərəkətli yerdi, burda yaşamaq olar. Hacı Hüseyndən sonra kənddə məskunlaşma çoxalmağa başlayır.

Bu sətirlərin müəllifinə Hacı Hüseyn nəslindən olan Pürüzə Əsəd qızı və Rəqiyə Fərrux qızı söyləyiblər ki, Hacı Hüseynin Kərbəlayı Bədəl, Məşədi Mirzə, Məşədi Göyçək

və Faxrı adında iki oğlu, iki qızı olub. Məşədi Mirzənin Əbdülkərim, Haqverdi, Xudu adında üç oğlu, Kərbəlayı Bədəlin isə iki oğlu varmış – Atakişi və Ocaqverdi.

Bu yazıda biz ancaq nəslin Kərbəlayı Bədəl qolundan söhbət açacağıq. Bu nəsilə bəzən kənddə "Dumanlılar" da deyirmişlər. Lakin bu düzgün deyil. Araşdırmalarımız zamanı müəyyən etdik ki, Duman indiki "Babalar" dediyimiz nəslin ilk məlum olan babasının adıdır. Aydınlıq üçün bildirək ki, o zaman kənddə sudan növbəlilik əsasında istifadə edirmişlər. Kərbəlayı Bədəlin övladları ilə (bu nəslə "Ocaqverdilər" də deyirdilər) Dumanlıların say tərkibini nəzərə alıb növbələrini eyni vaxta salıblar. Camaat arasında daha çox "Dumanlıların növbəsi" ifadəsi işləndiyindən "Ocaqverdilər" nəsli bu nəsillə bir hesab edilmiş və nəticədə belə yanlış adlandırma olmuşdur.

Kərbəlayı Bədəlin böyük oğlu Atakişi Rəsullular nəslindən olan Hacı Kərim və Hacı Balının bacısı Xatunla ailə qurub. Bu evlilikdən Məşədi İsmeyil və Əvzər anadan olublar. Kərbəlayı Bədəlin ikinci oğlu Ocaqverdi Məmmədin qızı Xeyransanı alıb. Onların Əsəd, Məhərrəm, Fərrux və Böyükkişi adında dörd oğlu olubdur. Əsəd Kəlbəcərin Qaraçanlı kəndindən olan Möylənverdinin qızı Pərcahan ilə evlənib. Bu ailənin Ruqiyə, Sayad, Xuraman, Tamam və Pürüzə adında övladları olub. Ocaqverdi oğlu Əsədin qızları Xuraman və Tamam 10–11 yaşlarında çiçək xəstəliyindən vəfat ediblər. Qalan iki qız – Pürüzə 74 yaşında, Ruqiyə isə 100 yaşında Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat ediblər. Əsədin yeganə oğlu Sayad Bədəlov 1912-ci ildə Göyçə mahalının Daşkənd kəndində anadan olub. 1941-ci ilin noyabr ayında Basarkeçər RHK-

dan orduya çağrılmışdır. 1942-ci ilin yanvar ayında Sevestapolda sağ ayağından yaralandıqdan sonra ordudan tərxis olunub kəndə qayıtmış və yenidən Böyük Vətən müharibəsinə səfərbər olunmuşdur. O, 1942-ci ilin mart ayında müharibədə itkin düşmüşdür. Sayad Bədəlov 1935-ci ildə ailə qurubdur. Anası Pərcahan xanım Kəlbəcərin Qaraçanlı kəndində yaşayan qardaşı Mirzənin qızı Sənəmi oğluna alıbdı. Sayadla Sənəmin ailəsində bircə oğul – Frunze dünyaya gəlib. Hər kəlməsi hikmətli sözlərdən yoğrulan Hacı Frunze 2006-cı ilin yanvar ayında müqəddəs həcc ziyarətində olub. Ulu babası Hacı Hüseyn kimi o da oruc tutub, namaz qılan, dini ayinlərə əməl edən bir el ağsaqqalıdır.

Hacı Frunze 1958-ci ildə "Babalar" nəslindən olan Babışın qızı Suyatel xanımla evlənib. Bu sadə və zəhmətkeş ailədə üç oğul, bir qız dünyaya gəlib – Lətif, Aftel, İlqar və Zülfüqar.

Haqqında daha geniş söhbət açacağımız Hacı Hüseynlilər nəslinin layiqli, dəyərli varisi, hamının ümid yeri olan Əsədov Lətif Hacı Frunze oğludur. O, 2 yanvar 1960-cı ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində doğulmuşdu. 1977-ci ildə orta məktəbi bitirmiş, 1977–1979-cu illərdə Bərdə rayonundakı Kəndtikinti İdarəsində işləmişdir. 1979–1981-ci illərdə Murmansk şəhərində hərbi xidmət keçən Lətif Əsədovun KP-na namizədliyi verilmişdir. O, 1982–1990-cı illərdə Komunist Partiyasının üzvü olub.

1982-ci ildə S.Ağamalıoğlu adına "Şərəf nişanı" ordenli Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Kənd Təsərrüfatının Mexanikləşdirilməsi" ixtisasına rus dili üzrə qəbul olmuşdur. Oxuduğu müddətdə nümunəvi tələbələr-

dən olmuş, qrup nümayəndəsi kimi institututda keçirilən tədbirlərdə yaxından iştirak etmişdir. 1987-ci ildə ona mühəndis-mexanik ixtisası və leytenant rütbəsi verilmiş, oxuduğu institutu fərqlənmə diplomu ilə başa vurmuşdur.

1988-ci ildə Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi İnstitutunda aspiranturaya qəbul olmuşdur. Bundan sonra Lətif müəllim bir müddət müxtəlif ali məktəblərin auditoriyalarında və elmi seminarlarda mühazirələr oxumuşdur. O, Azərbaycan Elmi Tədqiqat "Aqromexanika" İnstitutunda namizədlik dissertasiyası müdafiə etmiş və texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1987-ci ildən təyinatla Ağdam şəhərindəki 50 saylı Texniki Peşə Məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayan Lətif müəllim Ağdam şəhərində min bir zəhmətlə tikib başa gətirdiyi müasir iki mərtəbəli evində cəmi bir neçə ay yaşaya bildi. 1993-cü ildə Ağdamın ermənilər tərəfindən işğalı zamanı o da qaçqınlıq həyatı yaşamalı oldu. Bir müddət Bərdədə yaşadıqdan sonra Bakı şəhərinə köçdü, taleyini birdəfəlik Bakı şəhəri ilə bağladı. Respublikanın ağır günlərində min bir zəhmətlə ailəsini dolandırdı, özünə yenidən ev-eşik qurdu, bütün təminatlarının hamısını ödəyəcək dərəcədə halallıqla özünə güzaran yaratdı.

Lətif Əsədov bundan sonra əlavə qazancını xeyriyyəçilik işlərinə xərclədi. O, halal qazancı ilə məscidlərin təmirindən tutmuş hər il müqəddəs bayramlarda Bilgəhdəki qocalar evinə, ehtiyacı olan xəstələrin müalicə olunmasına qədər maddi köməklik göstərdi. Dəfələrlə şahidi olmuşam ki, Lətif müəllim kimsəsiz gənclər ailə quranda onlara xeyli sayda məişət avadanlıqları hədiyyə edib. Onu yaxından

tanıyanlar da təsdiq edərlər ki, Lətif müəllim bütün elmlərdən dolğun məlumata malik, çox dünyagörüşlü, intellektual savada malik dəyərli bir ziyalı idi. O, ölkədə gedən ictimai, siyasi prosesləri izləyər, mətbuatla yaxından əlaqə saxlayardı. Xüsusən, bədii ədəbiyyatın, aşıqların və aşıq yaradıcılığının vurğunu idi. Xeyli sayda şeirləri əzbər bilər, dahi insanların aforizmlərindən danışığında istifadə edərdi. Aşıq yaradıcılığının təbliğində yaxından iştirak edir və bir çox aşıq və el şairlərinin kitablarını çap etdirirdi. Sərraf Şiruyənin "Könlüm Göyçəni istər", "Hər görüş bir xatirədir", "Göyçədən gələn səslər", Alqayıt Xəlilovun "Yaralı qartal", "Seyid Bayram ocağı", Aşıq Hacı Göyçəlinin "Mənim sazlı, sözlü dünyam", Qılman İmanın "Hardan düşdün yadıma sən…", Firdovsi Xəlilovun "Bu ayrılıq əbədidir…", Mələk Quliyevanın "Evdarlıq" və bilmədiyimiz neçə-neçə kitabların təmannasız çapı dediklərimizə əyani misaldır. Lətif müəllim "Sağ əl verdiyini sol əl bilməməlidir" deyimini rəhbər tutaraq çox vaxt etdiyi yaxşılıqları, xeyriyyəçilikləri kiminləsə bölüşməz, heç kəsə deməzdi. Bu baxımdan onun xeyriyyəçilik işlərini okeanda üzən nəhəng aysberqə bənzətmək olar. Aysberqin isə yalnız üçdə biri görünür.

Qeyd edim ki, Lətif Əsədov bir müddət Bərdə rayonu Yeni Daşkənd kənd orta məktəbində oxumuşdur. Son illər yeni tikilən kənd məktəbinin istilik sisteminin işləməməsini eşitdikdə o, tərəddüd etmədən 2008-ci il dekabrın 11-də Yasif Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbində olmuş, öz yardım əlini uzadaraq məktəbin istilik sistemini əsaslı təmir etdirmişdir.

Xeyriyyəçilik işlərini yerinə yetirmək üçün gərəkdir ki, böyük ürək sahibi olasan. Çünki bu hər imkanlı şəxsə qismət olmur. Lətif müəllimdə o böyük ürək həqiqətən var idi. Nağıyevlərin, Tağıyevlərin xeyriyyəçilik missiyasını layiqincə davam etdirən Lətif müəllim illər öncə H.Z.Tağıyev mükafatı ilə təltif edilmişdi.

Gözəl ailə başçısı, tanınmış ziyalı, xeyriyyəçi Lətif Əsədov 15 sentyabr 2012-ci ildə doğmaları ilə birdəfəlik vidalaşdı. Amansız xəstəlik 52 yaşında onu bizlərdən ayırdı.

1988-ci ildə Lətif Əsədov atasının bibisi oğlu, bu gün hamının ehtiramla xatırladığı, Bərdədə tanınmış mühəndis Yaqub Hacıyevin qızı Rəfiqə xanım ilə ailə həyatı qurmuşdu. Onların Vüqar adlı bir oğlu və Aytən adlı bir qızları var. Oğlu Vüqar da ailəlidir, Lətif və Aylin adlı iki övladı böyüyür.

Lətif müəllimin sanki son illər ürəyinə dammışdı ki, rəhmətə gedəcək. Nəvəsinə öz adını qoymasından bir az rahatlıq tapsa da, sanki bütün işlərini qısa müddətdə bitirməyə tələsirdi. Keçən ilin elə bu aylarında mənim də iştirak etdiyim Bilgəh qocalar evindəki görüşdə onun çıxışındakı bir ifadə qulaqlarımdan getmir, dönə-dönə xatırlayıram: – “Əziz ata və analarım! Əgər gələn il Qurban bayramında gəlməsəm bilin ki, mən həyatda yoxam”.

Lətif müəllim, Allah sənin adını daşıyan nəvənə torpağın sanı ömür əta etsin. Sən yaxşı ki, adına layiq Vüqar kimi bir oğul böyütdün, tərbiyə etdin. Və mən inanıram ki, Vüqar sənin yolunu layiqincə davam etdirəcək.

Lətif müəllimin sentyabr ayının 22-də keçirilən yas məclisinin 7-si gününün axşamı şeirləri Lətif müəllimin

dilinin əzbərinə çevrilən sevimli şairimiz Şiruyə müəllim (Sərraf Şiruyə) mənə zəng edib Lətif müəllimlə bağlı xatirələrini bölüşdü və onun xeyirxahlığından ürək dolusu danışıb, dəyərli ziyalımızın ölməz ruhuna həsr etdiyi şeirini oxudu:

Bir elin, obanın qolunda qüvvət,
Dizində giriydin, ay Lətif müəllim.
Diləklər diləyib səcdə etməyə,
Müqəddəs piriydin, ay Lətif müəllim.

Zəhmətin eylədi pirhünər səni,
Təsvir edə bilməz bir əsər səni.
Anlaya bilsək də nə qədər səni,
Açılmaz siriydin, ay Lətif müəllim.

Gərək heykəlləşsin səxalı əlin,
Xalq üçün, el üçün hər xoş əməlin.
Dilindən düşməzdi vətənin, elin,
Millətlə biriydin, ay Lətif müəllim.

Bu yazımı elə bu şeirlə də bitirmək istəyirəm. Allah sənə qəni-qəni rəhmət eləsin, Lətif müəllim!

Sənin kimi insanlar ancaq bizlərdən cismən ayrılır. Sən daim doğmalarının, səni sevənlərin, səni tanıyanların xatirələrində, ürəklərində yaşayacaqsan!

# YADA DÜŞDÜ ÖTƏN GÜNLƏR

Xatirələrlə üz-üzə dayandıqca ötən günlər gün işığı kimi adamın üzünə düşür. Hərdən bu işıq adamı isindirsə də, yandıra da bilir. Lətif Əsədovla bağlı xatirələrim o qədərdi ki, uc-uca bağlasaq yəqin ki, bir ucu yenə Göyçəyə – Daşkəndə çatacaq. Sonra Bərdəyə, Ağdama, Gəncəyə, Bakıya... Ötən günlərin əziz bir xatirəsi kimi bir xatiratımızı yazmaq istəyirəm.

1987-ci il idi. VII sinfi təzəcə bitirmişdim. Yay tətili olduğundan valideynlərim dağ havası udmaq üçün məni Göyçə mahalına – doğulduqları Daşkənd kəndinə göndərmək qərarına gəldilər.

Yadımdadır ki, yaşıl rəngli "Jiquli" (VAZ–2106) maşınımızla Gəncəyə getdik. Gəncədə qağamın (biz atamıza "Qağa" deyə müraciət edirdik) dayısı nəvəsi Lətiflə görüşdük. Qağam məni Lətifin yanında saxladı ki, onunla Göyçəyə gedəcəksən, bir ay qalıb istirahət edərsən, sonra səni gətirərik. Həftəsonu olduğundan həmin gün Gəncədə Lətifin kirayədə qaldığı evdə gecələdik. Çünki onun I gün partiya komitəsində nəsə işi vardı. O artıq 5 il idi ki, KP-nın üzvü idi. Biz bazar ertəsi günü birlikdə Yeni Gəncə qəsəbəsinə getdik. Gözəl yaşıllıqlarla əhatə olunmuş əzəmətli Gəncə Şəhər Partiya Komitəsinin binasına daxil olduq. Liftlə yuxarı mərtəbəyə qalxdıq. Mən ilk dəfə idi ki, liftə minirdim, çox maraqlı idi, indi o hissləri o qədər də ifadə edə bilmirəm. Lətif görüləcək işlərini həll etdikdən sonra Gəncəyə qayıtdıq. O, şəhərin görməli yerlərini göstərib Gəncəni mənə tanıtmaq istəyirdi. Müəyyən qədər tanıtdı da! Çinar ağacları ilə tanınan Gəncə şəhərinin (o vaxt Kirovabad idi) "vtoroy çast" deyilən ərazisində çay içdik.

Sonra şəhəri iki hissəyə ayıran Gəncə çayının üzərindəki piyada körpüsündən keçib qaldığımız yerə getdik. Bir gecə də qalıb səhər sübh çağı Gəncə Avtovağzalına gəlib, "LAZ" avtobusuna bilet alıb Basarkeçərə yola düşdük. Hava isti olduğundan avtobus Dilican dolamalarını çətinliklə qalxırdı. Dolamaları yuxarı qalxdıqca aşağılar ovuc içi kimi görünürdü. Təbiətin bu əsrarəngizliyini bu ucalıqdan seyr etməyin özü qeyri-adi bir hadisəydi. Aşırımlarda restoranlar, dayanıb qısamüddətli dincəlmələr üçün gözəl yerlər, içməli su kranları var idi. Orada mən xeyli turistlər gördüm, onların çoxu ruslar idi. Avtobusda danışırdılar ki, turistlər əsasən Kəvər (ermənilər Kamo deyirdilər) rayonuna gedirlər. Çünki ora daha gözəl idi. Bir az da getdikdən sonra artıq kəndlərdə qalaqlar görünməyə başladı. Bildim ki, artıq Göyçəyə daxil olmuşuq. 1983-cü ildə mən bacım Rəfiqə ilə Əmirxan əmimgildə bir ay qalmışdıq. Ona görə də bilirdim ki, kəsik piramida formasında yığılan qalaqlar Göyçədə daha çox olur. Bu dəfə isə mən Pürüzə nənəmin qardaşı oğlu Frunze dayıgildə qalacaqdım.

Avtobus Göyçə gölünün şərq hissəsi ilə hərəkət edirdi. Göyçə gölünün qırçınlı ləpələri dalğalandıqca, insanın zövqünü oxşayır, rəssam fırçası ilə çəkilmiş təbiət peyzajını xatırladırdı. Biz Basarkeçər rayonunun mərkəzinə çatdıq. Avtovağzalın yanında insanların qələbəliyi vardı. Lətif maraqlanıb öyrəndi ki, divarda motosiklet sürənlərdir. Mənə dedi – gedək, bilet alıb birlikdə baxaq, sənə maraqlı gələcək, sonra kəndə gedərik. Getdik ki, fasilə vaxtıdır, hələ bir saat sonra başlayacaqdılar. Gözləmədik. Bu şouya baxmadan sarı rəngli "PAZ" avtobusuna minib Daşkəndə yola düşdük. Burada onu da qeyd edim ki, həmin bu motosiklet

sürənlərə 3 il sonra Lətifgil Ağdamda yaşayanda orada bərabər baxdıq.

Frunze əmim Daşkəndin poçt müdiri işləyirdi, evləri də mərkəzdə – mağazaya yaxın idi, elə dükanın yanında düşüb Lətiflə onlara getdik. Frunze əmi, Suyatel xala Göyçəlilərə məxsus bir qonaqpərvərliklə məni xoş qarşıladılar...

Basarkeçər rayonunun Daşkənd kəndində, həmçinin Bərdə rayonunun Yeni Daşkənd kəndində həmişə görürdüm ki, tələbələr yay tətilində kəndə gələr, valideynlərinə təsərrüfat işlərində kömək edərdilər. Lətif də Frunze dayıya ot biçimində, ot yığımında, tütün suvarmaqda, mal-heyvan nobatında köməklik edərdi. Bir gün Frunze dayımgilin qoyun növbəsi çatmışdı. Lətiflə mən bərabər nobata getməyə hazırlaşdıq. Bu mənim öz istəyimlə oldu. Ümumiyyətlə, doğulduğum Yeni Daşkənddə də nobata mən özüm gedərdim. Səhər durub böyük həvəslə çay içib, çörək yedikdən sonra günorta yeməyimizi də götürüb yola düşdük. Kəndin mərkəzindən ("Kəndin içi") başlayaraq "Çınqıl" deyilən yerə doğru getməyə başladıq. Yolboyu ta "Keçid" məhəlləsinin sonunacan həyətlərdən örüşə qatılan qoyunları topladıqca böyük bir sürü oldu. Hər həyətdən 20–30 qoyun sürüyə qatılırdı. Kəndin kənarındakı çayın üzərində körpü vardı. Bu körpü tütün sahələrinin yaxınlığındaydı, oradan çınqıllıq başlayırdı (Bu ərazidə çınqıl daşları çox olduğundan belə adlanırdı). Qoyun sürüləri illər uzunu bu dağların döşü ilə o qədər get-gəl etmişdilər ki, cığırlar kənardan çox aydın və gözəl görünür, sanki zebranı xatırladırdı. Qoyunlar cığırın əsasən üst tərəfini otlayır, get-gedə dağın döşünə yayılırdılar. Mən ilk dəfə idi ki, kəndin bu hissəsində olurdum. Burada başqa sürülər də var idi. İrəlilədikcə sol tərəfdə sonsuzluğu xatırladan geniş taxıl zəmiləri görünürdü.

Sağdakı dağın lap başına yaxınlaşırdıq ki, adını unutduğum öz kəndimizdən bir nəfər bizə dedi ki, çox yuxarı qalxmayın, orda Qırxbulaq kəndinin erməni çobanları qoyun otarırlar, qoyunlar onlarınkına qarışar, bilməzsiz. Gəzə-gəzə gedib "Haray dağı"nın ətəyinə çatdıq. Artıq günorta idi. Gün işığı nur topası kimi "Haray dağı"nın zirvəsini ağuşuna almışdı. "Haray dağı"nın ətəyində "İlanlı" adlanan bir göl vardı. Qoyunlar orda su içib, elə orda da yayxanıb yatmağa başladılar. Biz isə göy otun üstündə oturub süfrə açdıq. Lətifin anası Suyatel xalanın qoyduğu yeməklərdən yeyib üstündən bulaq suyu ilə hazırlanmış ayrandan içdik. Qoyunlar az-az durub otlamağa başlayır, dağın döşünə doğru irəliləyirdilər. Bu vaxt gördük ki, qoyunun biri halsız vəziyyətdə çox ağır-ağır gedir, hətta sürüyə belə çata bilmir. Biz artıq sürünün yönünü kəndə doğru salmışdıq. Çünki otlaq sahəsi o qədər uzun idi ki, heyvan axşama qədər ancaq otlaya-otlaya kəndə çata bilərdi. Dediyim kimi, bir qoyun get-gedə daha da ağırlaşır, demək olar ki, heç yerimirdi. Kəndə xeyli yaxınlaşmışdıq ki, gördük qoyun daha yatdı. Yaxınlıqdakı kəndçilərimizdən biri (o adamın adını unutmuşam) gəlib qoyuna baxdı və dedi ki, bıçağınız varsa, ölməmiş kəsin, hayıfdı. Lətifin cibində bıçaq vardı, qoyunun ayaqlarını o adamla mən tutdum, Lətif kəsdi. Kəndə bu barədə xəbər göndərdik, mən cəmdəyin yanında qaldım, Lətif isə sürünün ardınca gedib heyvanları kəndə çatdırdı. Frunze əmim kənddən bir "Vilis" göndərmişdi. Cəmdəyi "Vilis"ə qoyub Frunze əmigildə düşürtdük.

...Biz dağda olanda kənddə toy var idi. Qara zurnanın şirin nəvası, nağaranın könül oxşayan melodiyası ruhumuzu qanadlandırıb, dağların ucalığına qaldırırdı. Bu vaxt Lətif dedi ki, Araz, qağam yenə deyəcək ki, a Lətif, evlən.

Kənddə bir toy olan kimi mənə deyir evlən. Onda Lətifin 26–27 yaşı var idi (sonralar bildim ki, Lətif bacım Rəfiqəni sevirmiş). Həqiqətən də biz axşam evdə olanda Məhəmməd və Əbülfət dayıgil Frunze dayıgilə gəlmişdilər. Onlar da bu söhbəti elədilər. Həmin səsi gələn toy Şahbəladmin qızının toyu idi. Gəlini mənim doğulduğum Yeni Daşkəndə aparacaqdılar. Onu İmaməli dayı oğlu Əliyə alırdı. İmaməli dayı Abdulla babamla əmioğlu olduğundan babam da sarı rəngli "Moskviç"i ilə gəlin aparmağa gəlmişdi. Qağam da Bərdədə babama deyibmiş ki, Araz daha bir aya yaxındı ki, Göyçədədir. Gələndə onu da gətir. Daha bir də dalınca getməyək...

Nəysə axşam evə yığışanda məlum oldu ki, ölən qoyun Seyid Məhəmmədəlinindir. O da Frunze dayıgilə gəlib dedi: Ay Frunze, canın sağ olsun, qoyun ölüb-ölüb, heç nə olmaz. Bircə odu ki, bu qoyun qızım Bayanın qoyunu idi. Frunze əmim də dedi ki, a Məhəmmədəli, qoyunu Abdulla ev damında soyub təmizləyir. Mən Bayan qızıma hansı qoyun xoşuna gəlsə, onu da verəcəm. Məhəmmədəli dayı da qayıtdı ki, yüz belə qoyun qurban olsun canımıza, biz od-gor qonşusuyuq. Mən yəni gəldim deyəm ki, bizim qoyundur. Daha bir də əziyyət çəkib soraqlaşıb axtarmayasan ki, görən kimin qoyunudur...

Babam qoyunu yaxşı-yaxşı soydu, doğradı. Suyatel xala da bişirdi, biz hamılıqla birlikdə şam yeməyi yeyib yatdıq. Səhər tezdən babamın illər boyu nəvələrinin, övladlarının xidmətində olan sarı rəngli "Moskviç"inə minib gəlin evinə getdik. Gəlin evi Daşkəndin "Qayanın altı" məhəlləsi deyilən tərəfində idi. Biz qara zurnanın xoş sədaları altında qız evindən çıxıb, cürbəcür bəzədilmiş gəlin karvanı ilə Bərdəyə – Yeni Daşkəndə yol aldıq.

# ƏVƏZOLUNMAZ PEDAQOQ,
# UNUDULMAZ İNSAN

İnsan çox az adamı qəlbinə yaxın hesab edir. Belə insanları itirmək adama daha çox təsir edir. Mənəvi cəhətdən insan sanki zəifləyir, yoxsullaşır. Kəndimizin ağırnəfəsli, ötkəm-sözlü seyidlərindən olan Seyid Yusifin qızı Seyid Qələm xanımın vəfatının qırx mərasimində Mürsəl dayı mənə dedi ki, bu gün İbrahim müəllim də rəhmətə gedib. Bir anlıq keçirdiyim hissləri ifadə edə bimədim, sadəcə "Allah rəhmət eləsin, yaxşı insan idi", – sözlərini deyə bildim. Və o gündən içimdə həqiqi bir narahatlıq duymağa başladım. Bu narahatlığı ancaq onunla bağlı nəsə bir iş görməklə azalda bilərdim. Axı, yazmaqdan başqa əlimdən nə gəlir ki... Beləcə fikrimi qətiləşdirdim. Amma belə fikirdəyəm ki, nəinki mən, hətta heç kim İbrahim müəllimin insanlığını, pedaqoqluğunu, böyüklüyünü, mənəvi zənginliyini olduğu kimi açıb göstərə biməz. Bunlara rəğmən, bacardığımı yazmağa, onu oxuculara tanıtmağa çalışacağam.

İbrahim Albaba oğlu Bayramov 21 avqust 1942-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Doğma kəndində orta məktəbə getmiş, 1961-ci ildə həmin məktəbi bitirmişdir. Elə həmin ilin noyabrında hərbi xidmətə çağırılmışdır. 1964-cü il dekabr ayının 3-də xidmətini başa vurduqdan sonra doğulduğu kəndin "Qırmızı Rəncbər" kolxozunda əmək fəaliyyətinə başlamışdır. Bir müddət kolxozda işlədikdən sonra ali təhsil almaq məqsədilə Bakı şəhərinə üz tutan İbrahim Bayramov qəbul imtahanında məqbul nəticə göstərməsinə baxmayaraq, müsabiqədən keçə bilməmişdir.

Sonrakı əmək fəaliyyətini Bakı şəhərində davam etdirən İbrahim Bayramov 1965-ci ilin iyul ayından "Sutikinti" trestinin Çapayev adına Tikinti Quraşdırma İdarəsində dülgər işləməyə başlamışdır. İşləməklə yanaşı kitablardan ayrılmamış, ciddi şəkildə imtahanlara hazırlaşmışdır. 1966-cı ildən Azərbaycan Neftçıxarma Sənayesi Nazirliyinin 26 Bakı Komissarı adına Neft Mədənləri İdarəsində qazmaçı işləmişdir. 1967-ci ildə sənədlərini M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutuna vermişdir. Bu dəfə taleyi onun üzünə gülmüş, instituta qəbul edilmiş və istehsalatdan ayrılmamaqla ali təhsilini davam etdirmişdir. Zəhmətkeşliyi özünə "ali peşə" hesab edərək heç zaman çətinliklərdən usanmamış, daim çalışmışdır. Daha sonra o, 1969-cu ilin sentyabrından 1971-ci ilin may ayına qədər həmin idarədə sürücü işləmişdir.

Bu dövrdə İbrahim Bayramov ixtisasına uyğun olaraq müəllim işləmək üçün doğma Göyçə mahalına qayıtmışdır. O, 1971-ci ildə kəndimizin adlı-sanlı kişilərindən olan, el ağsaqqalı Hüseyn Əliyev və Seyid Bayramın qızı Hacı Seyid Səkinənin ailəsində tərbiyə alan, bu gün sözün əsl mənasında ağbirçəklərimizdən sayılan, 28 noyabr 1953-cü il təvəllüdlü Mələksuma xanımla ailə həyatı qurmuşdur. Bu evliliyin özü də İbrahim müəllimin kənddə olan yaxşı nüfuzundan xəbər vermişdir. Onların ailəsində 1 oğul, 5 qız dünyaya gəlmişdir. Övladları da bu ailəyə xas tərbiyələri, mədəniyyətləri ilə kənd camaatının böyük rəğbətini qazanıblar.

İ.Bayramov 1971-ci ilin sentyabrından doğulduğu kəndə qonşu olan Yuxarı Şorca kənd 8 illik məktəbində rus dili və ədəbiyyatı fənnini tədris etməyə başlamışdır. 1974-cü ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və

Ədəbiyyatı İnstitutunu bitirmiş, "orta məktəbdə rus dili və ədəbiyyatı müəllimi" ixtisası almışdır. 1973-cü ildən 1988-ci ilin sonuna – məlum hadisələrə qədər Daşkənd kənd orta məktəbində rus dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərmişdir.

1988-ci ildə Göyçə mahalını məcburən tərk edən İbrahim müəllim həmkəndlilərinin hələ 1953-cü ildən məskunlaşdığı Bərdə rayonunun Yeni Daşkənd kəndində ailəsi ilə birlikdə məskunlaşmışdır. Burada da ixtisasına uyğun olaraq müəllim işləməyə başlamışdır. Azərbaycan məktəblərində rus dili və ədəbiyyatı tədrisi ləğv olunanadək öz müəllimlik borcunu ləyaqətlə yerinə yetirmişdir. Əməksevərliyi ilə seçilən bu insan burada da özünə gün-güzəran yaratmış, ev tikmiş, övladlarını yerbəyer etmiş, oğlunu evləndirmiş, qızlarını köçürmüş, hamısını ailə, ev-eşik sahibi etmişdir. Gözəl-göyçək nəvələrin babası olmuşdur.

...2011-ci ildən İbrahim müəllimin sağlamlığında problemlər yaranmağa başladı. Xəstəliyi bir o qədər özünü büruzə verməsə də, oğlu Mehdi onun sağlamlığına diqqətlə yanaşır, müalicəsini mütəmadi nəzarətdə saxlayırdı. Bir müddət müalicə olunan İbrahim müəllimin sağlamlığında irəliləyiş az hiss olunduğundan 2012-ci ilin yayında Mehdi atasını İrana apardı. Müalicələrdən sonra xeyli yaxşılaşsa da, çox heyiflər olsun ki, İbrahim müəllimin səhhəti sonradan pisləşdi və 23 fevral 2013-cü il tarixində bu dünyanı tərk etdi.

Mart ayının əvvəlləri idi. Tanınmış riyaziyyatçı, gözəl şeirlər müəllifi Maksim müəllimin yenicə çap olunan "Tufandan tez yeli çatar" adlı şeirlər kitabını mətbəədən götürmək üçün görüşdük. Hal-əhvaldan sonra İbrahim müəllim haqqında yazı üzərində işlədiyimi bildirdim. O,

çox sevindi, İbrahim müəllim haqqında maraqlı bir hadisəni və fikirlərini mənimlə bölüşdü.

***Maksim müəllimin söylədiklərindən:*** *"Sonsuz dərəcədə yaxşı bir insan idı. İbrahimdə olan xasiyyət demək olar ki, tək-tək insanlarda olur. Mərd, düzgün, ağıllı, tədbirli, təəssübkeş, yaxşı qonşuluğu olan, kənd camaatı, təmsil etdiyi el haqqında yaxşı bir fikir formalaşdırmağa çalışan adamıydı. Ziyalıydı, sözün əsl mənasında müəllimiydi, əsl və həm də yaxşı pedaqoq idi, yaxşı rəssamıydı. Gözəl əl qabiliyyəti varıydı, peşəkar rəssam kimi karikaturalar çəkirdi. Bir də baxırdın ki, müəllimlər otağında söhbət edəedə, 5–10 dəqiqənin ərzində yüksək keyfiyyətli karikatura çəkib. Bu müddətdə belə bir əsər yaradılmasına adam inana bilmirdi.*

*...1987-ci il idi. O vaxtkı SSRİ Təhsil Nazirliyindən milli məktəblərdə rus dilinin səviyyəsini öyrənmək üçün komissiya bütün ölkə üzrə yoxlamalar aparırdı. Bizə xəbər verilməmişdi. Bir də gördük ki, İrəvandan da 2–3 nəfər nümayəndə daxil olmaqla Moskvadan yoxlama gəlib. Basarkeçər rayonunun Maarif Şöbəsindən Daşkənd orta məktəbini yoxlamağı məsləhət bilmişdilər. Rayondan da metodistlər gəlmişdi. Moskvadan gələn komissiyanın nümayəndəsi qadın idi. Nə isə, dedilər ki, rus dili dərsində oturacağıq.*

*O vaxt Qoşunalı müəllim məktəbin direktoru, mən isə dərs hissə müdiri idim. Biz məsləhətləşib qərara gəldik ki, İbrahim müəllimin dərsində otursunlar. İbrahimə dedim ki, sənin dərsində yoxlama olacaq. O isə bir qədər narazılığını bildirdi: "Axı, açıq dərsə mən hazır deyiləm, mən hazırlaşmamışam. Mənə niyə qabaqcadan xəbər verməmisiniz?". Dedim ki, bizim də xəbərimiz olmayıb. Xülasə, biz də komissiya üzvləri ilə bərabər getdik dərsdə oturduq. İbrahim*

*müəllim dərsini hər gün olduğu kimi, adi qaydada keçirdi. Komissiya üzvləri düz dərsin sonuna qədər oturdular. Sonra gəldilər dərsi müzakirə etməyə. Qaydalara uyğun olaraq, əvvəlcə İbrahim müəllim danışdı və dərsi əla keçməsinə baxmayaraq: "Keçdiyim dərsdən o qədər də razı qalmadım, ürəyimcə olmadı. Bir neçə tapşırıq vardı ki, onları şagirdlərə çatdıra bilmədim", – dedi. İbrahim müəllimdən sonra danışmaq üçün rayondan gələn metodist ayağa durdu. Bu zaman Moskvadan gələn qadın ayağa qalxdı və dedi ki, heç kimin danışmağına ehtiyac yoxdur. Öz çıxışında fikrini belə bildirdi: "Bu məktəbin bəxti gətirib ki, onun Bayramov kimi müəllimi var. Mən indiyə qədər bir çox milli məktəblərdə olmuş, tədrisin səviyyəsini yoxlamışam, amma hələ belə dərs görməmişəm. Mən bunu Təhsil Nazirliyində də deyəcəm. Bu metodikanı nümunəvi bir iş olaraq raportumda qeyd edəcəyəm və imkan daxilində yayılmasına nail olacağam". İbrahim qayıtdı ki, axı mənim aksentim var. Buna cavab olaraq qadın bildirdi: "Bayramov sizin o qədər şirin aksentiniz var ki, mən rus ola-ola istəyirəm ki, sizin aksentinizdə danışam". Yoxlamanın nəticəsi o oldu ki, bizim rayon SSRİ Təhsil Nazirliyinin keçici bayrağını aldı. Basarkeçər rayonunun bu bayrağı almasında rayon rəhbərliyi də təsdiq edirdi ki, əsas səbəbkar Daşkənd orta məktəbi və məktəbin müəllimi İbrahim Bayramov olub.*

*Həqiqətən də İbrahimdə olan metodika heç bir müəllimdə yox idi. Daşkənd məktəbində birinci sinif uşağından tutmuş məktəbin rəhbərliyinə qədər hamı onu çox istəyirdi. Kəndin özündə də ona böyük hörmət vardı".*

Maksim müəllimin söylədiklərinə əlavə olaraq deyim ki, İbrahim müəllimin digər istedadı, yaxşı əl qabiliyyətinin

olması Basarkeçər rayon rəhbərliyinə də yaxşı məlum idi. 1980-ci ildə Göyçə gölünün suyunu artırmaq (!) məqsədi ilə Arpa çayından gölə su axıtmaq üçün çəkilən 48,6 km uzunluğundakı tunelin təntənəli açılışındakı şüarların və afişaların yarısından çoxu İbrahim müəllimin əl işi, zəhməti idi. Onun özü də həmin tədbirin iştirakçısı olmuşdur. Yeri gəlmişkən, 1972-ci ildə keçirilən Aşıq Ələsgərin 150 illik yubileyi ilə bağlı tədbirlər ərəfəsində görkəmli aşığın şəklinin çəkilməsi üçün keçirilən müsabiqə zamanı İbrahim müəllim də öz fitri istedadına güvənərək Dədə Ələsgərin şəklini çəkmişdir. Bu şəkil müsabiqədə ən yaxşı şəkillərdən biri hesab olunmuşdur. Hətta o zaman aşığı sağlığında görən yaşlı insanlara bu şəkli göstərəndə, onlar bu şəkildəkinin Aşıq Ələsgər olduğunu təsdiq etmişlər. Onun əl işləri Daşkənd orta məktəbində olduğu kimi Bərdədəki Yasif Kərimov adına Yeni Daşkənd kənd orta məktəbində də çoxdur.

İbrahim müəllimin ruhuyla söhbət: "Əzizimiz İbrahim müəllim, bizlərdən cismən ayrılsanız da heç zaman qəlbimizdən çıxmayacaqsınız və sizi tanıyanların ürəyində daim yaşayacaqsınız. Allah Sizə rəhmət eləsin, müəllim! Siz son mənzilə yola salınanda təkcə doğmalarınız, qohumlarınız, Sizi tanıyanlar, sözün həqiqi mənasında, böyük hərflərlə SEVƏNLƏR ağlamır, qoca təbiət də ağlayır, göydən yerə göz yaşları çiləyirdi. Mən inanıram ki, həmin gün Sizin qəlbinizdə daim ən yüksəkdə bərqərar olan Göyçə mahalının əsrarəngiz gözəlliklərə malik təbiəti də ağlayırdı.

Siz çox alicənab bir insan idiniz, İbrahim müəllim. Yaxşı xatirimdədir, yeganə oğlunuz Mehdinin çoxsaylı dostlarından biri, qardaşım Eldəniz 3–4 il öncə özünə şəxsi ev tikmək istəyirdi. Ona ev tikmək üçün ayrılmış torpaq

sahəsi kəndin ucqar yerində olduğundan Siz Mehdinin kəndin girişində, əlverişli yerdə olan torpaq sahəsini heç bir tərəddüd hissi keçirmədən Eldənizə verdiniz: “Mehdi tək oğuldu, ona ev lazım deyil, mənim evim var bəsimizdi. Mehdinin oğlu da, hələ balacadı”. Etiraf edim ki, bu yaxşılığı bəzi hallarda qardaş qardaşa eləmir. Yaşadığımız indiki dövrdə sizin etdiyiniz böyük bir xeyirxahlıq, yaxşılıq təcəssümü idi. Kaş ki, bütün insanlar Sizin qədər böyük qəlb sahibi olaydılar. Dəfələrlə eşitmişəm ki, kimsə düzgün olmayan bir iş görəndə, haram işə əl atanda onlara düzgün yolu göstərib, məsləhət verirmişsiniz”.

İbrahim müəllim rəhmətə gedən gün sosial şəbəkədə bu haqda informasiya yerləşdirmişdim. Mehdinin ağrı-acısına yüzlərlə insan şərik oldu, Allahdan rəhmət dilədi. Həmin rəylərdən cəmi beşinin qısa məzmunu ilə oxucularımızı da tanış etmək istəyirəm:

– gözəl müəllim və vətənpərvər insan idi;

– çox gözəl insan, sadəlik simvolu idi;

– İbrahim müəllim cox hörmətli bir insandı;

– Daşkənd orta məktəbinin müəllimlər kollektivi içərisində İbrahim müəllimin öz yeri vardı;

– əvəzolunmaz pedaqoq idi. Allahdan yeganə oğlu Mehdiyə səbir, dəyanət arzulayırıq.

Bu fikirlərin məcmusu olaraq İbrahim müəllimin vəfat etməsini elimizin, Azərbaycanımızın gözəl bir insanı, əvəzolunmaz pedaqoqu itirməsi kimi qiymətləndirmək olar. Bütün qeyd olunanları nəzərə alaraq İbrahim Bayramov haqqında nə qədər yazsaq, nə qədər söyləsək yenə də azdır.

# HAMINI YANDIRAN İTKİ

İslam dininin təbliğində, yayılmasında peyğəmbərlərin və imamların keçdiyi mənalı həyat yolu hamımıza yaxşı məlumdur. Bu sırada dini alimlərin, müctəhidlərin, üləmaların və ulu babaları imamlar olan seyidlərin də günümüzə qədər fəaliyyətləri, xalq içində böyük rəğbət qazanmaları danılmaz faktdır. Azərbaycanın hər yerində olduğu kimi, tarixi Azərbaycan torpağı olan Göyçə mahalında da sınanılmış seyidlər və seyid ocaqları çox olmuşdur. Hələ XVI əsrdə Şah İsmayıl Xətai Göyçənin Sarıyaqub kəndində xalq tərəfindən ziyarət olunan Miskin Abdal ocağını ziyarət etməsi də tarixi mənbələrdən bizə məlumdur. XIX-XX əsrlərdə Göyçə mahalında Mir Mahmud ağa, Mir Məcid ağa, Mir Əli ağa, Mir Yaqub ağa, Seyid Nazaralı ağa və adını çəkmədiyimiz neçə-neçə tanınmış seyidlər, onların ziyarətgahları olmuşdur. Belə məşhur ziyarətgahlardan biri də Seyid Bayram ocağı idi.

Seyid Nazaralı oğlu Seyid Süleymanın Sövgülü xanımdan Seyid Hüseyn, Seyid Ağa və Seyid Bayram adlı övladları olub. 1864-cü ildə Seyid Bayram doğulanda anası vəfat edir. Uşağı ağızlandırmaq üçün yanı balalı maral ocağa ziyarətə gəlir. Üç gün sağıb südünü uşağa verirlər. Həm də Seyid Süleyman maralın südündən camaata da paylayır. Deyilənlərə görə, maral üç gündən sonra balasını başı ilə itələyir və onu ocaqda qoyub getmək istəyir. Seyid Süleyman maralın üzündən öpərək: “Ay Allahın heyvanı sən balanı ocağa nəzir verirsən, mən də onu sənə qaytarıram” – deyir. Seyid Süleymanın özünün də döşündən süd gəlirmiş. Həmin süddən Seyid Bayrama da verirmiş. Seyid Süleymanın ikinci evliliyindən Seyid Musa, Seyid Miri, Seyid

Əhməd, Seyid Sinəxanım və Seyid Zərnigar adlı uşaqları anadan olublar.

Seyid Bayramın nişanlı olan ortancıl qardaşı Seyid Ağa 17 yaşında axşam yatıb, səhər qalxmayıb. Seyid Bayram böyük qardaşı Seyid Hüseyn ilə bacanaq olublar. Onların həyat yoldaşları Göyçə mahalının Nərimanlı kəndindən Hacı Alının qızları idi. 1905-ci il qaçqınlığına qədər Seyidlər nəsli mahalın Çaxırlı kəndində yaşayıblar. Göyçəlilər doğma yurdlarına qayıdanda Seyid Bayram görür ki, Çaxırlıda ermənilər məskunlaşıb. Bu zaman Seyid Bayram – "Daha mən bu kənddə erməni ilə qonşu olub, yaşaya bilmərəm" – deyir. Bu söhbəti eşidən Seyid Bayramın Daşkənddən olan dostları Kərbəlayi Rüstəm və Hacı Balı deyir ki, Seyid, gəl bizim kənddə yaşa. Beləliklə, Seyid Bayram Daşkənd kəndində məskunlaşır. Seyid Hüseynin oğlu Seyid İsmayıl da Daşkənddə yaşamışdır. O, 1970-ci ildə vəfat edib və 1934-cü ildə vəfat edən əmisi Seyid Bayramın yanında dəfn olunub. Seyid Bayrama "Ağa Seyid" deyə də müraciət edirmişlər. Seyid Bayramla Pəri nənənin ailəsində Seyid Gülsüm (1901), Seyid Yusif (1919), Seyid Maral (1923), Hacı Seyid Səkinə (1926), Seyid Sədət (1929) və Seyid Tamam (1931) adlı el-obamızın, xalqımızın sevimli seyid övladları dünyaya gəliblər.

Hörmətli oxucuların nəzərinə bəri başdan çatdırım ki, bu yazı 52 yaşında vəfat etmiş rəhmətlik Mirağa Tağıyevin xatirəsinə həsr olunduğundan biz ancaq nəslin ona aid qolundan söhbət açacağıq. Daşkənddə, ümumən Azərbaycanda bu soydan olan seyidlərə çox böyük rəğbət var. Seyidlərin ocağı Göyçə kəndləri ilə yanaşı Azərbaycanın Göyçəyə yaxın əraziləri – Dərələyəz mahalı, Qaraqoyunlu dərəsi, Qazax, Gəncəbasar, Gədəbəy, Kəlbəcər camaatının

da ziyarət yeri idi. Hətta bu ocağı tarixi düşmənlərimiz olan ermənilər də ziyarət edir, nəzir-niyaz verir, qurban kəsirdilər. Seyid Bayramın böyük qızı Seyid Gülsüm Mirağanın ata nənəsidir. Seyid Bayramın ikinci övladı – oğlu Seyid Yusif isə onun ana babasıdır.

Seyid Gülsüm nənə çox nurani bir xanım idi. O, 1993-cü ildə Şamaxıda vəfat etmiş, Dağ Çaylı kəndində bibisi Seyid Sinəxanımın yanında dəfn olunmuşdur. Seyid Gülsüm nənə əslən Qanlı kəndindən olan Tağı oğlu Məhəmmədin həyat yoldaşı idi. Onların Sura, Əli, Məhəmmədəli, İsmayıl və Gülarə adlı üç oğlu, iki qızı dünyaya gəlibdir.

Seyid Yusif Göyçənin Zod kəndindən Allahverdi kişinin qızı Atlas xanımla ailə həyatı qurub. Onların bircə qızı olub – Seyid Qələm. Seyid Yusif dövrünün savadlı, hörmətli adamlarından olmaqla bahəm, yaxşı şeirlər yazırmış (təəssüflər olsun ki, hələlik onun şeirlərindən əldə edə bilməmişik). Böyük Vətən Müharibəsi vaxtı onun mahalda olan hörmətinə və seyidliyinə görə müharibəyə səfərbər etmirmişlər. Lakin kolxoz sədrinə yazdığı tənqidi şeir el-obada dillər əzbəri olandan sonra sədr onu 1942-ci ilin mart ayında müharibəyə göndərtdirmişdir. Süleymanov Seyid Yusif Seyid Bayram oğlunun müharibədən sonuncu üçkünc məktubu indiki Rusiya Federasiyasının Çeçenistan Respublikasından gəlmişdir.

İsmayıl Məhəmməd oğlu Tağıyevlə Seyid Qələm Seyid Yusif qızının evliliyindən dörd oğlan, iki qız dünyaya gəlib. Onlardan iki oğlan – Mirağa və Mirəziz uşaq olarkən vəfat ediblər. Sonrakı doğulan ilk oğlana Mirağanın adı təkrar qoyulmuşdur. Mirağadan sonra Yasəmən, Mirbala və Nazilə adlı övladlar anadan olublar. Mirbalaya doğmaları və onu tanıyanlar Gülağa deyə müraciət edirdilər. 5 iyul

1968-ci ildə doğulan Gülağa Özbəkistanda orta məktəbi, Gəncədə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib. Tərtər rayon Daxili İşlər Şöbəsində baş leytenant rütbəsi ilə “vzvod” komandiri işləyib. Eyni zamanda Azərbaycan Polis Akademiyasında da təhsil alıb. Polis rəisi olub, sonra evlənmək arzusunda olan Gülağa 10 yanvar 1999-cu ildə Özbəkistanda vəfat edib və yanvar ayının 13-də Xırdalan qəbirstanlığında əmisi oğlu Əfqanın yanında dəfn olunub.

1964-cü ildə anadan olan Yasəmən xanım da ali təhsillidir. Daşkənd Dövlət Universitetini bitirib. Hal-hazırda Bakı şəhərindəki 268 saylı orta məktəbdə biologiya müəllimi işləyir. Onun qızı Lalə Azərbaycan Tibb Universitetini bitirib.

1972-ci il təvəllüdlü Nazilə sonbeşikdir. Gəncə Dövlət Universitetini bitirib. O, da bacısı Yasəmən xanımın işlədiyi orta məktəbdə çalışır. Həyat yoldaşı Rahiblə bərabər qızları Leyla və Gülşəni halal zəhmətləri ilə böyüdürlər.

Yuxarıda sadaladıqlarımızdan da göründüyü kimi bu ailə ziyalı bir ailədir. İndi isə Seyid Bayram ocağının sonuncu seyid xələfinin (bu mənim şəxsi fikirimdir) həyat yoluna nəzər salaq.

Tağıyev Mirağa İsmayıl oğlu 10 may 1961-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Daşkənd kəndində anadan olmuşdur. Daşkənd kəndində orta məktəbə getmiş, səkkizinci sinfə qədər həmin məktəbdə, 9–10-cu sinifləri isə Özbəkistanın paytaxtı Daşkənd şəhərindəki 9 №-li orta məktəbdə oxumuşdur. Burada orta məktəbi bitirən Mirağa Tağıyev 1978-ci ildə V.İ.Lenin adına Daşkənd Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmuşdur. Oxuduğu müddətdə eyni zamanda Daşkənd şəhərinin Xəmzə rayon

Xalq Məhkəməsində işləmişdir. Ali təhsil aldığı müddətdə həmçinin Özbəkistanda “zbor”da olmuş, ona baş leytenant rütbəsi verilmişdir. 1983-cü ildə universiteti bitirərkən Azərbaycana olan yeganə təyinat Mirağaya təqdim olunmuşdur. O, təyinatla 3 il – 1986-cı ilə qədər Daşkəsən rayonunda hüquqşünas işləmişdir. Bundan sonra Mirağa doğma Daşkənd kəndinə qayıtmış və ixtisasına uyğun olaraq Basarkeçər rayon İcraiyyə Komitəsində çalışmışdır. 1988-ci ildə mənfur qonşularımızın qaldırdığı Qarabağ hadisələrinin ilkin nəticəsi olaraq, canından əziz bildiyi Göyçə mahalını ailəsi ilə birlikdə tərk etmişdir. Tərtər şəhərində məskunlaşan Mirağa Tağıyev elə həmin ildən buradakı hərbi zavodda hüquqşünas işləməyə başlamışdır. Təbiət gözəlliklərindən hədsiz zövq alan Mirağa Tərtər şəhərinə Göyçə qədər vurğun idi. Göyçə mahalında Seyid Bayram ocağına olan böyük inam, saygı Tərtərdə və bütünlüklə Qarabağ camaatı arasında da olduqca böyük nüfuz qazanmışdı. Neçə-neçə insanlar sınanılmış bu ocağı daim ziyarət etmiş, pənah gətirmişlər. Mirağanın üzündə seyidlərə məxsus bir nur var idi. Hətta onu tanımayan adam belə onu ilk dəfə görəndə, onunla həmsöhbət olanda o dəqiqə anlayırdı ki, o seyiddir. Mirağa çox mülayim, mədəni, adət-ənənələrimizə dəyər verən, mənəviyyatca hər tərəfli zəngin bir insan idi. Rəhmətlik Hacı Seyid Səkinə həmişə “Mirağa atam Seyid Bayrama, Gülağa isə qardaşım Seyid Yusifə çox oxşayır” – deyərdi.

Mirağa Tərtərdə bir seyid övladı kimi halal zəhməti ilə ailəsini dolandırmışdır. Gözəl ailə başçısı olan Mirağanın Aynur və Pəri adında iki qızı var. Hər ikisi atalarının seçdiyi hüquqşünas ixtisasına yiyələniblər. Onlar, Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitiriblər. Seyid

Qələm xala sevimli balası Gülağanın dərdinə, ayrılığına dözə bilmədiyindən Mirağa ailəsi ilə birlikdə 2000-ci ildən Bakıda məskunlaşmışdır.

Hələ 1992-ci ildə bacısının həyat yoldaşı Fariz müəllimi, 1995-ci ildə 30 yaşlı əmisi oğlu Əfqanı, 1996-cı ildə əmisi Əlini, 1998-ci ildə dostu Əhlimanı, 1999-cu ildə 31 yaşlı qardaşı Gülağanı itirən Mirağanın son iki ildə itkiləri daha çox oldu. Canı dillə qardaş deyə müraciət etdiyi Lətif müəllimi (15.09.2012), əmisi Məhəmmədəlini (02.10.2012), çağıranda "can ana", "haycan ana" dediyi, 3 aprel 2004-cü ildən xəstə yatan anası Seyid Qələmi (15.01.2013), bibisi oğlu Etibarı (14.02.2013) itirən Mirağanın bu itkilərə ürəyi dözmədi. O, səhhətindən heç vaxt şikayət etməsə də, 18 mart 2013-cü ildə haqq dünyasına qovuşdu.

***Bacısı Yasəmən xanımın söylədiklərindən:*** *"Anamın yeddisi gününün axşamı Mirağanın ürəyi sıxıldı. Təcili yardım çağırdıq. Həkim yoxladı, ilk tibbi yardımı edəndən sonra məsləhət verdi ki, sabah mütləq ciddi yoxlanılsın. Tezdən Mirağa 5 saylı Kliniki Xəstəxanaya gedib tamam yoxlanıldı. Ürəyində genişlənmə müəyyən olunduğundan həkim bir kurs müalicə yazmışdı. Müalicə ona yaxşı təsir eləmişdi. Xeyli yaxşılaşdı. İkinci kursu da təzəcə götürmüşdü. Dərmanlarını qəbul edirdi. Martın 17-də axşam xeyli söhbət etdik. Heç nəyi yox idi. Saat birə qədər televizora baxdı. Sonra yatağına uzanıb yatdı. Səhər tezdən xoruz banı vaxtı idi. Gördüm Mirağa qalxdı, həyətə çıxdı. Sonra da həyətdən gəldi. Gördü mən də oyağam. Soruşdu ki, niyə yatmırsan. Dedim ki, yatacam. O da keçdi yerində yatdı. Saat yeddi olardı. Elə bil mənə dedilər ki, Mirağaya nəsə olub. Yerimdən qışqırdım ki, Mirağa, ay Mirağa. Gör-*

*düm cavab gəlmədi. Vahimələnib, qorxan kimi oldum. Mən Mirağaya tərəf getdim. Qızı da o biri tərəfdən səsimə qalxıb gəldi ki, atama nə olub? Dedim bilmirəm. Çatdım ki, yatdığı kimicə yatır. Amma gördüm ki, dodağı gömgöydü. Əlimlə nəbzinə baxdım, hiss etdim ki, nəbzi vurmur. Təcili yardım çağırdıq. Həkim gəldi dedi ki, heç yarım saat deyil ki, vəfat edib.*

*...Ağır tale yazılıbmış, qardaşıma. Nənəm deyərdi ki, "gorda yatan evdə yatmaz". Hayıf oldu bizi qoydu zülümə. Dərdini çəkmək o qədər ağırdı mənə. Dərdini vallah çəkə bilmirik. Heç olmasa qızlarına toy eləsəydi, yaxşı olardı. Arzuları gözündə qaldı".*

Seyid Qələm xalanın yasında bacım Rəfiqə xanım və mən Mirağaya başsağlığı verərkən o bizə belə dedi: "Mənə qardaş qismət deyilmiş. Üç qardaşım vəfat edib. Mən Lətifi özümə qardaş bilirdim, o da rəhmətə getdi. Allah rəhmət eləsin Lətifə. Görürsüz ki, mənə qardaş qismət deyil. Üstəlik, anamı da itirdim". Bəli, əzizimiz Mirağa, heç sənin bacıların Yasəmən, Nazilə, Mahnur və Elmiraya da tanrdan qardaş qismət deyilmiş. Rahat yat, qardaşım Mirağa. Sənin kimi insanların yeri cənnətdir. Haqq dünya o dünyadır. Bu dünya nahaqq dünyadır. Əmin oğlanlarının canları sağ olsun, sənin bacılarına layiqli qardaş olacaqlarından arxayın ol. Mən də sənin bacılarını özümə bacı bilirəm və inan ki, onları yeganə bacım Rəfiqədən seçmirəm...

...Lətif müəllimlə Mirağanın həmkəndliliyi, qonşuluğu öz yerində, onlar bir-birinə "qardaş" deyirdilər. Lətif müəllim nəvəsi balaca Lətif doğulanda Mirağaya demişdi ki, sən onun kirvəsisən. Mirağanın bacıları söyləyirlər ki, Lətif müəllimin qırxı çıxmayınca Mirağa heç bir toya getmirdi. Bu iki dostun, qardaşın son talelərində də bir uyğun-

luq var. Hər ikisi 52 yaşında rəhmətə getdi, bu hamını yandıran itki oldu. Mirağa əziz dostu Lətif müəllimin ayrılığına cəmi 6 ay dözə bildi. İndi onlar yenə də haqq dünyada bir yerdədirlər.

Həyatın qanunu belədir, gələn getməlidir. Allah ululalarımıza rəhmət eləsin! Mirağanın rəhmətlik nənəsi deyərmiş ki, "gorda yatan evdə yatmaz". Bəli, heyif Lətifə, heyif Mirağaya. Allah hər ikisinin yerini cənnətməkan, ruhlarını şad eləsin. Sonda sözümü Mirağa sevərlərdən biri, gənc şair Qılman İmanın Mirağaya həsr etdiyi "Bu dünyadan" adlı şeiri ilə bitirmək istəyirəm:

Ağa gəlmişdi dünyaya,
Ağa getdi bu dünyadan.
Qara torpağa bükülüb,
Ağa getdi bu dünyadan.

Dərd önündə dayanıb tək,
"Yaşa" – dedi, susdu ürək!
Uşaq kimi qəlbi kövrək,
Yuxa getdi bu dünyadan.

Bitmədi heç əkdirdiyi,
Qəm eviydi tikdirdiyi.
Gülağanın çəkdirdiyi,
Dağa getdi bu dünyadan.

## ANALAR ANASINI XATIRLAYARKƏN

Dekabrın 19-u eşitdiyim xəbərdən təsirlənərək gecə saatlarında feysbuk hesabımda belə bir status yazdım: "Bu gün vəfat edən Qəriş xala (əsl adı: Gülavatın) kimi bir qadın inanmıram ki, ola. Böyük bir kəndin sevimlisi olmaq qeyri mümkündü. Amma onu hamı sevirdi. O hamının anası, hamının nənəsi, hamının xalası, bir sözlə, hamının doğması idi. Qəriş xala bunu səmimiliyi, yanımcanlığı, qohumcanlığı, qonaqpərvərliyi, əliaçıqlığı, səxası ilə qazanmışdı. Açıq deyim ki, onu bəlkə də öz anamdan da çox istəyirdim. O da məni övladlarından seçməz, onlardan da çox istərdi.

Kəndə gedəndə ilk görüşdüyüm insanlardan biri, söhbət etmək üçün ən yaxşı müsahibim idi. Daha mənim doğulduğum kənddə anamdan başqa kimim qaldı ki? Heç kimim. Heyif sizdən, ağsaqqallar, ağbirçəklər. Mən sizlə nəfəs alır, sizlə qürur duyur, sizə görə kəndə can atırdım. Çətin ki sizsiz kəndə səfərlərim çox ola. Abdulla babam, Rəqiyə nənəm, Xuraman xala, Şiruyə əmim, Əmirxan əmim və sən. Sən də bu sıraya qoşuldun, Qəriş xala. Ölüm haqdı, hamı üçün var. Hamı ölümü dadacaq. Amma çoxları unudulacaq, adını sadaladıqlarım və sən xatirələrimizdə, qəlbimizdə yaşayacaqsınız. Məqamın uca, yerin cənnət olsun, Analar anası, Qəriş xala".

İnsan çox sevimli birini, doğmasını itirəndə ürəyi rahatlıq tapa bilmir. Etiraf edim ki, bu halı son dəfə on altı il əvvəl atam vəfat edəndə yaşamışam. Belə hallarda özümü, ürəyimi, ümumən ruhumu rahatlamaq üçün qələmə əl atmalı oluram. O zaman əlimə qələm alanda bir kitab alınmışdı. Çünki illərlə üst-üstə yığılmış ağrı-acılar buna səbəb

oldu. Sənəddə rəsmi adı Gülavatın, hamının isə Qəriş xalası, Qəriş maması da vəfat edəndən sonra özümü rahatlaya bilmirəm. Bəzən ötən illər göz önümdən kino lenti kimi keçir, o illəri xatırlamalı oluram. Qəhər məni boğur, göz yaşımı saxlaya bilməsəm də, ürəyimi ovuda bilmirəm. Ona görə yenə də qələmə əl atmalı, ürəyimi ağ kağıza boşaltmalı oldum. Öncədən deyim ki, əslində bu mövzu da bir kitablıqdır.

Qəriş xala dünyanı lərzəyə salan, ağrılı-acılı Böyük Vətən müharibəsi başlayan il doğulmuşdu. Onda özündən böyük Salatın adlı bir bacısı da varmış. Cəmi ikicə il ana qayğısı görəndən sonra onu dünyaya gətirən – Zeynallı nəslindən olan gözəl-göyçək anası Banu Gülməmməd qızı vəfat edir. Uşaqlıqlığı çətin keçsə də böyüyüb, qoçaq bir qız olur. Həyət-baca işlərində tay-tuşlarından qoçaqlığı, bacarığı, çəldliyi ilə seçilərmiş. İşgüzar insanlar həmişə sevilir. Qəriş xala da elə o zamandan hamının sevimlisi olur. Rəhmətliyin özü bir dəfə mənə belə demişdi: “Qağam (atası Şükür kişiyə qağa deyirdi) kənd camaatı ilə kərəntiyə getmişdi. Ona günorta yeməyinə xəngəl aparmışdım. Əmirxan da ot biçinində imiş, onu orda gördüm. Demə o da məni sevirmiş. Amma heççənə deməmişdi mənə. Sonra Həsən əmim elçi gəldi. Hə, bax beləcə də evləndik”.

Bəzən deyirlər ki, ər ilə arvadın torpağı bir yerdən götürülüb. Bu ailədə bunu çox aydın görmək olardı. Molla Əmirxan–Qəriş cütlüyü nümunə göstəriləcək bir ailə oldular. İşləməkdən, qurub-yaratmaqdan bezib usanmayan bu ailə Daşkənddə nələr yaratmadılar ki? Hər nə şərait desən yüksək səviyyədə onlar yaratmışdılar. Bir ilisi qağam (biz də atamıza qağa deyərdik) bacım Rəfiqə ilə məni Göy-

çəyə göndərdi ki, yayı orada istirahət edək. Bizi Əmirxan əmimin rəhmətlik kürəkəni Hamlet apardı. Təxminən 10–11 yaşım olardı. Mahalda gördüklərim yaddaşıma elə həkk olunub ki, indi də hər Göyçədən söz düşəndə ən çox həmin yay gördüklərimi xatırlayıram. Qəriş xala doqquz uşaqla o qədər işlərin öhdəsindən necə gəlirdi, çox maraqlı idi. Bunu kənardan izlərkən sanki bu qadının bir neçə işi eyni anda görməsinin şahidi olurdun. Qoyunu elə sürətlə sağırdı ki, biz sanki ekranda filmə baxırdıq. Səhər tezdən durardın ki, yeməyə çolpalı xəngəl bişirib. Uşaqlıqdan südü-qatığı, yalan olmasın, gündə 2 dəfə yeyərdim. Mən qatıq istəyəndə Qəriş xala verməzdi, deyərdi ki, qadan alım, sən Göyçəyə qatıq yeməyə gəlməyibsən ha!... Qapıda 150 dənə qırmızı çolpa varımdı, hər gün bişirəcəm ondan ye. Zarafatla da deyərdi ki, arana gedəndə soruşsalar ki, Göyçədə nə yedin, deyərsən qatıq yedim. Bir də baxardın Əmirxan əmim qapıda qoyunu kəsdi, başladı soymağa. Özü də qoyunun dərisini dummuzlayıb bütöv çıxarardı. Çünki ona Qəriş xala pendir doldurar, motal düzəldərdi. Biz orada olan ili arada iki günlük qağam dostları İnqilab Əhmədov və Vəli Qurbanov ilə Göyçəyə gəzməyə, dağlardakı bulaqların başında yeyib-içməyə gəlmişdilər. Onlar səhər tezdən durub qayıtmağa hazırlaşanda Qəriş xalanın bişirdiyi çolpalı xəngəl artıq hazır idi. Xəngəli yeyib duranda Əmirxan əmim hər maşının yük yerinə bir qoç pay qoydu. Bu ailə bax belə qonaqpərvər, belə səxalı idi. Onda düşündüm ki, qoçdan da pay olarmı? Sən demə, Göyçədə pay qoyundan olarmış. Nə bilim, yazılası o qədər bu cür xatirələr var ki. Xatirimdə qalanlardan deyirəm. Damda yaxşı erkəklər bordaq edərdilər. Elə bordaqlar ki, 3–4-ü bir cöngəyə bərabər.

Spiral kimi iri buynuzları olardı. Əmirxan əmim yaxşı at həvəskarı idi. Kənddə ən yaxşı at onda olardı. Toylarda yarışa durardılar. Bəy qapısına birinci onun atı çatardı. Bir dəfə o bordaqlardan 8-ni verib Qaraqoyunludan at gətirib satanla dəyişdi. Bunu Qəriş xala biləndə artıq bordaqları maşına yığırdılar. Dedi ki, ay Əmirxan, 8 elə erkəyi də atla dəyişərlərmi? O da dedi ki, a Qəriş, sən bilməzsən, bu başqa cür atdı ey. Bu an Əmirxan əmim atın üzəngisinə ayağını qoymaqla minməyi bir oldu. At yerindən tərpənəndə ayaqlarının altından çıxan daşlar göydə uçurdu. Bir an sonra at gözdən itdi. Həqiqətən də başqa cür at idi bu at.

Günlər ayları, aylar illəri əvəz etdi. 1988-ci il hadisələrindən sonra onlar da digər həmyerliləri kimi gözəl-göyçək Göyçələrindən məcburən ayrılmalı oldular. Hələ 1953-cü ildə guya könüllü, əslində isə deportasiya olunan həmkəndlilərinin və doğmalarının yaşadığı Yeni Daşkənd kəndində məskunlaşdılar. Hey oturub-durub Göyçədən danışdılar, Göyçədən dedilər. Göyçə onların qəlbində sağalmaz bir yara olmuşdu. Hər şeyə dözüb burada da Göyçədəki cah-cəlalı halal zəhmətlərilə qurub-yaratdılar. Qarabağ müharibəsi başlayanda dini təhsil almaqda olan oğlu Mehdi də döyüşlərə qoşuldu. Müharibənin ən ağır günlərində – 1993-cü il fevral ayının əvvəllərində Ağdərə döyüşləri zamanı itkin düşdü. Bu dərd də Göyçə dərdinin üstünə gəldi. Heç olmasa oğlunun bir qəbri olmadı ki, onunla təsəlli tapsınlar. Gözləri yollarda, qulaqları səsdə qaldı. Bu ata-ana digər övladlarını da özləri kimi ev-eşik sahibi etdilər. Onlara özləri kimi, işgüzar, qoçaq, saf olmalarını aşıladılar. 18 aprel 2012-ci ildə Əmirxan əmim 75 yaşında vəfat etdi. Göyçə

həsrəti, oğlu Mehdinin itkin dərdi sinəsində köçdü bu dünyadan. Sinə daşına bu sözlər yazıldı:

Gecə-gündüz həmdəm idi,
Göyçə, Mehdi qoşa dərdim.
Yuva qurub sinəm üstə,
Yatırdı baş-başa dərdim.

Ürəyimdən oydu məni,
Həsrətlilər duydu məni,
Gözü yolda qoydu məni,
Axır döndü daşa dərdim.

Əmirxan əmim atası Həsən Xəyallıdan dini bilikləri öyrəndiyi kimi, şeiriyyatı da yaxşı mənimsəmişdi. Sinəsində Alının, Məmmədhüseynin, Ələsgərin, Usta Abdullanın şeirlərini cəm etmişdi. Atasının dostu və məsləkdaşı Növrəs İmandan daha çox şeirlər deyərdi. Onun nakam taleyinə çox heyifsilənərdi. Molla Əmirxan özü də şeirlər yazardı. Vəfat edən gündən başlayıb onun şeirlərini toplayıb kitab halında çap etdirdim, yas məclisinin qırxında kitab onun yasına gələnlərə paylanıldı. Molla Əmirxansız yaşayan Qəriş xalanın sanki bir tərəfi yox idi. "Ölənlə heç kim ölmür" deyib ulularımız. Həyat davam edir. O da davam deyib övladlarından qol-qanad alıb ahıllıq yaşını yaşayırdı. Bir neçə dəfə ağır əməliyyat keçirsə də, ürəyi çox sağlam idi. Bu da o ürəyin saflığından, Göyçənin havasından, suyundan idi. Birinci Qarabağ müharibəsində Qəriş xalanın oğlu Mehdi şəhid olmuşdu. İkinci Qarabağ müharibəsi başlayanda ehtiyatda olan baş leytenant rütbəli oğlu Əli də

könüllü döyüşlərə qoşuldu. Füzuli, Xocavənd, Hadrut, Qırmızı bazar istiqamətində ağır döyüşlərin iştirakçısı oldu. Nəvəsi Əmirxanlı Nəbi də Suqovuşan, Talış istiqamətindəki qanlı-qadalı döyüşlərdə çox fəal iştirak etdi, cəsarət, igidlik nümunəsi göstərdi. Hər ikisinin şərəfli xidməti dövlətimiz tərəfindən qiymətləndirilərək təltif olundular. Oğlu Məhərrəmov Əli Əmirxan oğlu "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə", nəvəsi Əmirxanlı Nəbi Həsən oğlu isə "Hərbi xidmətlərə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olundular. Qəriş xala həm də bax belə vətənə bağlı vətəndaş idi. Övladları ilə, nəvələriylə, qohumlarıyla ümumən həmkəndliləri ilə çox qürur duyardı. Fərəhlənər, sevinərdi.

8 noyabrda ilk Zəfər günü münasibətilə kəndimizdə tikilən "Vətən şəhidləri abidəsi"nin açılışına getmişdim. Adətim üzrə anamdan sonra onunla görüşməyə getdim. Nəvəsi Yusifin toyuna hazırlaşır, evdə, həyət-bacada təmir işləri görürdülər. Çox sevincli idi. Onu da vurğulayım ki, Qəriş xala toya, nişana, xeyir işə, şənliyə, bayrama çox bağlı, belə şeylərdə sevinə-sevinə ürəklə iştirak edən adam idi. Dekabr ayının 22-də olacaq toyu çox səbirsizliklə gözləyirmiş. Qız toyunda iştirak edib doyunca oynayıb şadlanıbmış. Hər gün evdə uşaqlara deyirmiş ki, toya neçə gün qaldı. Gəlinə illərlə saxladığı Nikolayın 10-luq qızıl klonunu hədiyyə edəcəkmiş. Deyirmiş ki, özüm asmaq istəyirəm gəlinin boynundan. Düz deyirmişlər ki, sən saydığını say, gör fələk nə sayır. Toya bir həftə qalmış təzyiqi yüksəlmiş, beyninə ağır dərəcəli qansızma olmuş və toya üç gün qalmış vəfat etdi. Bu xəbəri eşidəndə özlüyümdə düşündüm ki, onun təzyiqi çox güman ki, sevincindən qalxıb.

Dekabrın 20-si onun dəfnində iştirak edərkən orda danışdılar ki, həddən artıq sevinir, toyu səbirsizliklə gözləyirmiş. İnsan nəvələrini nə qədər çox sevərmiş, ilahi. O onsuz da hamını çox istəyirdi. Statusumda da yazdığım kimi – "O hamının anası, hamının nənəsi, hamının xalası, bir sözlə, hamının doğması idi". Bunu o özü qazanmışdı. Pandemiya olmasına baxmayaraq, onun izdihamlı dəfn olunması da dediklərimə əyani sübut idi. Bunu dəfn zamanı Bərdə Cümə məscidinin axundu Hacı Ramazan da qəbrinin başında çıxışı zamanı etiraf etdi.

Mən hesab edirdim ki, Qəriş xaladan sonra onun kimi bir qadın çətin ki ola və ya gələcəkdə doğula. Və dəfnə qədər də bir o qədər insan içində ona bənzəri gözümə dəymirdi. Dəfn sonrası maraqlı bir hal oldu. Dəfndən qayıdıb qapıya gələndən sonra gözlərim qarşısında sanki beş Qəriş xala gördüm. Onda dedim ki, bir daha Allah sənə rəhmət eləsin, Analar anası. Sən fani dünyanı tərk etsən də, yerində özün kimi beş ana qoyub getdin. Yerin cənnət olsun, Qəriş xala.

**Qeyd:** Gülavatın Şükür qızı Məhərrəmova Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 06.10.1978-ci il tarixli, 342–5632 nömrəli fərmanı ilə səkkiz uşaq doğub və tərbiyə etdiyi üçün 2-ci dərəcəli "Analıq şərəfi" ordeni ilə təltif olunmuşdur. (qızı Könül bu fərmandan sonra doğulmuşdu – A.Y.)

# SİNƏSİ XATİRƏLƏRLƏ DOLU İNSAN

Çoxdan idi düşünürdüm ki, Vərqa müəllim haqqında bir yazı ilə mətbuatda çıxış edim. Xüsusən də onun bu il tamam olacaq 90 illik yubileyi ilə bağlı. Bu yaxınlarda onun vəfat etməsi yazının zamanına və məzmununa az da olsa təsir etdi.

Vərqa Kərimov 1 iyul 1932-ci ildə Göyçə mahalının Daşkənd kəndində Rəsullular nəslində doğulub. Vərqa müəllimə maraqlı və həm də az-az rast gəlinən adı haqqında sual edəndə belə deyərdi: "Mən dünyaya gələndə atam Hüseynlə anam Güldəstə düz 300 il əvvəl Azərbaycan şairi Məsihi tərəfindən Azərbaycan dilində yazılmış "Vərqa və Gülşa" adlı məsnəvinin baş qəhrəmanı Vərqanın adını mənə qoyublar. Deyilənlərə görə, Vərqa adı hələ ondan da qabaq xalq arasında məşhur olan qədim bir əfsanədə də çəkilirmiş. O rəvayəti Göyçədə yaşlılar nağıl kimi danışardılar. Sonralar bu əfsanə unuduldu".

Belə bir deyim var ki, insana qoyulan ad onun taleyində mühüm rol oynayır. Vərqa müəllimin dediyi əsərin süjet xəttini əmioğlu və əmiqızının məhəbbəti təşkil edir. Elə o da 1957-ci ildə əmisi qızı Xuraman xanımla ailə həyatı qurmuşdur. Bir az da dəqiq desək, Vərqa müəllimin atası Hüseyn ilə Xuraman xalanın atası Fəzi kişi doğmaca əmioğludular. Vərqa müəllimlə Xuraman xala sevə-sevə, əzizləyə-əzizləyə iki oğlan, beş qız (Sərdar, Validə, Nəcibə, Aybəniz, Mehman, Gülbəniz, Sima) böyüdüb, boya-başa çatdırıblar. Onların hər birinə təhsil verib, ev-eşik sahibi ediblər. Bu ailə cütlüyü 56 illik şad-xürrəm bir ömür sürdülər. Hər ikisi də Daşkəndlilər üçün, doğmaları üçün çox

əziz, doğru yol göstərən insanlar idi. Elin-obanın hörmət bəslədiyi ağsaqqal-ağbirçək kimi hamı onlardan məsləhət alar, tövsiyələrini qanun hesab edərdilər. 7 avqust 2013-cü ildə Xuraman Fəzi qızının 78 yaşında vəfatı Vərqa müəllimi tənha buraxsa da, övladları və nəvələri onu darıxmağa, sıxıntı çəkməyə qoymadılar. O, nəvə-nəticələrinin əhatəsində ahıllıq dövrünü də gözəl keçirdi. 15 mart 2022-ci ildə Vərqa müəllim 90 yaşında yaşadığı Yeni Daşkənd kəndində vəfat etdi. Uzunömürlülüyün ilk yaşında bu dünyadan köçməyin kədərinin içində bir sevinc də var. Bu yaş az-az adama qismət olur. Bu baxımdan Allahdan onun doğmalarına, övladlarına, nəvələrinə və nəticələrinə belə bir yaş arzulayıram. İnanıram ki, iyirmi beş nəvə-nəticəsi olan baba və nənə daim xoş xatirələrlə anılacaq, yaddaşlardan silinməyəcəklər.

Vərqa müəllimlə Xuraman xala bu sətirlərin müəllifinin qayınatası və qayınanası idi. Hər ikisi Göyçə ilə, Daşkəndlə, nəsil-nəcabətləriylə bağlı maraqlı və zəngin xatirələrə, məlumatlara malik idilər. Topladığım məlumatların deyərdim ki, çox hissəsini Vərqa müəllimin söyləmələrindən qələmə almışam. Bir dəfə adətim üzrə Vərqa müəllimdən Məşədi Qasımla bağlı nəsə soruşdum. O, söhbətə başlar-başlamaz Xuraman xala qayıtdı ki, “A kişi, qoy onu mən danışım”. O da yarı zarafat, yarı ciddi dedi ki, “yaxşı danış, Məşədi Qasım sənin babandı”.

Vərqa müəllimin sinəsi xatirələrlə dolu idi. Nəsə soruşanda saatlara, həm də çox dəqiq danışar, hətta hadisələrin baş verdiyi illəri də müqayisəli şəkildə söyləyər, yorulmaq bilməzdi. Xuraman xala da ondan geri qalmazdı. Çox kiçik yaşlarından gördüyü, böyüklərdən eşitdiyi sözləri, hadisə-

ləri hafizəsində cəm etmişdi. O, Aşıq Ələsgərin, Aşıq Nəcəfin, Həsən Xəyallının, Xasay Zeynalovun, atası, el şairi Qəmgin Fəzinin şeirlərini sinədəftər etmiş, yeri gələndə həmin şeirləri xüsusi şövqlə deyərdi. Xuraman Fəzi qızı çox nəcib, xoşxasiyyət, qonaqpərvər, yanımcıl, qohumcanlı bir qadın idi. Evimizdə hərdən ondan söz düşəndə rəhmətlik Pürüzə nənəm deyərdi ki, “Heç bir bacı, heç bir övlad Xuraman ola bilməz”. Çünki Xuraman xala doqquz nəfərlik ailəsiylə yanaşı, xəstə anası Savatın, uzun illər əlil yaşamış qardaşı Qiyasın xidmətində durmuşdu. Belə xeyirxah nəcib işlərdə Vərqa müəllim də həyat yoldaşından geri qalmaz, hətta qaynı Qiyasın həyətyanı sahəsində gözəl bir bağ da salmışdı. O bağ bütün Yeni Daşkəndlilərin şəkil çəkdirmələri üçün gözəl, mənzərəli bir məkan idi. Bu gün hamımızın əlimizdə olan tarixi fotoşəkillər rəhmətlik Qiyas Fəzi oğlunun əl işləridi.

Vərqa Kərimov 1940-cı ildə Daşkənd kənd orta məktəbində ibtidai təhsil almağa başlamışdır. Təhsil müddəti müharibə və ondan sonrakı çətin illərə düşdüyündən, bir neçə il təhsilinə ara verməli olmuşdur. 1952-ci ildə, 9-cu sinifdə oxuyarkən Basarkeçər RHK-dan həqiqi hərbi xidmətə çağırılmışdır. Ukrayna, Moskva və Leninqradda üç il hərbi xidmət keçdikdən sonra 1955-ci ildə Bərdə rayonunun Yeni Daşkənd kəndinə gəlmiş və orta məktəbdə təhsilini davam etdirərək 1957-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir. Orta məktəbi qurtaran ildən 1961-ci ilə kimi Yeni Daşkənd kənd orta məktəbində təsərrüfat müdiri işləmişdir.

Vərqa müəllim Böyük Vətən müharibəsindən sonrakı ağrılı-acılı, əzablı illərlə bağlı belə danışardı: “Göyçədən

piyada arana – Şəmkir rayonunun Keçili kəndinə gələr, orada işləyər, əmək haqqımıza düşən taxılı belimizdə Daşkəndə aparardıq. Çox çətin, qıtlıq, aclıq olan illər idi. Bir neçə ailə ilə birlikdə gəlib gedərdik. Bizimlə Hacıyev Xasay və bacıları, Ocaqverdi oğlu Məhərrəm və qardaşı uşaqları, və başqaları gedərdilər. İçimizdə bircə Ocaqverdi oğlu Məhərrəm kişinin atı vardı. Qalan hamımız piyada, özü də yüklə Göyçəyə qayıdardıq”.

Vərqa müəllimin söylədiyi bu kiçik xatirəyə əlavə olaraq onu da deyim ki, Şəmkir rayonunun Keçili kəndində olarkən nənəm Pürüzənin (Ocaqverdi oğlu Məhərrəmin qardaşı qızı) iki-üç yaşlı qızı orada vəfat etmişdir. İndi biz Daşkəndlə Şəmkir rayonu arasındakı məsafəni göz önümüzə gətirsək və o yerlərin relyefini də nəzərə alsaq onların nə qədər zəhmətə qatlaşdıqlarının şahidi olarıq.

Zəhmətdən heç vaxt usanmayan Vərqa Kərimov 14 aprel 1962-ci ildə işləmək üçün Sumqayıt şəhərinə gedir. O, 1966-cı ilə qədər Sumqayıt Superfosfat Zavodunda işləyir. İşlədiyi müddətdə, yəni 1964-cü ildə Sovet İttifaqı Komunist Partiyasının üzvü olmuş və 1965-ci ilin yanvarında Sumqayıt şəhərində üç otaqlı mənzillə təmin olunmuşdur. Həmin illərdə Bakı və Sumqayıtda Daşkəndlilərdən yeganə Vərqa müəllimin şəxsi mənzili olub. Bu ev kəndçilərimizdən çoxunun isti yuvası, ali məktəblərə imtahan verməyə gələn abituryentlərin hamısının mənzili olmuşdur. Hətta həmkəndlimiz məşhur riyaziyyatçı Tanrıverdi Hacıyev hər yay bu evdə onlarla uşağı imtahanöncəsi qəbula hazırlayar, həm də bu evdə qalarmışlar. Vərqa müəllimin bu xeyirxahlığından bu gün də həmkəndliləri dönədönə ürək dolusu danışırlar.

Elm və təhsil almağa böyük maraq göstərən, heç vaxt təhsilə laqeyd qalmayan Vərqa Kərimov öz təhsilini də davam etdirmək məqsədi ilə 1966-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun "Ümumi texniki fənlər və fizika" fakültəsinə qəbul olmuş, institutu 1972-ci ildə bitirmişdir. Bundan sonra təyinatla 1972–1973-cü illərdə Sumqayıtın Corat qəsəbəsində müəllim işləmişdir. Ailəsi və uşaqları şəhər həyatına alışa bilmədiyindən Vərqa müəllim daimi olaraq Yeni Daşkəndə qayıtmalı olur. Yuxarıda qeyd etmişdik ki, Vərqa müəllim Sumqayıt Superfosfat Zavodunda işləmişdir. Elə bu səbəbdən də sonralar bronxial astma xəstəliyinə tutulur. Həkim məsləhət bilir ki, ona dağ havası müsbət təsir edər, uzun müddət yaşamasına səbəb olar. Ona görə də Vərqa müəllim 1976-cı ildə Sumqayıtdakı mənzilini Şuşa şəhərindəki eynisahəli bir mənzillə dəyişir. Hər yay üç ay tətil günlərini səfalı və cənnətməkan Şuşa şəhərində istirahət edir. Cıdır düzündə gəzib, İsa bulağının büllur kimi saf suyundan içir. Bu mənzil də eyni ilə Sumqayıtdakı kimi çox qohumların, doğmaların istirahət yeri olur. Bu evdə qalıb istirahət edənlər də həmin günləri ömrün xoş və unudulmaz illəri kimi xatırlayırlar. Vərqa müəllimin övladlarından Sərdar Sumqayıtda, Mehmanla Gülbəniz isə Şuşada bir müddət orta təhsil alıblar.

Vərqa Kərimov 1973-cü ildən 2011-ci ilə qədər Bərdə rayonunun Yeni Daşkənd kənd orta məktəbində müəllim işləmiş, yaşa görə tədrisdən ayrılmışdır.

# DÜNYA ŞÖHRƏTLİ ALİM,
# GÖYÇƏ HƏSRƏTLİ POEZİYA VURĞUNU

## *ƏLƏDDİN ALLAHVERDİYEV – 75*

Yaxşı yadımdadır. 2016-cı ilin əvvəlləri idi. Feysbukdakı "Ulu Göyçə" qrupunun aktivi Fəridə Qədimovadan messengerimə bir mesaj daxil oldu: "Salam, Araz Yaquboğlu. Sizin vikipediyadakı fəaliyyətinizi alqışlayır, alimlərimiz, şairlərimiz, tarixi şəxsiyyətlərimiz haqqında yaratdığınız məqalələrə görə şəxsimdən sizə təşəkkür edirəm. Əgər mümkün olarsa, mənim qardaşım haqqında da səhifə yaratmaq olarmı?"

Açığı deyim ki, Fəridə xanımın qardaşını tanımadığımdan: "Qardaşınız haqqında əldə olan məlumatları göndərin baxım, ensiklopedik olarsa yaradaram", – dedim. O, bir neçə gün sonra qısa da olsa bir məlumat göndərdi. Baxdım ki, Fəridə xanımın qardaşı professordur. Bu ilkin olaraq onun ensiklopedikliyinin bariz sübutu idi. Və beləcə professor Ələddin Allahverdiyevlə qiyabi də olsa, tanışlığımız başladı. Ələddin Allahverdiyev haqqında ciddi araşdırmalar apardım. Düzdür, Ələddin müəllimin bir çox elmi işləri məxfi olduğundan müəyyən çətinliklər də vardı. Buna baxmayaraq, etibarlı mənbələrə əsaslanaraq 2 aprel 2016-cı ildə vikipediyada məqaləni yazmağa başladım. Bu haqda Fəridə xanım qardaşı Ələddin müəllimə məlumat verdikdən sonra o mənə mesaj yazaraq minnətdarlığını bildirdi və hətta qeyd də etdi ki, bəlkə də lazım deyildi. Mən isə ona bildirdim ki, Ələddin müəllim, təvazökarlıq etməyin, sizin haqqınızda mən artıq çox məlumatlıyam. Siz işlədiyiniz institutda birinci prorektorsuz, sizin tətbiqi riyaziyyat, fizi-

ka, mexanika sahəsində elmi nailiyyətləriniz, elmi adınız, ixtiralarınız, dövlət təltifləriniz var.

2016-cı ilin 3–4 iyun tarixlərində Bakı şəhərində Dünya Azərbaycanlılarının IV qurultayı keçirilirdi. Ələddin Allahverdiyev də 50 ildən çox yaşadığı Moskva şəhərindən bu qurultaya dəvət olunmuşdu. 50-yədək ölkədən 500-dən çox qonağın qatıldığı bu qurultayda, eləcə də bundan əvvəlki bütün qurultaylara Ələddin Allahverdiyev hər zaman dəvətli olub. Bir gün öncədən danışdığımız kimi, qurultaydan sonra "Alov qüllələri" kompleksinin qarşısında görüşdük. Bu görüşü hərdən yada salır, unudulmaz bir gün kimi xatırlayıram. Bir az gəzişib söhbət etdikdən sonra Ələddin müəllimin bacısı oğlu Elvin Musayev (Allah rəhmət eləsin, çox nurlu insan idi, sonralar, 2020-ci ildə Elvin 35 yaşında koronavirusdan vəfat edəcəkdi) gəlib bizi maşınla Hüseyn Cavid bağına apardı. "Yaşıl kafe"nin həyətindəki iri şam ağaclarının kölgəsində əyləşib pürrəngi çay içə-içə müxtəlif mövzularda şirin söhbətlər etdik. Hüseyn Cavidin heykəli qarşısında xatirə şəkli çəkdirdik. Bu, Ələddin müəllimlə əyani olaraq ilk görüşümüz idi.

Professor Ələddin Allahverdiyevlə sonralar əlaqələrimiz daha da sıxlaşdı. Bizi biri-birimizə daha çox Göyçə mövzusu bağladı desəm, yanılmaram. Ələddin müəllim üçün Göyçə mövzusu ən ali, ən vacib məsələdir. 2017-ci ildə görüləcək işlərin yazılı planı ilə o, Göyçəliləri bir araya gətirə bildi. 2021-ci ildə Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd olunmasının, bunun yüksək səviyyədə keçirilməsinə gecikmədən başlanılmasının vacibliyini, sosial şəbəkələrdə, mətbuatda, televiziyada təbliğata başlanılmasını lazım bildi. Elə son nəticə də onun dediyi kimi oldu.

Keçən il Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi ilə bağlı respublika prezidenti İlham Əliyev sərəncam imzaladı. Pandemiya olmasına baxmayaraq, tədbirlər qaydalara uyğun yüksək səviyyədə keçirildi. Bakı şəhərində Aşıq Ələsgərin heykəlinin də ucaldılması üçün ayrıca sərəncam verildi.

2017-ci ilin 29 mayında Ələddin Allahverdiyevin 70 illik yubileyi anasının və bir çox doğmalarının yaşadığı qədim Gəncə şəhərində təntənəli qeyd olunmuşdu. Bundan sonra iyunun 3-də Bakı şəhərində də yubiley mərasimi Monte Kristo restoranında keçirildi. Tədbirdə Ələddin Allahverdiyevin yaxınları, həmkəndliləri, ürək dostları iştirak edirdi. Tədbir çox möhtəşəm keçdi. Hamı ürək dolusu Ələddin müəllimdən söz açdı, sağlıq dedi, köhnə xatirələr çözələndi. Xoş bir gün yaşadıq.

Bu günlərdə artıq Ələddin müəllimin 75 illik yubileyi qeyd olunacaq. İstədim onun haqqında nəsə yazım. Yazmağa çətinlik çəkirəm. Çünki onun haqqında yazmaq bir məsuliyyətdir. Asan deyil.

2017-ci ildə Ələddin Allahverdiyevdən 70 illik yubileyi ərəfəsində çalışdığım "karabakhmedia.az" saytının baş redaktoru Ramil Cəbrayıl ilə birlikdə müsahibə götürmək fikrimiz olsa da, bu müxtəlif səbəblərdən 2018-ci ildə baş tutdu. "Uşaqlığım və gəncliyimlə bağlı iki müqəddəs yer var: Göyçə və Bakı" başlıqlı müsahibə Azərbaycanın bir neçə aparıcı saytlarında və "Türk dünyası ağsaqqalları" qəzetində dərc olundu. 2019-cu ilin sonlarında isə şair-jurnalist Arif Məmmədli ilə Ələddin müəllimin Bakıda qonaq olmasından istifadə edib onunla görüşdük. Bu görüşün nəticəsi də "Azərbaycanı ləyaqətlə təmsil edən böyük

alim" adlı maraqlı bir məqalənin yaranmasına səbəb oldu. Bu məqalə "Xalq qəzeti"nin 12 yanvar 2020-ci il tarixli sayında çap olundu. Hər iki yazıda Ələddin müəllimin həyat və fəaliyyəti ilə bağlı xeyli açıqlamalar vermiş, keçmiş SSRİ və Rusiya kimi dövlətlərin elmi ictimaiyyətində kifayət qədər tanınan bir alim haqqında Azərbaycan cəmiyyətinə az da olsa məlumat verməyə çalışmışıq.

Ələddin müəllimin maraqlı həyat tarixçələri var. Məsələn, o, IV-V siniflərdə oxuyarkən Moskva Dövlət Universitetinin (MDU) qülləli binasının şəklini görmüş, xoşuna gəlmiş, "Mən burada oxuyacam" fikri xəyalından keçmiş və bu arzusu illər sonra reallaşmışdır. Digər bir nüans. Göyçədə ataya müraciətin ən çox işləndiyi müraciət forması Qağa və Dədə idi. O da atasına Dədə deyə müraciət edərmiş. Birinci sinfə, özü də yaşıdlarından da bir il tez orta məktəbə gedərkən əlifba dərsliyində oxuyur ki, valideynə ata deyirlər. O həmin gündən başlayaraq dədəsinə ata deyə müraciət edir. Bu dediklərim kiçik detallar olsa da, onun gələcəkdə böyük bir şəxsiyyət olacağından xəbər verirdi.

Hələ orta məktəbdə oxuyarkən şeir yazmağa başlamış, şeirləri "Bolluq uğrunda" adlı Basarkeçər rayon qəzetində dərc olunmuşdur. Özü də ilk şeiri IV sinifdə oxuyarkən çap olunub. Sonralar ədəbiyyat müəllimi olan Qəşəm Aslanovun məsləhəti ilə o da rayon qəzetinin redaksiyasında keçirilən ədəbi məclislərin ən kiçik yaşlı üzvü olur. Poeziya vurğunu Ələddin müəllimin Moskvada oxuyarkən yataqxana otağından iki şeir dəftəri oğurlanır. Bu hadisə ona pis təsir edir, şeir yazmaq həvəsini "öldürür". Poeziyanın vurğunu Ələddin müəllimin son illərdə Göyçəyə həsr etdiyi şeirini oxuculara təqdim etmək istədim:

Nur alıb nurundan işıqlanmışam,
Səndən başlayıbdır talem, a Göyçə!
İllərdi qürbətdə səni anmışam,
Hicrinlə inləyir naləm, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Sən ömür bəzəyim – müqəddəs Anam,
Mən sənin övladın, qərib oğlunam.
Daim səcdəndəyəm, sadiq qulunam,
Adım çağrılsa da alim, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Qartal yaraşığı əngin göylərin,
Dağın əzəmətli, bulağın sərin.
Saz sənin zinətin, söz sənin zərin,
Onlarla açılıb dilim, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Dillərdə əzbərdi SÖZ ərənlərin,
Halal zəhmətiylə bar dərənlərin.
Dosta süfrəsini gen sərənlərin,
Onlarla tanınır elim, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Tarix dalğalanır Göyçə gölündə,
Qəlb coşur Ələsgər adı gələndə.
Alının sazlarda sözü güləndə,
Min rəngə boyanır halım, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Güc alıb gücündən pöhrələnmişəm,
Sazından, sözündən bəhrələnmişəm.
Adınla daima qürrələnmişəm,
Çətin anlarımda Qalam, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Gecələr yuxumun həmdəmi sənsən,
Qərib həyatımın gündəmi sənsən.
Nisgili, sevinci, sitəmi sənsən,
Sənsən gərdişimdə haləm, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Qəlbimdə izi var hər günün, ayın,
Başı qarlı dağın, çağlayan çayın.
İlkin göz açdığım ətirli mayın,
Bir an xəyalına dalım, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Cismim qucağından uzaq olsa da,
Hicran qəm sazında hava çalsa da.
Ələddin yad eldə yuva salsa da,
Daim səninlədir, könlüm, a Göyçə!
Səndən başlayıbdır talem, a Göyçə!

Ələddin Allahverdiyevin Bakıda keçirilən 70 illik yubileyində mənə iki nüans çox maraqlı gəldi. Bu onun Azərbaycan musiqilərinə çox qəşəng rəqs etməsi və danışarkən bir kəlmə belə qeyri dildə olan sözləri işlətməməsi oldu. Təxminən o tədbirdən bir il sonra ondan müsahibə alanda o

mövzuda da ona sual verdik. O isə sualı belə cavablandırdı: "Hər bir insanın, xüsusən elm adamının bir neçə dil bilməsi yaxşıdır, bəlkə də zəruri və vacibdir, bu onun şəxsi qazancı, inkişafı, qarşıya qoyduğu məqsədin reallaşması üçün köməkdir. Öz ana dilini olduğu kimi qoruyub saxlamaq isə onun özünü olduğu kimi saf, tərtəmiz qoruması deməkdir. Əks halda, dilini unutması, qarışdırması milli mənsubiyyətini itirməsi deməkdir. Bağışlayın, bir qədər pafosla səslənsə də, mənim üçün ana dilim, dinim və milli mənsubiyyətim qanıma keçərək həyatımın varlığının mənasına çevrilmişdir. Ana dilimizdə danışarkən əcnəbi sözlər işlətməmək dilimizin çox zəngin olduğunu göstərir, sübut edir. Musiqi və rəqsə gəlincə, elə dünyanın ən gözəl musiqisi də, rəqsi də bizim xalqa məxsusdur. Ad günümdə iştirak edən bütün dostlara bir daha təşəkkür edirəm. Deyim ki, bir çox yuvarlaq ad günü məclisləri Moskvada həm qohum-tanışlarla, həm də qeyri dostlarla, həmkarlarla birgə qeyd olunub, orda da elə bizim milli musiqi və rəqslərimiz və sözsüz ki, saz havaları olub. Moskva Dövlət Biznesi İdarəetmə Akademiyasında prorektor işlədiyim dövrdə keçirilən ayrı-ayrı bayram şənliklərində iştirak edən həmkarlarım həmişə məclisin kulminasiya zirvəsini – Azərbaycan oyun havalarının səslənməsini gözləyərdilər. Bu anda məclis xeyli canlanar, xüsusi bir rövnəq alardı. Mən isə qürur içində hər bir həmkarımla, xüsusilə qadın həmkarlarımızla rəqs etməkdən və onların gündən-günə bizim oyun ritmlərini öyrənmələrindən zövq alardım".

Ələddin müəllim ilk növbədə böyük alimdir. MDU-nu bitirdikdən sonra elə həmin universitetin aspiranturasında saxlanılmışdır. Bundan sonra çox ciddi elmi yeniliklərə

imza atıb. Özü də onun bir çox elmi işləri məxfi sayılır və onların geniş ictimaiyyətə açıqlanması yasaqdır. O, məxfi elmi-texniki işləri də daxil olmaqla 450-dən çox monoqrafiya, ixtira, elmi məqalə, dərslik və dərs vəsaitinin müəllifidir. Dərslikləri Rusiya Federasiyası Ali Təhsil Nazirliyi tərəfindən dərslik kimi qəbul edilmişdir. Bu əsərlər Moskva Dövlət Universitetinin, Rusiyanın digər müvafiq ali təhsil məktəblərinin nüfuzlu alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bu dərsliklər əsasında uzun illər professor Ələddin Allahverdiyev özü də işlədiyi Akademiyada tələbələrə mühazirə oxumuş, məşğələlər aparmışdır. Ələddin müəllim 30-a qədər beynəlxalq, ümumittifaq elmi konfrans, simpozium və qurultaylarda 60-dan çox, o cümlədən 12 sifarişli, plenar məruzələrlə çıxış etmişdir. Professor Ələddin Allahverdiyevin elmdə əldə etdiyi bir neçə yenilik haqqında qısaca nüansları qeyd etmək istərdim. O, tələb olunan tezliklə rəqs edən və əvvəlcədən müəyyən olunmuş ayrı-ayrı fiziki xarakteristikalara cavab verən, minimum kütləyə və ya həcmə malik olan pyezoelektrik elementlərin optimal formasını təyin etmək məsələsini həll edən ilk alimdir. Bu tipli məsələlərin həllində Ələddin Allahverdiyev riyaziyyatda məşhur olan Pontryaginin maksimum prinsipini ilk dəfə tətbiq etmişdir. Bu məsələlərin həlli süni peyk və kosmik gəmilərdən vacib elmi-texniki məlumatların uçuşları idarəetmə mərkəzinə verilməsi üçün yaradılan pyezoelektrik ötürücülərdə uğurla istifadə olunmuşdur. O, elektroelastiqiyyət nəzəriyyəsinin iki və üçölçülü dinamika məsələlərinin həllinə ümumiləşmiş variasiya prinsipi əsasında sərhəd və sonlu elementlər metodlarını ilk dəfə uğurla tətbiq edən alimlərdəndir. Va-

riasiya prinsipinin tətbiqi pyezoelektrik elementlərin rabitəli rəqslərinin çoxsaylı məsələlərinin həllinə də uğur gətirmişdir. Disk formalı pyezokeramik membranlarda mexanikanın dinamika məsələlərində çox mühüm olan "kənar effekti"nin mövcudluğunu nəzəri cəhətdən ilk dəfə Ələddin Allahverdiyev aşkar etmişdir.

Ələddin müəllimin insani keyfiyyətlərini, mənəvi dünyasını əks etdirən bir nüansa da xüsusi diqqət yetirmək istərdim. Yüksək elmi nəticələr əldə etmiş, böyük həyat təcrübəsinə malik alim öz memuarlarını ona orta məktəbdə dərs keçmiş müəllimləri haqqında xatirələrdən başlayıb. Belə ki, "Müəllimlərim haqda xatirələr" silsiləsindən olan 3–4 məqalədə 10-dan çox müəllimi ilə olan xatirələrini dilə gətirmiş, peşəkar publisist kimi axıcı bir dillə qələmə almışdır. Bu xatirələrin hər biri özü-özlüyündə çox informativ məqalələrdi. Məsələn, məktəb direktoru İskəndər Hacıyevlə olan dialoqunu bir nəfəsə oxumamaq olmur. Yazını oxuduqca adamın ürəyinə yağ kimi yayılır. Digər müəllimləri Musa Kərimov – Şair Musa, eləcə də Murğuz Novruzov haqqında olan xatirələr də eyni ruh yüksəkliyi ilə qələmə alınıb. Doğulduqları kənddə və Moskvada dostluq, yoldaşlıq etdiyi Məmmədhəsən Qafarovla bağlı xatirələri də səmimi qəlbdən yazılıb. Məhz bu səmimiyyətdəndir ki, xatirələr şirin alınıb. Ələddin müəllimin xatirələr seriyasının zirvəsi Qəşəm Aslanov haqqında olanıdır desəm, səhv etmərəm. Bu bir oxucu fikri olsa da, xatirəni oxuyan digər şəxslər də mənimlə həmfikir olarlar. Çünki, bu xatirədə hələ sovetlər birliyinin kəshakəs dövründə o cür fikirlərin olması və bu fikirlərin Bakı ilə Moskva arasında məktubla

göndərilməsinin nə qədər qorxulu olduğunu çox yaxşı anlayıram.

Ələddin müəllim kimi şəxsiyyətlərin hər zaman maraqlı memuarları olur. Belə memuar-xatirələr geniş oxucu kütləsinin mütəmadi diqqət dairəsində olub. Bir neçə dəfə Ələddin müəllimlə söhbətlərimizdə təklif etmişəm ki, bu mövzuda bir kitab yazsın.

Professor Ələddin Allahverdiyev haqqında nə qədər danışılsa, nə qədər yazılsa da hesab edirəm ki, azdır. Ələddin müəllim elmi fəaliyyətinə görə dəfələrlə Rusiya dövlətinin müxtəlif təltifləri ilə mükafatlandırılıb. "Moskvanın 850 illiyi" dövlət medalı, Ümumrusiya Sərgi Mərkəzinin qızıl medalı, "M. V. Lomonosov adına MDU-nun 250 illiyi" yubiley medalı və digər çoxsaylı təltiflər bu qəbilbəndir. Professor Ələddin Allahverdiyev 2019-cu ildə daha iki möhtəşəm medalla təltif olunmuşdur. Bunlar, elm və texnika sahəsində yüksək nəticələr əldə etmiş alimlərə verilən Rusiya Elmlər Akademiyasının nəzəri və tətbiqi mexanika komitəsinin təsis etdiyi Sosialist Əməyi Qəhrəmanı, akademik Xəlil Əhmədoviç Raxmatulin adına və Rusiya Kosmonavtika Federasiyasının təsis etdiyi Sosialist Əməyi Qəhrəmanı, kosmik proqramlar rəhbəri, general-leytenant, professor Georgi Aleksandroviç Tyulin adına medallardır.

Ələddin müəllim böyük alim olmaqla yanaşı, həm də nümunəvi ailə başçısıdır. O, 1978-ci ildə Məhsəti xanımla ailə həyatı qurub. MDU-nun məzunu Məhsəti xanım kimya elmləri namizədidir. Onların Toğrul və Aytən adlı bir oğlu, bir qızı var. Toğrul iqtisad elmləri namizədidir, Amsterdamda öz ixtisası, riskləri idarəetmə üzrə, "Eurasian Resources Group" kompaniyasında icraçı direktor vəzifəsində

çalışır. Qızı Aytən isə həkimdir, Qətərin paytaxtı Doha şəhərində plastik cərrah işləyir. Ələddin müəllimin hər iki övladı ailəlidir, dörd nəvəsi var.

Bu yazını professor Ələddin Allahverdiyevin 2022-ci il may ayının 29-da qeyd olunacaq 75 illik yubileyi münasibətilə qələmə aldım. Onu bu yubileyi ilə əlaqədar səmimi qəlbdən təbrik edir, uzun ömür, cansağlığı arzulayıram. İnanıram ki, Göyçə bulaqlarının gözündən su içən, Göyçənin təmiz havasını udan Ələddin müəllim sağlıqlı və uzun bir ömür yaşayacaqdır.

## QƏRİB MƏZAR SORAĞINDA

2005-ci il iyunun 30-da qağam (biz atamıza Qağa deyirdik) Yaqub Hacıyev 67 yaşında Bərdə rayonunun Yeni Daşkənd kəndində vəfat etdi. Bundan sonra bir fikir məni rahat buraxmırdı: – Biz ulu babalarımız haqqında nə qədər məlumatlıyıq? Əgər qağam babaları haqqında 50 % məlumatlı idisə, mənim məlumatım ancaq 20 % olardı. Mənim uşaqlarımın məlumatı isə 5–10 % olacaqdı. Çünki bu məlumatlar ancaq şifahi idi, yazılı heç nə yoxuydu. Dildən-dilə ötürülə-ötürülə gələn məlumatların isə bir qismi yaddan çıxıb unudulur, çox az hissəsi isə xatirələrdə qalırdı. Yazılı məlumatların üstünlüyü odur ki, gələcək nəsillər üçün əhatəli olmasa belə, dəqiq informasiya verə bilir. Çox fikirləşdikdən sonra övladlarımın babası – qağam haqqında bir xatirə kitabı və o kitabda nəslimizin şəcərəsini yazmaq fikrini qətiləşdirdim. Bu işin üzərində aylarla çalışmalı oldum və qağamın il mərasiminə qədər "Elin yaddaşında yaşayan ömür" adlı kitabı – ilk kitabımı çap etdirdim.

Nəslimizlə bağlı ağsaqqallardan müxtəlif mövzularda maraqlı informasiyalar əldə edirdim. Bunlardan biri də Nəsib babamın babası Hacı Balı haqqında idi. Hacı Balının Hacı Kərim adlı bir qardaşı və Xatun adlı bir bacısı da olub. Atalarının da adı Rəsul olub. Rəhmətlik Əmirxan əmim onun haqqında belə deyərdi:

"Hacı Balı mal-heyvan sürülərindəki heyvanın sayını bilməzmiş. Hətta deyirlər ki, səhər-səhər onun naxırlarının əvvəli örüşə çatanda ardı hələ kənddən təzəcə üzülərmiş. Babamız Hacı Balının bir xasiyyəti varıymış: Kəndə gəlmə, yad adam qoymazmış. Gələn olsa da onu sıxışdırar, alaçığını dağıdar, taxılını, arpasını yerlə bir edərmiş. Bunları et-

məkdə məqsədi o imiş ki, kənddə yad, gəlmə adam olanda oğurluq, quldurluq baş alıb gedəcək. Gəlmə adam kəndi korlayacaq, eli, camaatı bir-birinə salacaq".

Şiruyə əmim isə belə bir söhbət edərdi: "Hacı Balı Göyçə köçkünlüyü vaxtı mal-qarasını da götürüb Daşkəsənin Xaçbulaq yaylağına köçüb. Orda da vəfat edib. Məzarı Mollahəsənli kəndindədir. 1963-cü ildən bizim Yeni Daşkənddə yaşayan, Mollahəsənlidən olan Möhsüm kişi elə hey deyərdi ki, mən kəndimizin qəbiristanlığında Hacı Balının məzarının yerini bilirəm. Üstünə də "Göyçəli Hacı Balı" yazılıb. Bir gün gedəyin sizə göstərim. Elə bu ay gedərik, gələn ay gedərik, eləcə də vaxt uzandı. Möhsüm kişi də rəhmətə getdi. Gedib Hacı Balının qərib məzarının yerini bilə bilmədik".

30 iyun 2008-ci ildə qağamın üçüncü ildönümü mərasimində qərara gəldik ki, sabah yox, o birisi gün – 2 iyulda Daşkəsənə gedək. Elə də etdik. Əmirxan əmimin oğlu Əlinin maşını ilə Şiruyə əmim, onun böyük oğlu Aqşin və mən Hacı Balının qərib məzarının axtarışı məqsədi ilə Daşkəsən rayonuna yön aldıq. Tərtər, Goranboy, Göygöl rayonlarını keçib Daşkəsən ərazisinə daxil olduq. Üç əmioğlu və Şiruyə əmim elə şirin-şirin söhbətlər etdik ki, sanki yola körpü saldıq, Daşkəsənə necə çatdığımızı belə bilmədik. Daşkəsən təbiətinin gözəlliyi öz yerində, amma oranın bir gözəlliyi də müxtəlif filiz yataqları və mədənlərdən çıxarılan filizin daşınması üçün çəkilən kanat yoludur. Kanat yolu dağları daha baxımlı, insanı isə heyran edir.

Səfər zamanı əvvəlcə birbaşa Murovdağ silsiləsinin ətəyində bərqərar olan Xoşbulaq kəndinə getdik. Kəndin içindən keçib yaylaqlara doğru maşınımız nə qədər gedə bilirdisə hərəkət edib bir bulağın başında dayandıq. Sərin

sudan içib üzü Göyçəyə doğru xeyli tamaşa etdik, Göyçə ilə bağlı xatirələrimizi dilə gətirdik. Qoyun-quzu dağların güllü-çiçəkli yamyaşıl yamacına elə yayılmışdı ki, sanki rəssam tablosu idi. Uzaqda bir neçə yerdə çobanların alaçıqları da gözə dəyir, könül oxşayırdı. Yan-yörəsində qızlar-gəlinlər sac üstündə yuxa, bəziləri ocaq üstündəki qazanda yemək bişirirdilər. Bir neçə yerdə nehrə çalxalayanlar da aydınca görünürdü. Hətta bizim yaxınlığımızda, nisbətən düzənlikdə olan bir neçə alaçıq-dəyələr də vardı ki, yanında minik avtomobili də vardı. Maraqlandıq ki, əsasən Gəncədən gəlib burada bir neçə gün bu şəkildə qalıb istirahət edib qayıdırlar. Yaxınlığımızda olan bir ağsaqqal qarşıdakı hündür bir dağı göstərib dedi ki, dağın o üzü Göyçənin Ağyoxuş kəndidir. Biz elə özümüzü onsuz da Göyçədə hesab edirdik. Çünki bu yerlərin təbiəti Göyçənin təbiətinə çox oxşayır.

Bir qədər sonra səfərimizin məqsədinə görə bir az geri qayıdıb Mollahəsənli kəndinə doğru yol aldıq. Əsas magistiral yoldan sağa sərt eniş edib, Narzan bulağın yanından ötüb, Mollahəsənliyə çatdıq. Burada qarşımıza çıxan bir kişi ilə Şiruyə əmim gəlişimizin məqsədi haqqında bir az söhbət etdi. O, bu haqda məlumatsız olduğundan qəbiristanlığın yerini soruşub yolumuza davam etdik. Kəndin içindən keçib bir az qabaqda sol tərəfdəki hündür olmayan yamacda yerləşən qəbiristanlığa çatdıq. Məzarlığın sökülüb dağılmış dəmir çəpərindən keçib üstü yazılı qəbirlərə baxmağa başladıq. Məzarlıqda xeyli qədim qəbirlər vardı. Bəzilərinin üzərindəki əksi əlifba ilə yazılanları Şiruyə əmimlə Əli oxuya bilirdi. Hamısını oxuyandan sonra Hacı Balıya aid olan heç bir məzara rast gəlmədiklərini söylədilər. Bir çox məzarların üstündə isə başdaşı heç bir qeyd

olmayan qaya daşlarından ibarət idi. Sinə daşı haqqında isə danışmağa dəyməz. Üzəri ot ilə örtülmüş idi. Biz orada olan müddətdə hətta yuxarıdan qoyun sürüsü otlaya-otlaya gəlib məzarlıqdan keçib getdi. Bu şəraitdə yüz il sonraya qəbrin normal halda qalması (hətta yazı olsa belə) hesab etdik ki, mümkün deyil. Biz bu səfərə çıxarkən kənddə Şiruyə əmimin kiçik oğlu Üzeyir bizə demişdi ki, həmin qəbiristnalıqda Hacı Balının qəbrini mən də görmüşəm. Elə çəpərin qapısından keçən kimi soldadır. Tez Üzeyirə zəng etdik, təəssüf ki, həmin gün biz qayıdanacan Üzeyirə zəng çatmadı, telefonu söndürülmüşdü. Bu zaman gördük ki, uzaqdan bir QAZ–69 Vilis gəlir. Biz yola çıxıb onu gözlədik. Gəlib yanımızda dayandı. Fikrimizi, gəlişimizin məqsədini ona danışdıq. Bizə bu barədə nə kimi kömək edə biləcəyini soruşduq. O da dedi ki, gedim kəndə, yaşlı bir adam var, onu götürüb gəlim. Bir azdan qayıdıb gəldi. Gətirdiyi 70 yaşlı ağsaqqal da bizlə bərabər məzarlığın içində gəzərək xeyli söhbətlər etdik. Amma bir nəticə hasil olmadı. Dedi, bizim kənddə elə də yaşlı və məlumatlı adam yoxdu. QAZ–69-un sürücüsü gələrkən bizə yenicə bişmiş isti təndir çörəyi ilə pendir də gətirmişdi. Göyçəmənlikdə süfrə salıb bərabər pendir-çörək yedik. Şiruyə əmim bütün çiçəkləri, otları yaxşı tanıdığından onlardan da qırıb yeyirdi. Ən çox da dadlı olanı yolotu idi. Orada dağın və dərənin yamacında şəkil çəkdirdik. Qəbirisitanlıqla üzbəüz "Qız qəbri" deyilən ocaq vardı. Ora nəzir qoyduq. Əvvəldə adı çəkilən, bizim kənddə yaşayan Möhsüm kişinin oğlu Bərşad (Tofiq Əsgərov) vəfat edəndə gətirib bu qəbiristanlıqda dəfn etmişdilər. Onun məzarını axtarıb tapdıq, ziyarət etdik. Bizə qonaqpərvərlik edən Mollahəsənlidən olan oğlan və ağsaqqalla sağollaşıb ayrıldıq.

Artıq hava xeyli istilənmiş, günorta olmuşdu. Biz həm bir az dincəlmək, həm də nahar etmək üçün elə Mollahəsənli yolunun üstündəki Narzanbulaqda dayandıq. Burada süni də olsa tikilən gözəl bir şəlalə ətrafa sərinlik verirdi. Hündür çinar, qələmə və söyüd ağaclarının da isti havada sərinlənmək üçün əvəzi yox idi. Orada qoyun otaran çobandan atını alıb bir az çapdıq. Dərə boyu en gedib, uzun gəldik. Restoranda oturub çörək yeyəndə bizim çardaqdan xeyli aralıda aşıq gördük. Hələ yemək yeyən az olduğundan aşıq boş idi, çalıb-oxumurdu. Ofisianta dedik ki, aşığa desin, bizim yanımıza gəlsin. Aşıq gəlib bizimlə çox səmimi görüşdü. Bu Daşkəsən rayonunun Təzəkənd kəndindən olan Aşıq Məhəmməd Qaşqaçaylı idi. Tanışlıq edə-edə sazı köynəyindən çıxartdı. Mən qabağa düşüb soruşdum ki, şair Sərraf Şiruyəni eşitmisənmi? Dedi, əlbəttə, şair Şiruyəni eşitməyən varmıki? 1970-ci illərdən onun şeirləri çox məhşurdu. Oxuyuruq həmişə. Dedim ki, şair bizim aramızdadı. Hansımıza oxşadırsan? Aşıq yaşı nəzərə almadan, tələsik əmioğlu Əlini göstərib dedi ki, budur. Sazda gəraylı havasını çalanda bildim ki, Şiruyə əmimin məhşur "Ola" şeirini oxumaq istəyir. Zatən aşıqlara Sərraf Şiruyədən oxu deyəndə birinci bu şeiri oxuyurlar. Aşıq giriş ifasını edib oxumaq məqamına çatanda şeiri deyə bilmədi. Bir də başladı sazda havanı əvvəldən çalmağa. Yenə alınmadı. Hiss etdim ki, şeirin birinci sətrini yadına sala bilmir. Aşıq gəlib oxuma məqamına çatanda dillənib dedim: "Bu fələklə nərd atasan". Aşıq başladı oxumağa. Elə bil ki, aşığı böyük bir bəladan qurtardım. Yeri gəlmişkən, bir şey də deyim: Şeirin birinci sətri qiraət üçün çox vacibdi. Bəzən şeiri əzbər bilsən də birinci sətri unutsan şeir yadına düşəsi deyil. Hətta bizim ata-baba yurdumuz Daşkənddə şair

Məmmədhüseynin bir nəticəsi olub – Aşıq Əli Şairov. Bunun bir dəftəri varmış. Ancaq yazdığı şeirlərin birinci sətrini qeyd edibmiş. Çünki birinci sətri oxuyan kimi şeiri əzbərdən deyirmiş. Böyük Vətən müharibəsi başlayanda müharibəyə gedib və bir daha geri qayıtmayıb. Bununla da bir bölük şeirləri sinəsində aparıb.

...Hə, Mollahəsənlidə xeyli yeyib-içdikdən, saza qulaq asdıqdan sonra geri qayıtmağa başladıq. Qayıdarkən yolboyu Şiruyə əmim şairlərlə görüşlərindən, deyişib-dərdləşmələrindən danışırdı. Söhbət Aşıq Ələsgərin nəvəsi Haqverdidən düşəndə biz hələ Bayan kəndinə çatmamışdıq. O, 1988-ci il qaçqınlığından sonra Bayan kəndində məskunlaşmışdı. Qərara gəldik ki, Daşkəsən rayonuna gəlmişkən onunla görüşək. Zəng edib əmioğlu Qılmandan telefon nömrəsini alıb danışdıq. Dedi, evdəyəm gələrsiz, görüşərik. Gözəl mənzərəli Bayanın dolama yollarını endikcə adam təbiətə valeh olurdu. Müxtəlif hündürlüklərdə tikilən, üstü qırmızı kirəmitli evlər kəndi daha da əsrarəngiz edibdi. Kəndin mərkəzinə çatanda Şiruyə əmim dedi ki, Haqverdiyə zəhmət verməyək, həm də görüşsək, gecikəcəyik. Fikrimiz vardı ki, Hacıkəndə də gedək. Ona görə də, Şiruyə əmim zəng edib Haqverdi müəllimə üzürxahlıq etdi ki, gecikirik deyə sənlə görüşümüz başqa vaxta qalsın. Beləliklə, Haqverdi müəllimlə görüşmədən yol aldıq Hacıkəndə. Onu da deyim ki, Haqverdi müəllim sonralar xəbər göndərmişdi ki, incimişəm Şiruyə dostumdan, gərək gələrdi görüşərdik.

Hacıkəndə çatanda yenə acıxmışdıq. Dağın sərin havası adamı iştaha gətirir. Sərin bulaq suyundan içdikcə həzm yaxşı gedir, adam tez acıxır. Hacıkənddə, dağların qoynunda yaxşı bir xatirə şəkli çəkdirdik. Çardağın birində əyləşib,

yemək sifariş verdik. Bu zaman bir aşıq gəldi. Dedi, kəlbəcərliyəm. Özüm də Çaykənddə oluram. Kəndçimiz zurnaçı Səyyafı soruşduq. Dedi ki, yaxşı tanıyıram, qonşuyuq. Mən dedim ki, onda onun qaynı Eldar Həsənlini də tanıyarsan. Dedi, əlbəttə, sizə ondan bu dəqiqə bir şeir oxuyacam. Başladı "Dünya mənim qəfəsimdi" adlı şeiri oxumağa. Şeiri bir tərzdə oxudu ki, hələ belə qarmaqarışıq oxuyan aşıq görməmişdik. Dedim, aşıq, bəlkə Sərraf Şiruyədən oxuyasan. Dedi o da baş üstə. Başladı "Ola" şeirini oxumağa. Allah-Allah, şeirin bəndlərini qatdı bir-birinə, özündən əlavə sözlər qatıb oxudu və s. dedik sağ ol, da bəsdi. Bir beşlik verib yarı-yarımçıq yola saldıq.

Bizim Hacı Balı babamızın məzar axtarışı beləcə bitdi. Daşkəsən səfərimizdən qayıdan günün səhərisi təəssüratlarımı belə ifadə etdim:

Gəldim Daşkəsənin seyrinə daldım,
Ata yurdum Göyçə yadıma düşdü.
Dağları dolaşıb, dərəni gəzdim,
Ata yurdum Göyçə yadıma düşdü.

Şirin məclis qurduq biz Xoşbulaqda,
Aşığı dinlədik "Narzan bulaq"da,
Adama xoş gəlir ot da, alaq da,
Ata yurdum Göyçə yadıma düşdü.

Sərraf Şiruyədən oxudu aşıq,
Saz səsə verirdi gözəl yaraşıq.
Arazam, qayıtdım fikri dolaşıq,
Ata yurdum Göyçə yadıma düşdü.

**Sözardı:** Hacı Balı ilə bağlı Daşkəsən səfərimizdən 15 il ötürdü. 2023-cü ildə Göyçə mahalının Daşkənd kəndindən 1953-cü ildə deportasiya olunmanın və Yeni Daşkənd kəndinin yaranmasının 70 illik yubileyinə ithaf etdiyim “Daşkənddən Yeni Daşkəndə” adlı kitab üzərində işləyirdim. Hansısa informasiya haqqında axtarış edərkən qarşıma “Azərbaycan” qəzetinin kitab şəklində çap olunmuş 5-ci cildində Daşkəndlə bağlı məlumat çıxdı. 1919-cu il fevralın 6-da qəzetin 109-cu nömrəsində nəşr olunan teleqram olduğu kimi belədir:

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

Şubatın 6-sından Rəisi-vükəla namına [Baş nazir adına] Gəncədən böylə bir teleqram alınmışdır:

“Ətraf kəndlərin erməniləri bir neçə gün bundan əqdəm [qabaq] bir neçə nəfərimizi dəhşətli bir surətdə qətl etdikdən sonra Qızılvəng kəndini talan etmişlər. Rica ediriz ki, bizi və işbu Hüseynqulu, Ağalı, Daşkənd, Sarıyaqub və başqa Novo-Bayəzid qəzası kəndləri əhalisini dəhşətlərdən qurtarasınız. Rica edirlər ki, mühafizədən ötrü bizə min nəfərdən ibarət bir qoşun qitəsi [dəstəsi] verəsiniz. Bütün məxaricatı [xərcləri] öz öhdəmizə götürürüz. Gəncədə əmrinizi bəkləyiriz.

Daşkənd camaatı müvəkkili:
Hacıbala Rəsul oğlu”

[Mənbə: “Azərbaycan” qəzeti, (1918–1920). 20 cilddə, V cild. (Fevral 1919). Bakı, ADA Universiteti, 2022. səh.125]

Həmin qəzetin 1919-cu il fevralın 3-də nəşr olunan 104-cü nömrəsində isə Hacı Balının qardaşı Hacı Kərimin oğlu, adı dastanlaşan el qəhrəmanı Məşədi Qasım haqqında

da bizlərə bu günə qədər məlum olmayan məlumata rast gəldim. Mir Abbas Bağırov "Yeni vicdansız təcavüzlər" adlı məqaləsində həmsöhbət olduğu bir cavanın gördüyü əhvalatı belə qələmə alır:

"Mən Qazaxlıyam. Göyçə gölü ətrafı müsəlman kəndlərindən Daşkəndinə qonaq getmişdim. Məndən beş-altı gün qabaq çox hissəsi "qaxtaqan" [qaçqın] ermənilərdən və yarısı atlı, yarısı da piyada olaraq 750 nəfərdən ibarət erməni əsgərləri 3 pulemyot və 2 ədəd topla bərabər Novo-Bayəzid müsəlman kəndlərindən rəsmi surətdə xərc yığmaq adı ilə bu kəndlərin üstünə gəlmişlər. ...Erməni əsgərləri hər müsəlman kəndinə yetişirdilərsə, qabaqca o kənd camaatının qalan silahlarını alırdılar. Sonra kəndlilərin öhdəsindən gələmməyəcəkləri surətdə cəbrən [zorla] ağır-ağır xərclər alırdılar. ...Sonra "Daşkənd" denilən kənddən otlu, taxıllı, neftli və talan olaraq 280 min manatlıq qarət və zəbt etdilər. Bundan savayı həmin kəndin sakini Məşhədi Qasımın 120 baş qoyununu, 24 baş qaramalını, 50 araba otunu və 10 min manatlıq miqdarında ev müxəlləfatını [ev əşyasını] aldılar". [Mənbə: "Azərbaycan" qəzeti, (1918–1920). 20 cilddə, V cild. (Fevral 1919). Bakı, ADA Universiteti, 2022. səh.29]

Yuxarıdakı yeni məlumatdan əlavə günümüzə qədər Məşədi Qasımın 23 yanvar 1919-cu il tarixli xahişnaməsi və 11 mart 1919-cu il tarixli teleqramı bizlərə məlum idi.

## KİTABIN İÇİNDƏKİLƏR

Sazın-sözün sorağında
yaşanan ömrün 50 ilinin hesabatı (ön söz) ......................... 3

### Sazı yaşadanlar

Aşıq Əli Şairov ..................................................... 8
Aşıq İslam Yarpızlının həyat və yaradıcılığı haqqında ........ 14
Aşıq Orucun sazlı-sözlü dünyası ...................................... 19
Ruhun şad olsun, ustad .................................................. 24
Göyçənin saz-söz ustadları İkinci Dünya müharibəsində .... 31
Aşıq Abbasəli Nəzərov .................................................. 50
Soylu sənətin soylu davamçısı ......................................... 66
Aşıq Hacı da köçdü ........................................................ 68
Özü ölsə, sözü ölməz ustadın ........................................... 71

### Sözü uca tutanlar

El şairi Muxayıl Göyçəli ................................................ 78
Hər sözü dillərdə bal olan şair ........................................ 83
El şairi Qəmgin Fəzi ...................................................... 93
Şair Hüseyn Mayıl, yoxsa Aşıq Hüseyn Mayıl .................. 99
Dərdli Cavada cavab ...................................................... 105
Eldən gedən el şairi ....................................................... 113
Uzaqdan görünən dağlar ................................................. 117

### Xatirələr işığında

Ürəkdə köçən arzular ..................................................... 124
Babamın ömür yolu ........................................................ 129
Adı dastanlaşan el qəhrəmanı .......................................... 133
Eldən gedən oğul ........................................................... 140
Yada düşdü ötən günlər ................................................... 147
Əvəzolunmaz pedaqoq, unudulmaz insan .......................... 152
Hamını yandıran itki ....................................................... 159
Analar anasını xatırlayarkən ............................................ 167
Sinəsi xatirələrlə dolu insan ............................................ 174
Dünya şöhrətli alim, Göyçə həsrətli poeziya vurğunu ......... 179
Qərib məzar sorağında .................................................... 190

**Araz Yaquboğlu**
**SAZIN-SÖZÜN SORAĞINDA**
**Bakı, “Elm və təhsil”, 2023**

“Elm və təhsil” nəşriyyatının direktoru: **İnal Məmmədli**
Kompüter və dizayn: **Araz Yaquboğlu**
Texniki redaktor: **Qaşqay Ziyəddinoğlu**
Korrektor: **Qılman İman**

Yığılmağa verilmişdir: 15.06.2023
Çapa imzalanmışdır: 30.07.2023
Şərti çap vərəqi: 12,5 ç.v., Sifariş №225
Kağız formatı: 60x84, 1/16. Sayı: 250

Kitab **“Elm və təhsil”** nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
**Tel:** (+99412) 497-16-32, (+99450) 311-41-89
**Ünvan:** Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4